Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu)

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 30 (10 - 2018)

Tofiq Xəzər

"Bərdədən görünən dünya..."

II HİSSƏ

Roman-epopeya

On altı cilddə. XII cild

2018

YYSİB (Q) – Bakı - 2018

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 30 (10 - 2018)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ildə I maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən bir hissəsi maliyyələşdirilən, "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyinin (Qurumu) - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın **"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"** kreativ-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayımlanır.

Kulturoloji layihənin bu hissəsini

maliyyələşdirən qurumlar:

Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası:
http://cssn.gov.az/

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu) - http://www.yysq.kitabxana.net

Feysbukda "Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" kulturoloji-bədii layihəsi çərçivəsində rəsmi səhifə:

https://www.facebook.com/kreativlayihe/

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" bölümündəki e-kitablar: http://kitabxana.net/?oper=e_kitabxana&cat=182

Tofiq Xəzər

"Bərdədən görünən dünya..."

II HİSSƏ

Roman-epopeya

On altı cilddə. XII cild

Müəllif redaktəsində
Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. III hissə. XII cild. Bakı, 2011. "Gənclik" nəşriyyatı. 351 səhifə.

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. İkinci hissə. XII cild. Azərbaycan və çağdaş dünya ədəbiyyatında bir ilk olaraq 16 cilddə qələmə alınmış bu roman-epopeyanı XX və XXI əsr Azərbaycan tarixinin - mənəviyyatının ədəbi ensiklopediyası da saymaq olar...

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

Kreativ-innovativ layihə haqqında:

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinə "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyi tərəfindən təqdim olunan kreativ layihə: "Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"...

Son illər elektron kitab, e-kitabxana, İnternetüstü e-nəşr və virtual satış kimi yeni kreativ-innovativ təşəbbüslər kreativ biznesin - mədəniyyət sahələrini əhatə edən yaradıcılıq sənayesi dünyanın hər yerində sürətlə inkişaf edərək incəsənətlə, bədii yaradıcılıqla məşğul olan şəxslərin maddi rifahını yüksəltməyə xidmət etsə də, Azərbaycan ədəbiyyatın müxtəlif istiqamətlərində istedadlarını ortaya qoyan yazıçılarımız, şairlərimiz, dramaturqlarımız, tərcüməçilərimiz, naşirlərimiz, kitab yayımçılarımız, tənqidçilərimiz və esseistlərimiz bu yeni gəlirli sahələrdən kənarda qalıblar. Kreativ innovasiya formasında milli yazıçılarımızın, naşirlərimizin elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüsləri dəstəkləyir. Layihə çərçivəsində elektron kitab istehsalını, yayımını, təbliğini, bu sahədə problemlərin araşdıraraq cəmiyyətin müzakirəsinə çıxarması nəzərdə tutulub.

Tofiq Xəzər
Bərdədən
görünən
dünya...


TOFİQ XƏZƏR
Bərdədən
görünən
dünya...

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Tofiq Əli oğlu Babayev 1951-ci ildə Bərdə şəhərində anadan olmuşdur. 1967-ci ildə Bərdə 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunu və 1984-cü ildə Moskva Ümumittifaq Yeyinti Sənaye İnstitutunu bitirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Qızıl qələm" və 2011-ci il üzrə "İlin Nəsr kitabı" mükafatlarına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı var.

Sərhəddən qayıdan ilk əsgər məktubu və Corc Bestə bənzəyən bərdəli, telli Kazımla yaşanan əcəl küləyi

Odessa, 27, 28 və 29 avqust 1972-ci il.

Bazar, I və II günlər.

Sübhdən rotaya verilən QALXIN!- əmrində, yuxudan vəhməli ayılsam da, yenə qalxa bilmir-dim. Sanki gözlərimdən yuxu qırraşmışdı...

Kazarmanın işıqları yandı.

Bir andaca səs-küylə, giley-güzarla növbəti əsgər həyatı başladı. Öskürən, asqıran, deyinə-deyinə itiyini axtaran, kiminsə başına qapaz vu-rub qışqıran, praporşikin üstünə çəmkirən bir-bi-rinə qarışdı. Günəş şəfəqləri uzaqdan qızarırdı.

Yaman yorğun və depressiv bir haldaydım.

İstirahət günüydü. 27 СЕРПЕНЬ 1972.

Gözüyumulu, əllərimi başımın altında çar-pazlayaraq, düşünməyə başladım.

Rotanın əsgərləri ağ tuman-köynəkdə cər-gəyə düzülüb, tağım komandiri gənc Podqornu-nun gümrah, inadkar cır səsinin çığırtı sədaları altında sıra meydançasına, səhər gimnastikası-na yollandı.

Kazarmada səs-küy dərhal kəsdi.

Starşina Kirilyukla tağım komandiri Kaşşe-yev çarpayıları yoxlamağa başladılar. Yatıb qa-lanları çəkib yerə salır, başlarına goppa vurur, söyüşdən hey yağdırır, pal-paltarlarını hara gəl-di tolazlayırdılar.

Komandir və starik olduğumdan, mənə məhəl qoymadılar...

Ürəyimdə ayrılıq niskili cücərib boy atırdı. Praqalı qızlara ürcah olandan, hətta onları tap-mazdan əvvəl,- Odessaya gələn gündən,- sanki heç əsgər deyildim.

Sovet ordu sıralarında əzab-əziyyətli hərbi xidmət dövrü, sözsüz, Pervomayskidə qalmışdı.

İndi isə, cüt bacıların Çexoslovakiyaya qa-yıdışı, əməlli-başlıca məni üzürdü.

Həm də, qüruba gedən günəşin şüaları ki-mi, nədənsə çox ümidsiz idim...

Praqalı qızlarla Odessaya yaman yaxşıca isinmişdim, heyf, günlərim demək olar uçurdu...

Birdən yadıma düşdü ki, bu gün, naharda bənövşəgözlü Katerinayla, anasıgilin evində gö-rüşməliyik.

Onu xatırlayan kimi, xəcalət hissi yersar-maşığı olub dərhal içimi bürüdü.

Düzdü, sevda arasında nırx qoymazlar, di gəl əcnəbi Yitka Adilə, Xuraman və Komsomol kimi, o duyğusal, bətnində körpə gəzdirən za-vallını da, az qala mənə unutdurmuşdu.

Gecə-gündüz oturub, bütün beş hissiyya-tımla, beynəlmiləl sevgilimi düşünürəm...

Gecələr gec yatdığımdan, çoxdandı durub dəniz idmanına da gedə bilmirəm.

Yerimdə çox qurcalanıb, o üz-bu üzə eşə-lənəndən sonra, səhər yeməyinin sinci vurulan-da, könülsüz qalxaraq, əldən düşmüş nəqahət adamlar kimi geyindim.

Yitkagilin həyətinə keçib yuyunurdum.

Ağacların budaq və yarpaqlarının rəngi də elə bil bozarmış, sanki hər yandan kədər, qəm-qüssə yağır, ətrafımdan ayrılıq ətri gəlirdi...

Zira onlar gedən gündən, buralar gözümdə viranə qalmışdı. Necə deyərlər, lələ köçüb yur-du boş. Bəxtəvərlik hübab kimi yoxa çıxmışdı.

Səhər yeməyindən sonra, dünya malakeş-lərinin sərkərdəsi kimi, əsgər-suvaqçılarımın iş-lərini bölüb vermiş, material,- qum, sement, su, əhəng və avadanlıq,- ayaqaltı kozyol, mala, şa-qul, şuğul, şüyül, tyorka, nolutyorka, vanna, bel, taraz, vedrə, çiləgən və reykalarla,- təchiz etdi-yimdən, boş idim.

Həyətdə bikef veyillənir, əlim heç bir işə yatmırdı. Baş leytenant Boykoyla sıra meydan-çasında qarşılaşdıq.

Əclaf məni görən kimi 5 rubl pul istədi, özü də elə sifətlə istədi ki, düzü ona lap yazığım gəl-di. Verənin bir üzü qara, verməyənin iki...

Fəqət pulum yoxuydu.

- Gəl çilədi oynayaq,- dedim.

Yazıq məni anlamadı...

Atamın zərfindən çıxan qırmızı onluq əski-nazı Arifə vermişdim, borcluydum,- onun çama-dan puluydu.

Amma Boykonu ümidsiz də qoymadım:

- Yaxşı taparam... Söz bir olsa, zərbi gərən sındırar,- dedim.

Çəkdiyim misalı başa düşməsə də, yazığın bu dəfə rəngi açıldı, gözləri işıqlandı...

Nazını yaxalayıb ağız açanda, o hırıldadı:

- Nə bildin əə? - qaqqıldadı.

- Nəyi? - təəccüblə soruşdum.

- Çingizlə Sahib Əkbəyovu qyajdanski biy adamın evində işlədib, on səkkiz manat pul al-mışam. Beş-beş onlaya veyib, 8 manat da özü-mə götüymüşəm...

Çiçəyim çırtladı!

Ondan beş manat pul alıb, üçünü Boykoya verdim ki, naharda aradan çıxanda, bilsə, prin-sipə düşüb başqa mahna eləməsin.

İki sarı manat da özümə qaldı. Çox uğurlu alındı, gedəndə də Katyaya iki manatlıq nəsə ala bilərəm.

Allah işimi düzəltdi.

Nahara az qalmış Sahib Əkbərov, Ədalət, Vahid, Əhliman, yefreytor İlyas, Arif və Elman da uvolnitelni götürüb şəhərə çıxdılar.

Bu gün, zampolit Boykonun lap gəlhagəliy-miş. Siftəm də, deyəsən düşərli olmuşdu.

Rotada qalan pulsuzlar isə, nahardan son-ra dənizə getməliydi.

Ağdamlı lilipud Çingizlə Tomagilə getdik.

Bizim hərbi hissəyə, iş icraçısı kimi yenicə gələn mülki oğlanla solğun bənizli, sarışın, arıq gözəl arvadı Tomagildə bizi gördü və tanıdı.

Papirosalışdıranla bir Kazbek yandırıb, ar-vadının təkidiylə, içdikləri çaxırdan bizə də sü-züb, zorla içirtdi.

Yeyib-içən, deyib-gülən, şən, yaxşı adama oxşayırdılar. İçən kimi, Xəyyamdan iki beyt də rus dilinə tərcümə eləyib, mən söylədim:

+++

Məndən Məhəmmədə yetirin salam,

Baş endirib deyin:" Ey fəxri-islam!

Bu necə şeydi ki, şəriətində

Turş ayran halaldır, saf şərab haram?"

+++

Pəyam aparınız məndən Xəyyama,

Deyiniz bu qədər sadə dil olma!

Mən haçaq demişəm, badə haramdır?

Halaldır püxtəyə!

Haramdı xama...

Şərab haramsa da, bir ağıllı bax!

Kim içmiş... kiminlə... nə qədər... haçaq?

+++

Tomanın gözləri məhək daşı kimi adamı çəkir, amma, talesiz Katya yolumu gözləyirdi...

Mülki paltar geyinib, dübarə onlarla görü-şəndən və ЧАЙКА-3-ü də götürüb bibəhrə Çin-gizin kirli, qara boynundan asandan sonra, şə-hərə çıxdıq.

ФОТОАТЕЛЬЕ-də lenti verib 20 ədəd foto-şəkil çıxarılması üçün sifariş elədim. Dörd ədəd də, köhnə sifarişdən hazır olan fotoşəkillərimizi ОДЕСФОТО-dan götürdüm.

Киоск-dan da iyirmi ədəd dəvətnamə kimi nəzərdə tutulan açıqca aldım. İyirmisinə cəmisi bir rubl əskinaz verdim. Adı, qəzet köşkü olsa da, içərisində gün eynəkləri və 1001 xırdavat da satırdılar.

Əfsus pulum yoxuydu...

Sonra ПЕРЕГОВОР-a getdik.

Bu dəfə bəxtimizdən hər şey tez alındı. Te-leqramı göstərəndən on üç-on beş dəqiqə keç-miş Bərdəni verdilər.

Atamla, anamla, qardaşlarım,- Vidadi və Vaqiflə, bacım Yeganəylə danışdım.

Nədənsə, atama deməyə utandığımdan, əvəzində anamdan 100 manat pul göndərmə-lərini ərk və ürəklə istədim.

Yeni xəbərlər üstümə dolu kimi yağdı:

- “Qardaşım Vaqif imtahanlardan kəsilmə-sə də, az bal topladığından конкурс-a düşüb və fakültəsini dəyişiblər. Amma əsas məsələ oydu ki, qəbul olunmuşdu. Tələbə biletini alıb, 4 gün-dən sonra Çingiz İldırım adına

Azərbaycan Po-litexnik institutunun Kirovabad filialında ali təhsil alacaqdı.

- Qardaşım Rafiqin sağ ayağında revma-tizm xəstəliyi var və ağrıdan axsayır. Naftalan kurortunda müalicə alandan, vəziyyəti nisbətən yaxşılaşıb. Yevlax şəhərinin VARVARA kənd xəs-təxanasında da bir yaxşı həkim var, o da kurs müalicə keçib. Sabahdan Bakıya qayıdıb, Azər-baycan Neft və Kimya institutunda növbəti kur-sun, seminarlarına başlayacaq.

- Televizorda, Qədir Rüstəmov yanıqlı sə-siylə möhtəşəm Sona bülbülləri oxuyurdu. Tele-fonda səsini açıqca eşidirdim. Ürəyim ələ keç-miş quş kimi titrəyir, yenə pərvazlanıb uçmaq istəyirdim.

- Artıq, iki aya hərbi xidməti başa vurub gəlirəm,- vüqarla dedim.

- Qardaşım Vidadiylə bacım Yeganə xəbər verdilər ki, Komsomol Şuşadan iki-üç günə gə-ləcək, hələlik yeni bir xəbər yoxdur, amma nara-hat olma, gələn kimi xəbər bilib, sənə məktubla bildirəcəyik.

Kefim kökəldi.

Hər şey yaxşı qurtardı. Кабина-nın havası ağır olduğundan ПЕРЕГОВОР-dan çıxanda, tərlə-mişdim. Cılxa suyun içərisindəydim.

Sıçraq cücüyəbənzər Çingizi kazarmaya yola salıb, tramvayla qəlbi süslü Katerinanın gü-zarı düşmüş anasıgilə, Маршал Жукова 12 ün-vanına getdim.

Yolda bir qutu şokolad alıb, cəsarətlə axı-rıncı sarı rublu da Гастроном-da xərclədim.

Məndən yalnız hərarətli sevgi uman Katya yenə qapını hiss olunmayacaq dərəcədə aralı saxlamış və səbri çatmadığından, yazıq soyu-nub hamamda çimirdi.

Onu bu halında tək qoymaq vicdansızlıq olardı. Ürəyimə gəldi ki, adama bir-iki qədəh də şampan şərabı içə bilsəydik, heç pis olmazdı...

Seyf dəmir qapının şaqqıltısından gəlişimi eşidən kimi, suyun şırıltısından başını çıxarıb, həyəcanlı titrək səsiylə qışqırdı:

- Qapının arxasını bağlamağı unutma!

Tərtəmiz olsam da,- kəlbəcərli Sahib Ək-bərov yaxşıca kisələmişdi,- havasız telefon ka-binəsində tərlədiyimdən soyunub, intim bir şəra-itdə duşa girdim.

O, öz ailəmindəydi və maçalkalana-maçal-kalana pəsdən zümzümə eləyir,- sanki dünya-nın ən qayğısız uşağıydı...

Birdən necə oldusa, nəyi xatırladısa, eləcə sabunlu-sabunlu məni qucaqlayıb:

- Sənə pis bir xəbərim var,- dedi.

- Nə xəbər? - sürüşkən canından aralanıb, təşviş və təəccüblə soruşdum.

- Çexoslovakiyaya məktub yazmısan, geri qaytarıblar. Poçtdakı seyfimə qoymuşam, mən-dədir...

Tüklərim qabardı.

Həm Yitkaya yazdığım məktubun geri qa-yıtdığına, həm də Katyanın bu məsələdən agah olduğuna görə... Elə bil içimdən elektrik cərəya-nı keçdi. Suç üstündə yaxalanmış günahkarlar kimi kəkildəyib, xırıltılı zəif səslə:

- Niyə qayıdıb ki? - ümidsiz soruşdum.

- Axı xarici dövlətə məktub yazanda, hərbi hissənin nömrəsini göstərmək qəti qadağandır! Sən isə açıq-aşkar yazmısan: "В/Ч 11741 Б", belə olmaz. Odur ki, sərhəddən qaytarıblar.

O tutulduğumu görüb:

- Narahat olmağa dəyməz yoldaş kiçik ser-jant, başqa КОНВЕРТ-lə özüm АВИА-ЗАКАЗ gön-dərərəm. Bundan sonra, ОБРАТНЫЙ АДРЕС ТАК НАПИШИ: СССР, Г. ОДЕССА, ГЛАВПОЧТАМПТ, ДО-ВОСТРЕБОВАНИЯ yazırsan. Və pasport, ya da ki, hərbi biletdə yazılan ad, familiya, atanın adını da dəqiq göstərərsən.

O başqa heç nə soruşmadı.

Heyrətə gəldim. Utanırdım ondan...

"Yitka kimdi?"- soruşsa, nə cavab verər-dim? İlişmişdim... Gözlərinə baxa bilmirdim...

Bir qəlbi ki, tikə bilməyəcəksən, niyə sındı-rırsan axı?

Birdən azca donbalmış qarnına gözüm sa-taşdı. Əlimi özümdən asılı olmadan qarnının üs-tünə qoydum. Dərisi nağara kimi dartılmışdı.

Bərk, dapdar idi...

O qayğılı olsa da, gülümsəyib başımı sa-bunlaya-sabunlaya:

- Hər şey qaydasındadır. Hərdən uşaq ge-cələr məni təpikləyir...

Sürüşkən canını ehmalca qucaqlayıb, sa-bunlu isti dodaqlarından ehtiyyat və nəvazişlə öpəndə, hardan ağlıma düşdüsə:

- Hamilə qaldığını ərin bilir?- soruşdum.

O özünü, öz işindəymiş kimi göstərib, ca-vab verməkdən yayındı.

Mən də üstünü vurmadım.

Amma çox narahat idim.

Yitka barədə soruşsa nə cavab verərdim? Qohumuq deməydim gülünc çıxardı, sevirəm de-səm dəhşət olardı. O bilirdi Komsomolu sevirəm və qayıdan kimi də onunla ailə quracam.

“Dostuq!”- deyərəm və təsadüfən Odessa-da tanış olduğumuzu olduğu kimi bildirərəm, burda pis nə var ki?- düşündüm.

Amma, o heç nə soruşmadı.

Diqqətlə bənövşəgözlü Katerinaya baxan-da, doğrudan da o ЭДУАРД МАНЕ-nin “ЖЕНЩИНА С ПОДВЯЗКОЙ” portretindəki qızın eyni idi!

Onun çılpaq canına və gözlərinin içinə baxdıqca bir daha buna əmin olurdum:

Gözləri amerikalı Elizabet Teylorun gözü kimi bənövşə rəngində, özü isə Manenin portre-tindəki iridöşlü, incəbelli, iriyançaqlı, toppuş bar-maqlı, dolu baldırlı qızın sanki eyni idi!

Və əlimə işıq saçan bəhanə düşdüyünü dərk edərək, heyranlıqla bunu ona başa saldım.

Katyanın bu portretdən xəbəri yoxuydu.

Razılaşdıq ki, bir gün birlikdə gedib Rəsm qalareyasında, ЧАЙКА-3-lə o portretin fotoşəklini çəkərik...

Katerina çox xəyalpərvər, özünə qapanan, yataqda da əvvəlki vaxtlara nisbətən ehtirassız olmuş, elastikliyi azalmış, bir qədər ağırlaşmış-dı. Hərdən nəfəs alanda da, bu hiss edilirdi. An-caq həddən artıq mehriban və nəzakətliydi.

Əvvəlki, ütəlgi Katyadan əsər-əlamət belə qalmamışdı...

... Axşamtərəfi geri, kazarmaya qayıdanda Arkadiya mehmanxanasının qarşısında iki qıza ilişdim. Qızlar gəlmə idi və qafqazlı olduğuma görə əl çəkmirdilər.

Başım onlara necə qarışmışdısa, bir vaxt ayılıb zampolit Boykonu qarşımda gördüm.

Mülki paltardaydım...

Artıq bu dəfə, sözsüz ki, real sonluq idi!

O, sübhdən 3 rubl rüşvət aldığını da unu-daraq özünü saxlaya bilməyib, qızların yanında üstümə kişilənib, kişi-kişi qışqırdı:

- Get “evə,” bu saat gəlirəm!

Heç nə deyə bilmədim. Artıq nişangahdakı ovluq heyvan idim.

Dəhşət idi!

Yazıq baş vermiş biabırçılığı, sovet əsgəri olduğumu gizlətmək üçün “ev,”- demişdi.

İlk dəfəydi samovolkada, özü də mülki ge-yimdə, açıq-aşkar ələ keçmişdim!

Sifətim ağappaq, “soyumuş əhəng” rəngin-də, canım müqəvva kimi olmuşdu.

Qızlar da mat qalmışdı.

Səki zavallılara müdrik, ixtiyar qocalar kimi xırdalayırdım ki: “Yunan filosofu Aristotel deyib: Riyaziyyat elmlərin şahıdır, amma...”

Sözüm ağzımda yarımçıq qalmışdı.

Başımı xəcalətlə aşağıya dikib, Turbazaya doğru getdim. Boyko başqa heç nə deməsə də, buğdayıbəniz qız qəflətən arxamca qışqırdı:

- Amma nə?

- Amma... Mən bu kişinin qulu olduğum ki-mi, riyaziyyat da fizikanın quludur... Yaxşı zibilə saldınız məni. Gedin qusli çalın, kədərlə oxu-yub məni xatırlayın...

Bu dəfə qələmqaş qız arxamca çığırdı:

- Eyy... Qafqazlı oğlan! Sən də bil ki: "Orta" mexanikanın qızıl qaydasıdır! Bura vətən olsa da, heç Bakı da deyil!

Tamillagildə paltarımı dəyişib, pisikmiş hal-da kazarmaya qayıtdım.

Heç kəsə heç nə demədim...

Axşam yeməyinə gedəndə, Boykoyla qar-şılaşdıq... Və o, ərən erkəklər kimi susdu...

Lap utandırdı məni!

Artıq 10 rubl hazırlamalıydım. Bu müşkü-lün minimal qiyməti belə idi.

Bu gün məhsuldar gün oldu.

Mənə elə gəlirdi, dövrəmdə hər şey artıq daralır, Pervomayski məsələsi qaçılmazdır!

Axşam kuybışevli Hüseyinlə Stoliçnaya si-qareti çəkə-çəkə dərdləşirdik. O, kəndlərindəki köhlən atdan, yabıdan, mən isə orta məktəbdə oxuyanda yeni il şənliyində oynadığım, evlərin bacasında yaşayan Damdabaca rolundan xeyli danışdım.

Qəzet-jurnal da oxuya bilmədim.

Rotayla kinoya getdik.

“Tamahkarlığa qarşı hiylə,” ikiseriyalı hind filmi çox xoşuma gəldi.

Rotaya ОДБОЙ! - əmri verilən kimi yerimə girdim... 80 qəpiyə aldığım Karma-Zin odekalo-nundan vurub ləzzətlə düşünürdüm. Birdən ağ-lıma hardansa düşdü ki, ötən 20 illik həyatım-dan, təkrar üç gün yaşamaq imkanı mənə veril-sə, hansı günləri yaşamaq istərdim?

Çox düşünəndən sonra qərara aldım:

1. 27 iyun 1967-ci il.

2. 23 avqust 1972-ci il.

Üçüncünü fikirləşə-fikirləşə yuxuya keçmi-şəm. Ali məktəbə qəbul olduğum 16 sentyabr 1968-ci illə, Bakıda atamın mənə ev aldığı gün arasında qalmışdım. Oktyabr-1968...

Bu səhər vaxtında oyandım.

Son aylarda ilk dəfəydi rotayla səhər gim-nastikası eləyib, cərgəylə yeməkxanaya getdim.

РАЗВОД-da iştirak elədim: Briqadamdan 6 əsgər seçib ПЛИТИЧНИК-lərə, 4 əsgər də əsaslı təmirə verdilər. Elə yaxşıca oldu. Cəmi 8 əsgər mənimlə qaldı. Onların işini bölüb, Nazıyla yed-dinci mərtəbədəki boş otağa getdik.

Gündəliyi yaza-yaza dərdləşirdik.

Təpərsiz Mürşüdün ağlına nə vermişdisə, gəlib yalvardı ki, mən əvəzdən ДАНО-ya məktub yaz, altından özüm qol çəkərəm.

O üz-bu üzə keçib:

“Nə oldu?”- tez-tez soruşur və gün ərzində lap zəhləmi aparırdı...

Nazı da dəqiqədə bir, hər üzümə baxanda: “Yitka ayrı can idi”- deyir, məni duyğulandırırdı.

“Hökmən gedəcəyəm onun yanına, Praqa-ya, biz söz yox ki, görüşəcəyik!”- deyirdim.

Sözlərimdə sanki işıq vardı.

Krantda üzümü yuyan vaxt, həyətdə Anya xalayla görüşdüm. Əlində ФЕД markalı fotoapa-ratıyla ДЕЬФИН markalı maqnetafon tutmuşdu.

Çox mehriban, yaxın qohum kimi mənimlə səmimi söhbət elədi.

- ВЫУЛУЧИТЕЛЬ-im də xarab olub,- dedi.

Yitkaya yazdığım ilk əsgər məktubumun sərhəddən geri qayıtdığını çox kövrək, duyğusal bildirdim. Dərhal üzünü yaxınlaşdırıb:

- Niyə? - təəccüb və təşvişlə soruşdu.

Məsələni olduğu kimi danışdım. O da təəs-süflənərək, qaşlarını düyünləyib bildirdi:

- Hərbi hissənin nömrəsini göstərmək ol-maz! Məgər bilmirdin?

- Hardan biləydim? Evdə bişməyib, qonşu-da olmayıb,- dedim.

Anya xala tez-tez onlara gəlməyimi, Azər-baycansayağı isgəncəbili, lumulu, pürrəngi çay içib, hətta bu gecə göstəriləcək italyanların çək-diyi НАРОДНЫЙ РОМАН filminə, yeni aldığı БЕЛА-РУСЬ-110 markalı televizorunda birlikdə baxma-ğı yenə dönə-dönə xatırlatdı.

Sonra da birdən nə yadına düşdüsə:

- Tofik, sizin binada köhnə, qırıq-quruq tax-ta odunluq olmaz? Lazımdır mənə... - soruşdu.

Ona nədəsə lazım olduğuma ürəkdən se-vinib, boynundan asdığı ucuz sep və kulonuna diqqətlə baxa-baxa :

- Baş üstə Anya xala, nə var hazırlayıb ge-cə gətirərəm,- dedim.

Anya xala Odessanın, praqalı Yitkayla Da-nonun şirin, əbədi xatirəsiydi...

- Axşam, ya da gecənin günortasında gə-tirəcəyəm,- dübarə bildirdim.

Bu gün poçtalyon gələndə, əfsus ki yenə adıma heç bir şey olmadı. Məktub üçün düzü yaman qəribsəmişdim. ПЕРЕВОД pul, ya bağla-ma da olsa, pis olmazdı.

Təpərsiz Mürşüd yenə gəlib gözümün qa-bağında müti görkəmdə dayandı və him elədi ki:

“Yazdın?”

Axırı bezib ona təpindim və:

- Sən də Gülüqakqax kimi, deyəsən 200 yaşın olandan sonra məktəbə gedəcək və yazı yazmaq öyrənəcəksən, uşaqsan hələ... Sabah şəkilləri alaq, sonra yazaram,- dedim

Dəvətnamə-açıqcaların hamısını ДМБ-1972 ştampıyla möhürlədim,- cəmisi iyirmi ədəd idi.

İnstitutun yeməkxanasına gedib, üç порс smetanlı rus borşu içdim. Yaman dadlıydı.

СТОЛИЧНАЯ siqareti çox çəkdiyimdən tez-tez acırdım. Son vaxtlar yeməyim yaxşıdır, işta-haya gəlmişəm. Deyəsən siqaret əsəblərimi bir qədər sakitləşdirir...

Gecə saat 02:15-də Mürşüdlə köhnə-külə, qırıq-quruq taxta toplayıb Anya xalagilin qapısı ağzında qalaqladıq. Çox toplaya bilmədik, gecə növbəsi işdə olduğundan rus əsgərləri görürdü.

Turbazaya xaricilər gəlmişdi.

Çexoslovakiyalı tapmaq ümidiylə tez durub getdik. Yitkaya məktub göndərə bilərdim.

Təpərsiz Mürşüdün ayağı düşərli olmadı, çex əvəzinə iki polşalı qız tapdıq.

Təsadüfən, gecə saat 03:25-də Boyko iti addımlarla, tələsik gəlib Turbazaya çıxdı.

Qızlarla öpüşən beş-on rus əsgər qaranlıq-da aradan çıxıb əkilə bildi. Mürşüdlə məni əclaf lap uzaqdan tanıdı, amma nədənsə üstünü vur-mayaraq, bu dəfə də, çağırıb heç nə demədi.

Kazarmaya özümüzü yetik yetirib, oğrunca yerimizə girdik. Hər halda iki saat yata bilərdik.

Yitkagildən fərqli, polyak qızlar nə danışır-dıqsa bizi başa düşürdülər. Çox açıq və yolagə-limli idilər. Uzun yol gəlsələr də, yorunuq olsalar da, şən görünürdülər. Nə soruşsan, gülümsəyib sonra cavab verirdilər.

Amma, bicəngə Boyko imkan vermədi...

Səhər sübhdən, Boykonun КУБРИКА-sının döşəməsini qəsddən Mürşüdə yudurtdum.

Son iki olayın qarşısında kişilik eləmişdi, ruslar demiş: ПОВЕДЕНИЯ-sına düşürdü!

Düzdü 3 rubl vermişdim, amma bu az olsa da, indi onsuz da fakt pulum yox idi. Pul gələn kimi xəcalətindən çıxacağam. Görünür o da bu-nu bilir, dözür və səbrlə gözləyirdi...

İt sümsümməkdən əl çəkə bilmədiyi kimi, biz də qızlarla əylənməyə yaman öyrəşmişdik.

Hər an tətikdə idik...

Boyko bunu dərk etdiyi kimi, həm də bilirdi ki, it ular payını kəsər... Odur ki, düz yol tutmuş-du. Susurdu...

Mürşüdü möhkəm təlimatlandırıb Yitkagillə çəkdirdiyimiz son fotoşəkilləri almağa göndər-dim. Saat 11:00-da qayıdıb gəlməliydi.

Masterlə möhkəm mübahisə elədik.

Gic-gicə üzümə dirənib ki, УМЫВАЛНИК-ləri sizin əsgərlər oğurlayıb satıb. Həqiqətdə isə be-lə işə heç vaxt qol qoymazdım və bizim uşaqlar da, mənsiz elə iş tuta bilməzdi.

Bu sırf oğurluq idi!

Gilənar ya pamidor oğurluğu deyildi ki!

Özüm də partiyaya keçmək, kommunist ol-maq arzusundaydım.

Saat 11:26-da yanlarını basa-basa, Laçın dağlarında patavalı gəzən, kəlbəcərli vaynösə Sahib Əkbərov kimi, oğursağı sağanda ağlayan Mürşüd gəlib çıxdı. Dərhal əndişəylə soruşdum:

- Oğlan gəlmisən, ya qız?

Əliboş gəlmişdi, çoban səbriylə dedi:

- Axşam 17:00 da hazır olacaq dedilər...

Pis olsam da, faciə yaşamağına dəyməzdi.

Gözləməliydik...

Nədənsə yaman darıxır, tez-tez düşünür-düm: “Birdən lent yanar, onda neyləyərəm?”

Ürəyim sıxılırdı...

Bircə Yitkadan ilk məktubu alsaydım, doğ-rudan doğruya dünyada heç bir dərdim olmazdı.

Oturub incə hisslərlə Tbilisiyə, dostum qa-sırğa Tahirə uzun və qəmgin notlarla dolu bir elegiya-məktub yazdım.

Komsomolla ailə həyatı qurmağa Yitkanın mane olacağına, vicdansızın birinə çevrildiyimə, Yitkanın zəhər kimi dodaqlarımdan axıb qəlbi-mə tökülməsindən tutmuş, acı kədər və qüssəli küskünlüklə üyüdüb tökdüm. Etiqad, əməl, əqi-də, amal, məslək qalmadı.

Rəşad Nuri Güntəkinin “Dodaqdan qəlbə” romanından da, bir neçə qəmgin, kövrək misal gətirdim. Yenə sentimentallığım tutub...

Günarta yeməyindən sonra Mürşüdlə, Çex vətəndaşı tapmaq ümidiylə turbazanın hamam-xananasına tərəf keçdik, amma yenə Mürşüdün ayağı ağır oldu.

Hamamxana nədənsə bağlıydı...

Saat 16:00-da Mürşüdlə, elə əsgər forma-sında yenidən hərbi hissənin ərazisini birlikdə tərk edib, bu dəfə ФОТОАТЕЛЬЕ-yə getdik.

Saat 17:00-a qədər, bizi bayırda gözlətdi-lər. Yenidən 1 man. 20 qəpik də ödəyib, düz 73 ədəd fotoşəkil aldıq.

İlahi!

Sevincimin həddi-hüdudu nə gəzirdi. Foto-lar əla çıxmış, Yitka şəkillərdə tarix yazmışdı!

Mürşüdün puluyla ГАЛАНТЕРЕЯ-dan bənöv-şəgözlü Katerinama НАТАША duxusu, bir cüt ət rəngində ДЕДЕРОН corab və Bolqarıstan isteh-salı olan, bənövşə rəngli dırnaq ЛАК-ı aldım.

Taksi tutub hərbi hissəmizə qayıdanda:

- Bu gecə kübar Danoya sən əvəzdən ele-giya dolu bir şərqi yazacağam,- dedim.

Çoban Mürşüd heç elegiya, şərqi sözünü anlamasa da qımışdı...

Bütün əsgərlər xəbəri eşidib başımıza top-laşdı. Şəkillər əldən-ələ gəzdi...

Lenin parkında və Dəmiryol vağzalındakı şəkillər əvəzsiz idi. Ömrümüzün 16 və 20 yaşın-da yaşanmış o anlar, əbədiyyətə kimi bax belə-cə donub qalacaqdı!

Yitka şəkildə bütün xarakterini ortaya qoy-muşdu... O şıltaq uşaq idi!

Artıq onun dəlisinə çevrilmişdim. Şəkilləri dönə-dönə sayıb, səliqəylə kazarmadakı dolab-çama yığdım.

Vağzalda çəkilən öz şəkillərindən 5 ədəd də Mürşüd qamarramışdı.

Ürəyimə yatmayanlardan 3 ədəd götürüb, axşam Anya Siderovaya verdim. Yaxşısını ver-məyə düzü əlim gəlmədi.

Artıq, zamanın solub-saraltdığı Anya Side-rova odunluq taxta-tuxta qırıqlarına görə də çox minnətdarlıq elədi.

Anya xalayla Yitka və Dano haqqında da-nışanda yaman kövrəlirdim.

O məni başa saldı ki, hərbi xidməti başa vurub Bakıya gedəndən sonra,- gələn il - onlara ВИЗА göndərib Azərbaycana dəvət edə bilərsən. ССРИ-də belə qanun var. Sosialist dövlətləriylə bu cür əlaqə saxlamaq mümkündür.

Yolunu tamam öyrəndim...

Anya xala mənə sanki peyğəmbər kimi çox ağıllı, müdrik, etibarlı görünürdü... Mütəəssir ol-dum. Ürəyimdə fikirləşdim ki ПЕРЕВОД pul gələn kimi, ona 3 metr kremplin parça alaçağam.

- Yitkagili çağırtdıranda siz də Odessadan bizə gələrsiz. Birlikdə, bir ay tarixi günlər yaşa-yarıq,- canıyananlıqla dedim.

- Olar, gələrik...- təbəssümlə dedi.

Elə bil üstümdən dağ götürüldü. Sanki gəl-mişdilər. Yitkayla Bakıda, özü də bir ay bir evdə qalmaq!

Bu artıq doğruçu nağıl idi!

Anya xala başa saldı ki, МВД-də ВИЗА aç-dıranda yazarsan: “Odessada sovet ordusunda служит eləyəndə, qonşu olub tanış olmuşuq.”

Yalan deyil ki?

Yoxlasalar, şəkillər də sübutdur...

Beləcə bu gün bütün vaxtımı şəkillərlə oy-nadım, günümü Yitkayla keçirdim.

Sevincimdən uçurdum, sanki artıq istəyim nazil olmuşdu. Ürəyimə dammış, iliyimə, ruhu-ma kimi yayılmışdı: ИНТЕРНАСИОНАЛ və bəşəri duyğularımız qarşılıqlı sevgiylə nəticələnəcək!

Onu hökmən Bakıya gətirəcəm. Şəkillər də bizə əbədiyyəti yaşadacaqdı!

Hisslərimlə baş-başa qalaraq kövrəlib, qa-sırğaya yazdığım məktubu cırıb atdım.

Artıq mənə elə gəlirdi, hərbi xidmət qurub edir, əsgər həyatım amansız, sərt qışın yanvar günəşi batanda olduğu kimi donmaqdadır və bir qədər, qaranlıq düşən kimi, zərif bir çiçək olub borana-çovğuna düşərək məhv olacaq... Və iki aya ilahi bahar günəşi gələcək, biz görüşəcəyik!

Bu reallıqdır, biz bir-birimizi sevirik!

Dəvətnamə-açıqcaların hamısını yazıb bi-zim uşaqlara payladım.

Bu axşam molodoy serjant Podqornunun arvadı gəlib çıxdı. Bu bəxtəvər də ailə qurmağa macal tapıbmış. Bütün rota eşidib növrəstə qı-zın tamaşasına çıxmışdı.

Arıq gənc qız, özüylə xeyli yük gətirmişdi. Görünür çox qalmağı planlaşdırıblar. İki rus əs-gəri taksinin yük yerindən onun gətirdiklərini bo-şaltdı. Sarışın qız lap uşağa oxşayırdı.

Gözəl idi!

Elə hey gülürdü...

Bu gecənin ilahi bəxtəvərləri!

Starik bicəngə rus əsgərlər artıq indidən xosunlaşırdılar: КАМАСУТРА-nın oyunlarını oyna-yacaqlar. Tez-tez də ПОЗА ИНДРАНИ, КРАБ, РАС-ЩЕПЛЕНИЕ ВАМБУКА, ЭЛИКСИР БЕССМЕРТИЯ və ПЧЕЛА ЖУЖЖАЩАЯ НАД МУЖЧИНОЙ, həmçinin СЕКСУАЛЬНЫЕ РЕЦЕПТЫ ДАОССКОГО МАСТЕРА ЛЮБВИ МАГИСТРА ТУНА-nın ОСЛИКИ В ТРЕТИЙ МЕСЯЦ ВЕСНЫ ПОЗА-sından yana-yana danışır-dılar. Bütün rotanın əsgərləri bu gecəni xəyalən onlarla keçirəcəkdi...

Əsgərlər belədir!

Rotanı axşam kinoya apardılar. Ərəb filmi göstərəcəkdilər: БЕРЕГИС ЗУЗУ.

Yaxşı film idi, amma bu filmə Bakıda bax-mışdım. Odur ki, getmədim.

Fotolentdəki şəkillərin yaxşılarından özüm də çıxartmaq istəyirdim. Бумага lazım idi. Molo-doy rus əsgər Stepanovda olsa da, əclaf ver-mədi. Həyasızcasına:

“Yoxumdu,”- dedi və yalandan da and içdi:

“КЛЯНУСЬ!”

Gecə kinoya getməyən müsəlman əsgərlər kazarmada yığışıb, yenə də mülki günlərimizdə baş verən maraqlı hadisələrdən nağıl edirdik.

Mən də onlara, saçını irlandiyalı futbolçu Corc Best kimi uzadan bərdəli Kazımla yaşanan ölüm-qalım olayını danışmağa başladım:

“İnstitutun ikinci kursunu yenicə bitirib, Bər-dəyə gəlmişdik. Havalar bərk isti keçirdi.

Yay tətili idi.

Bürkülü, nəfəs almaq çətin olan, yandırıcı günlərdən biri, saat 11:30 olardı.

Bazar günüydü.

Qonşumuz, uşaqlıq dostum, Bahar arvadın böyük oğlu, sərpayı Vaqif,- artıq onu paxan Sə-fər, paxan, paxan Səfərin sələfi də adlandıraca-ğam. Çünki, onun gələcəyini belə görürəm...

Paxan Səfər gəldi ki: “Telefonla bir qız “bi-şirmişəm”. Saat 13:00-a görüş təyin eləmişik. NÜŞABƏ kino-teatrının arxasından, taksiylə onu götürməliyəm. Bəlkə birlikdə gedək?”

Razılaşdıq.

Atamın ГАЗ-21 markalı ağ ВОЛГА maşınını götürdüm.

Vədələşilən yerdə, saat 13:00-da, vaxt ça-tan kimi, qız göründü və ədəb-ərkanla sərpayı Vaqif,- əziz oxucu, bildiyiniz kimi artıq paxan Səfərin sələfi,- düşüb, arxa qapını açaraq nəza-kətlə qızı arxa oturacaqda, öz yanında əyləş-dirdi. Qız nəsə təşviş keçirirdi. Çətin nəfəs alır, rəngi meyid kimi dümağ olmuşdu.

Yenicə maşını ədəbazlıqla yerindən qıjıltı-vıyıltıyla götürüb sürət yığmışdım ki, sinəsi mo-talla alınan Lenin ordenli Ağayev Hüseynin dar-vazasının qabağına çatanda, güzgüdə, arxadan qoyma-haray qoparıb bir taksinin siqnallaya-siq-nallaya МАРГАТ eləyərək, təcili maşını saxlama-ğı mənə başa saldığını gördüm.

Maşının sürətini alaraq, yavaşca döndərib 3 nömrəli məktəbin aralığına, küftə Vaqifin qay-nı Namiq Əliyevin doğmaca atası, həkim “Göt Rustamın,”- bərdəlilər onu голубой olduğu üçün belə adlandırırdı,- evinin yanına verib saxladım.

Özünü dabanqırma yetirən taksidən, hün-dürboylu, cavan, ağbəniz bir oğlan düşdü.

Oğlanın uzun saçları diqqətimi cəzb elədi. Və dərhal da yadıma düşdü ki, Şimali İrlandiya futbolçusu Corc Bestin КАРЕ formasında vurul-muş saçlarının eyni stilidir...

Oğlanı əvvəllər heç görməmişdim.

Uzunsaçlı oğlan bizim maşına yanaşdı və arxa qapını açıb: “Şəhla!”- qışqıraraq, heç bizə əhəmiyyət belə

vermədən qızı zorla maşından düşürdü. Biz mat qalmışdıq. Hələ nə baş verdi-yini düzəməlli anlamırdıq.

Qız maşından düşən kimi götürülüb qaçdı. Oğlan paxana yanaşıb:

“Xalam qızıdır, indi sən özünü təqdim elə, kimsən, qızla nə əlaqən var, söylə?”

Nitqpərdaz Vaqif cavab vermədi.

Mısdı...

Və oğlanın üzünə diqqətlə, maddım-mad-dım tamaşa elədi.

Gördüm sərpayı Vaqifin baxışlarından və çöhrəsindən qorxaqlıq aydınca oxunur.

Yeyir...

Və məndən kömək umur!

Xosunun sözü olmasın, dızıtdığı gözlərin-dən ay işığı kimi süzülürdü...

Tez məsələyə qarışdım:

“Nə olsun xalan qızıdır? Xalangilin evində məsələni araşdıra bilməzdin?”

Oğlan mənə cavab vermədi, əvəzində üzü-nü paxanın sələfinə çevirib:

“Xalam qızıyla məsələni aydınlaşdırım, sə-ninlə sonra məsələni çürüdərik. Okey?”

Oğlan çox sakit və özündən müştəbeh idi. Bərdəliyə və ümumiyyətlə azərbaycanlıya xas olmayan uzun saçlarını tez-tez əliylə üzündən aralayır, qız kimi də başının incə hərəkətiylə ar-xaya atırdı. Qapqara yumşaq saçları vardı.

Oğlanın bu qədər özünü sərbəst aparması, qorxmazlığı və bir az da dikbaşlığı mənim də səbrimi tükədirdi. Amma hər bir halda suçlu biz idik, kişinin oğlunun dopdoğmaca xalası qızını maşına qoyub "aparırdıq".

Bərdə kimi kiçik bir əyalət rayonunda be- lə əxlaq əndazəsindən çıxmaq, "qana-qan" de-mək sayılırdı.

Özünə çox güvənən saçlı, sakit-sakit:

"Beşdaş, ya çilədi oynamırıq eyy sənlə... Hardan tanıyırsan bu qızı?,"- təmkinlə soruşdu.

Adətən sözü özündən qabaq gedən Vaqif yenə dillənmədi

Mumladı...

İstəyirdi işin ağırlığını üstümə götürəm və özü də ələkçinin qıl verəni kimi, mənə kənardan kömək verə. Birbaşa işin altına girməkdən çəki-nir və qızın müdafiəsindən yayınırdı.

Söz üçün əlini cibinə aparmadı.

Uşaqlıq dostum tamada Vaqifin acizliyini başa düşüb, cəld hərəkətə keçdim:

“Biz iki nəfərik, sən təksən. Çox da özünə güvənmə, səni döyə də bilərik. İstəyirsən hesab çəkəsən? Get, sən də dostunu götür, saat ne-çədə istəyirsən və harada sənə xoşdur orada da görüşüb, məsələni aydınlaşdıra bilərik.”

“Mənim üçün fərq eləməz!”- yekə, lap ba-şından da yekə getdi.

Qələt qırdı!

Özümü təmkinli tutub:

“Bəlkə xalan qızına evlilik təklif edəcək?”- deyərək, son sülh sazişinə imza atdım.

“Onun ərə gedəcəyi oğlan, tamam bam-başqadır...”- istehzayla dedi.

“Yaxşı onda 2 saatdan sonra elə kinonun qabağında görüşəkmi? Afişanın altında.”

Oğlan qeyri-adi saçlarını arxaya atıb:

“Danışdıq,”- dedi və qapını da saymazya-na çırpıb, əzəmətli görünüşüylə onu gözləyən taksiyə sarı getdi.

Taksi radioya xod vermişdi, Cahangir Ca-hangirovun İslam Səfərlinin sözlərinə bəsdələ-diyi “Ağ şanı, qara şanı” mahnısı səslənir, Güla-ğa Məmmədov oxuyurdu.

Saata baxdım. Cəmisi 2 saat vaxtımız qal-mışdı. Necə deyərlər: “Qəm basdı qəlyanımı.”

Geriyə çevrilmədən, maşını sürə-sürə:

“Paxan bu qızı hardan tapmışdın, məni də özünü də cəncələ saldı. Bu gədə qan-qan deyir və özünə də çox arxayındı. Xata yaxamızdan bərk yapışıb, neyləyək?”

Heyrətdən gözü kəlləsinə çıxmış, pisikmiş, qorxmuş Vaqifin arxadan xırıltılı kal səsi gəldi:

“Telefonda tanış olmuşuq. Quyruqda bıça-ğı sındıran əfəl qızın adı Şəhladır, kənddəndir. Xalası baxçada tərbiyəçi işləyir, adı Fatmadır... Bərdədə cəmi bir baxça var, bilirsən dəə. Bizim kimya müəlliməmiz Tovuz müəlliməgilin yaşadı-ğı 2 mərtəbəli ictimai yaşayış binasında qalır-lar, milis şöbəsinin yanında.

Barama Cəfərin oğlu Telman Qarayev də o qızı sevir, əski sevgilim Cəmilənin qardaşı...”

“Qız yazıq neyləsin? Görünür Kazım xalası qızını güdürmüş...”- dedim.

Radionu qurdalayıb:

“Daha müqəssir axtarmaq yeri deyil, geriyə də yolumuz yoxdur, şəhərdə hamı bu namus olayının aqibətini eşidib-biləcək.Artıq zibilə düş-müşük.Geri çəkilsək, ya qaçsaq kişiliyə sığmaz. Ad-sanımız var...”

Oğlanın on doqquz-iyirmi yaşı olardı. Uca-boylu, qorxmaz, ərənin biriydi. Çox sakit və cə-sarətli görünürdü.

Oğlan sınmalıydı!

Balaca rayondur. O vaxt paxan Vaqifin iyir-mi, mənim isə on yeddi-on səkkiz yaşım olardı.

Paxan Səfər Tibb institutunun, mən də Po-litexnik institutunun tələbəsiydim.

Paxan, içində ölən intim marağını unudub, rəngi qaçmış halda, qəflətən hırıldadı və yerin-də təşvişlə qurcalanıb, qolunu arxadan boynu-ma saldı: “Poxa düşdük eyy, sən öləsən... Ətra-fımdakı qadınlar məni tora salmaqdan doymur-lar dəə,”- dedi.

Güzgüdə pasan Vaqifə baxıb, dedim:

“Qəlp odur ki... qəlbindəkin deməyə, hələ, Allah bilir özüylə kimləri gətirəcək...”

Fikirləşdikcə iş düyünə düşür, əsəblərimiz tarıma çəkilirdi. Sabir demiş: “Gərçi pərvaz etdi ayroplan bir quş kimi...” Bəli başımızın üstündə Kazım adlı bir ildırım çaxmışdı...

Xata bizi qurşaqlamışdı!

Fikri yayındırmaq xatirinə 74-44-ün radio-sunu açdım. İri ağ kvadrat düymələri növbəylə basandan sonra, növbəti kanalda, sözləri Mir-mehti Seyidzadəyə məxsus, Soltan Hacıbəyo-vun bəsdələdiyi “Bənövşə” mahnısı səsləndi.

Volqanı xodlayıb geri döndərdim və güvən yerimiz, qoca, tozlu, qaca Şərq küçəmizə doğru toz qopararaq sürdüm.

Özümü o yerə qoymasam da gədədən gö-züm su içməmişdi. Vaqifin tırsıması da səbəb-siz deyildi. Qərib it hürəndə uzun hürər...

Küçə davası, tin uşaqlarının işiydi, tələbə-lərin yox. Həm də, belə əlbəyaxa davalar peşə-karlıq tələb edirdi.

Həm də görünür bu gədə saçlarını uzadıb, xalası qızını güdməsi elə-belə, səbəbsiz deyildi.

Puşkin, ya Qalua kimi güdaza getmək də olmazdı! Qəpik var ki, manatdan bahadır. Vaqif qonşumuz, uşaqlıq, tələbəlik dostum olduğun-dan, o mənim üçün bahalı idi...

Bu məsələ-məşəqqətdən üzüağ və şərəflə çıxıb, СОЮЗТРАНС-da şax gəzmək yükü palan-lanıb belimizə minmişdi.

Bəli, cəmisi iki saatdan sonra Çaldıran dö-yüşü başlayacaq, Şah İsmayılın gününə görə-sən kim düşəcəkdi?

Hər üçümüz cavan, tərbətər oğlanlar idik.

Xuramanı ilahi məhəbbətlə sevən vaxtları-mıydı, fəqət onunla küsülüydük...

Axşamtərəfi bütün bərdəlilər artıq biləcək-di: “Zəmanə yanağında göz yaşına kim çevrildi!”

Bu artıq tale oyunu idi.

Sözsüz, Xuraman da eşidəcəkdi...

Birdən ürəkləndim: “Yox!- uduzmaq, sonra da ərən oğlanlar kimi Xuramanın arxasınca get-mək? Nə üzlə?

Doğrudan da sevgidə tanrı var! Ürəyimə təpər gəldi! Qorxmaq nəydi?

Döyülmək olmazdı. Bərdəlilərə GÖRK olsun deyə, nəsə eləmək lazımıydı. Qəbirləri gül-çi-çəksiz, ağacsız, kimsəsiz, viran qalmış Dərələ-yəzin havası, çörəyinin duzu, suyunun "haqqı" qanımla damarlarımda axırdı...

Paxan Səfəri evlərində düşürdüm ki, dava paltarını geyinib gəlsin. Cırcır tuflidə, mil-mil qa-ra şalvarın dal cibində yaylıq, köynəyin döş ci-bindəki palıd rəngli daraq və qələmlə nə dava?

Sonra da birlikdə bizə getdik.

İdman forması və yüngül ağ ketləri geyinib çıxanda, atamın sürücüsü Musayev İman gəldi. O idarəyə yenicə verilmiş təp-təzə mikroavto-busu sürüb, Yevlaxdan bazarlıq gətirmişdi.

Müxtəsəri, Volqanı həyətdə saxlayıb, qərib dostu olmayandır deyə, sərpayının məsləhətiylə Hitlərəoxşar, dombagöz Qanboyun oğluna zəng vurduq. Məsələni qurbağagöz Ələsgərə tam ba-şa salandan və dava saatını, yerini bildirəndən sonra, "İmanın mikroavtobusuna" oturduq.

Qəm, hara gedirsən? - Qəm yanına!

Paxan Səfər bərk həyəcan keçirirdi:

"Neybət Ələsgər gələcəkmi?"- çox ümidsiz olsa da, yumorla soruşdu.

Qəliz məsələdi, amma əsl imtahandı. Də-bərəgöz Alyoşa davaya gəlməsə, bahadır çiyin-lərinə ömürlük damğa qazanacaqdı.

İrlandlı Corc Bestə oxşayan bu saçlı gədə deyəsən Vaqifi lübudum udacağına əmin idi.

Paxanın pisikdiyini, duyuxduğunu, qorxub ehtiyyat elədiyini görüb:

“Səbatın olsun!

Davanın ömrü yarım saat, ya on dəqiqə ol-sa da xatirəsi ölüncədi... Sərçə, qaranquş və ya kəhriz göyərçinləri çimdik-çimdik, dimdik-dimdik çır-çırpı qırıqları, tük-mük, palçıq gətirib özlərinə yuva qurduğunu yadına sal, bax biz də beləcə çimdik-çimdik, qırtdaq-qırtdaq hörmət qazanmı-şıq... İndi bu uzun saçlı lotu kimdisə, ondan qor-xaq? Getməyək? Kazım kimi qərib iti, ona yad olan Bərdə məhəllələrindən qovarlar,”- dedim.

Meyid kimi soyuyub ağarmış, gözləri do-nuqlanıb öləzimiş nitqpərdaz paxan, xırıltılı səs-lə: “Çör-çöp sevgisi yeri deyil... Birdən çox gə-lərlər, bıçaqla vurarlar...”

“Deyirsən neyləyək? Ətir-ənbər vurub ki-nonun qabağında bu saçlı gədaya pişiklənək? Yoxsa saksafonlarını çalaq? Çətirlərinin altına girək? Bəlkə qeyrətimizi peşkəş edək? Ölsək də geriyə yolumuz yoxdu.”

Birdən onun, nəsə nicat yolu tapmış adam-lar kimi gözlərinə işıq gəldi:

“Gəl danışıqla həll edək.”

Qətiyyətlə xırdaladım:

“Pəncələşməkdən qorxursan?“Xalxın” dop-doğmaca xalası qızını öpməyə aparırdın, gözlə-riylə də görüb,

danışıqla, pişim-pişimlə necə yo-luna qoyursan? Qarışqa bicliyi keçməyəcək bu-rada... Çamuru sən atmısan...”

Özünə inamsızlıqla irişib:

“Bəlkə bıçaqdan-zaddan götürək? Hər eh-timala qarşı...”- tülkü tədbirinə əl atdı.

Elə dedi, elə bil dəliqanlılığımdan istifadə eləyərək yadıma saldı ki, məni döysələr bıçaqla kömək edərsən?

Onun bu sözü dərhal məni düşündürdü:

“İrlandlı Corc Bestə oxşayan, soyuq silahla silahlanıb üstümüzə gəlməz? Bizi vurmaz?”

Məsələni özlüyümüzdə qəlizləşdirdik...

Və birdən isinməyə başladım: “Bəlkə doğ-rudan o soyuq silah, ya tüfənglə üstümüzə gəl-di? Axı söhbət əyalətin namus məsələsində, ar-tıq olum ya ölüm prizmasına keçmişdi!?”

Bir anlıq çaşdım. Deyəsən biz qaldıq dəf-tər-kitabda. Ümidsizlik məni də çulğadı... Gözlə-rim qarşısında irlandlıyaoxşar Kazım, yallı at ki-mi fınxıra-fınxıra, əlində bıçaq üstümüzə gəldi.

Və elə bu an... necə oldusa, Həvva bibimin əri, qubadlı Çərkəz dayı yadıma düşdü.

Onların evində dəfələrlə НАГАН və МАКАР-ОВ tipli tapança,- həqiqətin ağ çiçəklərini,- göz-lərimlə görmüş,əlimə alıb oynatmış, saatlarla ni-şan almağı, atmağı həyətlərinin ayağındakı qo-ca palıd ağacının

kötüyünə vurmaqla öyrənmiş-dim. Fəqət düz vurmağı bacarmırdım, zira bu-nun üçün çox atmalıydım.

İndi bu təlim karıma gələ bilərdi!

Bu artıq Arximedin, Mustafa bəy Topçuba-şovun, ya Lütvüzadənin kəşfinə bərabər, hələ bəlkə də bizim üçün daha artıq tapıntı idi, çünki söhbət həyatda qalmaqdan gedirdi.

İmana qətiyyətlə əmr etdim:

“Sür Kolxoz küçəsinə!”

Bərdənin gələcək paxan Səfəri nəsə, xey-rə, sakitləşdirici, ümidverici bir iş olacağını gü-man edib susdu və İman, təlimata uyğun atam-dan icazə almadan, artıq-əksik bəhanələr gətir-məyin əbəs olduğunu dərk edib, xartaxurtla sü-rət qutusunu dəyişib, tələsik mühərriki işə saldı. Damağına bir siqaret də qoyub, dal-dala dar, əyrim-üyrüm döngəmizdə, yan güzgülərə baxa-baxa, peşəkarlığını gözümüzə soxa-soxa maşı-nı ümidverici uğuldatdı.

Ensiz dimdikli aerodrom kepkası, iki metal dişi, uzun təyyarə qənədli enli, narın tüklü bığıy-la çirkli, pırtlaşıq, yağlı dalğavarı şabalıdı saçları ona yaraşırdı. Mazutlu-yağlı ütüsüz, alabəzək, qolsuz nimdaş köynəyi də ümumi görkəmində ansambl təşkil edir və səviyyəsinə uyğun gəlir-di. Atası anasını atıb cavan qız saxlayırdı...

Kolxoz küçəsində mikroavtobus tozanaq qaldıranda İmana hökmlə dedim:

“Çaldıran döyüşünə gedəcəyik. Atam bircə kəlmə bilsə, özündən küs!”

Çərkəz dayı evdə olmadı...

Bibim təəccüb və nigarançılıqla, tələsik so-ruşdu: “Xeyirdimi a bala?”

Dərhal vaxtın az olduğunu ürəyimdə götür-qoy edərək bibimi xəlvətə çəkib, pıçıltıyla tapan-ça istədim.

Qıvrım saçları alabəzək kəlağayısının al-tından görünən bibim, səbrlə bir ПРИМА siqareti yandırıb, təşvişlə: “Neyləyirsən?- soruşdu.

Özümü çox sakit və arxayın göstərib, bil-dirdim: “Heç... Heç... Dostumla meşəyə gedirik, axşam qaytarıb gətirəcəyəm, arxayın ola bilər-sən. İki-üç saatlıq...”

Heç gözləmədiyim halda, çək-çevirə belə salmadan bibim nə fikirləşdisə, qürrələnib, çox asanlıqla: “Gözlə gətirim... Amma heç kim bil-məsin haa...”- yaşıl zümrüd qaşlı üzüklü barma-ğıyla məni hədələdi.

Çox soyuqqanlı halda, lap köhnə kişilər ki-mi səbr və təmkinlə: “Arxayın ol bibi, uşaq-zad deyiləm ki?”- dedim.

Bibim, meyvə ağaclarıyla dolu geniş həyət-lərinin ayağında tikilmiş, üzü döngələrinə baxan ikimərtəbəli, fasadı şüşəbəndli evlərinin alt mər-təbəsindən çıxıb, əlindəki kağız torbanı mənə sarı uzadanda, hər ehtimala qarşı da qulağıma tənbəkili nəfəsiylə pıçıldadı: “Ədə heyy... Silahla zarafat olmaz haa, ehtiyyatlı ol!”

Kağız torbada qoşa darağı patronla dolu МАКАРОВ tapançasını əlimə alanda ürəyim necə dağa döndü!

İndi lap Koroğlu özü də dirilib gəlsə, daha qorxum yoxuydu. Özünü, uzunsaç irlandlı Corc Bestə bənzədən oğlanın dizini yerə qoyub mə-lətmək mənim boynuma! Bibimin:

“Çərkəz Raqiflə Rövşəni də götürüb, Kürlə Tərtər çaylarının qovuşan yerində amanalla ba-lıq tutmağa gediblər”- deməsinə, düzü heç əhə-miyyət də vermədim.

Avtobusa minəndə, əlimdə nəsə gətirdiyimi görüb paxan Səfərin rəngi dəyişdi və cəld aya-ğa qalxıb, maraqla kağız torbada nə olduğunu bilmək istədi.

Özümü artıq sərkərdə yerində hiss etsəm də, nazla əsən külək kimi sakitcə: “Andranikin o biri qulağını da kəsmək mənlikdi!”- dedim.

Artıq İman da məsələdən agah oldu.

Odlu silahı ehtiyyatla, elə kağız torbada da mikroavtobusun kiçik БАРДАЧОК-una qoyduq.

Söz yaş dəri kimi bir şeydir, haraya çəksən oraya da gedər, amma onlar soyuq silah çıxar-sa, ya məsələ lap qəlizləşsə necə olardı?

Bu silah bəd məqamın yarağı idi.

Yolboyu hər ikisinə son tövsiyə və tapşırıq-larımı verdim: “Silahı çıxartsam arxa tərəfimə qaçın! Birdən güllə sizə dəyər!”

Paxan Səfər tövşüyünü alıb sevincək so-ruşdu: “Atacaqsan?”

Qətiyyət və inamla:

“Əlbəttə! Xuraman eşitsə ki döyülmüşəm, ya bıçaqlanmışam, ya da kimisə güllələmişəm, hansı yaxşıdır?”

Vaqif Baharoğlu artıq qımışa-qımışa həsəd qarışıq bir heyrətlə baxır, bu an mənimlə qürur duyduğu gözlərindən oxunurdu.

İman da nəsə tarixi bir gün yaşadığının fərqindəydi və metal üzüklü barmağıyla siqareti yanıqlı-yanıqlı sümürür, alabaş avtobusa qaz verərək nərildədirdi.

Bir sözlə, silahlı döyüşə gedirdik!

Kino-teatrın qabağında mikroavtobusla il-dırım kimi peyda olub, ПУСТ ГОВАРЯТЬ və И ДОЖД СМЫВАЕТ ВСЕ СЛЕДЫ- ispan filmlərinin adları yazılmış afişaların altında “biz çaxanda,” heyrətə gəldik.

Təxminən iyirmiyə yaxın törpüdəyməmiş, törpügörməmiş yeniyetmə oğlan üzük qaşı kimi bizi dövrəyə aldı.

Əclaf, nə qədər adam yığıb?!

Ələsgər yox idi...

Başçıları babı Cavadın oğlu Vaqif Şərifov imiş...

Maşından tək düşdüm:

“Biz ikiyik, sizdən neçəsi gedəcək otursun avtobusa.”

“Hara gedəcəyik?” -babı Cavadın yonta-lanmamış böyük oğlu, -soruşdu.

“Canavarlı meşəsinə!” -dedim.

“Sürücü də dalaşacaq?” -xorla soruşdular.

“Yox... yox... biz ikiyik,” -əminliklə dedim.

Cavan, sütül oğlanların bir neçəsini üzdən tanıdım. Çoxu da tin uşağı olduğundan onları görməmişdim.

Amma içərisində yava-yava gəvəziyən gə-də-güdəsi də vardı.Qəhbə Telli müəllimənin oğ-lu da aralarındaydı... Kəkilli Sahib...

Babı Cavadın totuq oğlu dəstəsini cəld başına toplayıb, qısa məsləhətləşmədən sonra üzünü mənə tutdu:

“Sizinlə Kazım və Telman Qarayev gedə-cək! İki-ikiyə!

“Fərq eləməz!” -dedim.

Mikroavtobusa qalxdıq.

Tösbərək İman mühərriki hərəkətə gətirib, qazdan basaraq avtobusu silkələdə-silkələdə Yevlax səmtinə doğru istiqamət götürdü...

Mikroavtobus təzə olduğundan, içərisindən dəri oturacaqların adama xoş təsir bağışlayan sintetik iyi gəlirdi.

Hava bürkülü olsa da İman pəncərələri aç-mırdı: “Təki toz olmasın!”.

Hərəmiz bir tərəfdən oturmuşduq.

Mikroavtobusun təzə olmasına baxmaya-raq narahat yolda, xüsusən çuxurlara düşəndə maşın elə silkələnirdi, elə bilirdin bu saat dağılacaq.

Döyüşə gedirdik.

Ürəyim sakit idi.

Əslən Bərdənin “Motor Qılışdısı” kəndin-dən olan barama Cəfərin oğlu Telman Qarayev-lə paxan Səfərin sələfi fikirli görünürdü.

Biləyindən sallanan qayışlı Победа saatı qolunda, metal üzüyü barmağında, aerodrom kepkası başında, Казбек papirosu damağında, yaxası mazutlu alabəzək qolsuz köynəyində... Dünya İmanın heç vecinə də deyildi. Birazdan o, filimlərdə belə az rast gəlinən qiyamat qopacağını görəcək... Və bütün ömrüboyu bu hadisəni istədiyi qədər şişirdib, öz ürəyinə, di-linə, tərbiyəsinə, əxlaqına, yumoruna yatan bir tərzdə gələcək sərnişinlərinə, tay-tuşlarına, kü-çə, tin uşaqlarına danışacaq, bir də qocalanda, -mənim yerimə öz başına gəlmiş kimi xeyirdə şərdə nağıl edəcəkdi...

Qəflətən, irlandiyalı Corc Bestə bənzəyən saçlı Kazım ayağa qalxıb, zatına da, südünə də bələd olduğum Baharın oğlu Vaqifin başının üstünü alaraq:

“Sənin bacını gözlərinin qabağında, -“belə-belə” eləyəcəm,”-dedi.

Daşdan səs çıxdı, paxan Səfərdən səs çıxmadı.Pambıq kimi ağarıb, məzlum-məzlum üzü-mə baxdı.

Mat qalmışdım, odlu silahımız ola-ola, -o niyə və nədən qorxurdu?

Kazımın ayağı yer aldığından, ikinci dəfə ironiya və ikrahla söydü:

“Ananı, bacını... gözlərinin qabağında...”

Lalam, karam, -dinmərəm, zatıqırıq paxan bu dəfə də yedi.

Qaraşın Telman Qarayev də nədənsə su-sur, həm də nəsə çox kədərli görünürdü...

Kazım üçüncü dəfə, loş kimi sırımsığını sallayan Vaqifi küçə söyüşləriylə “yağlayanda” dözə bilməyib sakitcə ayağa qalxdım.

Bu vaxt zəmanə ilə hesablaşmağın gərəkli və zamanı olduğunu anlayan Telman Qarayev də qalxıb araya girdi.

Bəstəboy Telman kəkildəyə-kəkildəyə,- o danışanda hıqqınırdı,- məni və saçlı Kazımı sa-kitləşdirməyə başladı. Necə deyərlər: “O,-yağış olanda, sən torpaq ol...”

Ğördüm ki, Telman da elə suçlu Vaqif kimi dava eləmək istəmir, məsələni danışıq yoluyla qaydaya salmaq fikrindədir.

Üzümü saçlı Kazıma tutub:

“Sən niyə söyüş söyürsən? On dəqiqəlik yolumuz qalıb.Canavarlı meşəsində sakitlik ola-caq, orda baxarıq kim-kimin ana-bacısını ne-cə...neyləyəcək...”

Özünü Corc Bestə bənzədən saçlı Kazım sözlərimə elə də əhəmiyyət vermədən, açıq-ay-dın dedi:

“Babayev, sənlə problemim yoxdu. Sən bizim işimizə qarışma. Xalam qızının namusunu qorumaq həyati borcumdur!”

Bahar arvadın oğlu hələ də susur, hərdən yumruqlarını düyünləyib qarşı oturacağın dəmir həlqəsinə çırpır, yalandan görüntü yaradırdı...

İlk ağ bayraq qaldıran, barama Cəfərin oğ-lu Telman Qarayev oldu:

“Hamımız bərdəliyik, niyə axı qırğınla, qan-la, düşmənçiliklə qarşı tərəfi başa salaq? Bir-biri-mizin toylarında, hüzr yerlərində iştirak edi-rik. Biz nəyi bölə, nəyi ayırd edə bilmirik? Anla-şılmazlıq olub, şükür Allaha qəbahət namus sə-viyyəsində deyil...”

İpə-sapa yatmayan Kazım onu saxladı:

“Kim necə başa düşür düşsün, bu elə əsl namus məsələsidi! Xalam qızı hələ uşaqdı, qanmır, bəs bu əclafın fikri ciddi deyilsə, onu alma-yacaqsa niyə aldadır?”

Qəflətən Vaqif tapança kimi açıldı:

“Sən nə bilirsən? Bəlkə mən Şəhlayla ailə quracağam?”

Hamımız çönüb Kazıma baxdıq.

Kazım generallara bənzəyən qürurlu duru-şuyla:

“Şəhlanın ərə gedəcəyi adam başqasıdır!”

Qurbağa gölünə daş düşdü.

Yağışdan cıxdıq, yağmura düşdük...

Sinəsimazutlu bəxtəvər İman mikroavtobu-su geniş Bərdə-Yevlax magistral yolundan sola döndərib, C. Cabbarlı kolxozuna tərəf istiqamət götürdü.

Ana bətnindən çıxan uşaq həftə ərzində günəş şüası görməsə “xoda” düşmədiyi kimi... Hər an üçün bəzəkli saat əqrəbinin beyindeşən çıqqıltıyla vurmasını hərisliklə gözləyən, bala-sına həyat verəcək günəş şüası həsrətində olan ana kimi... Vaqifi, ruslar demiş: “УНИЧТАЖАТЬ” eləməyi qarşısına ali məqsəd qoymuş, Şimali İr-landiya futbolçusu Corc Bestin təqlidçisi Kazım, tarixi missiyasını həyata keçirməsinə mane olan dostu -barama Cəfərin oğlu Telman Qarayevin harayçılıq eləyib məsələnin sülhlə yoluna qoyul-masının tam əleyhinəydi.

Namus məsələsi idi.

Nadinc, qorxmaz, bəlkə də sərsəm, xəstə adam psixologiyalı Kazımkimisinə günəşli yer yox, dəmir barmaqlı qazamat... Telman xarak-terli adama mülayim dənizkənarı uyğun gəldiyi kimi... Bahar arvadın oğluna isə bu an, hava-su kimi hürriyyət lazım idi.

Ölüm, əbədi həyatın başlanğıcıdır fikrini əl-də bayraq tutanlarla mənim heç bir işim yo-xuydu, dostumu müdafiə etməliydim. Bu da mə-nim tarixi missiyam idi.

İman tozanaq qaldırıb yandırıcı günəş şüa-larının altından,- qocaman, hündür və sıx palıd ağaclarıyla əhatələnmiş kölgəli Canavarlı meşə-sinə sarı döndü.

Qəflətən Motor Qılışdısı Telman Qarayevin gözlərində bıldır-bıldır yaş gilələndi... Amma ağ-lamırdı, nə için-için, nə də içdən gələn hönkür-tüylə... Eləcə yaş süzələnirdi... Sanki, kömürlə çəkilmiş qaşlarının altındakı uzun kirpiklərindən, yaş,- nə vaxtsa gözü tutulmuş bulaq kimi qay-nayırdı...

Kazımdan soruşdum:

“Kahinlərin çox olduğu dövrdəki kimi, siz də çox gəlmişdiniz. Bizi məhv eləmək, bizə Kər-bala müsibəti yaşatmaq istəyirdiniz?”

Kazımın ölümsaçan buz baxışları ilk dəfə gözündə mülayimləşdi:

“Mənim işim, -o əlini paxanın çiyninə dö-yəcləyib, - Bahar arvadın oğluyladır, Allah, pis ananın da, pis züryətin də üzünü qara eləsin,” -dedi.

Paxan Səfərin sələfi, -cöhrəsində vəhşət, oynaşan gözləri donbalıb hədəqəsindən çıx-maq üzrə, ürəyi sanki Okavanda deltasındakı beş ay suya həsrət torpaq kimi aralanaraq çat vermək ərəfəsindəydi.

O özünü unudub, qorxulu dünyanın boz sifətli quyusunda, uşaqkən yuxularına girən iri, saçları uzun əzrayılla elə bil pəncələşəcəkdi.

Nə baş verirdi?

Himalay dağlarındamı azmışdı? Musson yağışlarınamı düşmüşdü? Amazon cəngəlliklə-rindəmi itib batmışdı?

Yoxsa, Saxara səhrasında qum tufanına düşmüş, ya Okavanda bataqlığında yerin təkinə kimi sorulub məhv olmaq təhlükəsi qarşısında özünü batırmışdı?

Bəlkə, Arktika cəngəllikələrində, ya yer kü-rəsi meşələrinin üçdə bir hissəsi boyda olan Tayqada ac qurda, ya rus bəbirinə yem olaca-ğından vahimələnirdi?

Bədbəxt yaman qorxurdu!

Bəlkə nəsə hiss etmişdi?

Kazım kimi savadsız, oxumamış bir nadan və cahil, xalası qızı yolunda, - müsəlman üçün hər şeyin fövqündə dayanan qeyrət-namus ba-ğırıb,- hələ özülü yenicə qoyulsa da reallaşma-mış,- biqeyrətlik damğasının vaxtsız küyünə ge-dib, əlindən nəsə xata çıxaracaqdı!?

“Hara sürüm?”-İman xatircəmliklə soruşdu.

Artıq Canavarlı meşəsinin içərisindəydik.

Arxayın və inamla:

“Meşənin ortasına! Maşın keçən yerə kimi sür... Pambıq tarlasından, kənddən bizi görən, səsimizi eşidən olmasın,” - dedim.

Artıq vaxt-vədə yetişmiş, vulqar leksikon-dakı sözlərdən istifadə etməkdən, ya da dağda ağacla salva atmaqdan keçmişdi.

Mikroavtobus ləngər verib silkələndi və İman mühərriki söndürüb qapını açdı.

Dördümüz də ayağa qalxıb ağır-ağır, təm-kinlə aşağı endik.

Kimin alın yazısının sonuydu?

Kim bədbəxt, kim qəhrəman olacaqdı?

Lap az qalmışdı...

İman qımışa-qımışa sirli baxışlarıyla bizi süzsə də avtobusdan düşmədi.

İki-ikiyə, üz-üzəydik.

Telman sülh danışığına başladı. Yalvarırdı. Az qalırdı ağlasın...

Paxan Səfərin sələfi də ona qahmar çıxdı. Baxdım ki, belə getsə sülh imzalanacaq.

Düzü Kazım da döyüşün tərəfdarıydı...

Meşə ПАСТЕРlə çəkilən rəsmə bənzəyirdi.

Quşlar mühərrikin səsindən hürküb uçuş-muşdu. Yuvasında balaları olan iri bir qara qarğa vahimə içində ətrafda dövrə vurur, hər ehtimala qarşı yuvasını gözdən qoymurdu.

Meşədə quraqlıq hökm sürür, cırcırama, haradansa qurbağa səsləri, quş cikkiltiləri və ət-cə balaların qayğısız, şən civiltisinə qarışıb lirik mahnı kimi səslənirdi.

Ağacdələnlərin səsi də bu təbii simfoniya-nın solosu idi.

Bir neçə dovşan dal ayaqları üstdə daya-nıb yediyi yerdə, mühərrikin səsinə qulaqlarını şəkləyərək dayanmışdı. Bizi görən kimi qaçıb özlərini çürük kötüklərin arasına dürtərək gizlən-dilər.

Gecikmiş bir kirpi də tələsik özünü kötük-lərin arasına təpdi.

Qulaqbatırıcı sükut çökdü.

Bu döyüş bərdəli kimi dördümüzün də, -ağ kişilik səhifəmizin, ya ilk uğurlu möhürü, ya da ilk uğursuz damğası olacaqdı.

“Vaqif qılıncla sap da kəsə bilmir, son sö-zünü söylə əclaf!” -qışqırdım.

Kazım geriyə çəkilib ətalətiylə Vaqifi vur-maq istəyəndə, Telmanın qarşısından, -vıyıltıyla yayından çıxan ox kimi uçub, onun enli sinəsinə bir kəllə ilişdirdim.

Kazım gözləmirdi.

Düzü, heç kim gözləmirdi...

“Çaldıran döyüşü” belə başladı.

Və bu vaxt...

Heç kəsin gözləmədiyi tarixi bir məqam yaşandı.

Bu, artıq Cənab-420 filmi yox, real həqiqət-iydi.

Kazım ləngərlənib, müvazinətini düzəldə-rək, on-on beş addım geriyə çəkildi. Qəflətən köynəyinin arxasından kecən kəmərindən bir xəncər və dəstəyi sarı şirmayılı, qatlanan ülgüc çıxartdı!

Heykəl kimi, hamımız bir anlıq donub qal-dıq.

Qəflətən Kazım barıt kimi öz-özünə part-layıb hayqırdı və düz Vaqifin üstünə səmt gö-türüb, çalağan kimi şığıdı!

Paxan Səfərin sələfi, məsələnin rəsmi his-səsinin gerçək boz üzünün yetişdiyini dərhal an-layıb... Tapançaya, - həqiqətin ağ çiçəyinə belə güvənməyərək, necə deyərlər, asta qaçana göy imam qənim, topuğuna tüpürüb qoydu belinə.

Telman da... Mən də... Yerindən tərpən-məyən avtobusun sürücüsü, alabəzək köynəyi-nin sinəsi mazutlu İman da, sanki əbədiyyətə qovuşan fotoşəkilə döndük.

Artıq, Bahar arvadın oğlu Tibb institutunda yox, gerçək həyatda “Əzrail imtahanı” verməyə başlamışdı!

Paxan güllə kimi mikroavtobusun başına dolanır, zalım fələk Kazım da, onu yel kimi qo-vurdu.

Yazıq Vaqif!

Ürək belə yerdə at ürəyi kimi çatlayar da, hələ bir desən o yana keçər də!

Yanında kəhər at olsaydı nə vardı?

Min belinə, yat yalmanına, üzəngiylə döşə qarnına! Kazım da qalsın Canavarlı meşəsində, ya da zamanın o tayında, - ГАРАБАХСТРОЙ tə-rəflərdə!

Qorxudan paxanın zəhri yarıla, ayağı büd-rəyib dolaşa bilərdi.

Telman dostunu saxlamadı, dalı üfürürdü...

Ələsgər gəlmədi!

Şokdan qəfil ayıldım.

Dostum dar ayaqdaydı!

İman şaqqıltıyla yan qapını açdı

Şahin kimi qanadlanıb özümü mikroavto-busun açıq qapısından içəri təpdim.

Təmkinlə БАРДАЧОКu açıb kağız torbadan МАКАРОВ tapançasını qapdım və yağlı, qızılı patronlarla dolu darağı dəstəyin altından yerinə keçirib, ehtiyyat darağı cibimə basaraq aşağı atlandım.

Tapançanı çiynim hündürlüyündə havaya qaldırıb şaqqıltıyla МАКАРОВu “ayağa” verdim və hayqırdım:

“Dayan əclaf!”

Dayanmadılar, gözləri qızmışdı.

Havaya bir atəş açdım!

Həqiqətin boz üzlü ağ çiçəyi sərt və aman-sız imiş!

Kazım, dəstəyi qırmızı çalarlı palıdı rəng olan odlu silahın ona tuşlandığını görəndə bir anlıq Vaqifi unudub dayandı.

İsti-isti olduğundan çox da əhəmiyyət ver-məyib yenə bir neçə addım geriyə çəkildi...

Və qəflətən ağ köynəyinin sinəsini cırıb aç-dı. Köynəyin kiçik, yumru ensiz ağ düymələri tıqqatıqla qırılıb yerə tökülürdü.

Saçlı Kazım bağıra-bağıra, havalanmış ki-mi, çılpaq sinəsini göstərib:

“Vur! Babayev! Vur! Bacarırsansa sındır məni!”- deyib, xəncərlə ülgüc əllərində düz üstü-mə yeridi...

Vaqif arxamda gizlənmişdi!

Qoşa əllərimlə tapançanı çiynim bərabərin-də tutub tuşlasam da, tətiyi çəkən son anda lü-ləyi aşağı endirdim.

Güllə vızıldayıb, Kazımın ayaqları altından bir ovuc çim otu havaya sovurdu!

Bu da, Kazımın bu günə yazılan alın yazısı, bəxt taleyiydi.

O da qəflətən ayılıb anladı ki, olumla-ölüm dilemması qarşısındadır və daha bundan o ya-nası bizim yer kürəsində olmur.

Necə oldusa, uzun saçlı Kazım bir andaca, -sanki eyforiyadan ayılıb, heç gözləmədiyimiz məqamda qaçmağa başladı.

O, elə qaçırdı!

Leopard da onu tuta bilməzdi.

Zavallı, açıq-aşkar, vaxtsız-vədəsiz gələn Əzraildən qurtulmalıydı!

Paxan Vaqif çaynik lüləsi kimi dimdik da-yanıb, hələ də heykəl kimi quruyub qalmışdı.

Telli Kazımın arxasınca baxıb, onun arxa-ya belə baxmadan güllə kimi götürüldüyünü də görsə paxan arxayınlaşa bilmirdi.

Kazımı qova-qova Canavarlı meşəsindən çıxardım. O, artıq pambıq tarlasına girib şumluq və kolların arasıyla kəndə doğru qaçırdı.

Can hayındaydı!

Can şirin şeydi!

Qovmağın da həddi, əndazəsi olduğundan xırıltıyla, ləhləyə-ləhləyə, nəfəsitəngimiş daya-nıb, tarix yazdığıma əmin olandan sonra, ürəyi-min tuppultularını qulağımda,damağımda və bo-yun-boğazımda belə eşidə-eşidə geri döndüm.

Motor Qılışdısından olan barama Cəfərin oğlu Telman Qarayev vəhməli halda dabanına tüpürüb əks istiqamətə qaçanda, dayım qara Sabir və Ələsgərlə üz-üzə gələr.

Dayım hövl içində taksidən özünü atıb, qa-rabəxt Telmanı boyunlayaraq xıxırtmışdı.

Telman xısın-xısın içində ağlayır, taleyin bugünkü oyununa gözlərindən yanağına gildir-gildir yaş axıdırdı.

İman qorxusundan hələ də rul arxasından düşməmişdi. Sanki heç nə görmür, heç nə eşit-mirdi.

Paxan Səfərin sələfinin tükü durulmuş, qı-rışığı açılmışdı. Pambıq tarlasında Əzrailinin nöqtə boyda olduğunu, gözdən itdiyini görüb xoruzlanmağa başladı:

“Yalan deyir qurumsaq!

Xalası qızı-zadı deyil, Şəhlanı öz əliylə elə bu motor Qılışdısı, barama Cəfərin oğlu Telma-nın altına yıxan dopdoğmaca xalası Fatmadır.”

Heyrətə gəldim!

“Bütün bunları sən bilirdinsə niyə məndən gizlədirdin? -soruşanda, Şəhlaya söz vermiş-dim,” -dedi.

Ağac yıxılanda balta götürüb üstünə cu-man çox olar.

Kazım qaçmış, Telman təklənmişdi.

Ələsgər,çox saf-çürük eləyib ömürlük dam-ğalı gəzməyin xəcalətindənsə, nəsə eləməyin vacibliyini dərk edərək, bizdən düz 10 yaş bö-yük olan, çox çəpik, əldənisti

qara Sabirə pənah aparmış, bacısı oğlunun darda olmasını ona an-latmışdı.

Qara Sabir bunun artıq SOS siqnalı olduğu-nu anlayaraq Ələsgərlə Nüşabə kino-teatrının qabağına götürülmüş və öz sözü olmasın, özüy-lə hər ehtimala qarşı, qəməsini də qamarlamağı unutmamışdı.

“Bacıoğluna tarixi kömək məqamıdı!“- de-yirmiş.

Ələsgərin dediynə görə qara Sabir qəzəb və hiddətindən ağappaq ağarıbmış.

Qarşılarina çıxan, Bərdənin ilk müəllimə qəhbəsi,özündən sonrakılara məşəl olacaq Tel-li müəllimə, səbəbi müəmmalı olsa da, dərhal canıyananlıq eləyib:

“Adım olmasın, Səməd Vurğun, C.Cabbarlı kolxozları tərəfə, Canavarlı meşəsinə gediblər, Sahib telefonda həyəcanla kiməsə deyəndə qu-laqlarımla eşitmişəm,” -deyər.

Onlar da cəld taksi tutub...

Xoşbəxtliyin xəmiri yoğrulmuşdu.

Sarsılmış Telman girov saxlanmış, Kazım isti yuvasından qovulmuş it kimi təzib getmişdi.

“Oturun avtobusa!” -amiranə şəkildə özü-müzünkülərə bildirdim.

İman mühərriki işə salıb gözlədi və söh-bətin ciddi şəkil aldığını görüb tez də söndürdü.

Paxan cəld soruşdu:

“Bəs Telman?”

Onun üstünə qışqırdım:

“Nə Telman, Telman salmısan əə? Cındır!

MAKAPOB silahı olmasaydı telli Kazım çox-dan xəncər və ülgüclə bağırsaqlarını yerə tök-müşdü! Barı, vay-şivən qoparıb araya da girə bilmirdi?”

Bozarmış Vaqif kişilənsə də kəkildədi:

“Onda, qozman gədə qoy qalsın burada, əgər Canavarlı meşəsində doğrudan da cana-var qalıbsa, onlara yem olsun!”

Mikroavtobus lal sükutu pozub səs-küylə geriyə döndü...

Artıq, tarix yazılmışdı!

Sən demə, biz “jurnaldan” salamat və şə-rəflə çıxmışıq, “konsert” hələ qabaqdaymış!

Qara Sabirlə Ələsgəri Diş poliklinikasına düşürüb, paxanı evlərinə qoyandan sonra həyə-timizə gəldim. İman da mikroavtobusla Yevla-ğa,-iş yerinə qayıtdı.

Telman Qarayevlə Kazım bizim aləmimiz-də əbədiyyətə qovuşub tarixə gömüldü.

Soyunub yerimə girdim.

Bərk həyəcan keçirmiş, əsəb gərginliyi ya-şamışdım. Çox yorğun idim.

Qərara gəldim ki, yatıb dincələndən sonra MAKAPOB tapançasını aparıb bibimgilə verərəm:

“Qaçhaqaç deyil ki!?”

Bir zaman, nə qədər ötdüyünü təxmin edə bilmədim, anam oyatdı ki, səni telefonda kimsə gözləyir: “Çox vacib işim var,” -deyir.

Geyinib, telefon aparatı qoyulan yerə get-dim. Dəstəkdən tanımadığım bir səs hökmlə doğrayıb tökürdü:

“Siz qaydaları kobudluqla pozmusunuz... Əliyalın uşaqlarımıza odlu silahdan atəş açmı-sınız. Hesab yenidən çəkiləcək!”

“Əliyalın? Kimsən sən?” -soruşdum.

“Vaqif Şərifov!”

Təmkinlə dilləndim:

“Tüstü gərək bacadan düz çıxa, əyilməyə... Xəncərlə qatlama ülgüc çıxanda, tapança da çı-xar, pulemyot da, hələ desən bomba da... Ha-rada? Neçədə, necə görüşək?” -soruşdum.

Gərək, Kazımla Telmanı körpə quzu kimi sümüyünə, ya lap elə sərçə kimi kababda sü-müklü yeyəydik...- ürəyimdə fikirləşdim.

Saymazyana və şəstlə:

“Elə indi, bu saat,” -dedi.

Ölüm yuxusundan ayılmış kimi:

“Ölümqabağı qanlıbıçağa harda çıxırıq?”-ironiyayla soruşdum.

Padzəhər içmişlər kimi arın-arxayın:

“КСТАТИ, Zahid əmigil istirahətə gedib, on-ların həyətinə yığılmışıq,” -dedi.

Hoppa! Tələ düzəldib həriflər!

Qəliz məsələydi, -deyəsən qalstukun ilgə-yini düyün salıb dolaşdırmışdıq.

Tanrının məhəbbətindən yaranan bu in-sanlar görəsən niyə dinc dayanmırdı?

Qanuna, ədalətə qalanda Şəhla onlara çox yaxın, dedikləri kimi lap Kazımın xalası qızı olsa da, onun özünü tərbiyə edib yuvacanlı eləməliy-dilər...

Günün yorğunluğunu üstündə gəzdirən na-zik ayaqlarım nədənsə ayqır at ayaqları kimi yer “eşirdi”...

Vızqırt! -da deyə bilərdim.

Amma demədim.

Ağıllı insan lüzumsuz yerə, lüzumsuz işə getmir...

Kazım əvvəl gözünün, sonra dilinin, sonra ülgüc-xəncərinin, indi də artıq əməlinin girovu-na çevrilmişdi.

Səbr - qazanc deməkdi.

Paxan Səfərin tülkü sələfi, qurumuş atası Bəyləri bay eləmişdi, qalmışdı məni bay eləmə-yi. Öz sözü

olmasın:“КСТАТИ, bir dəfə atamı eş-şək balası kimi döymüşdüm...” Elə-beləcə də danışardı. Amma, neyləmək olar? Qonşu idik, biryerdə böyümüşdük. Keçmişimiz uşaqlıq xati-rələriylə doluydu, ata bilmirdim...

Bir qədər düşünüb, laqeyidliklə:

“Konkret elə!” -dedim.

Nəfəs belə dərmədən:

“Gəlin Zahid əmimgilə!” -qısa və kəsə ca-vab verdi.

Deyəsən ləxləxə salmaqda qərarlıydılar.

“Yaxşı...” -deyib, dəstəyi yerinə basdım.

Qalın yun döşəyin altından ağır, soyuq ta-pançanı əlimə götürəndə, ürəyimə yenilməz tə-pər gəldi.

KOPOLUNUN ODLU SİLAHI!

Telefonun zəngi yenidən evi başına götür-dü. Sapsarı, klassik üslubda hazırlanmış telefon aparatının ağır, şunurlu dəstəyini qaldıran kimi paxan Səfərin qurumsaq sələfinin titrək, nəfəs-dən düşmüş, həyəcanlı səsini eşitdim:

“Babı Cavadın oğlu evimizə zəng vurmuş-du! Yenidən dava istəyirlər! O “şeyi” qaytarma-mısan?”

Dəsdəkdə nəfəsi xışıldayır, qorxduğu, əs-diyi aydınca hiss olunur, səsi tez-tez tutulur, xı-rıldayır, səsindəki ümidsizlik aşkar duyulurdu.

Tərslikdən, iri bir atmilçəyi də haradansa, -yatanda pəncərənin cunasız gözünü açıq qoy-muşdum, görünür ordan keçib, - peyda olub başımın ətrafında dızıltıyla dövrə vurur, rahatlıq vermir, hərdən də ağ balıncın üstünə qonub dal ayaqları ilə uzun qara qanadlarını sığallayırdı. İrigözlü qara atmilçəyi vızıltıyla səs salıb otağı tez-tez dövrə vurur, hərdən də bağlı pəncərənin şüşələrinə özünü çırpıb azadlığa çıxmağa yol axtarırdı...

“Ə...az danış, dava paltarını geyin, gəl bi-zə.”

Artıq toran çalmışdı.

Ütəlgi paxan qarğıya-qarğıya gələndə tele-vizorda “Axşam görüşləri” konserti yenicə baş-lamışdı.

Telefon bir də zəng çaldı. Yenə babı Cava-dın yerə-göyə sığmayan yekəbaş oğluydu:

“Söz danışmışıq, nə oldu?”

Rəngiqaçmış paxan, qulağıma pıçıldadı:

“Qoy vızqırtsınlar! Şortu Fatmanın bacısı qızı Şəhladan ötəri nə ölməyə, nə də öldürməyə dəyər. Bir hadisə baş versə onlara özünümüda-fiə də düşür...”

Əlimi sapsarı, nəcibanə deşikli dəstəyin səs gedən hissəsindən çəkib, xəyalpərvərliklə:

“Varlığın sonu ilə yoxluğun sonu birdir. Ya-rım saata oradayıq,” -dedim

Və dəstəyi üstünə atdım.

Ağır, soyuq tapançanı arxa tərəfdən arıq belimə, şalvar kəmərinin altına taxıb, soruşdum:

“Bəs Kazıma meşədə dedin ki, nə bilirsən Şəhlanı almayacağam? Aldadırdın onu?”

Onun alnında şeh damlasına bənzər bir neçə tər damcıları göründü... ötkəmliklə:

“Qardaş mənlik deyil, nə biçinini biçirəm, nə də ayranını içirəm. Bu gədəgüdəynən, kənd-də örüşə-novata gedənlərlə xirtdəkləşmək, yaxa cırmaq, ya bıçaqlaşıb nahaq qan tökmək bizə yaraşmaz. Tələbəyik, qazamata düşmək...”

Onun ağzını qapadım:

“Nifrin tökmə! Əldə ölməyəcəksən! Nimdaş kürkə bürünüb paxan Səfər kimi kefli vəziyyətdə tində-bucaqda fısıldayıb yatanda səni nə vaxtsa, şahmar ilan çalacaq, vaskı kimi qorxma!” -deyib, onun qolundan yapışaraq çölə dartdım.

Fəqət...

РЕЌВИЕМ əvəzinə televizorda şən bir mah-nı oxunurdu.

Ayaqqabılarımızı geyinib çıxdıq.

Nəfbərdar, nitqpərdaz nədim Vaqif müdhiş bir qorxu içərisindəydi. Özündənbəy əclaf, məni zibilə salıb, indi də cihada getmək istəmirdi.

Yolboyu onu danlayıb ürəkləndirdim.

Mərkəzi Kolxoz bazarının qabağına çatha-çatda stragediya və son taktikanı ona başa sa-lıb xırdalayırdım:

“Giririk həyətdən içəri və dərhal mövqe tu-turuq. Özünümüşahidədən sonra yan-yana da-yanıb hasara söykənirik ki, özünüdartanlar ar-xadan bizi vura bilməsin.

Qarşıdan bıçaq, tüfəng, ya başqa silahla gələn olsa atışacam.

Adam vursam, atışa-atışa geri, çıxışa doğ-ru çəkilirik. Sən dərhal qapının arxa sürgüsünü açırsan...

Padşahpərəst Zahid həkimin, -diş həkimiy-di- qədim bəylərə, xanlara məxsus düzəltdirdiyi dəmirqurşaqlı taxta darvazalarının qabağında dayanıb, içərini dinşədik.

İlahi məqam idi!

Vaqifin gözləri ölüşgüləmişdi, üzə düşüb gəlmiş və dalğınlıqla nəsə düşünürdü.

Tin uşaqlarıyla dava eləmək, cəsarət, sə-bat tələb edirdi.

Gülümsəyib onu ürəkləndirdim:

“Xeyirli sabah axşamdan başlayır!”

Qəflətən... Qoruq-qaytaq bilməyən qorlan-mış Vaqif qeyrətə gəlib, taxta darvazanın sağ yanındakı dəmirdöyəcləyənlə qəhrəmananə tərzdə qapını döydü, pafos və mübaliğəylə:

“Ölmək, ölməkdi, xırıldamaq nə deməkdi əə...”- qışqırdı.

Hisslər pulla alınmır...

Sanki bu an qovrumgözlü, qəlbiqara, qeyri-qəti paxana hardansa güc, qorxmazlıq gəldi.

...Bu an hansısa bir nəvazişkar əl, nəza-kətlə, astadan qapını açdı. 13-14 yaşlı qəlbaçan, sütül bir oğlan uşağıydı.

Və bizi içəri dəvət eləyib geri çəkildi...

Həyətə girən kimi təklif olunan tərəfə yox, arxamızı əhənglə ağardılmış suvaqlı hündür ha-sara söykəyib yan-yana dayandıq, hərbi dildə desək mövqe tutduq.

Gizlincə əlimi son dəfə aparıb, lüləsi buz kimi soyuq silahı yoxladım.

Həyətdə, üstü barla dolu hündür nar ağac-ları ətrafında çoxlu uşaq qaynaşırdı.

Qızarsa da, hələ tam dəyməmiş, heç nə-dən xəbərsiz iri nar meyvələri, naz və ərklə bu-daqlarını əməlli-başlı əymişdi.

Yarıqaranlıq bir hissədə manqal alovlandı.

Yan-yörə qurdeşənəyinə bənzəyirdi.

İkinci mərtəbənin tüllü pəncərəsindən pər-də aralandı və işığı dərhal sönən qaranlıq otaq-da, -kənardan düşən işıq fonunda kimsə içəri-dən boylanırdı...

Dəmkeş, züytutan deyəsən çox idi.

Uşaq bizim lal-dinməz və tərpənmədiyimizi görəndə, qaçıb ağacların arxasında itdi.

Həyət zülmət qaranlıq olsa da evdən dü-şən işıqların fonunda qorxunc kölgələr elə hey uzanır, qısalırdı.

Əvvəl bir az məyus, bir az da pərt oldum.

Amma, paxana bildirməsəm də ürəyim sa- kit idi. Onlar bizi Canavarlı meşəsinə yox, evə dəvət eləməkdə, pasan Vaqiflə telli Kazımı qa-baqqabağa kəllələşdirmək və sonra da kimin udub-uduzmasından asılı olmadan ortalığa "Ba-rışıq təklifi" atacaqdılar. Bir sözlə: Mənə elə gə- lir, məsələ bununla da qapanmalıdır...

Qarınağrısına düşmüş fitnə-fəsad ölüsü, pələqulaq Vaqif qulağıma pıçıldadı: "Ətim çiyrə-nir... Qan düşmənçiliyi düşməsə yaxşıdır..."

"Qorxma paxan, burada biz müsafir deyilik, hesab çəkməyə gəlmişik. Ölsək Müşfiq, Əhməd Cavad kimi qəbirsiz qalmayacağıq."

Beynimdə düşünürdüm: Uzaq-uzaq, fəsil-siz kainatda səfbəsəf uçan sırğalı, qayğısız dur-na qatarı kimi, biz də ruhlara qoşulub qalaktika-da uçacaq, yaz küləyi kimi o baş- bu başa əsə-cəyik? Yer kürəsi də babı Cavadın,- ayağında dərin yanıq yarası olan- qavaralı oğluyla, özünü irlandiyalı futbolçu Corc Bestə oxşadan, saçları-nı uzadıb, uzun boynunun arxasından kürəyinə kimi tökən Kazım və Motor Qılışdısından olan barama Cəfərin ortancıl oğluyla, öz maili oxu ət-rafında fırlanacaq, vaxt-vədəsi çatanda da onla-ra fəsillər gətirəcək? Biz də ki... ruh olub, o biri dünyadan, - əbədi axirətdən- növbəti qitənin üs-tüylə uçanda

deyəcəyik: “Ehh...hardasan ey gö-zəl Afrika, Okavanda deltası, göllər diyarı!

Götü ağ marallar!

Bataqlıq generalları, - timsahlar!

Hardasan ey qoca Şərq? Ey qoca Şərq kü-çəsi! Xuramanımı ərə verib köçürmüsən? Qara gəlinlik paltarında getdimi?

Şərq döngəmizdə, başı ağ araqçınlı hal-vaxar mollalar Babayev Əlinin qurdurduğu ucu-bucağı görünməyən yas mağarımızda doyunca halva yedilərmi? Heyratı ipək kələğayılı nənəm Xədicə, anam Fatimə, bibim Həvva üz-gözlərini didib, saçlarını yoldularmı?

Biz dəfn edilən gün, qəhbə Telli müəllimə-nin kəkilli oğlu Sahib, barama Cəfərin gülməşə-kər oğlu qaraşın Telman, uzunsaçlı gədə, qadı-nabənzər bəhrəsiz Kazım və babı Cavadın bir ayağı dərin yara almış qavaralı oğlu Vaqif Şəri-fov... Kama catıb, xoşbəxt oldularmı?

Həddi-buluğa buna görəmi çatmışdıq?

Eyyy... Sonsuz cəsarət sahibləri! Həddini aşıb bizi tərki-vətən eləmək istəyənlər, indi çıxın qarşımıza görək!

Hallüsinasiyaya tutulmuşlar!

Bəlkə yerlərimizi dəyişdik?

Əbədiyyətə, əbədi dünyada siz, yalan dün-yada biz qalası olduq?

Xuramanı qoyub hara gedirəm?

“Ya... nakam sevgililərin, ya qürbət ellərdə çörək pulu dalınca gedənlərin son ümid çırağı! Yaa... yad ellərdə vətən qoruyan əsgər pənahı! Səmaya üz tutub, ağ araçqınlı molla Xeyrullanın cəddini çağıraram,” -deyə, qəhbə Baharın pa-xan oğlu nisgil dolu, arvad-arvad elegiya qoxulu nostalji qarğışlar yağdırdı.

Müharibə, döyüş peşəkarların işidi, -de-yənlər, deyəsən yanılıblar.

Ürəyimdə fikirləşdim ki, niyə?

Lap bizim kimi tələbələrin də, tin uşaqları-nın da işidir... Akademik Ziya Bünyadov Sovet İttifaqı Qəhramanı deyildi?

Qəflətən, həyətdə divar boyu işıqlar yandı. Və haray-həşir, qalmaqal, vurnuxmayla cüvəlla-ğı toplumdan tələsik düz yeddi nəfər uşaq ay-rılıb, birlikdə iti addımlarla bizə tərəf yanaşdı.

“İncəvara işıq yandı... Yaxşı oldu,” -Vaqif qulağıma pıçıldadı.

Babı Cavadın oğlu qavaralı Vaqif Şərifov, silah asmaq üçün çiynindən aşırılan qayışla hə-mail asmış Kazım və qaraşın Telman Qarayev gələn hallı uşaqların önündəydi.

Paxan, son dəfə molla Xeyrullanın... ürəyi soyumayıb sonra molla Əlinin də cəddini çağır-dı və üzünü göyə tutub yalvardı: ”Ya Allah bizə həkəm göndər!”

Ölüm şərbətini kim içəcəkdi?

Yeddisi də qarşımızda sıralandı.

Vaqif Şərifov dəstənin başçısı və ev yiyə-si kimi ilk dilləndi:

“Uzunçuluq eləməyək, necə oldu xırdala-mayaq, günahkar Vaqif Hüseynov dizləri üstə Kazımın ayağına düşüb üzr istəsin və hər şey də bununla qapansın!”

Paxan sanki razıydı.

Rəngi duruldu... məzlumcasına, heyrət və diqqətlə üzümə baxdı.

Kazım zəncir gəmirsə də dillənmirdi.

Sələf ürəyində şərtə razı olsa da, bundan yaxşı başqa heç nə tapa bilməyəcəyini içində gizlincə düşünsə də, məni basdalayıb hökm ve-rə bilmir, təklifi şüuraltı qəbul eləsə də məndən vaz keçə bilmirdi.

Qəhbə Tellinin, bir quru çörəyə möhtac qa-rınafətir oğlu, kəkilli Sahib fərəğət dayanıb girdə, yumru gözlərini döyə-döyə:

“Şərifov bizim mürşüdümüzdür!” -dedi.

Şərifov çönüb əlinin dalıyla onun ağzına yağlı bir şapalaq ilişdirdi və qışqıraraq ilk nota-sını verdi:

“Nə vaxt tülkü olsan, çarığımı çeynərsən. Böyüklər danışanda kiçiklər qulaq asar, mırılda-ma! Müadilimiz deyilsən, suss...”

“Günah qızındır!” -dedim.

Nitqpərdaz, ümid yeri olduğunu dərk edib, tapança kimi açıldı:

“Heyvan iyləşə-iyləşə, insan anlaşa-anla-şa məsələləri yoluna qoymalıdır. Heç nədən də çox şey yaranır... Hər şeyin arxasında intellekt dayanmalıdır. Biz Bakıda çox şeylər görmüşük... Hər şey göründüyü kimi deyil. Ən böyük kapital ziyalıdır, bu insanlığın bir danılmaz faktorudur. Biz də çalışarıq ki oxuyub, bu gün-sabaha, bu millətə nəsə verək... Müalicəpəzir olaq...

Şəhla bu gündən mənim bacımdır!”

Kazım Şərifovdan üzr diləyib, çəmkirdi:

“Çırtmaya oynama əəə! Son mahnını notla oxu! Çatlaq!”

Özümü saxlaya bilmədim:

“Paxan deyir, amma dediyi kimi düşünmür. O heç kimin ayağına düşüb üzr diləməz, amma ölümüylə barışar!”

Kazım odlandı:

“Babayev! Sən, qəhbə Baharın dərisi beş qəpiyə dəyməyən oğlunun yolunda dostluq bor-cunu qədərincə verdin, kənara dur onunla tək-bətək, kişiyana məsələni həll edək!

Müaqib olma...”

Şorgöz paxan, artıq geri çəkilməyəcəyimə tam əmin olduğundan saçının tükü duruldu və kefikök halda ayağımı

basdalayıb, harınlıqla, -Rusiyada uzun müddət məhbus həyatı yaşamış atası “türemşik” Bəylərdən öyrəndiyi:

“ПОШЕЛ К ЧЁРТУ! Bala... mən çayı ördək ki-mi üzəndə sən hələ anadan doğulmamışdın... Şəhlaya de ki: Nə elə vəslin olaydı, nə də belə hicranın,” - iri-iri dedi...

Hamı heyrətə gəlib içini çəkdi.

Düzü heç kim bunu gözləmirdi.

Kazım тупикə dirəndi...

Amma, babı Cavadın oğluna nə söz ver-mişdisə içini yeyir, dodağını gəmirir, yumruqları-nı düyünləyirdi...

Və qəflətən qışqırdı:

“Sənin ananı, bacını... “belə-belə” eləyim, qaz, ya ördək kimi üzməkdənsə, məclislərdə, yeməkxanalarda onun bunun hesabına müftə yeyib dərisi bir qəpiyə dəyməyən vəzifə sahiblə-rinin şəninə, sağlığına tost deməkdənsə... get qonşularınız Əyyub kişiylə, Əli Babayevlə, kişi-lər hamamında kisəçəkən tüklü İbrahimlə, taksi sürən Fərmanla, ləçər anan Baharın həftə sək-kiz, mən doqquz çıxartdıqları “minbir oyunları” araşdır, ay oğraş! Qurşağacan poxdasan, dəri-nə saman təpərəm!”

Babı Cavadın oğlu, hədərən-pədərən danı-şan Kazımın ağzını qamarrıyıf, zorla yumdu...

Tətik çəkilmiş, güllə lülədən çıxmışdı!

Bu hədyan sözlər hədəfi НАГАНdan da pis deşdi... Dəlik-dəlik elədi...

Amma, paxan sanki altdan zirehli qoruyu-cu geyinmişdi. Güllələr ona girmədi və əvəzin-də, yenicə huşa gəlmiş kimi:

“Sən get, özününküləri araşdır!

Yoxsa, topal Müseyib kişinin, -kişi demək caizsə- arvadı rus Tamaraya Sevil Bayxanova-nın anası alverçi Tamara kimi sonda bıldır-bıldır yaş axıdacaqsan!

Paxanın ağzını yumub:

“Qəbahətləri nə qədər çox olsa da, Tanrı-dan verilən ana payınıza hörmət qoyun! Elə elə-yin, üzünüzə xeyirli sabahlar açılsın...”

Gələndə bu xatadan, qorxusundan nə tövr qurtaracağını düşünən paxan, indi yellənmiş, bir sözlə: Mətbəxin havası artıq dəyişmişdi.

Vaqif Şərifov necə oldusa, qəflətən coşdu və yenidən Vaqif Hüseynova ilişdi:

“Babayev, sənə “paxan Səfər” ləqəbini elə belə verməyib! Ara qarışdırma! Dizlərini qoy ye-rə, düş Kazımın əlinə-ətəyinə, döşən Babaye-vin ayaqlarına, adam bu qədər də şortu qəhbə-lik eləməz! El qaydasıyla elçi gedib barmağına nişan üzüyü taxdığın halalca nişanlını, qrup yol-daşların elçilikdən heç 40 gün keçməmiş Bakı-da, NİZAMİ kinoteatrında başqa oğlanla qolbo-yun tutmadılarmı? Kişisən sən? Get başına gül-lü kəlağayı bağla!

Qurumsaq! Mənsəbsiz! Məsləksiz!”

Paxanın rəngi yenə qaçdı: “Birdən, soğan kimi soymazlar?”

Xoflandı, sanki babı Cavadın qavaralı oğ-lu Vaqifin növbəti XOДu onu seytnota salmışdı.

Beyni qığırdışdı... Şərifov onun gözlərində qorxunc, azman bir quleybaniyə çevrildi.

Kimsə, manqalın gur alovu işığında kimə-sə, bakılı ləhcəsiylə, şirin-şirin xırdalayırdı:

“Səəər tezdən, adəmdən xatəmə...”-əvvəli-ni eşitməmişdik...

Dərhal paxan ayağımı basdı. Bu o demək idi ki, söhbət “səhər”dən gedirsə, deməli qorxu-su yoxdu, yaşamaq şansı hələ gündəmdədir.

Növbəti nitqi söylədim:

“Şərifov! Kazım küçə söyüşləri söyə-söyə Vaqif Hüseynovun günahını tam yudu. Artıq he-sab bərabərdir. Məsələni uzatmağın xeyri yox-dur, heç vaxt paxan üzr istəməyəcək. Kazım, ya kimsə ona əl qaldırsa, qarşısında məni görəcək. Amma Şəhlayla da əlaqəsini kəsəcək. İdiotcası-na inad eləyib əlaqəni kəsməsə, siz deyəndir!”

Axır ki, Telman Qarayev də dilə gəldi və uzun bir monoloq söylədi:

“Görürsən də... Babayevin də, mənim də, Şərifovun da, Kazımın da ana-bacılarımız haq-qında heç kəs, heç nə danışa bilmir. Ocaq yan-masa tüstü çıxa bilməz! Sən get ananla bağlı söylənənləri araşdır.

Bebişin bacısı “o yola” düşdü, böyük qar-daşları Rahid Behbudov, dopdoğmaca bacısını Kür çayında boğub, aradan götürdü.

Üçtəkər motorelsürən Zöhrab...

İnternat məktəbin direktoru Rafiq və Tahir Ağayev qardaşlarının bacısı Zöhrə müəlliməylə Nüşabə qalasında analüt tutuldu.

Görürsən, yalançı “Berlin komendantı” Sol-tan kişinin, -kişi demək caizsə- oğlanları, oğraş-lığı boyunlarına götürüb adam içinə çıxmırlar.

Bax bu, -barmağıyla qəhbə Telli müəllimə-nin oğlu, kəkilli Sahibi göstərib:“Boynu qıldan da nazikdi, otur desən oturur, qalx deyirsən qalxır, neyləsin? Amma sən... Çox bərk gedirsən, bil ki, bu sənə yaraşmır!”

Baharın böyük oğlu Vaqif, sanki bataqlıqda xirtdəyəcən batırdı:

“Mahnınızın son sözünü deyin, biz gedirik! -qətiyyətlə qışqırdım.”

Qavaralı Şərifov, heç kəsin gözləmədiyi in-cə məqamda noxudu güldü: “Babayev, qal qo-nağımız ol! Manqala köz düşüb...”

Tamadalıq illətinə tutulmlş nitqpərdazın ölü gözləri, ac canavar gözləri kimi işıldadı.

Minnətdarlıqla:

“Şərifov! Dəvətinə görə sağ ol, amma, baş-qa vaxta qalsın...”

Şükür, ədalət zəfər çaldı!

Qəhbə Telli müəllimənin oğlu cəld yüyürüb taxta darvazanın kiçik gözünü açdı.

Biz çölə çıxanda, idraksız paxan onun qu-lağına qaranlıqda nəsə dedi.

O da incik halda qayıdıb buna:

“Почему ейй...” - cavabını verdi.

Qəliz Şəhla sindiromu, bax beləcə, qanla yox, sülhlə çözüldü...

“Buğdabitləriylə gərək bir balaca da olsa, təam edəydik...Sabahdan köynəyinin boyun his-səsinə, ya alt maykanın yaxasına gözmuncuğu asacam,”-paxan quyruq bulayıb, pişikləndi...

Kolxoz küçəsinə getdik.

Həqiqətin ağ çiçəyi, -qırmızıyla çalan, palıd rəng dəstəkli, qara lüləsi meyid kimi sopsoyuq silahı bibimə təhvil verdim.

Bu da sizə, özünü irlandlı Corc Bestə bən-zədən, bərdəli telli Kazımla yaşanan əcəl küləyi əhvalatı...

Müsəlman əsgərlərin hamısı diqqətlə, ruha qida olan musiqi kimi mənə qulaq asırdı.

Mürşüd kişi-kişi:

-Gərək ataydın! - bərkdən qışqırdı.

-Kimi ataydı? - təəccüblə, az qala hamı bir-dən soruşdu.

Mürşüd ciddi dayanıb, qəflətən dedi:

-Meşədəki o iki dovşanı!

Ədalət ayağa qalxıb, Mürşüdün qolundan yapışaraq:

-Gəl oynayaq, -qışqırdı.

Yenə hamı birdən:

-Nə oynayaq?

Ədalətin göy dodaqları qaçdı, əlinə ağ mel əvəzi bir gipsoplitə qırığı götürüb, beton döşə-mənin üstünə geniş yumru çevrələr çəkdi. Ağ-zındakı siqareti kənara tolazlayıb, qoşa ayaqları üstündə çevrənin ortasına tullanaraq, hoppanıb düşə-düşə baxça oyununu ehtirasla oynamağa başladı: Зилина, Зилина... Норра литса Зили-на! Анука ПОВЕРНИСЬ!

Yenə ağız deyəni qulaq eşitmirdi.

Yenə növbəti bir əsgər günü can verirdi...

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Sürətlə gedən yük maşının kuzasından tərsinə

hoppanan oğlan

Odessa, 30 və 31 avqust 1972-ci il.

III və IV günlər.

Son günlər idi.

Sabah artıq avqust ayı başa çatır.

Avqust ömür sələnaməmə 16 yaşlı çex qızı, praqalı Yitkanı verdi.

Yitka tanıdığım qızların ən gözəli, şıltağı və fərasətlisiydi. Onu qatarla yola salandan bir həftə keçsə də, xatirəsini Məcnun kimi gecə-gündüz kövrək hisslərlə yaşayıram.

Xeyli vaxt idi ki, dəniz idmanına gedə bil-mirdim. Havalar da xeyli sərinləmişdi.

Bu səhər dünya ağarmamış qalxıb dənizə getdim. Odessa şipşirin sübh yuxusundaydı...

Dan yeri yenicə sökülsə də, çimərliyin tən-tənəsi qəlbimdə qürub edirdi. Yitkayla bacısı Dano bu balıqqulaqlarıyla dolu qumlu sahillərin avqust tacı idi.

Qəlbim kimi, onlarsız Qara dəniz də qərib-səmiş, soyumuş çimərlik elə bil ki, tamam ögey-ləşmişdi. Hər yanda köç xofu tüğyan edirdi.

Çimərliyə gələnlər də yarıbayarı seyrəlmiş, insanların azlığı sanki dənizi yetimləşdirmişdi.

Dəlisov dalğaların da sifəti bozarmışdı, öz-lərini hirslə, hikkəylə dayanmadan elə hey sahi-lə çırpır, sahili qorxudub, çimərlikdəkiləri sus-durmaq istəyirdilər.

Dəlisov sahibi olan kirəkeşlər, öz uşaqları-nın üstünə səssiz çığırırlar. Kirri ayaqlı kirəkeş körpələr də yadlıq psixologiyasından və qorxu-larından, səssiz- səmirsiz içlərində çığırışırlar.

Mənə elə gəldi ki, dəlisov dalğalı çimərlik də bu gün beləydi...

Könülsüz, rezin və qantelləri qumdan çıxa-rıb, Yitkanı dəniz paltarında düşünə-düşünə, id-man təmrinlərini ardıcıllıqla yerinə yetirdim.

O... dünyanı yaraşığa salan, nənəmin sö-zü olmasın, mazamata mindirən qızlardan idi, - ipatdı oynamağa layiq, gözəl, ərköyün, sədaqət-li və şıltaq, həm də avropalı...

Səhər yeməyindən və razvoddan sonra əsgərlərimin işini bölüb yerbəyer elədim.

Güclü yağış yağıb yenicə kəsmişdi.

Kazarmadan ЧАЙКА-3-ü də götürüb təpər-siz Mürşüd və kuybışevli Hüseyinlə binanın çar-dağına çıxdıq.

Şəhərin panoraması buradan möhtəşəm görünürdü. Səmada, insanın ruhunu oxşadan, rəngarəng yarımdairə şəklində göy qurşağı,- qövsi-qüzeh bərq vururdu.

Saf təmiz havada, müxtəlif pozalarda bir-birimizin fotoşəkillərini çəkdik.

Mürşüdlə Hüseyin uşaq kimi bir-biriylə za-rafatlaşırdı: Hüseyin sağ əlini qaşlarının üstünə çətir kimi tutub uzaqlara baxa-baxa:

-Mürşüd, baax bu yol, -o geniş prospektə aparan magistral yolu göstərib, -bu yolu kəndir kimi al əlinə, tut ucundan... Səni düz aparacaq Laçın dağlarındakı yanıbalalı boz eşşəyinin ya-nına. Səni görən kimi xotux sevindiyindən bilir-sən necə anqıracaq?

Təpərsiz Mürşüd iri ağzını çənəsinin sonu-nadək aralayıb əsnədi, dərindən gərnəşdi və:

-Həə a bajı... Sən öləsən altdan geyinif, üstdən qıfıllanıf bu yolu əlimə alıf gedəjəm... Bu yol Ağcabədinin əyiş-üyüş Kuybışev kəndində düz sizin əvə girir. Əvdə qğğəə... inqəə... eləyə-niniz varmı? Əmzikdən, şirniquşdan verim qayı-dım... Əvə başqa sözün yoxdu?

Fotoaparatın lenti dolana kimi çıqqa-çıqla çəkdik. Çardaqdan enəndə hardansa beynimə girən hikmətli bir məsəli söylədim:

-Nə sal ilədir, nə mal ilədir. Mürşüd, ululuq kamal ilədir...

Zamorayev məni gözləyirdi.

Pəncərələrini əsgər odeyalları ilə tutub zül-mət qaranlıq yaratdığı zirzəmidəki suvaqsız, rü-tubətli otaqda Zamorayev ПРОЯВИТЕЛЬ-lli sudan fotolenti çıxarıb taxta sancaqla ipdən asdı.

Suyu damcılaya-damcılaya baxdım: Ota-ğın tünd qırmızı işığında, ağ-qara neqativ foto-lentdə hər şey əksinəydi. Qara saç ağ, ağ sifət qapqara düşsə də, aydın çıxdığı aşkar bilinirdi.

Qalırdı БУМАГА alıb, fotolent quruyan kimi fotoşəkilləri çıxartmaq.

Kamalsız Mürşüdü БУМАГА almaq üçün şə- hərə, Deribasovskaya yolladım.

Təpərsiz, laçınlı ağırayaq yenə yarıtmamış qayıdıb gəldi. Fotoşəkilləri çıxara bilmədik...

Bu gün də Yitkaya məktub yazdım. Demək olar, bütün günümü praqalı qıza sərf elədim.

Əvvəl azərbaycan dilində, sonra isə yaz-dıqlarımı əsgər Нечепуренко ilə rus dilinə çe-virib, kövrək hisslərlə dolu məlhəm ürək sözləri-mi yanıqlı həsrətlə incələdim...

Axşam yeməyindən sonra pəltək Nazimlə Dusyanın buğlu hamamına getdik.

Hamamda Nazı məni kisələyir, mən də dil - boğaza qoymadan ona xarici qızlardan xatirə-ləri nostalji hisslərlə xırdalayırdım:

-Allahın məhəbbətindən insan, insanın məhəbbətindən isə musiqi yaranıb. Musiqi ilə söz vəhdət təşkil eləməlidir.

Qoşa qanad kimi...

Nazı qoşa əliylə tutduğu çılpaq, arıq qolu-ma qəflətən kisəni çırpıb:

-Yeməkxana işindən başqa məni heç nə mayaqlandıymıy, -dedi.

Bu da bu!

...Buğlu hamamdan sonra, yeməkxanada oturub, Yitkaya rusca yazdığım qəmgin sözlərlə dolu məktubu çex əlifbasıyla kəlmə-kəlmə, yaşıl üzlü kiçik tərcümə kitabından istifadə edə-edə axır ki, bitirdim. Bu tərcümə kitabı da mənə çox əziz idi, o bağışlamışdı. Qoymazdım tozlana...

Məktub səliqəli xətlə, çox yaxşı alınmışdı.

Onun Odessa Dəmiryol vağzalında çəkdi-yim dörd ədəd fotoşəklini də zərfə qoydum.

Allah qoysa, sabah bənövşəgözlü Kateri-nanın yanından АВИА sifarişlə yollayaram...

“Qastronom-kazarmada” xırda ИНСИДЕНТ yaşandı: Tağım komandiri, baş serjant Kaşşe-yevlə sıravi əsgər Baxşıyev mübahisə elədi.

Günah Kaşşeyevdə olduğundan araya gi-rib, məsələyə qarışmadım.

Kaşşeyev hirslənib bütün əhli-müsəlman-lara söydü və acıqla azərbaycanlıları ikinci sort, qara millət adlandırdı.

Xırsız Maarif və bizim əsgərlər dərhal aya-ğa qalxıb, kişi kimi onun cavabını verdilər...

O gedəndən sonra, bütün uşaqlarımızı yı- ğıb tapşırdım: Bu gündən sonra daha heç kim Kaşşeyevi eşitməsin, onu saymasın. Harda qırı-la-qırıla. O sizin çarlar, bu bizim şeyxlər...

Beləcə... Bütün günü Yitkanın məktubunu hazırlamaq və fotoşəklinə baxmaqla keçirdim.

Kaş ondan ilk cavab məktubunu alaydım. Bundan böyük arzum yox idi.

Son günlər ölüşkələmiş zampolit Boyko iki-yaruslu çarpayıların yanından ötürdü. Məni gö-rəndə irişib, yarıciddi, yarızarafat:

-Yerinizə ЗАМЕНА axtarın, -deyərək, tələsik, iri addımlarla keçdi.

Çox götür-qoy eləyib fikirləşdim: Əslində o nə demək istəyirdi? Bəlkə Pervomayskiyə qay-taracaqlar bizi? Huylayırdımı?

Nəsə mücərrəd işə oxşadı.

Gecə, yeni qəzet-jurnallardan xeyli oxuyub sonra yatdım...

Səhər, sübh tezdən, qəribsəmiş Qara də-nizdə bütün ПРОСЕДУРА-ları təlimata uyğun yeri-nə yetirib qurtardım

və səhər yeməyindən sonra Arkadiya mehmanxanasının ПОЧТ-una getdim.

Hava bozarmışdı.

Bənövşəgözlü Katerinam yox idi. Bu gün ölüvay görünən anası onu əvəzləyirdi. Çox sə-mimi görüşüb hal-əhval tutduq.

Yitkanın məktubunu son dəfə əlimlə sığal-layıb, ürəyimdə əzizləyib yola saldım. Katyanın anası zərfi surğuclayıb möhürlədi.

Hərbi hissənin ünvanını yazmadım, Katya öyrətdiyi kimi ДОВОСТРЕБОВАНИЯ göstərmişdim.

Aldığım açıqca-dəvətnamələrdən dördünü Pervomayskiyə,- Telman Mamedova, ikisini Tbi-lisiyə,- Tahir Ağayevə, birini də axıska türkü dos-tum Süleyman Zahidova, - Özbəkistana göndər-dim. Əsgər məktubu ayrı şeydi!

Zahidov sonuncu məktubunda özbəklərin adət-ənənələrindən maraqlı xəbərlər yazmışdı:

“Özbəklər yeməyi yerdəncə, -kilimin üstün-dən bardaşqurma oturub əllə yeyir. Onların tən-dir çörəyi bizimkindən beş-on dəfə böyük olur, və çörəyi əllə kəsirlər, bıçaqla günah sayılır...

Mollaya işban, -deyirlər.

Evə kişi gələn kimi arvadları dərhal güz-günün qabağına qaçıb üz-gözlərinə, alınlarına, yanaqlarına göy nöqtələr qoyur...”

Belə-belə işlər.

Bu gün bizim rotaya mayor rütbəsində yeni komandir gəldi. Özündən çox müştəbeh idi. İri-iri, hökmlü danışırdı.

Kazarmada oturub çox qanacaqla, səssiz-səmirsiz ona qulaq asırdıq. O vaxta kimi ki, sar-saqlayıb ağcabədili Nazıyla mənim briqadamın adlarını çəkdi.

Deyəndə ki: “Sizin hərbi xidməti qurtarma-ğınıza hələ 4 ay var,” - qiyamat qopdu!

Hamımız birdən huylayıb onu fitə basdıq. Mayor olanda nə olar? Əsgərin incə, hissiyatlı yerinə toxunmaq olmaz!

Bu ən azı, -günahdır.

Biz günümüzü saatımızı sayırıq. Artıq sa-bah sentyabr ayı girir, dörd ay nədi ay lotu? Bu gün-sabah, -lap dəqiqi 40-42 günə kimi ССРИ Müdafiə naziri əmr verəcək. Əmr verilən günün səhəri bizi tərxis eləyə bilərlər...

Yekədodaq, seyrəkdişli uzundraz mayor, -yeni komandirin ilk çıxışı beləcə fiaskoya uğradı. Bu gün, “onun ağır ayağından” günorta yemə-yini də nədənsə gec verdilər: 14:30-da.

Arada bir qədər uzanıb yatdım.

Axşamtərəfi, 17:30-da oyanıb özümü səli-qəyə salandan sonra ПЛАНЁРКАya getdim.

Hamımız əsgər çəkmələrimizi qara mazla sürtüb parıldatmışdıq.

Otağı maz iyi bürümüşdü. Çəkmənin dəri iyi qara mazla isti otaqda havanı tamam dəyişir, bu iy əsgərə xoş gəlir, əsəbi sakitləşdirir.

Yeni zabitlər və təzə təyin olunmuş ko-mandir,-bığsız, enlikürək sarışın mayor bizi da-nışdırıb qeydlər götürürdü.

Növbəm çatanda məruzə elədim: 13 M^2 ПЛИТКА, 42 ПОГОН МЕТР ОТКОС...

Elə bir ciddi narazılıq baş vermədi.

Bədənim qaşınırdı, -canımın müxtəlif yer-ləri köpəşiyib şişmişdi. Başımın tükləri uzansa da, saçımı qırxdırmaq istəmirdim. ДЕМБЛə indi-dən hazırlaşmaq lazımıydı, amma üzümü təraş etdirməliydim.

Yitka getdiyindən onun xiffətini çəkir, Katya yanımda olsa da, özümü yalqız hiss edir, ərin-diyimdən günü-günə satırdım.

Axşamtərəfi, ужин-dən одбой-a qədər ye-nə toplaşıb vurçatlasın salmışdıq. Ramizlə ağ-cabədili Nazı bir-birinə qoşulub ürəkdən, zil səs-lə muğam oxuyur, uşaqlar da dizlərinə, başları-na döyür, sinə vururdular.

Sonuncu proverkada laçınlı Mürşüdlə za-rafatlaşırdıq. Uşaqların uzunboğaz əsgər çək-mələrini yoxlayırdılar. Hamınınkı tərtəmiz idi.

Təpərsiz Mürşüd qəflətən məni elə kobud-luqla itələdi, az qaldı yıxılam.

Hamı baxırdı...

Pərt oldum və Mürşüdü qurşaqlayıb yerə çırpdım. Hirsim-hikkəm dərhal soyudu. Yoxsa əməlli-başlı dalaşacaqdıq...

Rotaya ОДБОЙ əmri veriləndən sonra, yat-maq istəməyənlərlə yeməkxananı açdırıb ora-ya yığışdıq.

Yenə ağzımızla fit çalıb oxuyur, oynayır, lağlağılıq eləyir, növbəti əsgər gecəsini əridirdik.

Yitkayla keçirdiyim 1972-ci ilin avqust ayını, ömürboyu da onun adıyla xatırlayacağam.

Avqust, ukraynalıların СЕРПЕНЬ adlandırdı-ğı bu düşərli aya, həm də Komsomolun müba-rək ad günü düşürdü...

Uşaqlarla avqustun son saatlarını yaşayır-dıq. Kəlbəcərli vaynösə Sahib qayışbaldır Tu-rabxana Səməd Vurğundan, Əliağa Vahiddən, M.Ə.Sabirdən satirik şeirlər oxuyurdu:

+++

Axşam olcaq uçeniklər

hərə bir madmazelin

Keçirib qol-qoluna kuçədə cövlan ediyor.

Sonyalar bunları tədris edəsiymiş, əcəba,

Uçitellər dəxi məktəbdə

nə meydan ediyor?!

+++

Yenə müsəlman əsgərlər cəmlənib, mülki vaxtlarda yalan-gerçək yaşadıqları maraqlı ha-disələrdən, hərə ağlına düşəni goplayırdı.

Kəlbəcərli, küyçü Sahib Əkbərovla laçınlı, göydodaq uzun Ədalət dirəndi ki, sən daha ma-raqla danışırsan, birini də sən başla.

Saat 23:47 idi.

Sonuncu əsgər avqustumuzdan cəmisi 13 dəqiqə ömür qalmışdı.

Yaddaşımı bir anın içində qurdalayıb başı-ma gələn, uşaqların bilmədiyi yeni əhvalat da-nışmalıydım, özü də nağıl, əfsanə, roman, film, gop yox, yaşanmış hadisə.

Birdən yadıma uzaq keçmişdən bir hadisə düşdü və yerimi rahatlayıb başladım:

“Hardasa... altı, ya yeddinci sinifdə oxuyar-dıq. Söz vaxtına çəkər, sentyabr ayı idi.

Bir neçə gün idi, bizi oxuduğumuz 1 nöm-rəli orta məktəbdən, Bərdənin ən ucqar kəndlə-rini əhatə eləyən Максим Горки adına kolxoza aparıb pambıq yığdırırdılar.

Bütün valideyinlər uşaqlarının çantasına dəftər-kitab əvəzinə mer-meyvə, qızdırılmamış yeyilə biləcək yeməklər, -əsasən mal, hind quşu ətindən hazırlanmış kotlet, kərə yağında qovrul-muş qoyun ətindən qovurma, mal əti, kartof so-yutması, bişmiş yumurta və meyvə şirələri, xiyar, kələm turşusu...

Kasıblar isə pendir-üzüm-çörək, paçal nar-lar, ağacın dibindən yığılmış qabıqlı qoz, suda bişirilmiş duzlu qarğıdalı, ya mürəbbə-çörək, ya da pomidor-xiyar-çörək qoyardılar.

Açıq havada pambıq yığanda adam ya-manca acır.

Qonşu Sərxan dayının oğlu Vaqiflə bir si-nifdə oxuyurduq. Birlikdə dərsə gedib-gəlir, tar-lada yerdən bardaşqurma oturub, sonsuz işta-hayla üzbəüz nahar eləyir, yanaşı da pambıq toplayardıq.

Dərd-sərimizi, iş-gücümüzü ortaq bölərdik.

O gün də, adi günlərdən biriydi.

Tarlada, pambıq kollarının arasıyla arxdan lilli su axırdı. Pambıqdan toxunmuş ağ maykala-rımızı dörd qatlayıb arasından, bu lilli suyu yün-gül alminium nimçəyə süzə-süzə içir, özümüzlə gətirdiyimiz yeməyi də üstündən yeyirdik.

Köpmüşdük...Nahardan sonra pambıq top-lamağa heç həvəsimiz qalmadı.

Saqi Sadıqov və “b” sinfində oxuyan Tari-yel Muradovla Məmməd Fətəliyev də bizə qo-şulmuşdu.

Qızların topladığı “ağ qızıl” dolu bardanla-rın hərəsindən bir çəngə pambıq çırpışdırıb birtəhər fartuxlarımızı yarılamışdıq.

Axşam “çəkisindən” sonra, toran çalanda bizim ”s” və “a” “b”, “c” siniflərinin oğlan uşaqla-rını üstüaçıq, ГА3-51 markalı köhnə bir yük ma-şınının kuzovuna doldurdular.

Qızları avtobus aparıb-gətirirdi.

Kənd yollarında günəşdən yanıb un kimi olmuş torpaq, ГАЗ-51 irəlilədikcə toz-tozanaq qaldırıb duman kimi bizi bürümüşdü.

Vaqiflə yanaşı dayansaq da bir-birimizi gö-rə bilmirdik. Kirpiyimizə, gözlərimizin içinə kimi ağappaq, un kimi toza batmışdıq.

Zarafatlaşır, dəcəl, dərs oxumayan bəzzad uşaqlar minbir oyun çıxarır:“Pulsuz pudra... Pul-suz pudra” - deyib, çığırışırdılar.

Uzaq olduğundan toz nəfəsimizi kəsmiş, yol bizi əldən salmışdı.

Axır ki, magistral asfalt yola çıxdıq.

Toz dumanından qurtaran kimi uşaq bir andaca yenidən canlandı.

Səs-küy, çığırtı, itələşən, güləşən, qoyma-haray başladı. Bir-birinə palçıqlı dil göstərən, bir-birinə tüpürən, söyən, bir-birini cırnadan...

Hamı bir-birinə qarışdı.

Siravi milis işçisi Heydər dayının kiçik oğlu Elman bağırırdı: “Tilsimli əjdahanın gözünü ox-la vurmasam, köpəyoğluyam.”

Məmməd Fətəliyev yolla gedən yaşıl ör-pəkli yaşlı bir qadını görüb bərkdən çığırdı:

“Xala, ay xala mənimlə kinoya gedərsən?”

Xanımın oğlu Vaqiflə evdən çıxıb, məktəb əvəzinə pambığa gedəndə yemək-içməyi və zə-ruri ayın-oyunlarımızı parçadan tikilmiş torbaya yığmışdıq. Ət olmayan yerdə, balıq da ətdir.

Yediyimizi yeyib qab-qacağı boşaltmışdıq. Torbada boş nimçələr qalmışdı.

Yaxşı ki bir hadisə, ya qəflətən yıxılan olsa, şüşə qırıqları ziyan verməsin deyə, şüşə qab-qacaqla termos götürməyə icazə vermirdilər,

Yanları hündür taxta bortlu, üstüaçıq, ГАЗ-51 markalı yük maşını şəhərə çatıb yanğınsön-dürən maşınların idarəsi yerləşən yerdən sürət-lə ötüb mərkəzə doğru şığıyanda, Vaqif üzünü mənə tutub qışqırdı: “Burdan bizim evə daha yaxındır, gəl tullanaq...”

Mən yük maşınının banından atılmaq əvə-zinə, irəli keçib kabinanın baş hissəsindən yum-ruqladım ki, sürücü maşını saxlasın və biz ra-hatca düşək.

Əclaf saxlamaq əvəzinə sürəti bir az da ar-tırdı. Artıq bizə dönən döngədən sürətlə ötmək ərəfəsindəydik.

Bu vaxt, qızbibi Vaqif əlindəki pambıq par-çadan tikilmiş torbayla, ayağını asta-asta yük maşının arxa bortunun üstündən aşırıb sakitcə düşməyə başladı.

O, o qədər sərbəst, o qədər arxayınçılıqla midilənir, qurdalanırdı ki, sanki məni aldadırdı, düşməyəcəkdi. Çünki sürəti yüksək olduğundan yük maşınından düşmək, ya tullanmaq cəsarət, elastiklik, hünər və peşəkarlıq tələb edirdi. Bu keyfiyyətlərin heç biri də onda yox idi.

Saxlasın deyə, nə qədər silkələnən kabi-nanın üst dəmirini taqqıldatdım xeyri olmadı və sanki acığıma sürücü qazdan basaraq, yenidən sürəti artırdı. Ağız deyəni qulaq eşitmirdi...

Qəflətən sakitlik çökdü, üst-başı, üz-gözü toz-torpaqlı dəcəl uşaqlar içini çəkdi və uzun çəkən uğultudan sonra qışqırışma başladı.

Hamı, getdikcə yerdə kiçilən Vaqifin cansız cəsədinə baxıb küyləyirdi.

Hövlnak, hərə bir tərəfdən kabinanın üstü-nü döyəcləyəndən sonra, axır ki, sağlam bədən quruluşlu, fiziki güclü, bədən tərbiyəsi müəllimi-miz Tofiq Hüseynov ağzında kazbek papirosu başını yan pəncərədən çıxarıb çığırdı:

“Nə lazımdır ay uşaq?”

Başa saldıq ki, “s” sinfində oxuyan Həsə-nov Vaqif Sərxan oğlu hərəkətdə olan yük ma-şının kuzasından özünü yerə atdı.

Özü də tərsinə!

Gicbəsər!

Tofiq müəllimin göstərişiylə, sürücü dərhal sürəti alıb, maşını yavaş-yavaş səkinin kənarı-na çəkdi.

Qorxmuş, hürkmüş uşaqlar ГАЗ-51-in taxta banında tələş, həyəcan və heyrətlə bir-birinə qı-sılıb, hərəsi ağlı kəsəni danışırdı:

“Dəliqanlı qorxaqlara örnək oldu.”

“Gözlərimlə gördüm, qızbibinin torbası ba-şına keçməsəydi başı asfaltda partlayacaqdı.”

“Deyəsən ölmüşdü, tərpənmirdi.”

“Dığırlananda özüm gördüm.”

“Bu gicbəsərin heç başı yox imiş, sürətlə gedən yük maşınının arxa bortundan əks istiqa-mətdə elə arxayınlıqla düşürdü, elə bil taxta nərdivandan düşür.”

“Başı asfalta dəyəndə necə tapp elədi!”

“Zavallı özünü elə atdı, sanki mirvari dal-ğalarda üzəcəkdi...”

Tofiq müəllim danışanları səbrlə dinləyib, sürücüyə tapşırığını verdi: “Sür məktəbin qaba-ğına, gecdir, valideyinlər narahatdı, mən qaçım görüm nə baş verib?”

Maşın tərpənməmiş, özümü cəld yerə at-dım: “Müəllim, bu uşaq Şərq küçəsində qonşu-muzun oğludur. Bir sinifdə oxuyuruq. Olar baş verənləri gecə anası Xanım xalaya idealizə et-mək üçün mən də sizinlə gedim?”

Maşın məktəbə, biz isə arxaya, hadisə baş verən yerə yollandıq.

Həyəcan dolu coşğunluqla, içimi yeyə-ye-yə tələsirdim: “Görəsən əti parçalanmayıb?

Birdən ölmüş olar?

Əşşi ət qonaqdır, sümüyü möhkəm olsun.”

Yanğınsöndürmə idarəsinin qarşısına ça-tanda, gördük sakitlikdir. Nə asfaltda meyit var-dı, nə yerdə içalat, nə isti buğlanan qan, nə də başına toplaşan canıyanan, sözdaşıyan kütlə...

Bərdənin axşam həyatı adi axarıyla yaşa-nırdı. İçimi gəmirirdim...

Tofiq müəllimlə, qarşıdakı ərzaq mağaza-sından öyrənə bildik: “Bir uşaq yük maşınından özünü atdı... Asfaltın üstündə tirtap qaldı, sonra çabaladl, dikəldi, sonra da durub hıqqıldaya-hıqqıldaya, hıçqırtıyla mal bazarına tərəf götü-rüldü. Hər şey bir göz qırpımında baş verdi...”

Demək sağdı!

Tofiq müəllimə az qala yalvardım: “Bibim-gilin evi yaxındadır, mən elə onlara getməliydim, icazə olar?”

Bədən tərbiyəsi müəllimimiz, bibimin əri qubadlılı, hünərvər Çərkəz dayını yaxşı tanıyırdı, odur ki, icazə verdi.

Kolxoz küçəsinin futbol oynayan tanış ya-şıdlarımdan öyrəndim ki, pambıqdan gələn hürr olmuş bir uşaq güllə kimi burdan keçib özünü yaxınlıqdakı mal bazarına təpib...

Elə bu sözə bənddim.

Uşaqlarla sağollaşmadan belə, çaparaq to-zanaq qaldırıb, özümü mal bazarına saldım.

Nə görsəm yaxşıdı?

Sərxan dayının oğlu, qızbibi Vaqif mal ba-zarının çiy kərpic barısının dibində soyunub diz-ləri üstə yerdən

oturmuşdu. Bütün canı sıyrıq-sıyrıq idi. Asfalta sürtülmüş yerlərindən al qan damcılayırdı.

Vaqif ağrıdan yanır, qıvrılır, vəhmlə yandı-ğı yerlərə üfürürdü...

Məni görən kimi yazığın gözlərinə işıq gəl-di. Yalvardı ki, üfürməkdə ona kömək edim.

Qollarını, dirsək-dizlərini o ki var üfürdük...

O məşum gecə, Vaqif yorğanın altında düz sübhə kimi sıyrıq yerlərini gizlincə üfürüb.

Anasının qorxusundan içində sızlayıb bir həftə hamama da girmədi.

Bədəni qərtmək bağlayandan sonra Vaqi-fin tükü duruldu. Özünü Koroğlu kimi qəhrəman hesab eləyir və dönə-dönə:“Torbadakı alminium nimçə başıma keçməsəydi, başım qarpız kimi partlayıb tökülmüş, çoxdan ölüb o dünyalıq ol-muşdum... İncəvara sağ qaldım, bu mənə dərs oldu.” -deyirdi.

Qıvrımsaçlı başına keçmiş nimçə asfalta çırpılanda qorxunc səs də çıxarıbmış.

Mən də zarafatca ona deyirdim: “Elə gərək cəhənnəmə vasil olaydın! Bu ağıl səndə zəka əvəzinə səylik yaradacaq... Geci-tezi var...”

Bu tarixi hadisə o vaxtlar baş vermişdi ki, onda biz, yaraşıqlı kibrit, siqaret qutuları toplayır, cürbəcür markalar və qəzet-jurnallardan kəsib şəkillər yığır, altına, arxasına nə gəldi yazıb sər-vət kimi əzizləyir, butulkanın dəmir

qapağının uclarını həvəslə əzib, sonsuz vurğunluqla tozlu Şərq döngəmizdə dizlərimiz üstündə oturub ac-susuz saatlarla oynayır, qoyun-quzu “aşıq”ları-nın oxan tərəfini qurğuşunlayırdıq...

Bax o vaxtlarda...

Qızbibi Vaqif və kiçik qardaşı Arif yorğan-döşəkdə yatmaqdan doymazdı. Futbol oynama-ğa da onları zorla aparardım...

Hekayəti bitirəndə kəlbəcərli vaynösə Sa-hib Əkbərov maraqla soruşdu:

-Qızbibi əsgər gedib?

- Yooxx... Nə əsgər? Kommissavat elədilər ki, böyrəkləri xəstə, əqli zəifdir...

“Ağır seyid nəslindən” olan... seyid Abdullanın “Qızılfırlatma əməliyyatı” və qardaşı Fəttahın

əxlaqsızlıq yuvası neçə səcdəgah, “Pir” oldu

Odessa, 01, 02, 03 və 04 sentyabr 1972-ci il,

v, vı, bazar və 1 günlər.

Bu gün sentyabr, ukraynalıların dilində desək: ВЕРЕСЕНЬ ayının 1-i...

Bütün ССРИ ərazisində əlamətdar gün idi.

Təhsil günüydü.

Bu səhər bacım Yeganə də Komsomolum kimi saçlarına bant bağlayıb, geyinib-kecinib, əl-lərində gül-çiçək Bərdədə 1 nömrəli orta mək-təbə gedəcəklər.

Komsomol artıq sonuncu, 10-cu sinfə...

Bu gün qardaşlarım Rafiq və Vaqif də insti-tuta gedəcək. Rafiq Bakıda,Vaqif isə Kirovabad- da. Hər ikisi də əyani oxuyacaq.

Bu gün mənim qrup yoldaşlarım da artıq 5-ci kursda oxuyacaqlar.

Mən 3-də qalmışam...

İndi söz yox ki, Azərbaycanda televizor və radioda təhsilə həsr olunmuş, həzin "Tələbəlik illəri" mahnısı səslənir.

Allah qoysa, artıq növbəti ilin bu günü mən də qoltuğumda dəftər-kitab təhsilimi 3-cü kurs-dan davam etdirəcəyəm.

Gün o gün olsaydı!

Bu gün başqa bir hadisəylə də əlamətdar idi. Qardaşım Rafiqin doğum günüydü!

1952-1972, iyirmi, yubiley yaşı tamam ola-caqdı. Bu münasibətlə Bakıya teleqram vurub onu təbrik etməliyəm.

Bu gün Praqada Yitka da dərsə gedəcək-di! Komsomolum kimi o da 10-cu sinfə...

Bütün bunlar məni duyğulandırmışdı!

İşləri tam qaydaya salandan sonra təpərsiz Mürşüd, qarşısındakı "yeyəndə" köpü tez yatan Turabxan və ağcabədili Nazıyla 9-cu mərtəbəyə qalxıb yenə nahara kimi ДЕМБЛ- ə hazırlığın ən xırda detallarını xırdaladıq. Necə deyərlər, köh-nə hamam, köhnə tas...

On altı yaşlı çex Yitkanın şıltaqlıqlarından da xeyli danışdıq. Pəltək Nazı and içdi:

-Bu gündən səni Tofa çağıyacağıq, uşaq-layı özüm başa salayam. Bu da onun xatiyəsini əbədiləşdiymək olay!

Naharda poçt gəldi.

Dostum, qasırğa Tahirdən-3, Ələvsətdən-1 məktub aldım.

Komsomoldan xəbər tutmaq ümidiylə qa-radinməz Ələvsətin məktubunu intizarla açdım.

Dördgöz necə oxudum!

"Şuşadan gəliblər! Hər şey öz qaydasında-dır..." - nəzakətlə yazırdı.

Zalımın oğlu geniş və ətraflı, müfəssəl yaz-mağa can çəkir, sözləri sanki üfürə-üfürə seçib yan-yana düzürdü.

Tahirin məktubunu oxuyub bir qədər kə-dərləndim. Qəmgin notlarla yazmışdı. Çex qız-lara görə məni məzəmmət eləyirdi:

“Komsomolu itirmək olmaz! Onlar gəldige-dərdi...- yazırdı.

Hospitaldan ona yazdığım qəm-qüssəylə dolu nostalji məktubuma cavabı idi.

Planyorkada bərk mübahisə düşdü. Bütün serjantlarla baş leytenant Boyko bir, yerdə qa-lan zabitlər də bir oldu. Sahə rəisi də zabitlərin sözünü dedi.

ОДБОЙ-dan sonra kazarmada görünən sa-hə rəisini bütün rota huyladı.

Старик ruslarla bizimkilər Boyko və ser-jantlarla birləşib artıq baş aparırdı. Nənəmin sö-zü olmasın, sahə rəisi götünü tutub qaçdı...

Briqadam gecə naryadda idi. Dəhr yuxu-daykən gecəyarı, saat 03:07-də Mürşüdlə durub Anya xala üçün xeyli odunluq taxta topladıq.

Pis olmadı.

Oğurluq taxta qırıqlarını gətirib qalaqla yı-ğanda, həyətlərindəki tualetdə adam olduğunu görüb, bir xeyli gözləyəsi olduq. Zalımın oğlu si-qaretdən çəkib, tüaletdə fıs-fıs fısıldayırdı.

Bu gün şənbə idi.

Əsgərlərimin işini səhmanlayıb, komandir heyətinin СОВЕЩАНИЯ-yasına getdim.

Yığıncaqdan sonra Tomagildə dəğdəğəli Mürşüdlə mülki paltar geyinib şəhərə çıxdıq.

Fotoatelyedən Yitka və Dano ilə çəkdirdi-yim şəklin neqativini və fotoşəklini aldım. Axır ki, БУМАГА da tapdım. 2 manat verib düz 4 paçka aldım. ПРОЯВИТЕЛЬ və ФИКСАЖ da götürdüm.

Göydodaq Ədalətin, balqabaqbaşlı Arifin və daim əndişəli gəzən Sahib Əkbərovun verdi-yi pullarla onlara ЧАЙКА-2 və ФЕД markalı foto-aparat, РОМАНТИКА markalı maqnetafon da alıb, geri qayıtdım.

Biz kazarmaya çathaçatda nahar yeməyi-nin sinci vuruldu...

Nahardan sonra iməclik idi.

Dəllalbaşı mayordan tapşırıq alıb, əsgərlə-rimin arasında böləndən sonra, yıxılıb yatdım.

Gecəni düzəməlli yatmamışdım.

Mən yuxudan oyananda artıq 18:00 idi.

Rota şəhər hamamına gedirdi. Üzümün tü-kü tamam uzanmışdı. Xebələrim də çirkliydi.

Vaynösə Sahib Əkbərovla köməkli bütün çirkli paltarlarımı hamamda yuyub, üzümü qırx-dım, yaxşıca da kisələnib, maçalkalanıb sabun-landım. Sabah Katerinayla görüşməliyəm.

Özümü tam səliqəyə salıb kazarmaya qa-yıdanda artıq УЖИН-in vaxtıydı. Şam yeməyini yeyəndən sonra, yeni paylanan ПРОСТИНА-ları da ЗАПРАВКА eləyib, yenidən yatdım.

Saat 22:00-da növbətçi məni oyatdı.

Həvədiş Zamorayevi də götürüb zirzəmi-dəki fotoqrafxanamızda şəkil çıxartmağa getdik. Daim ona-buna gizlincə dəmbərə atan Ədalət, ən böyük arzusu Ağcabədinin Kuybışev kəndin-də tayavuran maşında işləmək olan, bəstəboy Hüseyin, şərti-şürutsuz tüklü Mürşüd, balqabaq-baş Arif və şərm bilməyən Karatin də gəlib çıxdı.

Gecə saat üçə qədər yüzdən çox fotoşəkil çıxartdıq. Çoxu da Yitkayla çəkdiyim sonuncu lentdəkı şəkillər idi...

Tamam yorulsam da, növbətçiyə tapşırdım saat 06:00-da məni oyatsın.

İki saata yaxın yatdım.

Oyananda, heç fikirləşmədən sıçrayıb aya-ğa qalxdım və yüyrək zirzəmiyə götürülüb, artıq qupquru qurumuş fotoşəkilləri səliqəylə yığıb, dəstələyəndən sonra kazarmaya gətirdim.

Praqalı qızlarla çəkilən bütün fotoşəkillər və neqativləri artıq hazır idi.

Fotoşəkilləri dolabçamda yenicə yan-yön eləmişdim ki, rotaya ГАЛХЫН! - əmri verildi.

Rota səs-küylə düzlənib sıra meydanında səhər gimnastikasına başlayanda, xəstəlik bə-hanəsiylə kazarmaya qayıtdım və yenidən so-yunub yerimə girdim. Praporşik Kirilyuk bir söz demədi, amma göz basdı...

Bu gün istirahət günüydü.

Bənövşəgözlüylə naharda görüşməliydim.

Bərk külək əsirdi.

СТРОЕВОЙ СМОТР-da və heç bir prosedu-ranın cərgəsində dayanmadım.Nədənsə nə dəl-lalbaşı mayor, nə pulgir Boyko, nə də harınla-mış azğın Kaşşeyev məni axtarmadı.

Beziblər deyəsən.

Ürəyimə gəldi: Görəsən əclaflar birləşib tələ quraraq, qəflətən mənim briqadamı Pervo-mayskiyə göndərməzlər?

Odessaya məni bağlayan bircə Katerina idi. Onsuz da Yitkaya görə burada çox kövrəlirdim. Hər addımda onun xatirəsi yaşanırdı...

Oyanandan sonra, dolabçamdakı şəkilləri çıxarıb kənarlarının əyrisini kəsərək düzəltdim.

Seçib, düz 70 ədəd şəkli və ən uğurlu alın-mış kadrların neqativini də özümə götürdüm.

Otuzdan çox fotoşəkli isə Mürşüdə, Nazıya, dəmdəməki Sahib Əkbərova, Ədalətə və Anya xalaya payladım.

Anya xala ərk edərək zorla qolumdan çə-kib məni evlərinə saldı.

Tək idi...

-Чай, кофе? - soruşdu.

БЕЛАРУСЬ-110 markalı rəngli televizoru aç-dı. Nədənsə ondan utanırdım...

Ukrayna və Rusiyanın müxtəlif kanalların-dan БОКС, ФУТБОЛ və ağırlıqqaldırma yarışları göstərilirdi. Paytaxtımız Moskvanın OPT kana-lından xeyli boksa baxdım.

Son 26 günü, qaralama yazdığım qoşa və-rəqdən gündəliyə köçürməliydim. Vaxt daralır, Katya da gözləyirdi. Gündəliyə görə elə bilirdim çiyinlərimdə nəsə ağır bir yük var...

Saat 13:55-də taksiyə oturub, ünvanı söy-lədim: Ул. Маршала Жукова дом 2, блок-1...

Bənövşəgözlü Katerinam öz aləmindəydi. Elə bil melanxonik hal keçirirdi. Amma necə ol-dusa, ötən görüşümüzdən fərqli bu dəfə sanki qəflət yuxusundan ayılıb, məni ağuşuna saldı.

Düz saat 19:00-a kimi dayanmadan qan- tərə batdıq...

Katerinanın odsaçan canından ayrılıb geyi-nəndən sonra xudahafizləşib, rotaya trolleybus-la qayıtdım. Külək tərli canımı qurutdu...

Odessaya gələndən ilk dəfəydi axşam ye-məyindən sonra heç yana getmədim.

Həm də Katya məni əldən salmışdı...

...Kazarmada oturub Yitkanın mənə bağış-ladığı yaşıl rəng dəriüzlü РУСКО-ЧЕСКУ tərcümə kitabından zəruri

sözləri dəftərimə köşürüb çex dilini öyrənməyə başladım. Və özümə söz ver-dim ki, bu dili Yitkanın xatirinə öyrənəcəm!

Kitabın adı beləydi: РУСКО-ЧЕСКУ, ЧЕСКО-РУСКУ СЛОВНИК.

Dayanmadan, düz iki saata kimi xeyli söz əzbərlədim:

ДОБИТЬСЯ (-ИВАТЬСЯ) = dosahnout, docilit

ЛАДНО – dobra

ЛИМОН – citron

ЛИФЧИК – podpresenka

ЛУЧШЕ – lepe, lepsi

ЛЮБОВЬ – laska

ЛЮБОВНЫЙ – milostny

ЛЮБОВАТЬСЯ – koshat se

ВЗВОД – çesta

НЕФТЬ – nafta

БАБА – buchar, beran

БАНДЕРОЛЬ – paska na tiskopisy.

Tahir Ağayevdən aldığım 3 və Əlövsətdən aldığım 1 məktuba cavablar yazdım.

Ad günü, məktəb və ali məktəbdə dərslərin başlanması münasibətiylə, qardaşlarım Rafiqlə Vaqifə və bacım Yeganəyə teleqramlar vurdum.

...Bu səhər də əsgərlərimin işini böləndən sonra Nazı və Mürşüdlə doqquzuncu mərtəbə-də günümüzü keçirdik.

Yitkanın yoxluğu məndə itik təsiri bağışla-yırdı. Sanki nəyisə salıb itirmişdim. İnsan öz-özüylə necə döyüşürmüş! Ürəyim hər an Pra-qayla döyünürdü. O məni sanki biman eləmişdi, necə deyərlər: Əsli olmasaydı, heç zavallı Kə-rəm də dağlara düşməzdi...

Təpərsiz Mürşüdü düz 2 dəfə, saat 10:00-da və 16:00-da qəbzlə fotoqrafxanaya göndər-dim ki, çex qızlarla sonuncu çəkdirdiyim fotoşə-killəri alıb gətirsin. Heyf ki, hazırlaya bilməmiş-dilər. Sentyabrın 7-nə qaldı...

Naharı kazarmaya gətizdirib КОЙКА-da ye-yəndən sonra yenicə yatmışdım, Karibayev mə-ni oyatdı ki, sənin adına 100 rubl ПЕРЕВОД pul gəlib. Bəxtimdən də bu gün ПОЧТ-da Katyanın növbəsiydi. Cəld quş kimi sıçrayıb geyindim və ağcabədili Nazını da götürüb getdim.

Sevinclə Katyadan 100 rublu alanda, sinə-siylə üstümə əyilib qulağıma pıçıldadı:

-Mənə СЕМИЧКА alarsan?

-Əlbəttə! - dedim.

Ona mağazadan xeyli tum alıb gətirdim. Yolda təsadüfən tuği-lənət olub boğazıma keç-miş, ətə pul verməyib küftənin irisindən yapışan Valyayla qarşılaşdıq. Onu tamam unutmuşdum. Lap çoxdan idi görüşmürdük...

Salamlaşdıq.

Arxamca nə qədər çağırdı dayanmadım...

Axşam yeməyindən sonra yenə də iməclik elədilər. Amma bu dəfə inşa etdiyimiz binada yox, “Qastronom-kazarmada.”

Kaşşeyev yenə baş aparırdı.

Bizim əsgərlər onu eşitmir, o da mübahisə eləyirdi. Qarışmırdım...

ПРОВЕРКА-da yatmışdım. Nəyə görəsə yu-xuda... Pirsaat çayının kənarında, arı yeşiklə-riylə dolu çəmənliklərdə bitən güllücə yem otları, güllü-çiçəkli laləzar Şamaxı dağlarını və Bərdə-dəki güllü-gülşənli həyətimizi görürdüm...

Tağım komandiri Kaşşeyev məni oyatdı.

Onunla xeyli mübahisə elədik. O şübhələn-mişdi... Bilirdi ki, uşaqları onun üstünə qaldıran mənəm. Bozarmış halda, amma arın-arxayın:

-Sən niyə müsəlmanları söyürsən? Qara adamlar, aşağı növ, ikinci sort deyirsən? Onlar da ona görə sənə dağ çəkir dəə... Daha mənlik nə iş var burda?

Dəhrəburun Piruev də bu gün qazından cı-rılır, “tripaşlıq” eləyir, hətta ağcabədili Nazıyla deyişir və hətta davaya da getmək istəyirdi.

Mübahisəni Kaşşeyevlə КАЦЕЛЯРИЯ-da da davam elədik. Səs-küyə baş leytenant Boyko da gəlib çıxdı. Haqq-

nahaq ruslar bir-birini mü-dafiə edirdi. Əsəbimdən titrəyirdim.

Bu nə “fason” Sovet ordusudu?

Məgər, biz eyni dövlətin vətəndaşları deyil-dik? Il növ nədi? Qara adam nədi? Zampolitin bütün bunlara göz yumması nəyə görədi?

İntensiv səs-küyə bütün bizim əsgərlər də oyanıb qalxmışdı. Baş leytenant, inteligent Boy-ko sonda böyük qalmaqalın yaşanacağından ehtiyyat edib qorxdu və gerilədi...

Yuxumuz qaçmışdı.

Bu gün kazarmadakı iməcliyə görə axşam ПЛАНЙОРКА-sı keçirilməmişdi.

Daha hirsimdən yata da bilmədim. Əsəb xəstəliyinə tutulmasam yaxşıdı.

...Kaşşeyevlə aramız artıq bərk dəydiyin-dən mülki paltarlarımın əksəriyyətini yığdığım qara çamadanı da onun “saxladığı” qızın evin-dən götürüb Tamillagilə qoydum.

Toma nə qədər elədi onunla cinsi əlaqəyə girmədim. Yalandan bəhanə də elədim ki, xəs-təyəm, iki gün mənə möhlət ver. Həqiqətdə isə Katerina canımı almışdı...

Yolda Saşka qabağıma çıxdı. Astadan, qə-ribə bir iştibahla soruşdum:

-Odunluq taxtaları Anya xala götürüb tu-lanbara yığdımı?

O gülə-gülə minnətdarlıq elədi...

Kazarmada yuxusu qaçan əsgərlərimizlə yeməkxananı açdırıb lağlağılıq eləməyə başla-dıq. Yenə hərə bir əhvalat danışmağa başladı və mən də yadıma düşən növbəti əhvalatı 1001 gecə nağıllarındakı qızın heybətli divə söylədiyi kimi aramla danışmağa başladım:

“Bir gecə Bərdədə, gecə yarını keçmiş hə-yət qapımızın zəngi basıldı.

Xeyir ola?

Bu vaxt vacib bir məsələ, ya hadisə baş verməsə heç kim bir-birini narahat eləməzdi.

Geyinib həyətə çıxdım.

“Kimdir?” -soruşdum.

Qaranlıqdan bir tanımadığım, ümidsiz yaşlı adam səsi gəldi:

“Seyid Abdulladı başına dönüm, Əli dayı yatmayıb?”

Atama gələnin kim olduğunu bildirəndən sonra qapını açıb onu həyətə buraxdım. Birlikdə ikinci mərtəbənin geniş, işıqlı zalına qalxdıq. Atam pilləkənin başında onu qarşıladı:

“Seyid, gecənin günortasında xeyir ola?”

Geniş, yanları oval masanın kənarında əy-ləşdik. Hal-əhval tutandan sonra seyid Abdulla, nədənsə mətləbə keçməyə tələsmədi.

Hiss elədim ki, ona mane oluram.

Çəp-çəp baxır, işıldayan hiyləgər çaqqal gözüylə sanki məni didir, lal baxışlarıyla açıq-aşkar qovurdu.

Acıqla masadan aralanmadım...

Üzdəniraq qonaq dirəşib getmədiyimi gö-rəndə: ”Hazır çay olmaz?”-soruşub, həyasız-hə-yasız üzümə baxdı.

Atam məsələni anlayıb:

“İsti çay gətirəcəklər... Mənim böyük oğ-lumdur, nədən ehtiyyat eləyirsən?” -deyib, onu məcbur elədi ki, mətləbə keçsin.

Seyid nəslindən olan Abdulla, -söz yox ki, özləri özlərini belə adlandırırdı. Guya ağır cədd- ləri var, uğurlu nəsil-kökdəndirlər. Bir sözlə: Pir kimi ocaqlarına səcdə olunmalıdır... Nəsə, axır anladı ki, atamın məndən elə də gizli bir sirri yoxdu, naəlac qalıb, şikəst qolunu masaya söy-kəyərək tülkü-tülkü danışmağa başladı.

Atama “qağa” deyirdi.

“Qağa, bir saata yaxın vaxtım qalıb. Bank-da məni gözləyirlər... Televizorda 2 saat əvvəl məlumat verdilər ki: СССРИ ərazisində qızılın qiy-məti 100 faiz qalxdı. Gecə 00:00-dan başlaya-raq fərman qüvvəyə minir. Dükanımda 100 min manatdan çox qızıl əşyalarım var. Özüm 50 min

düzəltmişəm, sən də mənə 50 min manat ver, təcili banka keçirim... Bir həftəyə sənə 50 min əvəzinə 75 min qaytarar, 25 min də özüm qa-zanaram, dövlətə də heç bir mazarat dəyməz."

Oxucuya ətraflı məlum olsun deyə yazı-ram: Seyid Abdulla Bərdədə fəaliyyət göstərən yeganə mehmanxananın birinci mərtəbəsində yerləşən qızıl dükanını işlədirdi.

Dükançı idi.

"Ağır seyid nəslindən olan" Abdulla, sinəsi motal daşımaqla alınan "Lenin ordenli" Hüseyn Ağayevin dopdoğmaca qaynı, Tariyel Ağayevin isə gülməşəkər dayısıydı.

Atamla onu axıra kimi dinlədik. İnandırıcı, real iş idi. Məsuliyyət də öz boynundaydı.

Mən dərhal razılaşdım...

Atam sağ əlini çənəsinə söykəyib, seyidi diqqətlə bir xeyli süzəndən sonra nə fikirləşdisə, qəflətən ayağa qalxıb, heç nə demədən öz ya-taq otağına keçdi.

Biz təəccüb və maraqla bir-birimizə baxdıq.

Seyid Abdullanın rəngi qaçdı, tülkü gözləri oynaşdı...Yerində nigarançılıqla qurcalanıb dər-hal dilinin altında mızıldanaraq nəsə bir ovsun oxudu. Ölgün gözləri işıqlandı...

Və bir qədər çəkən dərin sükutdan sonra, atam əlli min pulla geri qayıtdı. Pul çimlənib üst-üstə səliqəylə

yığılmış, tən ortasından nazik sa-rı rəngli aptek reziniylə bağlanmışdı.

Pulu ortalığa qoydu.

Beş paçka qırmızı onluqları bir-bir sayıb seyid Abdullaya təhvil verdik.

Atamın sonda dediyi söz məni heyrətə gə-tirdi: “Seyid! Mənə elə pul lazım deyil, qızıl sə-nin dükan sənin, özün bilərsən. Sənə bu əlli min manatı əl tuturam... Bir həftədən sonra mənim halal pulumu qaytararsan, qazancın hamısı da sənin olsun. Bu sənin qismətindir... Halal xoş!”

Seyid Abdulla qulaqlarına inanmırdı.

Özünü itirmiş, kürən çilli sifəti qıpqırmızı al-lanmışdı. Bir sözlə, bir anın içərisində iyirmi beş min də əlavə pul qazanmışdı.

Bu gecə atamın hesabına düz əlli min ma-nat pul vurdu!

Artıq bu sərvət idi!

Atam savab iş tuturdu. Tənbəl bərdəlilərin bir buğum yatıb qalxdığı vaxtda, qapısına diləyə gəlmiş adama əl tutur, özünə labüd olduğunu dərk elədiyi cənnət qazanırdı...

Yaxşılıq da, pislik də Allaha agah olur.

Kəkildəyə-kəkildəyə: ”Qağa, Allah səni min budaq eləsin, pul adını eşidən kimi doğmaca bacılarımın ərləri,-yeznələrim İsa Ağayevlə Le-nin ordenli Hüseyin Ağayev

məni qapılarından qovdu... Kölgəli budaq ayrı şeydi,”- iltifatla dedi.

“Ağır seyid nəslindən olan” Abdullanı yola salanda, o ehmalca salamlaşdı və karıxıb ayaq-yalın götürüldü. Bərkdən haylayıb qaytardım ki, ayaqqabılarını geyinsin.Yazıq sevincindən təng-nəfəs və bəmbəyaz olmuşdu.

Köhlən adlı iri itimiz zingildəyir, uzun dilini çıxarıb ləhləyir və var gücüylə xaltasını dartırdı.

Ürəkdən şaqraq bir qəhqəhə çəkib, cibləri pulla dolu, nimdaş pencəkli Abdullanın arxasın-ca uzun müddət baxdım.

Banka yelli tərpəndi.

Bu gecə düz 100.000 rubl pul vuracaqdı!

Özünü zəmanə adamı hesab edən Seyid Abdullanı yola salıb qapının arxasından sürgü-sünü vuraraq cəftəsini saldım və geri qayıtdım.

Bəxtəvərin düz yarım saat vaxtı qalmışdı.

Bank bağlanmalı, əməliyyatlar barədə Ba-kıya dürüst məlumat verilməliydi.

Bax beləcə... Seyid Abdullanın qızılfırlatma əməliyyatı uğurla başa çatdı...

O gündən iki aya yaxın vaxt ötmüşdü.

Yayın isti, ümidsiz qocaların xoşladığı cır-cırama vaxtıydı. Atam anamla İstisu dağlarında salınmış курорта getmişdi.

1970-ci il, avqust ayının 7-si idi.

Pionerin ad günüydü...

O vaxt hələ o komsomola keçməmişdi.

Necə oldusa, çox duyğusal və kədərlə xa-tırladım: ”Məktəb vaxtı qıpqırmızı qalstuklu pio-nerlərə şeypur çalınardı...”

Pionerin özü Şuşadaydı.

İstəyirdim onun ad gününə 20 manatlıq bir qızıl klon, ya da nazik zəncir boyunbağı alam.

Amma pulum yox idi...

Çox fikirləşəndən, çox götürqoy eləyəndən sonra birdən, seyid Abdullanın qızıl dükanı ya-dıma düşdü. Həm də onun qızılfırlatma fırıldağı axı yanımda olmuşdu.

Odur ki, çox ümidlə Nüşabə mehmanxana-sındakı dükanına yollandım.

Bəxtimdən özü də dükanda oldu.

Satıcısı, gopçu Qulu vurçatlasın satış elə-yir, toya, nişana hazırlaşan alıcılar da seçim qarşısında məsləhətləşirdilər. 50 manatlıq han-sısa bir qızıl əşyası indi dükanda 100 manat idi.

Özünü, ağır seyid nəslindən adlandıran qı- zılsatan Abdulla stulda yanpörtü əyləşib alverin gedişatına xüsusi nəzarət eləyirdi.

Məni görəndə elə də çox sevinmədi, kürən qaşlarını düyünləyib:

“Xeyir ola?”-soruşdu.

Tələsik gəldiyimdən yanaqlarım pörtmüş, kürəyim, sinəm tərləmişdi.

Pəjmürdə halda:

“Xeyirdi,” -dedim.

Və tələsik, şüşə piştaxtanın altındakı qızıl əşyalarına baxa-baxa, Pionerə uyğun və ruhu-nu oxşayıb könlünü duyğulandıracaq bir qızıl əşyası aramağa başladım.

Kəpənək əla idi!

Qızıl klon kəpənəyin üstünə ağ rəngli emal çəkilmişdi. Elə bilirdin doğruçu kəpənəkdir, indi-cə uçacaq...

Rəngli, xallı qayğısız kəpənək!

Qiyməti də sərfəliydi, 26 manat.

Ürəyimdə fikirləşdim: “İkicə ay öncə, qiy-mətlər hələ qalxmamış, bu qızıl kəpənək görü-nür 13 rubl olub.” Əlaydı ki!

Seçimi eləyəndən sonra, utanmadan seyid Abdullanın kirli qulağına pıçıldadım:

“Atam kurorta gedib, lap düzü Kəlbəcər tərəfdəki İstisu sanatoriyasındadır. Pulum yox- dur, sən bu kəpənəyi mənə borc ver, bir nəfərin ad gününə hədiyyə eləməliyəm. Allaha and ol-sun, atam gələn kimi gətirib pulunu verəcəyəm.”

Abdulla diksindi!

Əlindəki sapsarı uzun farfor təsbehini hid-dətlə şıqqıldadıb, dilinin altında nəsə sehrli bir neçə ovsun mızıldadı və qiyamqabağı görkəmi alıb, şimşək kimi qəflətən çaxdı:

“Sən nə danışırsan? İşlərim onsuz da fırıq-dı... Dükanı revizor bağlayar, yoxlayarlar, əksi-yim çıxar. Məni həbs elətdirmək istəyirsən?”

Heyrətə gəldim!

Ya rəbbim... Cəmi iki ay əvvəl, atam buna səxavət və lütfkarlıqla əlli min manat təmənna-sız xeyir verib... Bu seyid... özü də Süzəndə xa-lanın sözü olmasın: “Əvəjdadı... “ağır seyid nəs-lindən” olan bu üzü filan yerindən qırmızı” nə danışırdı?”

Bütün vücudum hədiyyə arzusundaydı.

Pisikdim...

Və qəflətən əlimi boynuma atıb, ağır və bahalı TPOC sepimi açdım:

“Girov qoyuram...”

Həyasizcasına, dənizə girsə qəbahətləriylə bütöv dənizi murdarlayan, barmağı göy firuzə-qaş üzüklü, xisləti əngəlli:

“Yoxlama gəlsə məni ilişdirərlər... Cəddim haqqı girov keçməyəcək!” -dedi.

Əlim üzümdə qaldı.

Kürəyimin ortasından soyuq tər gilələndi.

Doğrudanmı 26 manata görə... yəni belə nakişilik eləyərdilər?

Fakt bu adam... puldan vəhşicəsinə həzz alan, özü istədiyi təqdirdə belə savab iş tutma-yan Tariyel Ağayevin dopdoğmaca dayısı, “mo-talla, cəmdəklə alınan Lenin ordenli,” Vətən mü-haribəsindən yayınan, qatar səsi, vağzal ab-ha-vası yaşamayan Hüseyn Ağayevin böyük qaynı olan, can şirin olsa da malı canından da şirin hesab edən kürən, qıvrımsaç, qoluqısa Abdulla bu rəzaləti yaşayırdı.

Sanki, Şami-şərifdə cümə namazı qılmışdı daqqa! Hamamda fitə bağlamayan əclaf!

Hirsimdən quş kimi yüngül olmuşdum.

Hələ 18 yaşım tamam olmamışdı. Ömrüm-də ilk dəfəydi belə alçaqlıqla qarşılaşırdım!

İlahi, niyə belə insanlar yaratmısan!?

Bəs, “ağır seyid nəslindən olan” bu naqis... Cəmi ikicə ay əvvəl iyirmi beş min manatımız-dan bir anda, göz

qırpmadan belə keçən bizə qarşı şərəfyab etmək əvəzində, bu ədəbsiz niyə boz sifət göstərirdi?

Belə nankor, fitnəçi məxluqu, belə qansızı niyə yaratmısan ya rəbb?

Doğmaca bacısının əri Lenin ordeni "alıb", Bərdə rayonunda Azərbaycan kolxozunun səd-ridir, özü qızıl dükanının müdiridir və iki ay əvvəl atamın hesabına, hələ biz bildiyimiz yüz min ru-bl pul qazanıb, qarşılığında iyirmi altı manat nə olan məbləğdir ay düdəmə?

Dumbulla gələn zurnayla gedər.

Lap səni aldadım ay rəzil, "ağır seyid nəs-lindən olan" şəriətəzidd şərəşur, cəncəl adam!

Ehtiram, sayğı, hörmət əvəzinə...

Cəddin varsa, elə əvvəlcə sənin özünü tut-malıdır, bəs niyə tutmur?

İlan yeyib əjdaha olub kişi!

Hiddətlə üstünə qışqırdım:

"Yaxşı, xəzinəyə iyirmi altı manat özündən qoy... Səni tutmasınlar... Sonra mən sənə qay-tararam..."

Seyid Abdulla qırımımdan bərk səksəndi, heyrətlə üzümə baxaraq dərhal da qımışıb qo-lunu nazik boynuma saldı və irişərək:

"İncimə, ticarətin öz qanunları var..."-dedi.

Hikkəli-hikkəli, saymazyana:

“Kol-kos arıtlama əə... iş gör... əl tut... Tü-pürüm sənə də, sənin ticarətinə də! Belə qa-nunlar, rəzilliklər, dilənçilik bizim fəlsəfədə yox-dur! Allah göydən görür, o yüz minin əvəzinə yüz min də bəla çəkəcəksən! Biz əlli min xeyir verdik sənə, iyirm beş min rubl qazanc vermək istədin bizə istəmədik, amma sən iyirmi altı ma-nat üçün şərəfini, ləyaqətini göstərdin! Bax siz belə alırsız, Lenin ordenlərini...”-dedim.

Dükandan çıxdım...

Hamının gopçu, ağlı seyrək adlandırdığı satıcı Qulu arxamca yüyürüb, mərhəmətlə:

“Sən əvəzdən özüm pul qoyacam, o kəpə-nək sənindir,” -dedi.

Gopçu, iştüx, yekəbaş Qulunun daşı düş-sün sizin, ağır seyid adlandırdığınız nəsil-kökü-nüzün başına. Kişilik seyidliklə, tüfeyli nəsil-nə-cabətlə, haram pulla, oğurluq qızıl-brilliyantlarla ölçülmür ay tünbətün olmuş parazit!

Ayy... ömrüboyu yeznələrinin nimdaş pal-tarlarını geyən, it dəftərində belə adı olmayan, təsbehli, itaətkar seyid Abdulla!

Kişilik qanla gəlir!

Ağayev Hüseynin qardaşlarından başqa, sənin bütün iştüx cəddəban hamısı əl açıb dilə-nir... Utanmadan ağır seyid nəslindənəm deyib papaq tutur əllərində... Bir parça çörək üçün, az qalır ilan dili çıxarıb mələsinlər...

Ayy... vəzifəlilərə tüpürcəkqabı gəzdirən!

Tüğyan edən bu dilənçi xislətinizə görə ba-cın uşaqları bu kökdədir eyy...

Ədalət, Ziyafət, Əbülfət, Natiq, oğlun tüllab Azər... Daha kimləri deyim?

Hələ dopdoğmaca qardaşın, "cəddi Laçın dağlarından ağır" iştük Fəttah!

"Ağır cəddli," tüklü sifətindən tasası əskik olmayan, tasabaxan seyid Fəttah... Bərdə-Ağ-cabədi yolundakı Xaçın çayı üzərindən keçəndə, yol kənarında yerləşən yeməkxananı alıb, ora-da qəhbəxana açmışdı.

Cəddinizə lənət!

Yeznəniz... motal və cəmdəklərlə "alınan" Lenin ordenli Hüseyn Ağayevin hesabına dəyib dolaşanınız olmurdu.

Sovet İmperiyasının əlli illik dövründə hələ bu varılmaz məsələ elə də dəb almamışdı.

Hökumət çox ciddi şəkildə hərəmxana, ya üzüqara seyid Fəttahın yeməkxana adıyla ya-ratdığı qəhbəxanasının yerini bilsə və arxasında Hüseyn Ağayev kimi "dayısı" durmasaydı, çox-dan tutulub qoduqluğa salınmış, yeməkxanası isə yerlə yeksan edilib yurdu viran qoyulmuşdu.

SSRİ-dəki vəziyyət...

Dünyanın mərkəzi sayılan azad, demokra-tik Hollandiyanın paytaxtı Amsterdamdakı, döv-lət tərəfindən yaradılan qırmızı fənərlər məhəl-ləsindəki kimi də deyildi...

Bu məsələ çox ciddi nəzarətdə saxlanılırdı.

Bərdə rayonunda ilk qeyri-leqal qəhbəxana "ağır cəddi olan" saç-saqqalı daim tozlu seyid Fəttaha məxsus idi.

Gədə-güdələr, gecələr təkəm-tükəm düşən küçə, tras pozğunlarını Ağdam, Ağcabədi, Mir-bəşir, Jdanov və ətraf rayonlardan tapıb bu ye-məkxana-qəhbəxanaya gətirər və yeyib-içib elə orada da gecələyərdilər.

Seyidlər içki içmirdi: "Nə danışırsınız, biz ocağıq, ağır seyid nəslindənik!" -deyirdilər.

Bəs qəhbəxanayla seyidlik tuturdumu?

Ey gidi dünya!

Bəs bunlara havadarlıq edən uzaqgörən üzüqaralar... nə vaxtsa... bu imam torpağı olan yurdda bərdəlilərin üzünə necə baxacaqlar?

Nə vaxta kimi uduxmaq olar?

Bərdə milis şöbəsinin rəisi vardı o vaxt... Süfrəsi daim minbir naz-nemətlə bəzənikli olan, milis mayoru Məhi Quluyev.

Başı daim əsərdi...

O ürəkli adam olsa da, ədaləti müdafiə elə-sə də... bu qəhbəxana məsələsini acı həb kimi udur və nədənsə, ürəyinə dağ-dağa gətirsə də, uff... belə demədən bu natəmiz, ucuz fahişəxa- nanın fəaliyyətinə açıqca göz yumurdu...

Ortada... ürəkbir Hüseyin Ağayev faktoru, Lenin ordeni gerçəkliyi və gizli rüşvət məsələsi vardı axı... Bir də dilbir birinci katib rəyi...

Hələ, bu azmış kimi ürəyinə od düşmüş Hüseyin Ağayev deyirmiş ki: "Ürəyimi qoparıb verməyə hazır olduğum qaynım seyid Fəttahın evini də, yeməkxanasını da PİR eləyəcəm. Qoy bərdəlilər oraya gəlib nəzir-niyaz paylasınlar, mal-heyvan kəsib, buğlanan cəmdəkləri ehsan eləsinlər, arvad tərəfimin ocağında seyid Fətta-ha səcdə qılsınlar. Ağır seyid nəslidir. Cəddləri var... Bərdəlilərə qaynatamın mübarək evi ör-nək olmalıdır."

Bunu eşidən paxan Səfər də kinonun qa-bağında yerdən uzananda, tünd gedib deyirmiş:

"O pirin qabağında ПОПКОРНУ aparatı qo-yub özümə çörək pulu çıxardacam..."

Eşidənlər də ağır seyid nəslinin cəddindən qorxub: "Əlhəmdullah, əlhəmdullah deyirmişlər. Gözü götürməyənlər isə paxan Səfərə saymaz-yana: "Əngə vermə əə..." bəziləri: "Qatıqlama əə..." bəziləri də: "Petux!" -deyir, bəziləri isə yol göstərirmiş: "Qoca kişi su satar, popkorn yox..."

Ahıl vaxtında ürəyinin yağı qalmamış pa-xan Səfər hırıldayıb deyərmiş: "Diapazon geniş-liyin olsun əə..." Sonra da yorulub elə quru yer-dəcə, güclü xorultu səsiylə xoruldayarmış...

Amma o, puşkaya tez gedən üzütüpürcəkli seyid Fəttahın günahı qədər günah işlətməzdi. Onunku qarnı doyana kimiydi...

Bax vəziyyət bu düzəmdə idi.

Qorxudan ürək-göbəyi qalmasa da, uşaq-ciğaz, bacıoğlu Tariyel Ağayev artıq gerçəkləyib orda-burda ağzından çıxarırmış ki: “Dayılarımın evi ocaq olmalıdır... Ağır seyid nəslindəndirlər. Bahar arvadın oğlu, cümləpərdaz tamada Vaqif Hüseynov kimi Бродяга deyillər ki!?”

Bəli... Ağayevlər indi də özlərini seyidliklə təzahür etdirirlər.

Vallahı, billahı bu qarabasma da deyildi.

Nəyisə...

Bu da sizə Laçın dağlarından ağır olan xəyali, utopik “ocaq nəslindən” seyid Abdullanın qızılfırlatma əməliyyatı və kiçik qardaşı Fəttahın əxlaqsızlıq yuvasını Ağayevlər necə sırtıqcası-na səcdəgah, ocaq, pir eləmək istəkləri əhvalatı, ya da utanmasan oynamağa nə var ki?!

Laçınlı, təpərsiz Mürşüd qəflətən bərkdən çığırıb tutuq səslə qışqırdı:

-Sən öləsən tutar qatıq, tutmaz ayran, gə-rək o seyid Abdullanın qulağının diibinə bir karlı qapaz tutuzduraydın!

Hamımız gülüşdük...

Gecənin günortası ötmüşdü.

Bir əsgər gecəsini də bax beləcə ötürdük, getdi...

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Ələsgər Həsənov ömrü... kişiliyi... dar ayaqda etibarı və hündür təpədən vurduğu "lastoşka"

Odessa, 05 və 06 sentyabr 1972-ci il.

II və III günlər.

Dembl prikazımızın çıxmasına düz otuz beş gün qalırdı. Bir ay beş gün...

Səhər saat yeddidə oyandım.

Oyanan kimi də... Piruyevin və tağım ko-mandiri Kaşşeyevin dünən gecə çıxartdığı hoq-qalar canımı sardı.

Yadıma düşdükcə gecəni də hirs-hikkəm-dən hey uçunur, yata bilmirdim.

Ürəyim elə sıxılırdı...

Tezliklə ürək xəstəliyi tutmasam yaxşıdır.

Elə bil məni kəndirləyir, əl-qolumu sındırır-dılar. Haqsızlıq məni öldürəcək.

Dik atılıb yerimdən qalxdım...

Və üzümü belə yumamış Piruyevlə haqq-hesab çəkmək planı cızmağa başladım.

Piruyev çardaxda işləyirdi.

Planım beləydi: Uşaqları 8-ci mərtəbəyə toplayıb yenə bel sapı, ling, taxta reykalarla si-lahlandırmaq və yuxarı heç kəsi buraxmamaq. Onu qan qusub, ürəyi gedənə kimi döydürmək!

Hamı məni eşidirdi.

Ağcabədili Nazı və öz briqadamın əsgər-lərindən savayı, hər ehtimala qarşı Maarifi ça-ğırtdırıb, bu davada molodoy həmyerlilərimizin də bizimlə əlbir olmalarını istədim.

O da öz növbəsində mirzəalıbəyli zemelya Şükür, kirovabadlı Faiq, Heydərov və başqala-rıyla məsləhətləşib razılıq verdilər.

Bir nəfər kimi bütün müsəlmanlar ətrafıma toplaşdı. Yenə sərkərdəliyimi qəbul elədilər.

Razvodda zampolit, baş leytenant Boyko-nun qarşısında kəskin şərt qoydum:

“Məsələni indi yoluna qoymasan bizdən in-cimə, ya onu öldürəcək, ya da hərbi xidməti ya-rımçıq qoyub Kremlə kimi tərpənəcəyik.

Ya Piruyev, ya da haqq-ədalət!”

Boyko rotada siyasi məsələlər üzrə müavin olduğundan bu məsələyə birbaşa cavabdeh idi. Odur ki, sıra meydanında qorxusundan dərhal əmr verıb, cərgədən Piruyevlə Nazim Əsgərovu bir addım irəli çıxartdı.

Vəziyyət ciddi idi.

Artıq hədəfi vurmağın əsl məqamı gəlmişdi.

Qəflətən tapança kimi açıldım:

-Günahkar nə Piruyev, nə də Əsgərovdur... Bütün bu mərəkəni yaradan, qiyamatı qoparan tağım komandiri Kaşşeyevdir!

Hamı susdu.

Ürəyiqurdlu Kaşşeyev sanki elə bunu göz-ləyirmiş. Zampolit Boykonu saymadan, ürf-adə-tə məhəl belə qoymadan çox soyuqanlılıqla:

-Sənlə məsələni çürüdərəm,-dedi.

Aramızdakı pərdə artıq götürülmüş, sanki yer kürəsində arktik qurşağın daimi donuq sərt iqlimi birdən-birə əriməyə başlamışdır. Arın-ar-xayın və ötkəmliklə:

-Ləngimədən...Ürkə... Nə bacarırsansa tez başla, yoxsa ki... şəbxun olacaq! İltimas, rəhm, mərhəmət, bir sözlə: Şəfaət qurtarmışdır!-dedim.

Xülasə...

Çox mübahisədən sonra tumov tutmuş Pi-ruyevə 5 naryad elan elədilər.

Rus əsgərləri ürəyiyuxalıqla küyləyib uğul-tu qopartdılar. Bizimkilər də onlara qoşuldu...

İş başlayan kimi bütün müsəlman əsğərləri 8-ci mərtəbəyə qaldırdım.

Şəbpərə Piruyevi gözləyirdik...

İki dəfə arxasınca aşağı da düşdüm. Star-şina onu yanlayıb buraxmırdı. Görünür nəsə du-yuq düşmüşdülər.

Qarayaxa Kaşşeyevlə Serikov çardaxda idi. Onu da çox güddük ki təkləyək,zira mümkün ol-madı. Qiyamat qaldı nahar yeməyindən sonra-ya. Görək bu gün bəxt kimin üzünə güləcək.

Saat 11:00 idi.

Aşağıda hərlənir, qaravurğun sinəsindən vurmuş, nıtıq Piruyevi güdüm-güdüm güdürdüm. Ürkütmək də istəmirdim...

Çex qızları gedəndən, bütün rota əsgərlə-rinin nəzər-diqqəti indi də üçüncü mərtəbədə yaşayan, mors içməyi çox xoşlayan ağ şalvarlı ağ qıza dikilmişdi. Bəyaz bəxtəvər... SSRİ-nin qüdrətli Müdafiə nazirliyində rəsmi olmasa da ikinci növ hesab edilən toz-torpaqlı, yorğun so-vet əsgərlərinə üsdənaşağı baxıb, nırç eləsə də rota nıqqıltıyla, ona balet eləyirdi...

Qəflətən... O... Baxışlarından hüzn yağan nimdaş geyimli misgin əsgərləri qarışqa gözün-də belə görməyən, aristokratlarabənzər ərgən qızın, üçüncü mərtəbədə eyvana çıxdığını gör-düm. Sanki qışlamızın üzərinə günəş doğdu.

Qız çox sərbəst idi.

Bir andaca... Ağır simli kontrabas kimi tarı-ma çəkilmiş gərgin əsəblərim sakitləşdi.

Çoxdan gözüm onda qalmışdı.

Çex Yitkayla bənövşəgözlü Katerinaya gö-rə vaxt tapıb onunla məşğul ola bilmirdim.

Onu görəndə, dəvəsiölmüş ərəb kimi dər-hal, nisgil dolu dərin bir köks ötürdüm.

Şeytan qəlbimə girirdi.

Ürəyimdə fikirləşdim ki, bu qızla tanış ola bilsəm, Odessada daha qız, qadın məsələsiylə də birdəfəlik qurtarardım...

O ağappaq arıq canına ağ şalvarı geyinib blokdan çıxanda, rotanın bütün şanlı sovet tikin-ti əsgərlərini dingildədirdi.

Əsən külək onun uzun sapsarı saçlarını arxaya atdıqca qız mələyə bənzəyirdi.

Onu görən kimi içimi bir rahatlıq bürüdü və tələsik yeridiyim yerdə ayağımı sürüdüm...

Odessaya ilk gələn gündə bu şeytan qızı eyvanda görmüşdüm. O vaxt ağcabədili Nazı demişdi ki, əri var, balaca da bir uşağı. Sən de-mə uşaq onun qardaşı qızıymış. İki-üç ay əvvəl rus qonşu uşaqlardan öyrəndim ki, qız subaydır.

Subay olduğunu bilən kimi, bir dəfə aşağı-dan üzüyuxarı eyvanda ona söz atmışdım.

O vaxt... mənə üzüaşağı cilvələnib diqqətlə, bol qəmzəylə baxsa da təmkinlə susmuşdu.

Onda uzun saçları qara rənglənmiş dəmir məhəccərli eyvandan ağzıaşağı salxım söyüd budaqları kimi hüznlə sallanırdı.

Yitkaya çatmazdı.

Amma gözəl idi.

22-23 yaşı olardı. Düşüncəli, sentimental, romantik və ağır təbiətli, şux, ərgən bir qız idi.

Şıltaqlıqla, dingişliklə arası yoxuydu.

Bu ciddiliyinə rəğmən də heç bir əsgər ona söz atmağa, ya kompliment deməyə ürək elə-mir, hünərləri çatmırdı.

Həm də ortada, idmançı bədən quruluşlu sağlam, cilalanmış tökmə polad kimi bir qarda-şı vardı. Əvvəllər o oğlanı onun əri bilirdim.

İyun ayından sonra mən bu qızı eyvanda, ya evlərinin pəncərəsindən içəridə görmədim.

Xarici qızları tapandan... artıq bir ay olardı onu görmürdüm. Hətta dəfələrlə, Yitkayla onun pəncərəsi tərəfdən gedib-gəlmişdik.

O yoxa çıxmış, sanki intiqal eləmişdi.

Müxtəsəri... bu gün bərk hirs-hikkəli olsam da, onu görən kimi içim getdi, qeyri-ixtiyari aya-ğımı sürüdüm... İçimdə titrək oyanış, dirçəlmə, sanki intibah baş verdi.

Ağcabədili pəltək Nazim və kəlbəcərli nə-zəriyyəbaz, çullu Sahib Əkbərov da dayanıb, lal həsrətlə ona baxırdı.

Yanağı qırmızımtraq bir rəng almış, bu ağ, dərd-qəmsiz bəxtəvər qız eyvanda dayanıb sa-kitcə ətrafı nəzərdən keçirirdi...

Tələsik... hirsli və tələsdiyim yerdə qəflətən ayağımı sürüyüb, sonra da yerə mıxlandığımı görəndə, huş-guşla üzümə sakitcə baxıb, dər-hal da ehtiramla gülümsədi.

Çoxdandı bir-birimizi görmürdük.

Taxta hasarın dibiylə onların eyvanının al-tına yaxınlaşanda, toreador kimi son həmləyə keçib, cəsarətlə soruşdum:

-Qəşəng qız! Məncə, ən vacib hiss səmi-miyyətdir, Siz də tikinti əsgərinə ikinci növ, qara fəhlə gözüylə baxırsınız?

O diqqətlə məni süzsə də, zəfərlə gülüm-səsə də... yenə susdu. Amma, gözlərini mən-dən -sallanan gur, uzun sarı saçlarının arasın-dan çəkmədi.

Ürəklənib ikinci dəfə ümidlə soruşdum:

- Bilirsiniz də... Sizin kimi gözəl varlının əlini bıçaq kəsəndə mənim kimi yoxsul əsgərlər kitelini parçalar!

Çox sakitcə, saçlarını arxayınlıqla dalğa-landırıb, dəruni, içdən gələn incə səmimiyyətlə:

-Yox bir! -dedi.

İlk dəfə olaraq söhbətimiz alındı.

Ürəyim dözülməz istək duyğusuyla kök-sümdə sevincdən çırpınsa da özümü heç nə ol-mamış kimi göstərib söhbəti davam elədim:

-Oxuyursuz, ya hardasa işləyirsiniz?- artıq ərklə, onun halalca sahibi kimi soruşdum.

Məlum oldu ki, Odessada universitet tələ-bəsidir, şərq ölkələri üzrə mütəxəssis olacaq.

Adını sonda bildirdi: ЛИДА!

Mənim adımı isə heç soruşmadı.

Şirin söhbət elədiyimiz yerdə qəflətən yeni gələn enlikürək, yekədiş mayor peyda oldu.

İstədim geri dönəm, amma gecikdim.

Gerçəkliklə üzləşmə bu an o qədər ağrılıy-dı ki, az qaldım körpə kimi ağlayam.

Mayor məni qoyub üzünü eyvandakı, uzun sarı saçları salxım söyüd budaqları kimi üzü-aşağı sallanan ağ şalvarlı qıza tutaraq:

-İndi bildim qüvvətli, vətənpərvər rota nor-manı niyə yerinə yetirə bilmir! -dedi.

Qız heyrətlə gülümsündü...

İstədim zəngin ər axtarışında olan qızı mü-dafiə edəm: Söz soruşurdu deyəm, yekədiş hə-yasız mayor imkan vermədi. Əclaf deyəsən ar-vadbaz, ruslar demiş: БАБНИК idi.

Mənə heç nə demədən də çıxıb getdi.

Amma bilirdim, itin dişi, motalın dərisi kimi bu iş çox çeynənəcək...

Qalmaqal qorxusu yaşansa da biz yenidən məhrəm söhbətə başladıq.

Tanışlığımızın şirinliyini yenicə dadırdıq ki, indi də onların evlərindən bir bəstəgöz göyçək qız,- 17-18 yaşı olardı- eyvana çıxdı.

Qızı müdafiə etmək üçün mübarizə apar-mağın zəruriliyini anlayıb, dərhal istədim qaçıb gizlənəm, onu real xatadan qurtaram...

Ağ Lida təşviş və əndişələndiyimi görüb, canıyananlıqla, gülə-gülə:

-Çaşma, qardaşım arvadıdır,- dedi

Hətta utandığımı, müticəsinə dayandığımı görəndə gəlinləri də diqqətlə üzümə baxıb, şux-luq və peşəkarlıqla:

-Məndən gizlənməyə də bilərsən! - dedi.

Odessa nə qədər "üzümü açsa" da, yenə Şərq küçəmizin isməti-həyası canımda qalmışdı.

Özlərinin təvəccöh göstərməsinə, təccübü-nə rəğmən, yenə utandığımdan ağzıyuxarı çox baxa bilmirdim: Abırlı Lida ağ şalvarda olsa da, gödək yubkasında qardaşı arvadının kök baldır-ları və sapsarı tumuşu aşkar görünürdü.

Bu hələ azmış kimi... gəlin pərdəyə bürün-mək əvəzinə pişim-pişimlə adını da dedi:

-НАТЕЛЛА... Наta da deyə bilərsən!

Bu günkü tanışlıq lap göydəndüşmə oldu.

Məni hər an duyğulandıran, qayğılandıran, çaşdıran,qəlbimi yaralayan və ürəktərpədən Yit-ka həsrəti gözümü bərk qırmışdı, heç könlüm açılmırdı. Vətən olsa da doğma dili, dini, insan-ları yad olan bu şəhərdə özümü tək-tənha hiss edirdim. Acı gerçəklik- əsgər olmağım da bir tə-

rəfdən canımı sıxırdı. Dünya... Həyat özü... his-slərimizi bölüşmək üçün məna daşıyır. Çex qızı Yitka gedəndən yenə də romantik xəyallarımla yalqız qalmışdım...

Hər bir insan varlığının ali məqsədi - Vətə-ni qorumaq və sevgini dərk eləməkdir. Zira ha-mımız özümüzə gələcək ömür yoldaşı intixab etmək ərəfəsində idik.

21 yaşım vardı...

Çox tərəddüd etdiymi görən qardaşı arvadı, üzüpudralı Nata sanki ürəyimi oxudu, rəhmlə və bic-bic mənə göz vurub, məhrəmanə pıçıltıyla:

-Lida axşam şöbəsində təhsil alır. Bu gecə, saat 23:00-da dərsdən çıxacaq...Qarşılasan gö-rüşə bilərsiniz... O sizin millətin adət-ənənəsini, həyat səviyyəsini dərindən bilsə yaxşıdır...

Qulaqlarıma inanmadım.

Bu nə bəxtəvərlik idi?

Belə olsa... sanki Avropadan SSRİ-ni fəth etməyə gəlmiş Yitka ayrılığına da dözmək asan olar. Kəskin duyğular canımı sardı.

Lida özünü çox sakit və təmkinli aparırdı. O mənim utancaq olduğumu anlayıb daha da mehribançılıq göstərməyə başladı.

Onunla bu qədər yaxından tanış olacağı-mı ağlıma da gətirə bilməzdim. İnana bilmirdim: Doğrudanmı həmişə arxasınca həsrətlə baxdı-ğım, adicə bir söz atmağa cürət

eləmədiyim, sa-taşmaq kimi alınacağını özümə ar bildiyim bu ağ şalvarlı ağ qız indi ram olmuşdu?

O həm qənirsiz gözəl, həm də dəblə geyi-nən yaraşıqlı bir qız idi. Heç bir əsgərə gözünün ucuyla da baxmazdı. Sanki bu ağ gözəldə iradə qüvvəsi sonsuzdu.

İndi isə, artıq bu tələbə qız mənimlə şirin-şirin söhbət edir, hətta bu axşama görüş də tə-yin etmişdik...

Məmnunluqla bildirdim ki:

-Mən də institut tələbəsiyəm və sənin kimi axşam şöbəsində ali təhsil alırdım. İndi isə elə o "axşam" məsələsinə görə hərbi xidmət çəkirəm. Sizə nə var? Yaxşı ki qızları doğma, hegemon Vətənimizdə əsgər göndərmirlər...

Nəyisə, qızlarla xeyli çənə vurandan sonra xudahafizləşib ayrıldım.

Arzum çin olmuşdu!

Ovqatım artıq çiçəkləyirdi.

Gecə Lidayla görüşəcəkdik. Bu nağıla ox-şasa da artıq reallaşmaq ərəfəsindəydi...

Becid 8-ci mərtəbəyə qalxıb olan xəbərləri bir neçə sətirlə uşaqlarımıza danışdım.

Dəfn-kəfn etməyi bacaran vəsvəsəli Nazı ağzıaçıla qalmışdı. Hətta dərdəsərli, kəlbəcərli vaynösə Sahib dözümsüzlüklə yalvardı:

- Nə olar çəm-xəmli gəlini də dərdəst elə, mənə düzəlt!

Əsgərlərimiz bu işə təəccüb edir, heç biri də inana bilmirdi, yəni bu həqiqət idi?

Müsəlmanlar dava olacağı mahnasıyla işə də başlamamışdılar. Hamı Piruyev, Piruyev,-de-yib, zəncir çeynəyirdi. Bir sözlə dava qaçılmaz olmuşdu. Həm də ki axşam plan, norma məsə-ləsi də ortaya qalxacaqdı. Davaya olan həvəsim isə tamam ölmüşdü...

Bənizləri ağarmış azürdə və yerdə qalan-ları iş yerinə qaytarıb, tədbirlə dedim:

-Siz işinizə başlayın,özüm Piruyevi düdüm-güdüm güdəcəm, təklənən kimi də sizi haylayıb çağıraram, onda tökülüşüb gələrsiniz, payını la-yiqincə verərik. Dava planlı şəkildə olmalıdır.

Belə də elədik.

Amma... Bənəkli əclaf qorxusundan kazar-madan bayıra çıxmadı. Praporşiklə starşina da onu gözdən qoymurdu. Görünür zampolit Boyko Kaşşeyev və Kirilyuka rəsmən bu tapşırığı verib.

Mülki paltarlarımız olan ikinci, iri çamadan hələ də Kaşşeyevin saxladığı arvadın evindəydi. Hər ehtimala qarşı təpərsiz Mürşüdü və gizlincə alt köynəyində daim dördkünc canamaz gəzdi-rən göydodaq Ədaləti göndərdim ki, çamadanı onlardan çıxartsınlar. Düzdü köhnə qurd yolunu azmaz... Elə alçaqlıq eləməzdi, çünki düşəndə özü

də istifadə eləyirdi, amma ehtiyyat igidin ya-raşığıdır deyiblər.

Tağım komandiri Kaşşeyev köhnə kənddə təzə NIRX qoymaq istəyirdi. Amma anlamırdı ki, ördəyi su ilə qorxutmaq olmaz!

Vur-tut ikicə ayımız qalıb.

Cəmi-cümlətanı 35 günə ПРИКАЗ çıxır!

Kaşşeyev ölçməmiş biçmişdi. Piruyevi də o öyrətmişdi, amma başa düşmürdü ki, ölüsü ölən bir gün ağlar, dəlisi olan hər gün.

Kaşşeyev çaşmış və çönmüşdü...

Toma evdə olmadığından Mürşüdlə Ədalət çamadanı götürüb taxta hasarın mülki adamlar yaşayan hissəsindəki kolluqların arasında mü-vəqqəti gizlədərək, fəxarətlə gəlmişdilər. Sanki vətənin çətin və şərəfli hərbi tapşırığını faşist almanlarının qərargahında yerinə yetirmişdilər...

Ağ, bidərd Lida pəncərədən baxırmış...

Əsgərlər mənə xəbər verən kimi başılovlu beşinci mərtəbənin yanları açıq eyvanına sarı götürüldüm.

Və yarıcan halda, it kimi ləhləyə-ləhləyə:

-Siz çox gözəlsiniz cancığaz,- deyib, arsız-arsız ona əl eləməyə başladım.

O məni görən kimi başıyla gördüyünü təs-diqlədi, pəncərədən ayrılıb tül pərdəsini çəkdi və eyvana çıxdı.

Onun səmimiliyi məndə açıq-aşkar xoş təəssürat yaratdı. Bigüman etiraf edi-rəm ki, qıza intəhasız bənd olmuşam.

Bizim binanın onlara sarı baxan yan his-səsində ЛОЖА adlandırdığım eyvana qaçıb, ora-dakı taxtalardan oturmağa gizli yer düzəltdim. Artıq təhlükəsiz, gözdəniraq bir yer seçdiyimdən məni kənardan görə biləcək zabit olmazdı.

Danışıq mexanizmi qurulmuşdu.

Arın-arxayın söhbət eləməyə başladıq.

O ovcuna tum yığıb danışdıqca çırtlayırdı. Mən isə oturub əlimdə taxta haçası oynadırdım.

Bu vəziyyətdə düz saat 13:00-a qədər o ki var çərənlədik. Saat ikiyə işləmiş qardaşı arvadı da eyvana çıxdı. Nata heyranlıqla mənə baxırdı. Və necə oldusa ağ Lida yalan oldu, o özü haq-qında məlumat verməyə başladı. Məlum oldu ki, 1954-cü il, oktyabr ayının 29-da doğulub.

Ürəyimdə fikirləşirdim ki, bəlkə də onun ad gününə kimi hərbidən tərxis olundum.

Atası təmiz rus olsa da, ukraynalı anasının valideyinləri tər-təmiz erməni olublar. Bəlkə də bu erməni kökənliyinə görə yanlara ayırdığı gur saçları şabalıdıydı.

Bildirdi ki, o da universitetə bu il qəbul olu-nub. Artıq bir neçə gündür ki mühazirələrdə otu-rub təhsil də alır. Qrup nömrəsi 12-dir. İngilis dili fakültəsində oxuyur.

Vur-tut 20 yaşı var.

Nəyə görəsə ağılsız evliliklə bağlı xoşagəlməzliliklərdən də danışdı.

Xüsusi vurğulayaraq, ironiyayla onu da bil-dirdi ki:

-Poladbiləkli ərim sevimli peşəsiylə əlaqə-dar командировкаya gedib və bir də qismət olsa noyabr ayında qayıdacaq.

Tez ürəyimdə hesabladım: Yox, əri gələnə kimi mən də artıq hərbi xidməti bitirəcəyəm.

Təzə gəlinin iki yaşında uşağı da vardı.

Ağ Lida bir qədər aralı olsa da gülümsəyə-rək mənə göz vurub, eyhamla dedi:

-Natanın toyu olanda...qardaşımdan altıay-lıq hamiləydi!

Qəflətən... Nata uzun bir şaqqanaq çəkib:

-Yalan deyir, biz ər-arvad olandan sonra bildilər ki, mən bakirə yooxx, başqasıyla əlçatar maşındakı seksdən sonra, artıq hamiləyəm!

Düzü diksindim...

Birdən ağlıma gəldi ki: Bu erməni kökənli qız da elə bütün erməni axçiləri timsallı misgin, etibarsız, sədaqətsiz və hər an ərə badalaq vu-ra biləcək, qəbahətli Bahar xala kimi fınış ola bilər. Şala bürünüklü erməni qadınlarının əlində bu iş... bir buğum yatıb, günortaüstünün bürküsündə bir cam su içmək kimi bir şeydir.

Və məhz buna görə də, bu könül oğrusu, pəhləvan kimi yar-yaraşıqlı ərinə olan sevgisi-nə marağı itdiyindən, ağ şalvarlı bəmbəyaz Li-danı kölgədə qoymaq istəyirdi...

Həm də söz yox ki, cavan gəlin üçün üç-dörd ay ərsiz yaşamaq, belə demək caizsə, bir qədər çətin olardı...

Ələlxüsus da, cahangirlik etmək iddiasında bulunub erməni kökənliyinə söykənən satqın bir xalqın sıradan birisi ola. Həm də dığdığ, qotur, dıbırabənzər cahıl-cuhul dılğır dığalarla cahıllıq etmək istəyən, payızın girməsinə baxmayaraq hələ də dar-düdük və dekoltedə gəzən cilvəli, əri ezamiyyətdə olan ehtişam ölüsü kimi birisi!

Nata yadına nə saldısa, qəflətən qımışa-raq bildirdi ki, o hələ 16 yaşından putyovka ilə xarici dövlətlərdə gəzib-dolanıb. Misal da çəkdi: Macarıstan, Yuqoslaviya, Bolqariya, hətta əlçat-maz Kubada, Vyetnamda belə olub.

Onu da qeyd eləyim ki, uğurlu tanışlığa onun çılpaq müdaxiləsi nəzakətsizlik yaratmadı.

Amma ağ Lida yalan olmuşdu.

Erməni kökənli Nata təkbaşına mühakimə yürüdüb, artıq konkret təfərrüatlara keçirdi:

-Baldızımın sevdasının ağıllı, ya ağılsız ol-duğuna qarışmaq fikrində deyiləm. Kim səadə-tini kiminlə tapacaq, бог его знает!

Kimisə qınamaq haqqım da yoxdur.

Bu gecə 23:00 - 00:00 arası görüşün...

Həsir yelpikli, bu büsbütün büryan olmuş bivəhm gözəlçə erməni kökənli olsa da, ağıllı ehtimallarla ləhcəsiz danışırdı.

Aligövhər alicahlar səviyyəsində... erməni xidmətini, himayəsini ürəyimdə dəyərləndirirdim və heyranlıqla, gözlənilmədən, bivaxt banlayan xoruz kimi az qala bağırdım:

-Harda?

O dəqiqə dəxalət edərək, eyni ruhda o:

-Beş nömrəli trolleybusun Turbaza daya-nacağında, -qışqırdı.

Dəxil düşmüş hər ikimiz bu imtiyazı qəbul edib, gülümsəməklə razılığımızı bildirdik...

Söhbət kəsildi.

Bir qədər keçmiş bizim rota cərgəylə, sıra meydanından yeməkxanaya möhtəşəm ayaq tappıltılarıyla gedəndə Lida mənə lütfkarlıqla:

-Sən də get! -dedi.

-Onda sən də evinizə gir!-dedim.

Gülüşdük və onlar eyvandan evə keçən kimi, mən də dördəm yeməkxanaya tərpəndim. Artıq sevincimin həddini oxucu özü təyin edə bilər. Necə deyərlər köhnə palan, içi zər-zivər!

Deyəsən naxışım tutur, Leyli-Məcnun mə-həbbətinin yeni bir romanı da uğurla başlanırdı...

Yitka gedəndən çəkdiyim iztirablar indi ye-nidən çönüb həsrətli, hicranlı, intizarlı dəqiqələr-lə əvəzlənəcək.

Mən nəsə elə-belə sevə bilmirəm, kimə vu-ruluram dəli kimi ona bağlanır, onunla nəfəs alır, onunla yaşayıram.

Əlbəttə, özü istədiyi təqdirdə onunla görü-şə bilsəm və əgər xasiyyətimiz tutsa... Bu da bir roman olacaq. Yitkanın, Katerinanın öz yeri, öz romanları olduğu kimi, Qəhrəman Odessada bir roman da yazılacaq.

Görək!

Nahardan sonra yıxılıb çul kimi yatdım.

Oyananda dolabçamdan dəftər-qələm gö-türüb yeməkxanada gündəliyi yazmağa getdim.

Saat 18:00-a kimi yazılmayan ötən günləri xatırlayıb qələmə aldım. Ağcabədili Nazı gəldi:

-Bu gün nədənsə planyoyka olmayacaq...

Lidanın instituta getmək vaxtıydı.

Tez gündəliyi yığışdırıb, Nazıya əhəmiyyət belə vermədən, dəqiqəşümara baxa-baxa beton pillələrlə beşincici mərtəbədəki ЛОЖА adlandır-dığım eyvana doğru becid qaçdım.

O mənə söz vermişdi ki, bu axşam ağ şal-varsız dərsə gedəcək.

Ucqarda böyüsəm də onun ayaqlarını çı-lın-çılpaq görmək istəyirdim. Nədənsə...

İndyə kimi elə də uzun olmayan həyatımda itirdiyim sevgi və ehtirasları düşünə-düşünə, lap axır-axırda onu blokdan şahanə çıxan gördüm.

Ağ şalvar əynində yox idi!

Ağappaq uzun qılçaları bədəni biçimindəy-di. Qəlbimdəki qətiyyət möhkəmləndi.

Roman artıq yazılırdı...

Sevincdən kefim açılmış, tağım komandiri Kaşşeyev də, Piruyev də, yadımdan çıxmışdı.

Düzdü, Lidayla hər ikimiz tərəfdən bağlılıq elə də dərin və güclü deyildi. Amma gecə görü-şünə layiqincə hazırlaşmalı və ilk olaraq üzümü təraş eləməliydim. Üz qırxmaq məsələsində çox səhlənkarlıq eləyirəm. Yitka həmişə bunu mənə irad tutar, zorla üzümü təmizləməyi tələb edərdi. O gedəndən sonra isə tük məni tamam aparırdı.

Ərincəkliyi atmağın əsl vaxtıydı. İlk növbə-də özüm-özümə sədaqətli olmalıyam.

Dul Dusyanın hamamxanasına getdim.

O məni əzizləyə-əzizləyə sabunlayb ma-çalkaladı. Üzümü isə özüm qırxdım.

Camadar və kisəçi Dusiçka arxadan əliylə yanıma yağlı bir sillə çəkib, ürəyiyananlıqla:

-Bax bu başqa məsələ! -dedi.

Mən onun yanında lüt çimsəm də daim bir əlimlə "qabağımı" tuturdum. O hərdən zarafatla əlimi tutub yana dartırdı...

Artıq təmizliyimə diqqət eləməliydim.

Ağ Lida mənimlə həmyaşıd idi. Tələbəydi, həm də çox dəblə geyinən ağır təbiətli ağıllı və savadlı idi. Mənim və ümumiyyətlə qafqazlıların haqqında pis düşünməsini istəmirdim. Niyə fikir-ləşsin ki axı, bizim mədəniyyətimiz yoxdur, özü-müzə qarşı laqeyidik...

Yitka tez-tez mənə xatırladardı ki, xaricdə, lap dəqiqi Avropanın əksər kapitalist dövlətlərin-də daha kondensionersiz avtobusda, qatarlarda getmirlər. Fərqə bir bax ha!

Müsəlman dövlətlərində, lap elə bizim kəl-bəcərli, laçınlı çullu, dizi torbalı yamaqlı şalvar-larda eşşək belində gəzən uşaqlar isə kefkasını yan qoyub, hələ də dəkkə ilə aşıq-aşıq oynayır, papirosu-papirosa calaya-calaya əski-üskü do-laqlarıyla top düzəldib, yamyaşıl yamaclarda aşağı-yuxarı hey qovurlar.

Amma bizimkilərin avropalı kapitalistlərdən fərqli olaraq yanaqları qıpqırmızı olardı!

Düşünə-düşünə əsgər paltarımı geyinirdim. Birdən Dusya özünü tələsik içəri təpdi:

-Tez ol, həyəcan sinci çalınır!

Başımı yaxşı qurulamamış, elə sulu-suluca dabanıma tüpürüb götürüldüm.

Hərbi hissəyə girən kimi sıra meydanında-kı qaçhaqaçda, bizim əsgərlərin də köməyi ilə birtəhər xebeni düymələyərək, remeni bağlayıb, yay əsgər çəkmələrinin iplərini çəkib bərkitdim.

Briqadamın rotadakı sıralandığı cərgənin baş hissəsindən hərbi qaydayla ayaqlarımı cüt-ləyib yeni, yekədiş mayorun qarşısına kimi fə-rəğət formasında möhtəşəm tappıltılarla əsgəri addımlayıb, ikinci olaraq məruzə elədim.

Çox maraqlı alındı.

Pilotkamın altından su damcılayırdı...

Bu vəziyyətimi görən bütün azərbaycanlı subay qızlar qürur dolu bir çaşqınlıqla məni fəth etmək üçün müxtəlif fəndlərlə şanslarını yoxla-maqdan vaz keçməzdilər.

Axşam yeməyindən sonra isə, kazarmada ОДБОЙ verilənə kimi yıxılıb yatdım.

Rota günün sonuncu əmriylə yatmağa da-ğılanda növbətçi məni oyatdı. Qalxıb geyindim və “İlan deyər: -Mən adamı sancmaram, san-canda da elə sancaram ki, dərmanı eşşək buy-nuzunda sərçənin südü olsun.” -deyə-deyə, ye-ni uzatdığı lopa bığının altında nəsə mızıldayan, taleyin həddən artıq səxavətlə başından səpələ-diyi mağmunluqda dizinəcən batan Mürşüdü də götürüb Qastronom-kazarmadan ağ Lidanın zə-fər görüşünə çıxdım.

Laçın dağlarında yapıncı geyinən, boz eş-şəyinin hələ də xiffətini çəkən təpərsiz Mürşüdlə mədəni libasın nə olduğunu hələ də anlamayan göydodaq Ədalətin kolluqda gizlətdiyi çamadanı da tapıb, əvvəl Tomagilə getdik.

Hər ikimiz mülki paltar geyinməliydik.

Qısa pauzadan sonra qara gün üçün pul yığan Tomanı başa saldım ki, çilçilsifət Kaşşe-yevlə aramız bərk dəyib.

Mayor Deqtyar kimi ilan ağzından qurtarıb, onun kimi qurbağa ağzına düşmək istəmirəm. Və istəsə o mənə, satqınçılıqla pislik də eləyə bilər. Səndən mülki geyim soruşsa deyərsən ki, dünən gəlmişdi, hər iki çamadanı da yığıb qab-qardı və: “İlanı görənə lənət, görüb öldürməyə-nə lənət, öldürüb basdırmayana da lənət!” -de-yib, başılovlu, deyinə-deyinə apardı.

Toma başını qaldırmadan, məni gördüyün-dən içində aldığı rahatlıqda zövq ala-ala, fəqət tək olmadığımdan yaranan etinasızlıqla dizləri-mi qucaqlayıb, parlaq monoloquma rəğmən qü-rurla, tam arxayın səsləndi:

-Ürəyini buz kimi saxla!

Saat 22:42 -də görüş yerindəydim.

Zatında yüksək mənsəbli qohumu olmayan Mürşüd sərvəqt ol deyib, uzaqdan məni izləyirdi.

Turbaza dayanacağına yönələn hər bir av-tobus və trolleybuslardan düşən sərnişinlərə sa-qın, diqqətlə baxırdıq. Yaxınlaşan 5 nömrəli trol-leybusu isə lap

həyəcanla qarşılayırdım ki, zira gözümdən heç kimi məbada yayındırmayım.

Saat 23:02...

Növbəti 5 nömrəli yorğun, yuxusuz təsiri bağışlayan trolleybusdan düşən üç nəfərdən bi-ri, çökmüş sükutda sakit addımlayan ... O idi!

İçimdə vulkanik bir sarsıntı, güclü titrəyiş keçirsəm də özümü sakitləşdirib fağır-fağır ona yanaşdım. O başını belə qaldırmadan salamımı aldı. Görünür hələ dayanacağa çatmamış uzaq-dan məni görübmüş.

Çox maraqlıydı, əsgər formasında deyildim, yəni doğrudanmı belə uzaqdan tanıya bilmişdi?

İnanılmaz idi!

Üstüçətirli dayanacağın işıqlı fənəri altın-dan aralanıb, turbazanın nisbətən qaranlıq his-səsiylə qoşa addımlamağa başladıq.

Kifayət qədər mötəbərlik təlqin edən bu qız trolleybusun arxa qapısından ehmalca düşəndə məni mülki geyimdə necə tanımışdı? Hələ də ürəyimdə bunu düşünürdüm...

Görüşəndə əl də tutmadıq, bəmbəyaz bə-nizində qeyri-adi vəcd ifadə olunurdu:

-ДОБРАЯ ВЕЧЕР, -deyib, ağızla salamlaşdı.

Xoşbəxtlikdən ehtizaza gəlirdim.

İlk dəfəydi yanaşı, çiyin-çiyinə addımlayır-dıq. Onun fransız parfümü məni bürümüşdü.

O gözəl idi!

O çox, lap doğrudan çox gözəl, mədəni və Komsomol kimi ağır qız idi. Yitka şıltaqlığı, bə-növşəgözlü Katerina sentimentallığl, Xuraman təkəbbürü onda yoxuydu.

İçimi tektonik vəlvələ bürüdüyündən qolu-na girməyə cəsarət eləmədim.

Ağır təbiətin də belə incəlikləri var.

Susub sakitcə, lal-dinməz addımlayırdıq...

Kaş biləydiniz, çökmüş sükutda turbazanın yarımqaranlıq bağından yanaşı ötərkən, donu-nun ətəyi dizlərimə dəydiyindən və isti hənirində onu necə qucaqlamaq istəyirdim!

Onun saçlarının qoxusu və addımlayarkən arxaya uçan sapsarı, yumyumşaq uzun telləri hərdən üzümə, yanaqlarıma toxunurdu.

Payız yenicə girsə də, axşamlar Odessada artıq soyuq olur, hər gün də sərin meh əsirdi.

Birdən, lap körpəlikdən deyiklilənmiş adax-lılar kimi yavuqlaşaraq, ismimi soruşdu.

Sevincək adımı söylədim.

Və yaranmış bu yumşaqlıqdan yararlanıb, uzunqol köynəyi və ağ şalvarı geyinmədiyi üçün becid təşəkkür də elədim.

Məqamıydı!

Sanki xoşbəxtliyin ehtizasıyla nazlanıb:

- Qarabuğdayı göyərçinim, bərk yorğunam yaman yuxum gəlir, səninlə bir fincan çay içmək xoş olardı. Amma evə getmək istəyirəm, həm də gecdir... -yüngül titrəyişlə dedi.

Söhbətimizdəki səmimiliyin hissolunacaq dərəcədə artmasına baxmayaraq və inandırıcı əlamətlər tələb etmək mümkünsüz olsa da, duy-maq istədiyim sevgiylə real vəziyyət xoşuma gəlməsə də, uyuşmasa da:

-Nə deyirəm? Siz çox lütfkarsınız! -fəqircə-sinə sızıldadım.

O sanki cavabımdan rahatlaşdı.

Xüsusi cazibəsi və gözəlliyi olan doğmaca bağı keçərkən, yolboyu ordan-burdan mənasız söhbətlər elədik. Aradabir aramıza lap ağır sü-kut da çökürdü.

Bəlkə çex qızı, şıltaq Yitka kimi tərəddüd edirdi:Müsəlmanla ailə qurub ərli ola bilərəmmi?

Amma, hər-halda o məmnun idi.

Sonuncu döngədə dayandıq.

Qorxurdum o boyda məndən uzun olsun, amma gördüm ki, yox! Boyumuz demək olar bə-rabər idi -1m. 66 sm.

Həm də yaşıd idik, - 21 yaş!

Bircə fərqimiz vardı, -geyim.

O həddən artıq gözəl, son dəblə, mən isə əksinə pis geyinirdim. Ütüsüz, köhnə və hətta dizlərimin üstü cırıq...

Səki ən sonuncu təzə şalvarım idi. Bu ba-zar kuybışevli Hüseyin geyinib forslana-forslana şəhərdə gəzirmiş, avtobusa ilişib yıxılıb...

Bir dizini tamam cırmışdı.

Düzdü, qaranlıqda elə gözə çarpmasa da, ağ Lida nə vaxtsa bunu görəcək və diksinəcək!

Zəngin ər axtarışında olan bir ağşalvar, ər-gən ağ rus qızı üçün bu əsl fəlakət olardı.

Hərçənd orası da var ki, cırıq dizli şalvarı-mın cibində diri bir yüzlük vardı!

Təpəri də o qırmızı, şaxlı əskinaz verirdi!

Sabah şalvarın lap qəttəzəsini alacağam. Dizicırıq şalvar Qafqaz səltənətinə yaraşmaz, lap düzü ayıbdı...

Təxminlərin içində itib-batırdım.

Birdən arın-arxayın kommunist kimi dedi:

- Bir əqidə yoldaşım var, sabah bizə qonaq gələcək, dəqiq vaxtını danışmamışıq. Onu ata-anam da tanıyır, zira ailəmizlə dostluq edir. İnci-mə, ona görə də sənə dürüst bir vaxt deyə bil-mirəm. Alın yazısı, qismət məsələsi də var...

Ümidsizliklə baxdığımı görüb, tələsik:

-Sabah eyvandan danışarıq. Vəziyyəti bilib sənə bir söz deyərəm. İlk münasib fürsət dü-şəndə görüşəcəyimizi vəd edirəm. Tanışlığımı-za kölgə salacaq bir şey də "hələlik" yoxdu, -ey-hamla dedi.

Onun bu rəsmi iltifatı, ifrat tələskənlik və eyhamla dediyi son quru sözlər, soyuq davranı-şı, sərbəst danışığı doğrusu məni şübhələndirdi. Sanki: Bu nigaha ümidim çox azdı, nə düşünür-sən özün bilərsən, təki məni rahat burax, de-mək istədi. Və düzü buna vurduğu eyhamlarla hardasa nail də ola bildi.

Son dərəcə bərk əndişələnsəm də, düşün-düm: Bəlkə Müqəddəs Məryəm ana müsəlman olduğuma görə məni sınağa çəkir? Yoxsa ağ-şalvar, dönüşü olmayan qərar qəbul edir? Axı o bir misqal belə tərəddüd etmədən danışırdı.

Hətta, korlanmış əsəblərimlə məchul ümid-sizlik içində və müşahidə qabiliyyətimə rəğmən başılovlu: Yoxsa, cazibadar qız məni xoşlama-dı? Bəlkə tənə ilə baxır? -fikri beynimdə dolaşdı.

Dəlilər kimi qəflətən həyəcanlandım.

Amma yox!

Ola bilməzdi, çünki qaranlıqda heç düzə-məlli üzümə də baxmamışdı, niyə bəyənməsin?

Nəyisə... Nə etmək olardı? Bəlkə ağ yalan-dı? Buna da inanmıram, belə yalana o bu qədər cəsarət edə bilməzdi.

Qəflətən inadkarlıqla dedi:

- Gəl daha bu mövzuya toxunmayaq. Mə-nə güvənə bilərsən, amma səni görə bilərlər, buradan geri qayıt. Hətta nədənsə tələsməyi də tövsiyyə elədi.

Rusların mənfəəti üçün özünü şəhid edib, nə vaxt oldu eşşək kimi işləyən müsəlmanlar kimi: Tərtəmiz söhbətə oxşadı! -düşündüm

Sabaha görüş də təyin eləmədik.

Maraqdan yana-yana qıpqırmızı qızarsam da, onunla tablaşa bilməyib, ümidsizcəsinə ra-zılaşdım. Və bu vaxt əsl möcüzə baş verdi.

Əl uzatdı mənə...

Yupyumuşaq ovucu isti idi...

Ağzını açmadan, dodaqlarını aralamadan belə yüngülcə üzümdən öpdü...

Şaşqınlıqla susdum...

Riqqətə gəlmiş hisslər canımı bürüdü. Və elə bil, bu an bütöv bir əbədiyyət ötdü...

Sonra qarşılıqlı meyllərimizi təxmin etdim...

Orta məktəbdə oxuyanda tətilin başa çat-ması və Xuramanı görəcəyim gerçəkliyi ilə necə sevinirdimsə, fərəhdən ürəyim necə atlanırdısa, indi də ağ Lidanin isti ovucu və aralanmayan dodaq öpüşü məni ehtizaza gətirmişdi.

İçim kükrəyirdi...

Don vurmuş cənublular kimi geri döndüm.

Ürəyimdə şübhə qalsa da, onun mübhəm əl uzatması, özü soyuq danışsa da isti ovucu, yüngül öpüşü bir qədər məni ovundururdu.

Düşündüm ki: Bu qız ağıllı qızdır, ağır tə-biəti var, tələbədir. Özünü doqquzuncu sinif şa-girdi, 16 yaşlı praqalı Yitka kimi şıltaq aparmalı deyildi ki?

Düzdür, 16 yaş da elə-belə yaş deyildi.

Komsomol özü də 16 yaşındadır.

Amma o da, 21 yaşlı Lida kimi ağır təbiətli, həyalı, ismətli və abırlıydı...

Təsadüfən yana baxanda, cəfamı fədakar-casına daşıyan, yezidi kürdlərə bənzər və bərk yorğun olsa da enerjiylə əsnəyən təpərsizi, kə-nardan mənə qırıq-qırıq nəsə demək istədiyini gördüm. Ağ Lida başa düşməsin deyə çapuq üzümü çevirdim.

Və necə oldusa birdən yadıma düşdü ki, bu gün əlamətdar gündür.

“O gündən” 34 ay ötürdü!

Düz otuz dörd ay əvvəl... Komsomolu ilk görəndə, nağıl sözü olmasın bir könüldən min könülə vurulub, ona aşiq olduğum gündür.

O gündən, o mənim ürəyimdən axan qa-nımla bir vurur. Düz 34 aydır...

Ömür boyu yaşanacaq həyatımın nüvəsi də, ona olan saf məhəbbətim olacaq. Və ürəyim köksümdə son dəfə vuran ana qədər də onunla döyünəcək. Başqa xalqdan olan qızlar ötəridir.

Biz ailə quracağıq!

Ölümdən başqa heç kəs bu izdivaca mane ola bilməz! Çox yazmışam və yenə də yazıram: Qoy oxucum yorulmasın, yalnız o mənim zöv-cəm ola bilər! Bunu bənövşəgözlü Katerina da, ağ mirvari sırğalı Məhbubə xala da bilir.

Yitka, dini və dili ayrı olan çex vətəndaşıdır. Ya onun, ya da mənim üçün qərib ölkədə ya-şamaq qərib olmazdımı?.

Heç daş da qərib yerdə dayanmasın!

Qəriblik adamı dirigözü öldürüb yox edər.

Yad ellərdəki küləkdə, boran-çovğunda, qar-qiyamatda, tufanlarda, yad köpüklə coşan sel-sularda hiss edilmədən qərib qaya olsa belə, için-için ovulub yoxa çıxar.

Qəriblik həm də ögeylikdir...

Lida və ya əvvəlki tanış olduğum qızlar isə əsgər həyatımın macəralarından başqa bir şey ola bilməzdi. Həyat bitib tükənməyən möcüzədir.

Düzdü bəzən, hərbi mundirli bizim azər-baycanlı əsgərlərdən bəziləri ehtiyata buraxılan-dan sonra yanındakı cavan bir rus qızıyla qo-şalaşaraq, tozu ərşə qalxan, günəşi rəhmsizcə-sinə yandıran öz doğma

kəndlərində yolun ağı-na düşərdilər. Bu yad qız doqqazlarında peyda olub nə qədər etibarlı, sədaqətli, gözəl və zərif olsa da, məmə yeyəndən pəpə deyənədək ha-mıyla mehriban davransa da kənddə yabanı çi-çək kimi açardı... Sonda isə əqidəsinin qurbanı-na çevrilər və harda gəldi, -pambıq tarlasında, bostanda, ya pəyədə -doğduğu bir sürü colma-cocuqdan yalnız sonbeşiyini götürüb stansiyaya üz tutar, kədərlə doğma vətəninə dönərdi ...

Amma belə əqidə məndə yox idi.

Məni arxada fədakarcasına gözləyən və nigahımıza ümidli olan Komsomolum vardı.

Düz, 34 ay idi.

Həyat doğrudan da özünün işıqlı tərəfini daha qabarıq, aydın göstərmək üçün, əvvəl zül-məti qatılaşdırmağı daha çox sevir.

Əsgər həyatı bir sınaq oldu.

Yerdə qalan qızların isə bilavasitə dodaq-larımdan o yana yolu yoxuydu. Hər ikimiz Sovet vətəndaşı olsaydıq, bəlkə də dodağımdan qəlbi-mə ilan zəhəri olub, bircə dəli kimi vurulduğum şıltaq çex qızı keçə bilərdi.

O da, özü etiraf etmişdi, buna getməzdi.

Yitka Zahalkova sevgisinin sonu yoxuydu...

Dodaq əyləncəsi olan digər qız, ya qadın-lar da hərbi xidməti qurtarıb, subaylığın sultanlı-ğıyla vidalaşana kimidir.

Ailə təməli qoyulan gündən sonra, göydən bardanla zənən xeylaxları tökülsə də, mənə na-məhrəm sayılacaq...

Uşaqlıq başa çatanda həmsinfinin və özü-nün ilk ülvi hisslərinə asi çıxan, tez-tez minbir bəhanəylə hansısa kitabın, ya bir-birimizdən sir-li pıçıltıyla soruşduğumuz: “Artıq qələmin yox-du?” -sözlərinə və hələ də yada düşəndə dərd, əzab çəkdiyim... Qaynayan şəhər, izdihamlı tə-ləbə dəhlizləri görüncə düşünülmüş etinasızlıqla qaba tərzdə qonşu oğlanı bəyənməyən, yüksək mənsəbli qohumları olan, zəngin ər axtarışıyla, qürrə və qapalılıqla təkəbbürlü Xuramana rəğ-mən... Ləyaqətlə gözlədiyi üçün mehriban, tər-biyəli, kamil və mənə son dərəcə diqqət ayırdığı üçün Komsomolun ömrü, şübhəsiz qəbr evinə kimi mənimlə birgə olacaq.

Hardasa oxumuşdum ki: ”Mən sənin evinə gəldim, sən mənə ayağımı yumağa su vermə-din. Amma O... Göz yaşlarıyla ayaqlarımı islatdı və saçlarıyla silib quruladı.”

Nə qalıb?

Allah qoysa, iki ay müddətinə kimi biz bir-birimizə qovuşacağıq. Komsomolsuz həyatı heç o böyük yaradan, ulu Tanrı özü də qoy mənə qismət eləməsin.

Son sözüm budur: Bu işə nöqtə!

Deyildiyi kimi, çox sevənin günahlarını da hər şeyə qadir olan o bir Allah çox bağışlayır...

İntelligent ağ Lida gecəyarı olsa da nöqtə boyda olub itənəcən arxasıyla təəssüf qarışıq fərəh hissi, və həm də həsrət nisgiliylə dolu bir xeyli baxdım.

Xatirələr bolluğunda üzürdüm...

Donuzməməli Tomagildə, ələkçinin qıl ve-rəni, təpərsiz minkəndli Mürşüdlə soyunub hərbi mundirlərimizi geyindik.

Taxta hasardan içəri keçib, ağ Lidayla ilk, müəmma dolu görüşümüzün dadını bissimillah eləyib çıxarmamış, kəlbəcərli Sahib təngnəfəs, bədsözlü adamlar kimi başımızın üstünü alaraq bizi gizlincə xəlvətə çəkdi:

-Hardasınız? Qiyamət qopub! Qırğın düş-müşdü, yenə xristian-müsəlman davasıydı, ya-ralananlarımız var...

Həyəcanım son həddə çatdı. Sanki hava-lanırdım. Qəlbimdə hiddət qaynayırdı:

-Canavar Kaşşeyevin qurğusudur!-dedim.

Və qəflətən hayqırıb, qansoranın kazarma-dakı çarpayısına doğru cumdum.

Tərslikdən, əclaf yerindəymiş.

Arxamca ağcabədili Nazı, kirovabadlı Faiq, təndürüst Maarif, kəlbəcərli vaynösə Sahib, hə-mişəgümrah Mürşüd və üzü ölmüş boz ilanın qurumuş dərisinə oxşar kuybışevli Hüseyin öz-lərini çaparaq yetirdi.

Vurçatlasın düşdü!

Kaşşeyevin çığırtısına ruslardan özünü ilk yetirən molodoy serjant təntik Podqornu oldu. O Kaşşeyevdən pis günə düşsə də cıqqırığını be-lə çıxarmağa macal tapmadı.

İlahi! Nə baş verirdi?

Pervomayskidə həyatın astar üzünü bir də-fə yaşasaq da artıq tarana gedirdik. Stadiondakı dava yalan olmuşdu.

Sibirdən gələn sıravi, molodoy əsgər Əli-yev hövl içində tağım komandiri Podqornunun axırına çıxmaq üzrəydi.

İvanyuşenkonun, Malışevin, Nikulinin çığır-tısı ərşə qalxırdı.

Sanki vətəndaş müharibəsi başlamışdı.

Qırmızıların və ağların yerində indi kasıb, canadolmuş müsəlman və müsəlmanlara həqa-rətlə baxan, ağalıq iddiasında bulunan qudur-ğan, harın xristianlar dayanırdı.

Tənbəli-Bağdad Baba Əliyevin kəlləsi qar-pız kimi partlamışdı.

Kazarmanı qan boyayırdı.

Günəş şəfəqlərinə, çirkli armudaoxşar ağ burnuna qonan ac milçəyin taqətsiz uçuş səsinə, qulağının dibində uçub canını qurtarmağa deşik tapmayan eşşək arısı vızıltısına, ya da quşların cəh-cəhinə oyanmayan, indisə səs-küyə oyanıb kubrikadan kazarmaya özünü yetirən praporşik Kirilyuku sıravi molodoy, parlaqgözlü qara Zakir bel sapıyla arxadan vurdu.

Heyrətlənmiş komandir, rotaya yeni təyin edilən zabiti necə vurdularsa zavallı, dəvə kimi xıxıb dinməzcə döşəmədə dizləri üstə çökdü.

Mayıf Mamed taqəti kəsilmiş qoca nənələr kimi ümidsiz çığıra-çığıra vay-həşir qopartmışdı.

Düzü elə hamı zəlalət içində çığırır, bütün dava eləyən əsgərlərdən qan axırdı.

Yarıyuxulu, yarıdəm, yarınarazı, yariciddi, siyasi işlər üzrə komandir müavini, yaşılgöz baş leytenant - lap qısası, zampolit Boyko görünən-də, sözün əsl mənasında kazarmada artıq və-təndaş müharibəsi gedirdi.

O gözlənilmədən, ürək-göbəyi düşmüş, ür-pərmiş halda, dəlicəsinə üsrət içində və üşüdü-cü bir tərzdə üsyançıların başçısı kimi məni kö-məyə harayladı.

Rota əldən gedirdi.

Sanki Çaldıran döyüşü, Kərbəla müsibəti yenidən alovlanmışdı. Üsyan idi.

Kaptyorkada köməkçi, kazarmada isə həl-ledici döyüşlər gedirdi. Bircə ölən olmaya!

Kuybışevli Hüseyin ağlaya-ağlaya hayqırır-dı: Hardaydınız ay Babayev, ay Mürşüd Mame-dov? Bizi yer üzündən silirdilər.

O necə nərə çəkirdi!

Haqsızlığa dözməyən, hiddətini fəal surət-də bildirən o göydodaq, uzundraz Ədalət də indi qızışıb “banka” gedirdi.

Bizim sibirdən gələn molodoy müsəlman əsgərlər doqquzbaşlı əjdahalara dönmüşdü.

Qayışbaldır Turabxan da elə hey hönkürə-hönkürə, qarşısındakıları armatur qırığıyla qıra-qıra ağcabədili Hüseyin kimi: Hanı o Babayev, hanı o Mürşüd Mamedov? -deyib, mələyirdi.

Acı bağırsaq kimi dava uzanır, kiminsə bü-töv canını, ya kiminsə bəzi orqanlarını həmişəlik itirmək ehtimalı olsa da, davada iştirak edənlə-rin təbir caizsə hamısı, bütün ömürləri boyu ya-şayacaq zəlalətə etinasız yanaşırdı.

Sən, ey gidi dünya!

Tiran xalqın küll halında xristian əsgərləri olmasına baxmayaraq necə qüdrətliydik bu an...

Haqq-hesab çəkilirdi!

Şərəfə qabil olmayan Piruyev isə tülkü kimi qorxusundan əsim-əsim əsə-əsə gizlənibmiş.

Onu görən, tapan olmadı...

Bu hadisə də Pervomayskidəki stadion da-vası kimi hər yada düşəndə qürur doğuracaq.

Kimsə fövqaladə vəziyyəti dəyərləndirərək, gecəynən komendaturaya zəng vurub, -deyirdi-lər ki, lap düzü mayıf Mamed qulağıyla eşidib, -zəng vuran əsgər, sevgidə daim bəxti qarə gə-tirən, kəlbəcərli vaynösə Sahib olub...

Komendatura üstüçadırlı, yanlarıaçıq hərbi maşınla, dubinka və silahlarla özlərini yetirəndə dava artıq səngimiş, demək olar ölüm təhlükəsi uğurla sovuşmuşdu.

Bu hadisənin üstü məbada açılsa rotanın adına böyük zərbə vura bilərdi. Zampolit Boyko kişi kimi onları qarşılayıb şərəf qazanacaq sözü fəxarətlə və hündürdən işlətdi:

-Siz ünvanı səhv salmısınız! Buradakı əs-gərlər işləməkdən elə zəifləyiblər ki, ayaq üstə güclə dayana bilirlər. Dava-zad salan nə gəzir? Rota yuxuda köhnə araba cağı fırladır...

Artıq hər ehtimalla məlum oldu ki, baş ve-rənlər barədə xəbər Pervomayskiyə, hərbi hissə komandiri Dyakivə, ya qeneral-deputat Krasikə, nə də Moskvaya çatmayacaq.

Tovlama müəyyən risklə müşaiyət edilsə də, öz mənafeyinə biganə qalmayan Boykonun başqa yolu da yoxuydu. O mümkün yardımı da əsirgəməyəcəyini müsəlman əsgərlərə yalvar-maqla ifadə edib, özünü aşağılamaqla aşgar bil-dirdi. Doğrudan da qaliblər mühakimə edilmir.

Kremldən, yoldaş Qreçkodan, lap elə ge-neral Krasikin özündən yaman silirdilər!

Patrullar gedən kimi, hamı bir-birini iyləyib-çüyləyir, formalarının üstündən əl gəzdirib ora-burasını yoxlayır, kimin nə itirdiyini, hansı dərə-cədə yaralanmasına əlləşdirib baxırdılar.

Sonda məlum oldu ki: Mülki vaxtlarda ya uşaq olanda döyüldüyü günləri çoxdan yadırğa-mış Kaşşeyevi ən çox döyüb mələdən Maarif, ən yaxşı dalaşanlar isə Mürşüd Mamedov, Faiq Kəngərli, qara Zakir, laçınlı göydodaq

Ədalət, Heydərov və Əliyev, ağcabədili Nazıyla Hüseyin olub. Necə deyərlər, day birini də deməzlər...

Hələ sonra da məlum oldu ki, kazarmadan qaçanlarla bizimkilər hərbi hissənin sıra mey-danında cəngə giribmişlər.

Həmişə yazanda bilərəkdən qazarma əvə-zinə kazarma yazıram. Zira qazarma yer altında qazılmış olar. Bu elə kazarma yazılsa ləzzətlidi.

Bu günə kimi urvatdan düşməyən Cavad xanın, oğlanlarıyla birlikdə ruslarla qeyri-bəra-bər döyüşdə şərəflə məğlub olmalarına rəğmən, onların qanını axır ki, az da olsa almışdıq.

Sonugörünməyən boş düzəngahlarda vıy-havıyla əsən, hətta gecələr qurd kimi ulayan güclü küləklərin əlindən daim əziyyət çəkən na-dir yabanı çiçəklər kimi... Nə vaxta qədər qeyri-rus millətlər, azsaylı xalqlar və xüsusən də əhli-müsəlmanlar xristian ruslara kölələk eləməliydi?

Bax bu, bizim Vətənin isbata ehtiyyacı ol-mayan gerçəkliyiydi...

Gecə saat üç olardı.

Növbəylə bir nəfər oyaq qalıb göz-qulaqda olmaq şərtiylə hamımız razılaşıb yerimizə girdik.

Odessada daha bir əsgər gecəsi keçirirdik.

Sevincimin həddi-hüdudu yox idi.

Axır ki, begomot Kaşşeyev çox dartınıb əl-dən çıxmaq istəsə də qurtula bilməmiş, eşşək balası kimi çırpılmışdı!

Dizlərimə, başıma, kürəyimə, qarın hissə-mə, dirsəklərimə dəyən saysız-hesabsız təpik-yumruqlara baxmayaraq sağ-salamat idim.

Axır ki, tam qələbə çalmışdıq!

Arzusu gerçəkləşməyən Kaşşeyev və rus-lara bizi spartalı qul hesab etmələrinin əvəzi ve-rilmiş, növbəti tarixi qələbəmiz yazılmışdı!

Öz uşaqlarımızın pisinin də yamını heç bir qeyri millətə verməli deyilik. Bu danılmaz həqi-qət fakt olaraq bir daha ortaya çıxdı.

Bu gecə rotada rus zabitlərin cəmiyyətin bilməyini istəmədiyi bir durum vardı.

Qara Zakir, molodoy Maarif, Heydərov və Əliyev, kirovabadlı Faiq, mirzəalıbəyli zemelya Şükür, hələ qayışbaldır Turabxan!

Yatağımda yaşanan hadisələr yadıma düş-dükcə və gözlərimin önündə canlandıqca necə qürur duyur, ürəyim necə dağa dönürdü!

Həlledici zərbə endirilmişdi!

Bu iki ilin gözlənilən intiqam zərbəsiydi!

Podqornunun, İvanyuşşenkonun, praporşik Kirilyukun, Kaşşeyevin, Serikovun gözlərinin altı necə

şişmişdi. Alın payınızı səkkiz yumurta ve-rib doqquzunu istəyən əclaflar!

Səkkiz günlük dünyada doqquz gün işlə-dib gözləri doymayan qurumsaqlar!

İndi gedin, canınız çıxsın bilin ki, səkkiz mıxa doqquz at bağlayanda belə də olur...

Bir anlıq necə oldusa, mürgüləyən ağlın şipşirin kədəriylə Yitka yadıma düşdü. Kaş o burda olanda bu dava olaydı, o da mənim necə cəsarətlə dalaşdığımı öz gözləriylə görərdi.

Birdən mənə elə gəldi ki, çex Yitkanı da Komsomolum kimi ürəkdən sevirəm. Və bir də... Tam əmin oldum ki, sevgi od deyil, amma od-dan da yamandır!

Odsuz-ocaqsız da adam yanarmış!

Amma bu Lida məsələsini heç dərk edə bilmirdim. Mən ondan nə istəyir, nə umurdum?

Məgər hər yadıma düşəndə, ürəkçırpıntı-sıyla xatırladığım Komsomolu, ya ürəyimin ya-ğını yedirtməyə belə hazır olduğum Yitkanı sev-mirdim? Bəs bu ləyaqətsiz davranış nədəniydi?

Axı ortada uğursuz ərli qadın olsalar da, hələ Elizabet Teylorum, -ürəkbir, bənövşəgözlü Katerinam və həm də ki, hər yadıma düşəndə ürəyimi sızladan ağ mirvari sırğalı Məhbubə xala da vardı...

Ürəkbulandıran donuzməməli, tək gəldiyi-mi görəndə qapısını üzümə üryan açan Toma da lazım olanda özünü təslim etmirdimi?

Lida inamsız təbəssümlə nə verəcəkdi mə-nə? Məgər mən şəhvət dəlisiydim? Onunla ailə quracağam? Axı o varlı ər axtarışındadır.

Yoxsa manyakam?

Niyə qız kimi həyalı ola-ola, hərbi xidmətə Pervomayskidən Odessaya dəyişiləndən sonra axı belə əxlaqsızlığa qurşanmışam?

Nəcibliyin təzahürü harda qaldı?

Bu yaşananlar məni şəhvət dəlisi eləməz? Bu əxlaq məndə peşə halına keçməz?

Nə vaxtsa gözlərim ağırlaşıb.

Xosuyla bəxtəvərcəsinə tərtərdə üzürdük...

Gecə praporşik qorxusundan evinə getmə-mişdi. Görünür yeni mərəkə qopacağından ehti-yat eləyirdilər. Bayıra, ayaqyoluna da heç kim tək getmirdi. Boykoyla yeni komandir cib fənə-riylə künc-bucağı yoxlayır, praporşik Kirilyuk da pələ qulaqlarıyla sakitcə dayanıb əlçatmaz yer-ləri dinşəyirdi. Yaxşı ki, ölüb-itən olmamışdı...

Səhər rotaya QALXIN! - əmri veriləndə o da bizimlə qalxdı. Əclaf oyanan kimi çarpayıma ya-xınlaşıb məni oyatmaq istədi. Bərkdən çığırıb çağırsa da, köynəyimin yaxasından yapışıb nə qədər silkələsə də bacarmadı. Чорт

побери,- dedi və sonda əllərini havada yelləyərək, ana söyüşləriylə deyinə-deyinə, hirslə yellənib getdi.

Saat 07:09-da növbətçi məni birtəhər dur-ğuzdu. Zorla geyinib, sıra meydanında cərgədə dayananda, hələ də gözlərim qapanırdı.

Ayağıağır yeni, xalis uzunqulaq komandir rotayla, siyasi işlər üzrə müavini, turşumuş spirt iyi verən Boyko Sovet ordusunun gücündən və dəmir nizam-intizamından çox gəvəzilədilər...

Boyko siyasi işləri elə öz ailəsində olduğu kimi zəif apardığı göz qabağındaydı. Sovetlər birliyini qurd kimi içərisindən yalnız irqi ayrı-seçkilik yeyə bilərdi. Bizim rotada da məhz bu baş vermişdi. Kreml xəbər tutsa, baş leytenant Boyko paqonlarıyla şəksiz vidalaşmalıydı.

Çar devriləndə, V.İ. Lenin və İ.V. Stalin də bolşeviklərdən bunu sözsüz tələb edirdi.

Adımı çəkən olmadı!

Artıq öz işimi bilirdim: Mənəm bu uca dağ-lardan, sərt qayalıqlardan gələn ayı biləkli, pə-ləng hünərli uşaqları idarə edən, yönləndirən...

Boyko da öz hayındaydı:

-Sizdən çox xahiş edirəm, mənim burada cəmi bir həftə vaxtım qalıb. Odessadan biryol-luq gedirəm. Hərbi hissəmizin adını qoruyaq...

Az qalırdı ağlasın.

-Ta heylə sıparsan eyy! -qara Zakir öz dili-mizdə bərkdən qışqırdı.

Baməzə Zakirin dediklərini mən rus dilində başqa cür yozdum: “Bütün bu millətçiliyin, irqi-ayrı seçkiliyin banisi Kaşşeyevdir! Onun dərsini vermişik. Məsələ bununla da bitib... Bizi daha qurdalamayın. Piruyev-Miruyev də bəhanədir.”

Xülasə, bir daş altda, bir daş da ki üstdə, bəndfərmanlar mayora da ДОЛОЖИТ eləmədilər.

Buz baltası kimi canıbərk, buynuzlu mayor bulanıq suda balıq tutmaq sövdasına düşüb gecə Qastronom-kazarmada yaşananları araş-dırıb qorxunc hadisədə günahkar arasa, bütün yollar Kaşşeyevə aparardı. Bu bəlli idi...

Məsələ, heç gözləmədiyimiz sakit axarla qurtardı. Ona görə deyirlər: “Ağıllı yüz ölçüb bir biçincə, dəli vurub çayı keçdi.”

Balta görməmiş Kaşşeyevin dodağı partla-mış, buterbrod ölüsü İvanyuşşenkonun, bula-macla böyüyən Podqornunun gözlərinin altı şiş-miş və göyərmişdi. Bizim uşaqlardan da əzilən, ora-burası göyərən, sınığı olan, başı partlayan olsa da salamatçılıq idi. Əsas məsələ oydu ki, növbəti dəfə, spartalılar kimi qul psixologiyasın-dan uğurla sıyrılıb çıxmışdıq.

Sevic sevinc gətirər. Bu gün digər bir tarixi günü yaşayırdıq:

BİLƏCƏRİDƏN VƏTƏNİ QORUMAQ ADIYLA 24 AYLIQ AYRILIQLA ÇIXIB QATAR-EŞALONLA QÜRBƏ-TƏ ƏSGƏR GƏLDİYİMİZ GÜNDƏN DÜZ 21 AY ÖTÜR-DÜ! İYİRMİ BİR AY...

Bayırdan hər xışıltı səsi gələndə, bir hənirti eşidiləndə elə bilərdik doğma yurd-yuvamızdan gələnlər var... Poçtalyon hər dəfə məktub gəti-rəndə, ilahi, incə duyğularla necə sevinərdik!

Ali diplom almamış, ibtidai təhsil məcburi olsa da orta məktəb oxumamış çullu eşşəkdə, ya yapıncıda at belində gəzən bəzi kəlbəcərli, laçınlı ərən çobanlar rus dilini bilmədiklərindən, gülməli epizodlar yaranardı...

Mığmığalı yamaclarda mal-heyvan novatı-na gedən və təbii ehtiyaclarını ödəmək üçün ayaqyolu əvəzində laləzər düzlərdə “bayıra çı-xan” tüklü, gecələri nöyütü qurtarmaq üzrə ol-duğundan çıraq lampasının öləziyən işartısında mürgü vuran, yad dildə verilən əmrlərdən, qəliz suallardan, rusların heç nə olmamış kimi tez-tez işlətdikləri ЙОП ТВОИ МАТЬ söyüşlərndən və an-laşılmaz terminlərindən bezikmiş azad uşaqlar, qəm-qüssəylə necə zümzümə edərdilər...

Lütf, ağuş, dalğın, müflis, bu kimi sözləri anlamayan, paytaxt Bakını görməmiş, izdihamlı şəhər gəzməmiş, hələ qüllə səsi eşitməmiş, yad yerə düşsə əlli-ayaqlı itən, darbalaqda gəzə-gə-zə erkən bəlgələnmiş, iri bənbəcəli, əyin-başla-rında şərəf doğuran, bərbəzəkli Sovet əsgərinin qış forması КАЗБЕКə xüsusi bir ədayla son qül-lab vurub dərindən köks ötürər və acı göz yaş-larını udaraq, gözlərindəki ümidsiz kədərlə, kö-tüyü ovuclarında söndürərdilər...

Məşhur nəsildən olanların, yüksək vəzifə daşıyanların, rüşvət verənlərin hərbi xidmət sö-zü eşidəndə qorxusundan sarsılan uşaqları əs-gər getməkdən minbir bəhanəylə yayınardılar.

Dünyanın zayı çıxmışdı.

Onda sanki vaxt ötmürdü.

Bu gün artıq hərbi xidmətimizin 22-ci ayı başlayır. Dembl prikazımızın çıxmasına cəmi 34 gün qaldı. Vətənə borcumuzu verməkdə əl yeri qoymamışdıq. Bu şərəf işiydi...

Uşaqların çoxunda maddi imkan sıfır olsa da dünənki qələbədən hamı məmnun qalmışdı.

Allah özü kömək olsun!

Uğurlu ay olsun!

Sıra meydanında, heç bir saziş bağlanma-sa da, yüngül höcətləşmədən sonra "Vətəndaş müharibəsinin" qurtardığını anladıq. Amma söz-lə də ağızlarından yaxşıca vura bilmişdik.

Heyhat, Kaşşeyev dönük çıxdı...

Plitiçniklərin hamısını briqadalardan ayırıb pəltək Nazıya verdilər. Onun düz 27 əsgəri oldu. Məndə isə cəmi 18 nəfər qaldı.

Onların işlərini bölüşdürüb yerbəyer elə-yəndən sonra da Arkadiya mehmanxanasında-kı bərbərxanaya getdim. Qapqara şəvə kimi sa-çım, boynumun arxasındakı

darağa gəlməyən cod tüklər kimi uzanmışdı. Demblə gedənə kimi həddən çox uzanar, əsgər formama yaraşmaz-dı. Odur ki, özümü abıra saldırdım.

Qayıdanda yasəməntək buy verən Kateri-nanın işlədiyi poçtun düz qarşısından keçirdim.

Növbədə anasıydı...

Qəliz suallarla nisgili dəb edən anasından söz qoparmaq marağımı birtəhər boğub, yalan-çı buludlar kimi tez də ötüb keçdim.

Kazarmada dolabçadan gündəliklə, qələmi götürüb 5-ci mərtəbədəki ЛОЖАma çıxdım.

Hər yanım qançır olsa da, daha arın-arxa-yın idim. Uşaqlarımızın əl-ayağını buxovlayan vahiməli, üzüntülü günlər artıq arxada qalmışdı.

Saat 14:00-a kimi ağ Lida görünmədi.

Amma sonda, təsadüfən bir işin şahidi ol-dum: Lida gözlərində eynək, dünən gecə mənə dediyi kimi şəhərdən kitab alıb qayıdırdı.

O bunu dünən deyəndə, elə də əhəmiyyət verməmişdim. Yeni geydiyi yaşıl donu son dəb-dəydi və tuflisinin də kabluku yaşıl rəngdə oldu-ğundan, çox cazibəli görünürdü...

Az keçmiş otağının gur işıqları yandı.

Gecə dediyi kimi, ailələrinin dostu olan o oğlan da onlardaydı və tərs kimi də düz yanında dayanmışdı.

Pəncərədən onları görəndə, sevgi müflisi olmaq təhlükəsi qarışıq içimi qısqanclıq hissi də bürüdü. Sanki səssiz mahnı çalındı.

Bais oğlan artıq cəncəlli sevgi vəd edirdi.

Gecə ağ Lida mənə necə demişdisə, fakt dediyi kimi də olmuşdu.

Deməli o düz danışıb!

Bu ağır təbiətli, ağıllı qız özünü təsdiq elə-yirdi. Mən isə yeni sevənlərdə yaranan kəmağıl-lılığa xas bir hal keçirirdim.

Həm də söz vermişdi ki, sabah vaxtım olan kimi sənə bildirəcəyəm: Necə və harda görüşək.

O... Növbəti hərbi qənimətim şəhərdəymiş! Və buna görə də eyvanda görünmürmüş...

Nədənsə, necə oldusa, dənizdən qəfil qo-pan fırtınalı külək kimi, ürəyimdə onu təpədən-dırnağınacan bərk-bərk qucaqlayıb, içimdə tüğ-yan edən həsrətlə köksümə sıxmaq, döşlərinin dadını duyanacan, döş gilələrinin rüşeymini hiss edənəcən dişləyib öpmək və vampir kimi gəmir-mək istəyi məni vəhşicəsinə bürüdü...

Onlardakı oğlanı pəncərədən görən andan ürəyimi gizli bir kədər bürümüşdü.

Darıxmağa başladım.

Dərhal da, sanki vaxtından əvvəl böyüyən və yalnız onlara güvənə biləcəyim şıltaq Yitkay-la nəcib Komsomolu

düşündüm. Onları yadıma salanda içimdə sevinc qaynasa da qəhər məni boğmaladı...

Axşam saat 19:10 idi.

Ağcabədili Nazıyla tum alıb qayıdırdıq.

Buyy...

Bir də gördüm Lidanın o oğlan dostu yenə hardansa onlara gəlir. Hətta erməni kökənli bi-cəngə arvadı olan qardaşı blokdan çıxanda on-lar nicatverici tərzdə qarşılaşdılar.

Əl işarəsindən başa düşdüm, oğlana bildir-di ki, Lida evdədir. Sanki şeytanın məsləhətiylə gələn oğlan qızın qardaşından da xeyir-dua alıb, başıyla minnətdarlıq eləyərək bloka girdi.

Doğrusu dəyişkən ovqatla, zavallı vəziyyə-tə qalıb yaman tutuldum...

Bu gün Lidanın eyvanda görünməməsi də məni qorxutdu. Bu oğlan onu sevir? Bəlkə ailə quracaqlar? Ola bilər ki, Lida hələ son qərarını verməyib, amma bu gediş-gəliş yaxşı heç nə də vəd eləmirdi. Həm də acı bir həqiqət ortadaydı: O məni az da olsa düşünsəydi, gün ərzində heç olmasa bir dəfə eyvana çıxa bilərdi.

Eh...

Birdən ağlıma gəldi ki, o heç məndən soru-şmadı axı: “Sən hərbi xidməti nə vaxt qurtara-caqsan?”

Sevsəydi, ya azca da olsa könlü olsaydı, ilk soruşulası məsələ, bax şəksiz ki, bu idi.

Axşam yeməyindən sonra ağcabədili Nazı və vaynösə Sahiblə taxta hasarın yanında bikef oturmuşdum. Qanım it qanına dönmüşdü.

Lidanın anası hardansa erməni kökənli gə-liniylə gəlirdi. Necə oldusa gəlinin nazik qabır-ğalı olduğunu düşündüm. Yenə içim tərpəndi...

Qəflətən gördüm, hörmətlə gözəlliyinə alu-də olduğum qadına əliylə məni göstərib, gəlin nəsə dedi. Və arvad çönüb diqqətlə mənə sarı baxdı. Ya rəbb, necə utandım!

Bunlarda heç abır həya yoxuymuş ki!

Cəld ayağa qalxıb, ikili həyatdan bezənlər kimi uşaqların yanından getdim.

Eyy... Ulu Şərq!

Eyy...Bizim ocaq sayılan ulu Şərq küçəsi!

Sən bizi bax belə abırlı tərbiyə eləmisən...

Hər adı çəkiləndə ürəyimi tikan kimi göy-nədən təkəbbürlü Xuramanın, ya saf, sakit, lal baxışlı məsum Adilənin, ya da ki, hər görüşən-də, damarlarımızdan axan isti qanın səsini belə eşitdiyimiz, ətəyində səcdə qılınmağa layiq olan Komsomolun anası mənə belə heyranlıqla bax-mağa ən azı utanardı... Yox?

Lidanın anası utandığımı, abrıma bürünüb aradan çıxdığımı hiss elədi.

Bu həm də imtiyazlı qafqaz mentaliteti idi.

Şəhər hamamına getdik.

Gönüqalın Xaxol hamamda mənə bəd bir xəbər sırımağa macal tapıb sifətimə ilişdirdidi:

- Tamilla deyir, gəlsin köhnə-kürüş çama-danlarını götürsün burdan!

Mat-məəttəl qaldım.

Ovqatım dərhal dəyişdi. Acığımdan Xaxolun üstünə çəmkirdim:

-Zəqqutun! Çor!

Deməli qalmaqal səngisə də, bu basabas-da, vahiməli ovqatı yeni düzəlmiş vasvası, xris-tianlarla aramıza nifaq toxumu səpən tağım ko-mandiri Kaşşeyev hələ də məndən acıq çıxır? Şıltaq qocalara bənzəyən, yaşı otuzu adlasa da, ombaları indi-indi yumrulanan, tez-tez, sevgidə canımı belə əsirgəmərəm deyən, atlaz çəkələkli, gecə lampasının öləziyən işığında lüt canına muncuqlu gecə köynəyi geyinib, dəlicəsinə və vəhşi bir çılğınlıqla “sevişmək” ölüsü istəyində bulunan qəhbə Tomaya bəs nə gəlib?

Donuzməməli iyrənc ləçər!

Hikkəmdən uçuna-uçuna, amma təmkinimi pozmadan gedib olayı təfərrüatıyla dul, səltənəti heç vaxt olmayacaq bədbin Dusyaya danışdım.

Sarsıdıcı xəbəri ürək ağrısıyla qarşılasa da, heç və olmayıbmış kimi gülümsədi.

Tənha biçarə, israrla:

-Gətir qoy bizə, özü də arxayın ol...

Ürək-göbəyim yerinə düşdü.

Qayıdıb hamamda yaxşıca çimdim.

Bərbərxanadan çıxanda boyun-boğazıma tamam tük dolduğundan sanki məni didirdi...

Son proverkadan əvvəl, ciddi sarsıntı ke-çirmiş baş leytenant Boyko bizi planyorka apa-rılan otağa yığıb xeyli söhbət apardı.

İmkan vermirdi mənə danışmağa.

Höcətləşməsək də zarafata salıb sözlə ağ-zımdan vurur, tez-tez də göz basıb: İtəndə əlli-ayaqlı itirsən ha yoldaş serjant deyərək sirli ey-hamlar vurur, heç əl yeri qoymurdu.

Onsuz da bütün müsəlman əsgərləri öyrət-mişdim: Piruyev kimdi ki? Çuğul işlərin mayası dabbağda gönünə bələd olduğum Kaşşeyevdir, hiyləgər tağım komandirimiz!

Zampolit Boykonun dad-fəğanla son sözü müxtəsər oldu:

-Kaşşeyev bu olayla da məsələni bağladı, hər şeyə KPECT qoyuruq, siz də sakit olun!

Razılaşdıq. Bax bu başqa məsələ!

Bakılı dəmtutan oğlan gözlənilmədən dikə-lib çırtıqla iki sətir meyxana dedi. Ruslarqarışıq hamımız gülüşdük və dalğın Boykonu arxayın saldıq ki, didişmə və gərəksiz hər şey qurtardı!

Son proverkadan sonra təpərsiz Mürşüdlə Tamillagilə getdim. Çamadanları yığıb Tomayla mübahisə eləmədən, səbəb soruşmadan, hətta sağollaşmadan belə Dusyagilə getdik.

Üstümə məcbur minməyə dadamal, donuz məməsinə oxşar iyrənc döşlərinin giləsini zorla ağzıma dadızdıran gərdəksiz qadın olmuş To-ma nağılı da bu gecə bax beləcə dəfn olundu.

Məzlum Dusya bizi çox mehriban qarşıladı.

Zülmət qaranlıq çökmüşdü.

Dusyagildən çıxanda Tomayla qarşılaşdıq. Karıxıb başını yırğlamaqla mənə salam verdi.

Heç başımı da tərpətmədim.

Artıq onu dəfn eləmişəm.

Kazarmaya qayıdanda gərgin olsam belə gözüm gərdənbəndli ağ Lidagilin pəncərəsinə sataşdı. İşıqları yanmırdı. Görünür o oğlan onla-rı restorana aparıb. Qədim misirlilərin inandığı kimi kahinlik elədim...

Yenə yatmaq əmirindən sonra yeməkxa-naya toplaşdıq. Və yenə ucuz filtrsiz siqaret fıs-qırda-fısqırda hərə, babalı öz boyununa mülki vaxtlarda başına gələn yalan-gerçək maraqlı bir hadisə danışırdı.

Növbə mənə yetişəndə:

-Bu dəfə Qanboyun oğlu Ələsgər haqda yığcam danışacam, -dedim.

Kimdi Ələsgər?

“Ələsgərlə qonşu idik. Onların yaşadığı 26-lar küçəsi bizim Şərq küçəsində kəsilirdi. Və bu kəsişmə yerinə yaxın kiçik bir dalanda, 1949-cu ildə doğulmuşdu.

Daxmaları yerləşən kiçik həyətlərinə bitişik yan-yörədə yaşayan qonum-qonşuları haradan-sa köçürülmə qaraçılar idi.

Kasıb ailədən çıxmışdı.

Fısıltıyla pəsdən danışan atası, əriyib çöpə dönmüş Qanboy kişi kolxozda mühasib işləyirdi.

Xoruz banına kimi kolxozun əmlakını, kol-xozçuların əməkgününə görə əmək haqqını və bu kimi işləri çötkəyə vurmaqla bahəm kolxoz sədrinin də çaq-çuqunu çəkərdi.

Şərəfgətirən İllik balans da ki öz yerində!

Bu sısqa gərəkməz, balacaboy cılız adam, əvvəllər məşədi İbadın hambalına bənzəsə də indi daha çox fürerə bənzəyirdi. Bığını da fürerə oxşadıb, burnunun ucundan dodağının üstünə enən bir düz xətt kimi qoymuşdu.

Öldüyü günəcən qoltuğunda hesabdar çöt-kəsi piyada, ən yaxşı halda isə kolxozun köhnə ГАЗ-51 yük maşınında gəzdi.

Saçlarını da uzadaraq ortadan ayırıb ne-mes Hitlerinki kimi eləmişdi.

Adolf Hitlerin eyni idi.

Fürerin kitelini geyinib, qara zabit çəkmələ-rini cütləyərək fərəqət formasında sağ əlini tam qabağa çapuq açsa Şərq küçəsi sakinlərinə qa-lardı: “Hayl Hitler!” - qışqırmaq.

Həkimlik oxusa da tamadalığa, müftə ye-yib-içməyə, züyçülüyə dadamal olmuş nitqpər-dazın çuğul atası Qazamat Bəylər ilə də eyni bir almanın iki üzüydülər.

Yarəb, sanki əkiz idilər, Adolf Hitleri doğan ana onları üçəm doğmuşdu...

Ələsgər, onu Alyoşa, Rıjı, Sarı sünbül kimi ayamalarla da çağırırdıq.

Qanboyun böyük oğluydu.

Kağız-kuğuz ölüsü olan Qanboy ona həmi-şə deyərdi: “Bala, nə dərin suya gir, nə Xıdır Nəbini qaçır. Qısa və konkret, nə ver, nə al.”

Ələsgər nə dost kimi dost idi, nə də düş-mən kimi düşmən. Miyanəydi.

Kalkulyator icad ediləndən xeyli vaxt ötsə də çötkəpərəst Qanboy ona etibar eləməzdi.

Ucuz ПАМИР siqaretindən sümürə-sümürə kolxozun mühasibat işlərini, eninə polad millər keçirilmiş dördbucağı olan düzbucaqlı taxta çər-çivənin və bu millərin hər birinə taxılan on ədəd-dən ibarət uşaq kökəsi formasında yonulmuş ki-çik yumru fiqurlu çötkəni, adsız barmağiyla, kişi sonsuz ilham dolu xüsusi ədayla şaqqıldadıb hey hesab çəkərdi.

Fürer-Qanboy kolxozun ziyanını kolxozçu-lara da yükləyərdi, təki kolxoza ziyan dəyməsin. Ölkə yansa, dağılsa belə vecinə olmazdı, bircə sədrindən tula kimi qorxduğu kolxoz batmasın.

Külfətini o taxta çötküsündən çıxarardı.

Oğlu Ələsgər isə, necə deyərlər nə qoyuna gedər, nə də ki zalımın oğlu qapılarında hürərdi.

Alyoşa, bizim küçəboyuyla axan ensiz çirk-arxın içində ağnayan, tozlu-torpaqlı yolumuzun kənarında yayı-qışı tumansız keçirən kirri qara-çı uşaqlarıyla bir yerdə böyümüşdü.

Ayaqyalın burnufırtıqlı, heç vaxt daranma-yan pırtlaşıq cod saçlı, bit-birəli qaraçıların böy-ründə dayananda Ələsgər kübar, zadəgan ba-lasına oxşayardı.

Küçədə çul-çuxasını birtəhər sudan çıxar-sa da, orta məktəbdə əksinə olurdu, şagirdlərin içində yamaqlı finka və düyməsiqırıq nimdaş köynəkdə qaraçılara bənzəyərdi.

Ölü bit kimi daraq altında qalanlardanıydı.

Anası Mədinə lilipud idi.

Bilmirdik kəskin formalin iyi verən nimdaş kostyumlu, əzik qalstuklu fürer-Qanboy əmi o li-lipud-madumauzeli hardan tapıb gətirmişdi.

Hər halda qeybdən düşməmişdi ki!

Çox çəpik idi.

Tarlada pambıq yığanda kolların arasında itib-batar, gözə görünməzdi. КОММУНХОЗ işçisi kimi bağ və parklarda alağ eləyəndə isə başqa məsələ! Ölü aslanın saqqalını yolan robotabən-zər quru əlləri görünməz, bu arvad yorulmaq nə olduğunu bilməzdi. Nə vaxt yatar, nə vaxt durar evlərində də heç kim görməzdi. Ördək kimi yeriyəndə yanlarını basar, amma iti, cəld yeriyərdi.

Ələsgər bizim institutda oxuyurdu.

Fürer ona xəstəlik kağızı düzəltdirib hərbi xidmətdən yayındırmışdı. İndi o da əsgər get-məyən qrup yoldaşlarım kimi 5-ci kursda oxuyur. Üç il dalbadal kəsiləndən sonra mən girən il qə-bul olunmuşdu. Payın qabağı pay olar məsəlin əldə bayraq eləyənlərdən idi. Payız camışı kimi qaçağan zəhmətkeş anasına çəkmişdi. İnstitut-un axşam şöbəsində təhsil aldığından Bakıda çirkax idarəsində gündüzlər fəhləlik eləyib çörək pulunu öz isti alın təriylə qazanardı.

Müxtəsəri, tozlu Şərq küçəsində dünyaya göz açıb, birlikdə böyüyüb ərsəyə gəlmişdik.

Bərdədəki kimi institutda oxuyanda da da-im qoltuğuma qısılanlardan idi.

Bir dəfə yasamaldakı evimizdə onunla gü-ləşəsi olduq. Məndən üç yaş böyük idi. Nər gü-cü vardı əclafın. Texnika isə bilməzdi. Xeyli sü-pürləşəndən sonra onu qəfil qurşaqlayıb güləş fəndiylə taxta döşəməyə necə çırpdımsa, zıqq eləyib yerlə bir oldu və yerdən qalxan kimi də qapını açıb həyətə götürüldü. Ardınca çıxdım ki, tualetdə horra qusur. Başı kürəyiqarışıq yerə bərk dəymişdi.

Uşaq olanda kapitanı olduğum ŞƏRQ futbol komandasında müdafiədə oynayardı. Fiziki cə-hətdən eşşək kimi çox güclü, dağ adamları kimi nəfəsli idi. At kimi hey qaçar, yorulmazdı.

Amma tolazladığı əyri topları şumluqdan daşımaqdan qaraçı uşaqları bezərdi.

Əyyə oğraş... pası düz at, topu özündə çox saxlama deməkdən komanda yoldaşları təngə gələrdi. Amma kimə deyərdin?

Ölü qəbristanlıqdan qayıtmayan kimi, tös-mərək Qanboy çır-çır çığıranda, indi gəlirəm de-yib ilim-ilim itər, ya yaxşı halda qaçıb gizlənər, futbol qurtarana kimi də evə qayıtmazdı.

Nitqpərdaz tamada Vaqifin qovğaçı atası Qazamat Bəylər donuz damı məsələsini ona elə yerində demişdi. Gərçi oxucumuz xatırlayırmı?

Difdiringi Baharın oğru və anonimçi əri de-diyi bu kəlama şer də qoşmuşdum: “Ə Ələsgər yenə də yaşadığın o damdı? Bəylər bunu de-yəndə donuz damını andı...”

Necə deyərlər məşhur bir kuplet...

Mən əsgər gedəndən sonra sərpayı Vaqif-lə Avakyanda erməni evində kirayədə qalanda domino oynadıqları gecə xozeyinləri erməni Ara onu yüksək mərtəbəli evin pəncərəsindən üzü-aşağı elə raskladuşkaqarışıq atırmış...”

Niyə? -az qala hamı birdən soruşdu.

”Sən demə erməni debil Ara hər görəndə ki artıq uduzur, qəfil domino daşlarını dağıdar, НЕ ТЕБЕ, НЕ МНЕ- deyərək, zorla yenidən başla-mağı təhdidlə israr edərmiş.

Bir gün də laməkanlar bezikərək, Ara evdə yoxkən tez yerlərinə girərlər ki, bu günkü domi-no mərəkəsindən canları xilas olsun.

Erməni Ara gecəyarı evə qayıdıb uşaqları yatmış görəndə bikefləyib, kolbasa-çörəklə tək-başına araq içməyə başlayar.

Bicəngə Vaqif də yorğanın altında başını gizlədər və ağzına saman çöpü salıb üfürərək cürbəcür səslər çıxartmaqla dambiti basmış Ara kişini dolayıb qısqıya basar.

Hürkmüş lalapiti Ara məsələdən agah olan kimi nər tək sıçrayıb nərə çəkəndə qazamatın oğlu başını gizlincə yorğanın altından çıxarıb, yalandan donquldanaraq göz vurar, barmağıyla binəva Ələsgəri göstərər və məlum hadisə baş verər. Hələ yaxşı ki, Vaqif qorxusundan Aranın ayaqlarını qucaqlayıb yalvarar. Yoxsa domba-langözün son gecəsi olarmış...

Tələbə vaxtı bir qız sevirdi. Həmişə o ka-sıb qızla dimdik-dimdiyə dayansa da indi adını soruşsan özü yadına sala bilməzdi.

Adı Kəmaləydi.

Amma məşriq qonşusu, mətanətli məhbu-bəsi, qaraçı qizi Adiləni sidq ürəkdən sevdiyini həmişə yanıqlı-yanıqlı nağıl eləyər, hərdən lap gözləri də dolardı. Fəqət...

Fürer qələti-məşhur izdivaca okey demədi!

Nəticədə...

Bu məşrut bəşəri insidentdən küskün gö-zəlçə, məşum məhəbbət ucbatından fahişəliyə qurşanıb Bərdədə ilk qəhbəlik eləyən qaraçı ki-mi tarixə düşdü.

Bu da qürur, qərəz, məkr və əlqərəz, acı göz yaşlarıyla müşayət olunan nakam məhəb-bətin faciəli sonluğu...

Ələsgər “gədə” sözünün hərfi mənasına nə sığardısa eləcə idi.

Davada heç əli yoxuydu.

Qonşu Xosrovun da gözü Ələsgəri yeyərdi. Xosu onu rus qəbristanlığının yerində qaraçıla-rın köç salıb tikdikləri plansız evlər səbəbindən ilan kimi qıvrıla-qıvrıla kolxoz bazarına aparan dar, tozlu torpaq yolda düz iki dəfə, özü də it kimi pisikdirmiş, sonra da palaz kimi çırpmışdı...

Böyük Vətən müharibəsindən sonra da rus qəbristanlığında pasxadan-pasxaya ölənlərinin ruhuna şam

yandıran, ehsan üçün boyaqlı yu-murta, müxtəlif şirnilər paylamaqla seyrək gə-lənlər olsa da, getdikcə o savab qazananların da sayı tədricən azaldı və nəticədə də qaraçılar başdaşına sadə xaç vurlmuş qəbirləri burada dağıdıb yerində məskunlaşdılar.

Dombalangöz Alyoşa gədəliklə yanaşı gic-bəsər, həm də qurbağagöz atası kimi yumşaq, yazıq, həlim və mağmın adam idi.

Tərtər çayının quruyan vaxtlarında tez-tez evdən gizlin qaçıb çay yatağı kənarıboyu uza-nan hündür təpəliklərin altındakı dərin çuxurlar-da hələ də yığışıb qalan iyli lilli suda yayın isti, cırcırama vaxtlarında çimərdik. Qonşu kəndlərin çirkli suları da bura axıdıldığından bizim Qara dərya kimi burada da kirri suyun dibi yarım met-rə qədər palçıqlı gil olardı.

On metr hündürlüyü olan təpənin üstündən sürət götürüb elə tullanmalıydın ki, təpəylə bö-yük çuxurun arasında qalan beş-altı metrlik göy çəmənli torpaq düzənə başıüstə düşməyəsən.

Biz çox məşq eləmişdik.

Əvvəl-əvvəl öyrənəndə ayaq üstə uçurduq ki, suya çatmayıb torpağa düşsək də faciə baş verməsin. Və sonralar elə öyrənmişdik ki, təpə-nin üstüylə 30 metrə kimi qaçaraq sürət yığıb lastoşka vurur, düz çuxurun dərin yerində suya başıüstə güllə kimi batardıq.

Yəqin oxucu da bilir, bu söhbəti bir dəfə də danışmışam. Bircə Sərxanın dönük, ağılları get-dikcə ağ kağıza dönən simic qızbibi oğlanları heç vaxt çimməzdi.

Və onlar...

Lap kəsəsi, xoşagəlməz, üzüqara amansız gerçəklik: Cinsi “şeyləri” Araz və Xosrovunku ki-mi çeçələ barmağım boyda olan Vaqif və Arif Həsənov qardaşları kənarda, quru toz-torpağın üstündə oturub lal-dinməz baxar, sonra da elə yerdəcə uzanıb yatardılar.

Keçək mətləbə.

Ələsgəri necə küylədiksə zavallı gördü ki, hamıdan kiçik olan Xosrov da cəsarətlə tullanır.

Dalana dirəndi.

Və qısası, növbə Ələsgərə çatdı.

Gözlənilmədən o da bizim kimi yüyürüb öz sözü olmasın gennən РАЗГОМ götürdü və kəlləsi üstə suya ЛАСТОШКА vurdu.

Çuxurun lap kənarındakı nəmiş torpağı al-nıyla sıyrıb güllə kimi suya girdi.

Çox kənara, lap dayaz yerə sancılmışdı...

Və birdən möcüzə baş verdi.

Baxdıq ki, Ələsgərin ayaqları göydə çaba-layır, sudan hava qıvırcaqları qaynayır, özü isə sudan çıxmır. Vaxt ötürdü...

Buratino donqaz Tariyel Muradovla qonşu Qərənfil müəllimənin kök küsəyən oğlu, doğma atası dərzi Həmidin dodaq büzərək dedyi sözü olmasın:“Motili,”Zakir Quliyev

də qəfətən əllərini qabağa tuşlayaraq heyrətlə çır-çır çığırışdılar ki, deyəsən o gilə mıxlanıb, boğulur.

Suyun üzü qızardı...

Cəld yüyürüb onun qılçasından yapışdım. Uşaqlar da köməyə gəldi, zorla dartıb onu birtə-hər gildən çıxartdıq. Alnı sıyrıq-sıyrıq olmuş, ba-şı lilli palçığa batmış, burnu qanamışdı.

Dombalangözün gözləri bir az da dombal-mışdı. Nəfəsi güclə özünə qayıtdı.

Ölümdən dönmüşdü zavallı!

Ələsgər РЫЖЫ başının palçığını yuyanda, olanlardan heç tükü belə tərpənməyən Tariyel Muradov əllərini belinə qoyub lağlağılıq eləyirdi:

“Ölmüş aslandan, diri tula yaxşıdır, bizi qo-yub hara gedirdin əə?”

Nalını çıxarıb satmaq üçün ölmüş, ya yiyə-siz at, eşşək axtaran nəşəxor Araz da bu qoy-maharayda vırhəşir Ələsgərin ciblərini axtarır-mış. Sən demə ona, bir “baş” üçün hava su kimi bir manat pul lazım imiş. Çaya düşsə də oradan qupquru çıxan Xosrov bunu gözləriylə görüb...

Basabasda Ələsgər yenicə özünə gələn ki-mi Buratino Tariyelə üzünü tutub dedi: “Sən ölə-sən sudan xeyir olsa, çoxdan qurbağalar əjda-haya dönərdi.”

Suyu püfləyə-püfləyə içən fürer-Qanboyun kökəni namaz üstəymiş.

Alyoşa ölmədi!

Suda batan adam ilandan da yapışar, am-ma Ələsgər yazığın başı paya kimi gilə sancıl-dığından hövlnak, tələşla çabalasa da nədənsə yapışmaq imkanı qalmamışdı...

Baiskar olsaq da çiyinlərimizə düşən tarixi borcumuzu şərəflə yerinə yetirmişdik.

O sağ qalmışdı.

Kiçik, təmkinli qardaşım Rafiq, donqaz Bu-ratino Tariyel, gecə-gündüz qara zurna püfləyən, yayı-qışı başına qoyduğu qoyun dərisindən tikil-mə yupyumru isti papağı başından yatanda da çıxarmayan aşıq "zırna" Məhəmməd kişinin ma-nıs oğlu, Bərdədəki mərkəzi bərbərxanada dəl-ləyi müştərisindən çox olan dəlləkliyi də özünə peşə seçən, klarnetçalan Savalan, çəpik, əldən- isti Xosrov və elə mən özüm də, çox yaxşı üzür-dük. Bizi göydən hansı üstə suya atsaydılar, ba-lıq kimi bizə fərq eləməzdi, uşaqlıq ehtirasyla üzüb dəli Kürdən, xan Arazdan və ya zir-zibilli, köpükqarışıq qıjhaqıjla qarşısına çıxanları altına basıb yatağıyla ildə bir-iki dəfə hikkəylə gələn Tərtərdən üzüağ, sapsağlam çıxardıq.

Əlqərəz, uşaqlıq dostumuz, Şərq küçəsinin əbədi xatirəsi olan və qonşu qaraçılarla onları ayıran qarğı çəpərlərinin dibində daim cöngə kimi qəmgin böyürən Ələsgərlə iki vacib məqam yaşanmasaydı, söz yox ki, onun kim olduğunu bu vaxta kimi aydınlaşdıra bilməyəcəkdim.

Birinci hadisə soyuq bir qış günü baş verdi.

Həştərxanla əlaqədar Dövlət Təhlükəsizlik Komitəsi bütün ССРИ ərazisində gizli, zəncirvari bir əməliyyat keçirirmiş.

Necə oldusa, vüqarlı qaməti olan atam tə-cili Yevlaxdan evə zəng vurdu, həyacanqarışıq tələşlə, tələsik və qısa danışdı mənimlə:

“Evdə nə qədər qızıl-brillyant, qiymətli zi-nət əşyaları, daş-qaş, billur əşyalar və pul varsa anandan al, təcili bir yerdə gizlət. Qohum və ya-xın qonşu evi olmasın... Unutma!”

Hövlnak qalxıb anama xəbəri çatdırdım.

Təntimiş anam dərhal nənəmlə birlikdə hə-yətin və evin müxtəlif yerlərində axtarış apardı-lar. Nənəm məni baxmağa, yaxına gəlməyə be-lə qoymurdu. Düz bir zənbil sərvət çıxarıb mənə verdilər. Bu qədər qiymətli əşyaları etibar eləyib versələr də nənəm yazıq görəsən nədən yaxına buraxmırdı məni?

“Yaxın qonşu, qohum evi olmazdı.”

Vaxt dar idi.

İlk ağlıma gələn fürerin oğlu Ələsgər oldu.

Dərhal, zənbilqarışıq onlara tələsdim.

Yerdən iri bir qəmbər qırığı əlimə götürüb rəngisolmuş, bir tayı böyrü üstə yıxılı taxta dar-vazalarını döyən kimi Ələsgər artırmada görün-dü. Və məni görən kimi sevincək həyətə düşdü.

Dərdimi ona xısun-xısun xırdaladım...

Və yekə, dolu qara bazar zənbilini göstərib, hər şeyi olduğu kimi, ərklə ona bildirdim.

Vəhmnak Ələsgər, yatsam da yuxuma gir-məyəcək bir vəhşətlə nə desə yaxşıdır?

“Tofiq biz dostuq... qonşuyuq... uşaqlıqdan bir yerdə böyümüşük, amma atam özün bilirsən ki dövlətdən, qanundan necə qorxandır Eşidib bilsə, məni söyüb biabır edəcək.”

Vəhşətəfza vəziyyətdə mat qaldım:

“Necə?”-çığırdım.

Bığıqırxıq əclaf heyrətlə susdu.

Tarixi şərəfsizliyə imza atdığının fərqində də deyildi. Üzünə tüpürüb, sonsuz hikkəylə:

“Tulaşa!”

“Sudan qaymaq yığan oğraş!”-bağırdım.

Dişimin dibindən çıxanları dalbadal söylə-yəndə, rəngi meyid kimi ağarsa da, o heç nə ol-mayıbmış kimi sakitcə üzümə tamaşa eləyirdi.

Mən bunu sadiq dost bilirdim... Xudaya bu nə işdi? Biz dar ayaqda, zillətlə, əlim yandıda üstünə qaçmışıq, bu qədər sərvəti saymadan, ağzını belə bağlamadan buna etibar edirik, bu nə danışırdı? İmanım qaçdı. Kaş heç ona ağız açmayaydım. Vay-vayy, nə pis oldu? İkrahla:

“Azmış Tula!”-deyib üzünə təkrar tüpürdüm.

Az qala ürəyim parçalanacaqdı...

Hirsimdən kürkümün boynununu qaldırıb, endirir, barmaqlarımı şaqqıldadırdım.

Ürəyim ayağım altına düşmüş halda:

“Su səmtinə axar, siz nə etibarsız zatdan, qullabı kökəndəniymişsiniz! Bizim sularımız bu gündən sonra bir arxla axa bilməz! Qul-qaravaş köklü qulamlar! Ona görə də zindəganlıq sizdən yan qaçır eyy. Bu xislət ki sizdədir, örkəniniz nə qədər uzun olsa, “qara gün” bir vaxt sizin də qa-pınızı kəsdirəcək... Yaxşı yadında saxla, vay “o” gündən! Və bil ki, o gün hökmən gələcək! Həyat qumardı dostum, sən bu qumarda pis uduzdun. Mənim timsalımda tuz kimi kartı heç itirərdilər?”

Vurhəşirdə, əlini belinə növbəylə söykəyib sağ-sola çönərək möhkəm gərnəşib, o quluncu-nu sındırırdı. Sanki haqlı olduğuna tam əmin idi.

Üç dəfə də sinəsinə lomba-lomba tüpürüb, xarabalarından çıxdım.

Necə oldusa, onlardan bir az aralıda yaşa-yan, orta məktəb dostum Sülü yadıma düşdü.

Ağır zənbil əlimdə axıska türkü Süleyman Zahidovgilə sarı tərpəndim.

Süleyman o vaxt Özbəkistana getmişdi.

Tələbəydi.

Atası Nəriman dayı, o gün hava soyuq ol-sa da qumaş xalatda dəmir darvazaya çıxdı.

Bu kişi Moskva kolxozunun mühasibatlı-ğında baş ekonomist vəzifəsində işləyirdi. Çox etibarlı, sədaqətli adamıydı.

Kolxoza velosipedlə gedib-gələrdi.

Biz orta məktəbi bitirmək şərəfinə Göygölə getməyimizlə əlaqədar dərsə buraxılmayanda, Fətəliyev Mamedin anası naxçıvanlı, ПРИМА si-qareti çəkən Pəri arvadla məktəbə gələn ilk vali-deyinlərdən biri oydu.

Məktəbə də velosipedlə gəlmişdi.

Pəri arvadın siqareti, Nəriman dayının da velosipeti məktəbdə sensasiya doğurmuşdu.

Dəcəl şagirdlər dərhal onları halqalamaqla gülməkdən qəşş edir, ho-ha, ho-ho çığıra-çığıra hoholamaqla, hoppana-hoppana minbir hoqqa-dan çıxırdılar.“Velosi” və “Siqa” sözlərini də atıb, məktəbdə dillər əzbəri olan ayama da qoşduq o vaxt onlara: ”Peti və reti.”

Həyatında çox zimistanlar ötürmüş Nəri-man dayını kənara çəkib başımıza gələn müsi-bəti ona gizlincə nağıl elədim.

O məni dinləyib qurtaranda, diqqətlə üzü-mə baxıb, boynunun kökünü hövkələyərək razı-lıq əlaməti kimi ehmalca sağ əlini gözünün üs-tünə qoydu... Soyuqda çiçəyim çırtladı!

Bu axıska türkünün, bu da yaxın bildiyim rəzil ürək dostumun dar ayaqdakı kişiliyi.

Birdən nə fikirləşdisə, kişi gülümsünüb:

“Şərtım var amma,”-dedi:

“Şərt nədi? -az qala vəhməli çığırdım.

Kişi müdrükanə bir görkəm alıb, sakitcə:

“Zira, sayıb siyahı eləməsək, bir КОПИЯsı səndə qalmasa, səndəki sənədə qol çəkməsəm, bu qədər sərvəti götürmərəm bala!” - dedi.

Nə qədər elədim mümkün olmadı.

Ədəb-ərkanla məni evə apardı.

Süleymanın anamla rəfiqəlik eləyən aşa-fatma sevən bir yaxşı anası vardı. Hörük saçlı, dinc, qızıl ənbərçə taxmış... Yazıq arvad əldən-ayaqdan getdi. Masaya yeni ağ süfrə açdı. Çay dəmlədi. Aş da dəmləmək istədi, zorla qırraşıb qoymadım. Vəziyyəti başa düşən kimi də arvad goppuldatmağı saxlayıb, sakitcə anamı soruşdu.

Nəriman dayıyla düz bir saata kimi qızıl qolbaqları, qızıl qol saatları, imperialları, pulları, onluq, onbeşlik, iyirmibeşlik qızılları, brilyant və büllur əşyaları siyahı elədik.

Qara КОПИРОВКА qoyub iki nüsxə yazdıq.

Və məni kəklikotu çayına qonaq eləyib yo-la salanda da, kişi canıyananlıqla:

“Tanrı verən mal-dövləti oğul, nə heç bir zırpı bəndə, nə də ki, hər hansı bir zırıltı höku-mət ala bilər! Qismətinizdisə, zavalı yoxdu. Atan da halal adamdı, kasıb-kusuba əl tutandı,” -dedi.

Ürəyim dağa döndü.

Gora kəfənsiz gedəsən Ələsgər!

Süleyman Zahidovun ağır Stalin repressi-yasını zillətlə çiyinlərində daşımış, ГАЗ-21 mar-kalı ВОЛГА minik maşını kütləvi istehsala buraxı-landan millətin ПОБЕДАya ağız büzüb bəyənmə-diklərinə rəğmən velosipeddə gəzən axıska tür-kü mənşəli atasında olan böyük ürəyə bir bax...

Kürəyimdən dağ boyda bir yük götürüldü.

“Sözün qələmi yeyin olar,”- deyiblər.

İlan kimi qıvrılan tozlu döngəmizə qayıdıb haqq-say bilməyən qurbağagöz Ələsgərin etiba-rı, kişiliyi haqqında motili Zakirə, az qala partla-yanacan ovurdlarını şişirdib klarnetpüfləyən-dəl-lək Savalan və gövşək qoyun kimi sapsağlam qardaşı Soltana, bicəngə Xosrova, nəşəli Araz Xıdırova, qızbibi Arif və “şeyi” çeçələ barmağım boyda olan gardaşı Vaqifə bu qəziyyəni danı-şanda hamısının əlləri üzlərində qaldı.

Yəni doğrudanmı o bu qədər çarpaşıq iş tutub, alçaqlıq eləyib? Küçəmizin yerdə qalan, qıy-qıy oynayan uşaqlarına kimi hamısı iki-bir, üç-bir yığılıb gəldi. Elə bilirdilər yenə futbol oy-namağa toplaşmışıq.

Orta məktəb dostumuz İsgəndər Tağıyevin zarafatla kəmşüur adlandırdığı Buratino Tariyel Muradovla dehqan

Süzəndə xalanın qarınqulu, hərzəgu oğlu Əsgər israrla dirəndilər ki, qoy qul-beçə Ələsgəri bir də sınayaq. Belədirsə, istiqbal üçün istiğfar qılmasa qulaqburması almalıdı.

Razılaşdıq.

Babasilli, motili Zakir Quliyevlə "hallı" Araz Xıdırov şahid kimi mənimlə getməli oldu.

Atamın ГАЗ-21 markalı 74-44 ЛЕЗ nömrə ni-şanlı ВОЛГАsını qarajdan sürüb çıxardım.

Və bu iki nəfərin şahidliyi ilə yenidən hörül-mə qarğı çəpərlə hasarlanmış və qonşu qaraçı məhəllələrindən bu çəpərlə ayrılan, artıq halva-sı çalınmış dombalangöz Ələsgərgilə getdik.

Durumumuzun ağır olduğunu, dara düşdü-yümüzü, hökumətin vertolyotla göndərdikləri üç-lülələrlə silahlanmış qara maskalı xüsusitəyinat-lılar evimizi, veyil Araz Xıdırovun tələffüzü kimi desək: "Avıskat" elədiyini üdüləyərək bildirdik.

Ələsgər, kolxozun illik hesabat balansında-kı defisitinin artmasına hər vəhclə, yeri gələndə lap necə gəldi mane olan, işcil atası, astmalı fü-rer-Qanboya qağa deyirdi.

"Qağam gəlsə üzümə söz gələr, hökumət-lə hökumətlik eləmək olmaz," -dedi.

Sınayıcı nəzər qarışıq hiyləgər tərəssüdlə:

“Qoy maşını sizin həyətdə saxlayaq, yox-lama getsin gəlib götürərik, indiyə kimi aramız-da olan hörmət-izzəti yerə vurma!” - dedim.

Ürəksındırıcı, ürəyiqurdlu əclaf ürf olmasa da, ürf-adət gözləmədən əsəbiyyat halında:

“Birdən çapovulçu yoxlamalar xəbər tutdu, maşın da bizim qapıdan çıxdı, kim cavab verə-cək? Min-bir dona girib, yüz min hiylə işlədərək və milyonlarla ürfət çəkib, özü lüt-üryan qalsa da alın təri, qabarlı əl zəhmətiylə bizi ərsəyə gə-tirən, Tanrı bildiyim qağamı tutsalar bəs onda necə?” - müştaq adamlar kimi soruşdu.

Hikkədən mütəğəyyir halda:

“Yoxlama şığıyıb qapınıza gəlsə de ki, hər-zəkar Tofiq zorla maşını bizim qapıda saxlayıb qaçdı. Burda nə var ki?”

Nə qədər qıylasaq belə, nəzər dəyməkdən bərk qorxan lilipud və ördək kimi yanlarını basıb astabaasta gəzən Mədinənin oğlu qoyun oğlu qoyun Ələsgər yenə razılıq vermədi.

Elə bu vaxt, bədəni göy qarnı və üzü ağ rəngli köçəri qoraley quşu kimi alabəzək geyin-miş Xosrov Mamedov qeyznak, nəfəsi təngimiş halda özünü yetirdi.

Hövsələsi daralmış Xosrov höcəti kəsmək üçün, onun hoydu-hoyduya götürülməməsi na-minə, mütarikə üçün son dəfə məzənnələşdi:

”Onsuz da bir həsir, bir də Məmmədnəsir-siz. Fikrimiz də səni qoz qabığına salmaq deyil, nə də hərrac bazarı

açmırıq, bu sənin yekun sözündür, ya Qanboy ağayın?" -soruşdu.

Qurbağagöz barmaqlarını hovura-hovura:

"Nə dəxli var?" -soruşdu.

"Sizə homeopat lazımdır,"-dedim.

Kəllə qəndi qəndqıran əvəzinə dişində sın-dıran hoqqabaz, xırxır Araz:

"Məhərrəmlik səni tutsun haaa! Ə bizimlə qənşər gəlmək istəyirsən? Kimin ömrünü bada vermək istəyirsən ay böyrəkləri nefrit? Çürümüş neandertal!" -deyib, qışqırdı.

Ölüm sükutundan sonra da, həsb-hal et-mək üçün kor-peşiman geri qayıtdıq.

Düzü köhnə haqq-salama görə vurmadım.

Məddah sərpayı Vaqif bu məsələdən agah olanda, bismillah-bismillah edib, iştibahla dedi:

"Bəs keçiqulağıyla böyüyən yolux Qanboy dədəmin qarşısında müticəsinə dayanıb sicillə-mə qozqururdu ki, bizim kökənimiz Koroğluya dirənir ə? Zatını kimə sırıyırmış ə bu? Qırışsifət qozqurabaoxşar,kəfli dolma yeyən lotudu ə bu!"

Nitqpərdaz, ərəsati-məhşər, qudurğan ata-sı Qazamat Bəylərə dədə deyirdi.

Onu da xüsusi olaraq vurğulayım ki, fürerin hər iki oxşarı, bir-birlərinə mütaqib Qanboy da Bəylər də

müştükdə filtirsiz ucuz ПРИМА, АСТРА siqaretləri çəkərdilər.

Müştüklü qurumsaqlar!

Triko parçadan kostyum geyinən Buratino Tariyel Muradov əlini şalvar cibində fırlaya-fırla-ya bir ayağını geri qoyub, qulaqucu:

“Hər qoz girdədir, hər girdə - qoz deyil ki!?”

Degenerat Zakir Quluyev yastı-yastı:

“Şərq küçəsində hər epizodik bığı burma meydana girə bilməz!” -dedi.

Anaşayla əsləhəli Araz Xıdırov xırıltılı kal səsiylə sanki kənardan it kimi hürdü: “Hər axan suya Araz deməzlər.”

Bizim üçün, yayqabağı açan əslibahar çi-çəkli bustana düşmüş bəxtəvərlər kimi, eyş-işrət, fantaziya ölüsü olan, Manya xalanın oğlu Xosu, özü demişkən isə:“Dostlar, rəsmi desək, Xosrov Yusifoviç Mamedov...”-yaşına yaraşmayan bir müdrikanə görkəmlə dayandı və uzunqəzilli, dik burmabuynuzlu erkəc kimi sağa-sola baxaraq kişi-kişi, üzünü Ələsgərə çevirib dedi:

“İşini bildin qulan? Hər quş öz tayı ilə uçar. Heç birimiz bu gündən sənlə oturub durmaya-cağıq. Hər zərərdə bir xeyir də var.”

Nədənsə o günü mütəaqib gələn pis işlərlə bol olsa da, sonu yaxşı qurtardı.

Beləcə Ələsgərin iç üzü açıldı...

Bütün qulaqyoldaşları olan bizim azərbay-canlı əsgərlər onun qeyrətsizliyini lənətlədi...

Kazarmaya qayıdıb yerimə girəndə gecə yarını ötmüşdü. Dolabçamdan çex Yitkanın ba-ğışladığı yaşıl cildli КАРМАННЫЙ РУССКО-ЧЕШ-СКИЙ И ЧЕШСКО-РУССКИЙ СЛОВАРЬ lüğət kitabı-nı çıxarıb bir neçə söz öyrənmək həvəsi, mara-ğıyla əzbərləməyə başladım:

вдоль - podel

вдруг - nahle

безумный - sileny

значит - tedy

...Sonra da, yuxu məni aparar. Yuxu da ki, ölüm kimi bir şeydir.

Katerinanın

yanaqlarından bıldır-

bıldır dığırlanan acı göz yaşları...

Əlvida,Odessa Xosunun tros əməliyyatı

Odessa, 07, 08 və 09 sentyabr 1972-ci il.

ıv, v və şənbə günləri.

Gözlərimi hövlnak qapadım.

Bu nə iş idi?

Baş verənlərin yuxu olduğunu anlayanda elə pis oldum. Nə qədər əlləşib-vuruşsam belə yuxunun o yerinə daha qayıda bilmədim.

Görürdüm: “Çex Yitka ilə yanaşı pilləkən-lərlə enirik. Qarşıdan çoxlu tələbə qızlar qalxır və hamısı da nədənsə ona yox, məhz heyran-lıqla mənə baxır.

Bir neçəsinə söz də atıram.

Yitka qoluma girmişdi. Birdən qızlara baxıb söz atdığımı görəndə ayağını sürüdü...

Ona tərəf çevrilib baxanda gördüm kövrə-lib, hətta qolumdan hirslə tutub saxladı.

Dodaqları səyriyirdi...

Qəflətən onu qucaqladım: “Zarafat edirdim niyə incidin? Bağışla sən allah, belə alınacağını güman eləməzdim...Özün ki bilirsən əzizim, qəl-binə toxunmaq istəmərəm, səni çox sevirəm!”

O yumşalıb yüngülcə titrədi və başını eh-malca çiynimə söykədi.

Birdən hıçqırdı və kapriçço sədaları altında gözlənilmədən, **səssiz hönkürdü!**

Qoşabuta naxışlı puloverinin üstünə iri gi-ləli yaş damcıları yağış kimi tökdü.

Pilləkənlə düşüb-çıxan tələbələr bizə baxıb fotoşəkillərimizi çəkməyə başladılar.

Onun göz yaşları dodaqlarımı yandırırdı.

Biz bir-birimizə necə sarılmışdıq!

Buraxdığım səhv qəlbimi necə sızlatdı, ne-cə göynətdi, axı o Sovetlər ölkəsində qərib idi. Nə olsun qaşı 400 mq.-lıq karatı olan brilyant üzük, ya boyunbağı taxırdı. Mehrini mənə salıb doğma Vətənini qurban eləyəndən, çox küsə- yən, dəymədüşər, qəlbinazik olmuşdu.

Qəhrəman Odessanın ləşkərgahı yerləşən Arkadiya çimərliyinin hündür sahillərindən baxır-dım. Üfüqdə nöqtə boyda görünən İstanbul yük gəmilərinin zillətli nisgili altında, Qara dəniz lə-pədöyənindən xeyli aralıda bir-birini lapar-lapar qovan dalğalarda və meduzalarla yanaşı bəxtə-vərcəsinə və qorxmazlıqla, həm də ki balıq kimi sərbəst üzürdük. Uşaq oyunu ləpikdaş oynayan 16 yaşlı, 9-cu sinif şagirdinin ilahi şıltaqlığından isə artıq, əsər-əlamət belə qalmamışdı.

Quzudişlimin yeganə həmdəmi idim.

Onu bağrıma basıb ovundururdum...

O deyəsən, Vətəni üçün yamanca qəribsə- mişdi. Görünür ki, qübar eləmiş ürəyində Vətən həsrətini nihan saxlayırmış...”

Vəhməli ayılmışdım!

Onun isti, duzlu göz yaşlarının təmi ağzım-da, isti nəfəsi içimdə ayılmışdım.

Sən demə lərzan yuxuymuş...

Gözlərimi yumub, onu elə hey düşündüm.

Yuxu məni yenə yolumdan sapdırdı. Onu rəftixabımda şəhvətdən dumanlanmış baxışlarla məni süzən təsəvvür elədim.

Yanaşı... Lümlüt idik...

İlahi, görəsən o indi neyləyir?

Heç məni yadına salır? Məni düşünürmü? Gorəsən bacısı hardadır? Artıq on iki gündür, ona məktub yazdığım. Bəlkə elə bu gün cavab gələcək, yuxuma ona görə girib?

Axı yuxular çin də olur...

Ehh nə isə...

Dembl prikazımıza 33 gün qaldı.

Cəmi otuz uç gün...

Poçtalyon qıza dönə-dönə tapşırmışdım:

“Bax, mənim adıma xaricdən məktub gələ-cək. Və zərfin üzərində “в/ч 11741-б” sözləri ya-zılmayacaq. Eləcə:

“Одесса довостребования.”

Məktub Arkadiya mehmanxanasının poçt şöbəsinə yox, mərkəzi ГЛАВПОЧТа gələn kimi mənə xəbər eləyə bilsən, muştuluğun ОСОБЫЙ olacaq, buna da söz ola bilməz...”

Katerinayla anasına da xəbər eləmişdim.

Bu gün də sarışın, bəstəboylu, arıq poçtal-yon qız bir qədər üzümə diqqət eləyib, sanki mənimlə danışmaq istəyirdi. Arxasınca da özü həyəcanlanmış halda dedi:

-Sənin soyadın, adın necə idi? Hə, hə... Tofik Babaev. ТОЧНО, ТОЧНО, yadıma düşdü, Ali oqlı. Mən səni çox yaxşı tanıyıram. Sənə həmi-şə sifarişli məktublar gəlir. Sizin rotanin birlikdə aldığı qədər də, təkcə sənə məktub gəlir...

Çex Yitkadan, Komsomoldan, sverdlovsklu rus Nataşa və omsklu Alladan, qardaşlarım Ki-rovabad Vaqif və cibcikli yaşıl köynək geyinmək həvəskarı olan Vidişdən. Dostlarım: Mesxeti tür-kü Süleyman Zahidov, qasırğa Tahir Soltanoviç və xasavyurdlu Ruslandan, Qasım İsmayılovlu Cekdən, Buratino donqaz Tariyel İsmailoviç, bir də, cici-bacılıq elədiyimiz dəllək Nüsrətin oğlu "dilsiz" Əlövsətdən də məktublar gözləyirəm.

Bu gün düzü çox ümidliyəm.

Bəlkə də gəldi.

Görək...

Cibişdanı daim boş olan ağcabədili tıntın Nazim Əsədovla birlikdə "müxənnət" Kaşşeyevi kənara çəkib onunla xeyli söhbət elədik.

Qaliblər kimi uzun bir monoloq söylədim:

-Bütün günahlar səndə oldu.

Sən yolunu bedahat azmışdın. Dembl pri-kazına cəmi 33 gün qalmış əsgər səhv edəndə tutduğu qəbahət işin üstünə soyuq su ələmək, səpmək əvəzinə Çar pristavları kimi: "Neqrlər... Çurbanlar... Hamınızı da asmaq lazımdır... İkin-ci növ qara insanlarsız..."-deyə-deyə, bizim mü-səlman əsgərlərin üstünə kəkələnir, xoruzlanıb onları aşağılayırdın. Elədir? Rus sözü olmasın, ТЕМБОЛЕ özün də onlar kimi stariksən. Günləri-mizi artıq barmaqla sayırıq, Pervomayskidə ağır əsgər həyatı yaşamışıq, özün bilirsən. Hamının da arxada yolunu gözləyəni var.

Yalan deyil ki?

Bəs bu primitizm dolu sözlər nə idi? Kimdi müqəssir? Bu kartla preferans oyunu deyildi ki? Ya bizim əsgərlər proqulçu deyillər ki? Sən mü-səlmanların heysiyyatıyla oynayırdın. Kimdir gü-nahkar? Konsert tamaşası, ya sirk zalında proq-ram oynamırdıq ki? Belə də iş olar?

Kimdir asi?

Düzdü heç zadəgan, kübar, əsilzadə bala-ları da deyilik. Proletariatlaşdırmaq dövrü də ki, lap çoxdan adlayıb. Yoox? İnqilabbaz da deyi-lik, sənin impiçment məsələni də qaldırmırıq...

Üst dodağı göy, alt dodağı yer süpürən şə-təlçi tağım komandiri, rüsvayçı sonluğa baxma-yaraq eyni açılmış halda gülümsəyərək:

-Biz də nemes pleni deyilik... İmperiya qu-ruluşlu monarxist dövlətdə də yaşamırıq... Heç Amerika, Fransa, Böyük Britaniya, Almaniya, İs-paniya kimi imperialist müstəmləkəçisi də deyi-lik. Bütün dünya proletariatlarının birləşməsini tələb edən səltənətin vətəndaşıyıq və sözsüz ki, azad və firavan yaşamalıyıq.

Hər üçümüz gülüşdük.

Xülasə... Çox tutarlı arqumentlərdən sonra axır ki yumşalıb, prinsipcə günahkar olduğunu etiraf etdi və keçi tələsi qurbanına çevrildiyini boynuna götürdü:

-Çox içmişdim, amma hərbi mükəlləfiyyəti-mizin sonudur, üsyankarlıqla üstümə ayaq açan olmasın. Olanları üstüpərdəli yola verək qutarıb getsin,- təşəxxüslə dedi.

Xeyli söz-söhbət,cəhldən sonra son qərara gəlib şərti-şürut bağladıq: Dininə görə heç kəsin üstündə zağ-zağ əsmək lazım deyil. İki ay qalıb. Rusların qarşısını o, bizimkilərin də qabağını Nazıyla mən alaram. Yerdə galan iki ayı da yola verərik, söz-sovsuz, sakitçiliklə qurtarıb gedər...

Məsələni beləcə çözdük.

...Bu gün fotoşəkillər alınmalıydı.

Lentdə Yitkanın da bir neçə şəkli var idi.

Saat 09:30-dan şəşbərbığlı mehtər atasını bəyənməyən Mürşüdü fotoatelyeyə göndərmiş-dim. Üstündən xeyli ötsə də hələ ki qoturdan bir xəbər-ətər yoxuydu. Bərk nigaran qalmışdım.

Şıllaqatan saat 11:30-da gəlib çıxdı.

Düz 44 ədəd fotoşəkil gətirmişdi. Sevincək şəkilləri onun əlindən aldım. Altıncı mərtəbəyə qalxdıq. Uşaqlar da başımıza toplandı.

Şəkilləri kart kimi bir-bir əlimizdə intizarla sıxıb, sonra üzünü açırdıq. Ləzzət verirdi. Şıltaq Yitkayla totuq Danonun fotoşəkillərinə hamımız heyranlıqla baxırdıq.

Yitkanın yeni şəkilləri məni çox duyğulan-dırdı, o dərəcədə ki lot içmək həvəsinə düşdüm.

Bərk içərək, mayası abırdan yoğurulmuş, ququz qızıl gülə bənzər Komsomolumla şıltaq çex Yitkanı xatırlamaq lap yerinə düşərdi.

Həvədiş Mürşüdə pul verib çaxır almağa göndərdim.Az keçmiş təpərsiz şərməndəliklə əli boş qayıtdı. Bərk qaçdığından pörtmüş halda:

-Çaxır olmadı...

Ardını söyləmək şansı verməyib, zarafatla:

-Çaxır dükanında çaxır yox idisə, bəs nə vardı ay Laçın ayısı? Cingim-cingim olasan sə-ni. Üstünə görüm ildırım düşsün.

Mümkün yardım göstərməyə tam hazır ol-duğunu gözləriylə ifadə edən kəlbəcərli vaynö-səni göndərməli oldum.

Sahib Əkbərov əsgəri təzim edib getdi. Və tez də, iki butulka sarı çaxırla qayıtdı.

Beşinci mərtəbədəki ЛОЖАda oturub kiçik kvadrat formalı şokaladla çaxır içir, ürəyimdə gah Komsomolla gah da Yitkayla danışırdım.

Hətta onları bir-biriylə tanış edir və gələ-cəkdə necə rəfiqə olmalarını təsəvvür edirdim.

Birdən tablı Katya yadıma düşdü. O yazıq əməlli başlı boylu idi. Qarnı dartaşa qalmışdı.

Bənövşəgözlüyə necə yazığım gəldi!

Vur tut ikicə ay o məni görəcək... Doğanda yalqız olacaq... Ya Rəbb, bu ki dəhşət idi!

Həyata lap nifrət elədim.

Görəsən onu düşündüyümdən qulağı heç cingildəmədi? Gözü-könlü tox Katerina!

Gözlərimi qapayıb xəyala dalmışdım.

Yenə çex Yitkanı xatırlayırdım:

Görəsən məni unutmayıb?

İlahi, dəmiryol vağzalında, o son dəfə uzun fit verıb, gup-gup guppuldayan ОДЕССА-ЛЬВОВ sərnişin qatarına minməzdən əvvəl paravoz bu-xarında məni necə qucaqlayıb öpdü!

Bu kəlmələri sonralar gündəliyə köçürəndə də kövrəlir, burun pərlərim titrəyir, gözlərim tor-lanır, gözlərimdə yaş gilələnirdi...

Yitka gözəl idi! İstiqanlı idi! Şıltaq idi!

Dəcəl, 16 yaşlı mələk idi!

Son dərəcə çevik, bic, fərasətliydi!

Görəsən onunla nə vaxtsa yenə görüşə bi-ləcəyik? O necə bəxtəvərcəsinə gülümsəyərdi.

Heyf ona!

Heyf...

Çox, lap çox heyf...

Yitkayla qucaqlaşıb öpüşəndə Mürşüdün çəkdiyi şəkli heyf ki, çıxartmamışdılar. Görünür təpərsiz pis çəkib, əlini ЧАЙКА-3 -də əsdiribmiş...

Quq-qulu-qu!

Məni dəhşət bürüdü, rota səs-küylə nahara gedəndə ЛОЖАdan gördüm ki, ağ Lida ağ şal-varda o şəvəsaç şivərək oğlanla qolboyun olub şıqlıqla gəlirlər.

Əndamına piltə qoyulsun sənin, şərmsiz!

Rəngim ağappaq oldu.

Üstdənaşağı heyrət və üzüqaralıqla onlara baxanda, hər ikisi də birdən məni gördü.

İkrahla üzümü yana çevirdim.

Lida utanmaz-utanmaz hələ bir salam ver-mək də istəyirdi deyəsən.

Şındır qəhbə!

Quqqu quşu kimi öz yuvası olmayan gədə baxa-baxa, şüşədə qalan yarım butulka ağ süf-rə çaxırını acıqla başıma çəkib qurthaqurtla iç-dim. İçim burulurdu...

Qərib suvaqçı, qara malakeş, ya torpaq-qazan fəhlə, ya da ki malaçı əsgər olanda nə olar? Biz ki Vətənin vicdanı, qeyrəti, şərəfiydik.

Muzdlu ki deyildik?

Vətəni hərə bir cür qoruyur də...

Biri top-tüfənglə, digəri bombardmançı-qı-rıcı təyyarələrlə, bir başqası əks kəşfiyyala və bu kimilərlə yanaşı biz də vətənə gərəkli idik.

Bəs sabah, Tanrı göstərməsin, 3-cü Dünya müharibəsi başlasa atom bombalarının kütləvi qırdığı günahsız vətəndaşlarımızı kim basdırıb dəfn edəcək? Qəlpə yarası qorxusundan yaxına gələ bilməyən arvad-uşağin yerinə kim şəhidlə-rimizin üstündə vay-şivən qoparıb hönkürəcək?

Mərkəzi Komitənin Siyasi Büro üzvlərinin, həşəmətli marşal və generallarimizın daldana-caq yeraltı bunkerlərini ağlagəlməz yerlərdə ge-cəni-gündüzə qatıb kimlər betonlayıb quraşdıra-caq? Suvaqsız işmi var?

Tank və toplardan yayınmaq üçün sərhəd-boyu və ya şəhərətrafinda əlitüfəngli, ya əliyalın yaralıları qorumaq üçün yüz kilometrlərlə uza-nan xəndək və istehkamları kim qazacaq?

Malakeşsiz, betonqarışdıransız, bənnasız, mişarsız, belsiz, lingsiz, məgər tikintimi var?

Sovet İttifaqı hərbi tikinti batalyonlarının bi-zim kimi əzabkeş, lap elə mənim özüm kimi toz-lu Şərq küçəsindən çıxan, vüqarlı Laçın dağla-rından və sərt sıldırım qayalı Kəlbəcər yaylaqla-rından gələn şərəfli sovet əsgərləri!

Əlvida ağ Lida!

O sən ol, bir də şivərək o gədə!

Səbatsızlar!

Bəyənməyin bizi.

Dogma yurd-yuvasını, isti ocağını, ali təhsil aldığı tələbə həyatını alayarımçıq qoyub, sevdi-yi pioner qızı belə

nigaran saxlayaraq əsgəri borcunu şərəf, ləyaqət və sədaqətlə yerinə ye-tirmək arzusuyla gələn əsgərə heç barmaqarası da baxardılar? Kül tökülsün başınıza!

Can sizin cəhənnəm tanrının.

Zira gələcək göstərər, təkəbbürlü Xuraman kimi kim uddu, kim uduzdu.

Qələmimi bica yerə sındırdın.

Amma, cox qızışdım haa deyəsən, məba-da heç səndən də mənə arvad olmazdı!

Zira ortada hələ zülflərinə məbhut qaldığım Komsomol, Adilə, çex qızı Yitka da var.

Əsas oydu ki:

Biz Sovet Sosialist Respublikaları İttifaqı-nın şərəfli ƏSGƏR PASPORTU idik!

Bəziləri kimi rüşvət verib bu “pasportu” al-maqdan yayınmamışdıq ki? Bütün bu sadala-dıqlarım bəs nəyin təzahürü idi?

İntiqam alırdım!

Onlar blokdan içəriyə də qol-qola girdilər. Üstünüzə od ələnsin! Muskat meynə bağlarıdı bura? Çimərlikdi, ya Lenin bağı?

Söz sandığa girməz, bütün bunlar azmış kimi axşamtərəfi pəltək Nazı dəhşətli bir xəbərlə də gəldi: “O oğlan sübh-şam ağ Lidanı paykda öpüymüş! Məhşəy quyulmalıdıy!”

Suvaşqan lotu!

Bildirçin, kəklik, ya turaclar kimi **doğacaq**, ya ac qurd-canavar, aslan-şir kimi **qürub edə-cək günəşin** pişvazına çıxmışdınız?

Sən demə yanları açıq eyvana çıxıb, küllü məxluqat baxsa da, elə oradaca öpüşürmüşlər.

Təpərsiz təzə görüb!

Deyəsən lap elə mənim acığıma, açıq ey-vanda öpüşüblər. İçim titrədi. Qızdakı şərm hə-yaya bax! Elə pis olmuşdum, özümü artıq tikə, özü də tələ tikəsi hesab elədim.

Sübutlu qancıq!

Öpüşməyə yer tapmırdın? Bütün əsgərlər baxa-baxa açıq eyvanda öpüşürsən?

Hər şey bir kənara, məni aldatmaq nəyinə gərək idi? Aşna sarıdan süd gölünə duşmüsən?

Eh... Avropa, Amerika və bütün xristian rus qızlarının əksəriyyəti bu etibarda, bu sədaqətdə bu ağılda olur deyəsən...

Bəlkə də səhv edirəm.

Katerina bunların tacıydı!

Hələ çex qızı Yitka!

O mərkəzi Avropadan olsa da, rus qızların-dan çox etibarlıdır. O məni Odessada heç kəsə dəyişmədi! Xəyanətə əl qoymadı.

Heyhat, o da suyacaq daşlı gölməçələrin yanında bitən çiçəkli suzanbağı, ya nilufər kimi lilli, əlçatmaz yerdəydi...

Görəsən Lida mənə görüş təyin eləməkdə, məqsədi nəydi? Bəlkə o oğlanı qısqandırıb tez-bazar onu ələ keçirmək və ona olan sədaqətini nümayişkaranə surətdə göstərib ərə getmək is-təyirdi? Acığa maskasını maskaraya qoymaqla faş edən abı nimtənəli ləçər!

Heç salamat getmə!

Ağcabədili pəltək Nazim də halıma acıyıb:

-Adam kimi əyə gedə bilməysəən? Niyə ki-şini aldadıysan aaz. Göyüm səni beşik başında ninni deyib, layla çalmayasan heç. Duvaq üzü- nə həsyət qalasan, nikbət tutsun səni göyüm...

Məxləs, axşam saat 18:00-da oğlanla xa-rabalarından bəxtəvərcəsinə dodaq-dodağa bu-sə verə-verə, qoşa çıxdılar.

Hiss edirdim ki, damarlarımdan axan qan, gur çayların ahəngi kimi axır...

Söz yox ki, dərsə gedirdi.

Köksümü ötürərək qət elədim ki, axşam dərsdən çıxanda, örkən altına gətirmək üçün onunla açıq söhbət

eləyəm. Xəyanətin səbəbini soruşaram və bununla da bu işə ömürbillah qa-yıtmamaq şərti ilə KPECT qoyardıq.

...Planyorkaya daha briqadirlər getmir.

Bu barədə lap kefim vurub. Sutka ərzində mundirli komandir heyətindən bir nəfər də olsun məni dindirib danışdırmır.

Zabitlər müəmmalı surətdə hey susur.

Bəlkə nəsə olacaq?

Bu lal sükutun bir fırtınası qopmasa yaxşı-dır.Pervomayski məsələsi onsuz da başımın üs-tündə hər an ДОМОКЛ qılıncı kimi sağa-sola yel-lənir. Allah axırını xeyir eləsin!

O gecəki dava çox sakitliklə, amma müəm-malı şəkildə unudulmuşdu. Ağlıma gəldi ki, fikir eləmək özü də boş şeydir və söz-sovsuz ev ol-maz! Biz də rota olaraq bir ailəyik...

Naharda cəmi bir məktub aldım.

Qasırğa Tahirdən idi. Yenilik yazmamışdı.

Zemelya Şükür hospitaldan çıxıb, elə yeni-cə kazarmaya qədəm qoymuşdu ki, qarşılaşdıq. Qollarımızı geniş açaraq dərhal bir-birimizin üs-tünə atılaraq, qucaqlaşıb öpüşdük. Zarafatla:

- Mirzəalıbəylidə nə var, nə yox əə? Bu ge-cə yuxuda səni görmüşdüm. Gördüm kəndinizin zığlı-palçıqlı gölməçələriylə, suyu atlaz nimtənə-lı, ipək donlu, məxmər

yaxalıqlı kənd qızlarını-zın üstünə sıçrada-sıçrada, yanları yaşıl qatarla ötüb keçirəm. Parovoz fışıltıyla gur buxar püs-kürüb fit verir. Barama sənayesinin inkişafı üçün yolboyu salınmış çəkil ağaclarıyla yanaşı, əkin-çilərin saldığı xar tut, cır mustut əkılmiş sahə-lərin yanından sürətlə ötüb keçirik.

Pambıq tarlalarının, taxıl üçün şumlanmış sahələrin kənarlarında, bolluca ağ çiçəkləri olsa da, meyvəsi yeyilməyən murdarça kollarının üs-tündən qara və ala qarğalar, sərçə və muymul-lar səksəkəli halda hürküşub uçuşurdular.

Sizinkiləri məhzun baxışlı görüb əsgər pi-lotkamı onlara havada yelləyərək səndən salam da söylədim. Məxəzi cəhənnəmlik olan ərəsat bank Rza səni soruşdu...

Şaqqanaqla gülüşdük.

Axşamtərəfi Sibirdən ezam olunmuş Ma-arif, kirovabadlı Faiq və həmşəhərlim Şükür və ağcabədili Nazimlə bir yerə yığılıb dərdləşirdik.

Bir mülki geyimli kişi məni həyətə çağırıb, eyhamla pul verəcəyini başa salaraq, bir kisə sement istədi.

Bir qədər beynimdə fırladıb dedim:

-Axşam saat 21:00-da gəl 7-ci mərtəbəyə.

Palazqulaq Arif və moltani Vahidə düz on vedrə oğurluq sement yığdırdım. Mayıf Mamed-lə yefreytor İlyas da kisəyə doldurdular.

Üç kisə doldu.

Gecə danışdığımız vaxt kişi gəlib çıxdı və sementi uşaqların köməkliyiylə aparanda, sayıb mənə 4 rubl pul verdi. Sabah bu pulla çaxır alıb öz əsgərlərimizlə içəcəyik...

Proverkadan sonra da, gecə saat 22:35-də ağcabədili Nazıyla geyinib Lidayla son söhbət eləmək üçün, ümidsiz olsa da 5 nömrəli trolley-busun "Turbaza" dayanacağına getdik.

Dayanacaqda xeyli gözləmişdik, birdən bir yaşlı qadın mənə yanaşdı.

İçkili idi...

Ayaq üstə sərbəst gəzə bilsə də dəm idi. Heç nə soruşmasa da gözlərimə məstanə baxıb susurdu. Qaranlıqda zillənən gözləri ac canavar gözləri kimi işıq saçırdı. Yamanca tərəf müqabi-li ola bilərdi. Artıq gecikməz olmazdı.

Bir kompliment tulladım:

-Mən də içərdim!

Bir sözə bəndmiş ki! Balıq kimi lal, qızmış buğa kimi sonsuz ehtirasla kükrəyən qadını dilə tutmağa belə ehtiyac qalmadan, ümumi tanışlı-ğımız olmasa belə, dərhal arıq belimi yığışdırıb, süni gülümsəməklə qoluma girdi. Ondakı qəribə dəyişkənlik hər addımda hiss edilirdi.

Cavan qafqazlı oğlanı sıyıdıb kəməndinə saldığından qaynaqlanırdı bəlkə bu?

Sağlam mühakimə yeri deyildi. Özümü sə-viyyəli göstərmək niyyətiylə şux dayanıb:

-Sizinlə tanış olmağa imkan yaratmaqda böyük iltifat göstərdiniz. Söz yox ki, yaxın saat-larda kəbin kəsdirmək üçün kilsə səcdəgahına dəvət etməzsiniz. Elə deyilmi? - şıqlıqla sordum.

Yaman istiydi. Canından turşumuş çaxır iyi gəlirdi. Sanki dediklərimi heç eşitmədi.

Siqaret istədi.

Yüzdən artıq saya bilməyən Nazını cəld restorana, siqaret arxasıyla göndərdim.

Qadın sanki harasa və niyəsə tələsirdi. O səbirsizliklə qolumdan dartıb siqaret gəlməsini gözləmədən, turbazanın qarışıq kolluqları olan səmtə çəkdi. İlk qarşıya çıxan kolluğa girəndə canıyanmış yalandan büdrəyib çökdü və dərhal da arxası üstə tirtap yerə sərildi. Bəlkə də, ayaq üstə dayanmaq gücündə deyildi.

Heyhat... Sirli istəklə dolu, ufuldaya-ufulda-ya xebe formamın ayağından yapışıb dartaraq, canıyanmış məni sonsuz ehtirasdan tıncıxmış halda üstünə çəkdi.

Əziyyətsiz, naz-qozsuz:

-Qafqazlı kişi ölüsüyəm,-ünsiyyətcilliklə de-yib, heç soyunmadan alt tumanını aşağı çəkdi.

Lida da, Nazı da yaddan çıxmışdı. Etiraza çətin ki, qafqazlı gücü çata bilərdi. Onu tumuş-suz buraxıb başqa hərəkət eləmək, demək olar mümkünsüz idi.

Ay Xanımzərin zaparojyeli Mətləbi, az qala prokuratura sistemində güdaza getmiş əfətli El-xan

Əbdürrəhmanov və ay Şamxalın artıq gü-daza gedən, eks polis rəisi olmuş həşəmətli qa-yınatası Azər cənabları, özünüz qərar verin, bu mən ölüm heç narazı tənəlik yeriydi?

Söhbətə həvəslə girişərək, ağ Lida yarala-mış heysiyyatıma baxmayaraq, məyusluğu atıb dilavərliklə, sağlam durum, əla və bəxtəvər də-qiqəli ovqatla qafqazlı kişisal gücümü göstərmə-li oldum. Yumorla düşünürdüm:

“Ay bicəngə Xosu, fürerin Ələsgəri, məd-dah Vaqif, hələ də Qətibənin hesabına ayaqda qalan cındır İlham Babayev, ay kəkəş Elgiz Ab-basov bəlkə düz eləmədim?”

Adını belə soruşmağa macal tapmadığım bu şəhvətli qadının öhdəsindən asanlıqla gələ-cək qənaətində və tezliklə də onun özünə gələ bilməyəcək ümidində idim...

Amma inanılmaz dərəcədə güclü şəhvətlə cinsi akt başa çatsa da o alt tumuşunu geyinmir və qaranlıqda hələ də irin-irin inləyirdi.

Mat qalsam da, etinasızlıqla qalxıb şalvarı yuxarı çəkdim və ağlıma nə verdisə qəfil Arka-diya restoranına tərəf götürüldüm.

Qeybə çəkilməyimdən tövrü dəyişilməyən Nazı əlində fırlatdığı siqaret qutusuyla dayana-caqda qayğısız, dərd-sərsiz fit çala-çala var-gəl edir, ağzında hansısa muğam təsnifini, öz sözü olmasın fıştırıqla, züm-zümə edirdi.

Arxadan onu qamarlayıb, yolboyu yolçuları əyləndirməyə cəhd göstərərək paçabənd eləyib sürükləyə-sürükləyə, düz arvad olan yerə kimi dartıb gətirdim.

Rus intelligenti öz razılığı və xoşbəxt əmin-liklə intim akt istəyini başa vursa da, yerdə ləm, uzandığı vəziyyətdəcə qalmışdı.

Ağzımı Nazının qulağına dirəyib xısın-xısın pıçıldadım:

-Məbada səs salasan...

Heyrətlənmiş Nazının şalvarını zorla aşağı çəkib, arvadın üstünə yıxdım. Nazının quru dalı qalxıb-enəndə, özünümüdafiəyə ehtiyac qalma-yan sarmaşmayla "iş" başlayanda isə...

Ürəyimin dərinliyində rotada yatmış azəri əsgərlərin bilməsini istədiyim bir durum yarandı-ğını qəfil duyduğumdan kazarmaya sarı götürül-düm. İlahi şövqlə necə uçurdum!

Paxıllıq hissi məndə əsla yox idi.

Göz önündə əsgər müdaxiləsinin nəzakət-sizlik yaratmadığını görüb gecikmədən, çox da uzun olmayan ömürlərində heç vaxt incə məx-luqla başbirlik yaşamayan Mürşüdlə Hüseyni də yuxudan kal oyadıb, zorla özümlə gətirdim.

Yolboyu necə hövlnak danışırdımsa, yuxu-lu başla kol-kos içində arxası, gah da böyrü üs-tə sərələnmiş və bəxtəvərliklə inləyən şortunu öz gözləriylə görməyincə nə baş verdiyini, heç düzəməlli anlamamışdılar da.

Cüt gecə qaranquşlarını yıxılmış arvadın üstünə itələyib, çaparaq geri döndüm.

Deyəsən qadın heç nəyin fərqində deyildi.

Canını sərəncamıma qafqazlı kimi etibar etməsinə baxmayaraq vicdan əzabı çəkmədən, yığnaq olmuş məxluqatı: Məhəmməd, xallı Arif, qayışbaldır Turabxan, lilipud Çingiz və zemelya Şükürü də dalıma salıb, elə ağ tuman-köynək-dəcə turbazanın həyətinə gətirdim.

Görkəmindən xəstəhallıq yağmasa, zəiflik hiss edilməsə də, bəlkə də həyacandan sözləri düzəməlli tələfüz etmir, cinsi akt tələbiylə yanır, qovrulur, qırıq-qırıq hərdən nəsə pıçıldayırdı.

Zülmət qaranlıqdaca səssiz-küysüz növbə yaranmışdı. Müşərrəf olmuşlar dəstətifaq bir ya-na çəkilib hey için-için hırıldaşıb uğunurdular.

Nəzarətim altında mərhəmətli, şəfqətli azə-ri uşaqlarının çoxu bu möcüzəli intim səhnədə, həyatlarının ilk qadın nübarını yaşayırdı...

Yıpranmış arvadın deyəsən bu pəstəha-dan artıq xəbəri yoxuydu. O çox içdiyindən və rütubətli yerdə paltarlı uzanıb, aşağı-yuxarı, o yan bu yana çox yırğalandığından artıq tamam keflənmişdi. Həm də qafqazlı oğlanlar...

O ayıq olsa da qaranlıqda üzümüzü seçə bilməzdi. Odur ki, kim üstünə minirdisə, güman eləyirdi ki, canına dırmaşan mənəm. Amma fakt doqquz qafqazlı ərgən uşağı yola vermiş, vəhşi ehtirasını yırtıcı ləzzətlə söndürə bilmişdi...

Heç kim də onu lüt soyundurmadı. Eləcə pallı-paltarlı... Müştərək...Yırğalana-yırğalana...

Məsələni tam həll edilmiş hesab elədim.

Təsəvvür edirdim ki, qadının abı məxmər donuna nəmiş göyçəmənliyin sürtünüb yapışan yaşıl rəngini və mizanqul tırtılını üç-beş zənən xeylağı yığışıb heç bir aya da yuyub təmizləyə bilməyəcək. Artıq mizana düşmək müşkül iş idi.

Zavallı çılğın!

O asanlıqla unudula bilməyəcək, tamamilə istisnasız keflilik yaşayırdı.

Yaşananların təfərrüatlarını görəsən o tam ayılanda müfəssəl anlaya biləcəkdimi?

Ərinə etdiyi amansız xəyanətinin iztirabını necə yaşayacaqdı? Yoxsa gündəlik qayğılardan bezikib bir qədər istirahət etməyin faydalı ola-cağını zənn edib içmişdi?

Onsuz da bizimlə bir daha rastlaşmaq ehti-malı tamamilə istisnadır və demək olar sıfırdır. Ortada ümumi tanışlarımız da yoxdur.

O ərli qadın olsa da, ərlik qızı varsa da sabah cəmiyyət arasına üzüağ çıxa biləcəkdi. Elə mən özüm də ümid edirdim ki, biz bir daha onunla qarşılaşmayacağıq.

Onuncu da...

Sibirdən ezam olunmuş Heydərov eşidib özünü vəhməli yetirmişdi. Hamı yalan oldu, ən-gəlsiz olduğundan, əcaib səs çıxararaq o özü-nəməxsus manevrlə bir loqqultu salmışdı...

Yenilik həm də onda idi ki, əsgər forması geyəndən üzübəri ötən 22-ci ayda bu uşaqların çoxu qadınla münasibətdə olmamışdı.

Bu da mənim rekordum oldu.

Hətta bu uşaqların çoxu ömürlərində ilk dəfəydi qadın "görürdü!"

Ömürbillah qadınla intim əlaqə yaşamayan loru, losyon belə vurmayan üzüpirişik şamxorlu Vahid Həsənov, titandişli uzundraz ağdamlı Fe-ruz və göydodaq Ədalət gəlib çıxanda isə, bizim rotada ezamiyyətdə olan baş leytenant, mülki paltarda onları qabaqladı.

Məsələ sürətlə yekunlaşmağa doğru əyildi.

Onu görən kimi uğursuzluğa məruz qalmış bədtalelilərlə birlikdə hamımız, asta qaçana göy imam qənim, kazarmaya doğru götürüldük.

Arvad yerdə, xebe formamın köynəyi də ki, qəhbənin başının altındaydı...

Liçkalarımdan məni dərhal tanımaq olardı. Odur, hövlnak geri qayıtdım.

Baş leytenant kefli, lortqarın arvadı zorlaca ayağa qaldırıb, tumuşunu yuxarı çəkərək qarı-şıq kolluqdan çıxardı və çətinliklə çiyninə alıb hıqqına-hıqqına harasa apardı.

Tezliklə də uzaqlaşdılar.

Bəxtim vurdu.

Həm köynəyimi götürdüm, həm də arvadı gecəyarıdan keçmiş, mədəd verib necə yola sa-lacaqdım? Bir göz qırpımında qarasaqqız olub sübhədək yaxamdan yapışmazdı?

Sonuncu gələn üç müsəlman əsgərimizin bəxtləri gətirmədi. Artıq əks ovqatda olan Vahid, Feyruz və Ədalət yana-yana qalmışdı.

Onları qısqıyla sakitləşdirirdim:

-Çox da yanıb yaxılmayın. Bəlkə arvadda pis, zöhrəvi bir xəstəlik var, hamı yoluxsa da siz tarixdə sağlam nümunə kimi qalacaqsınız!

Düzü qorxurduq. Hamımız növbəylə Anya xalagilin həyətində bir-bir yuyunduq. Rusiyada istehsal edilən 72 faizli paltar sabunu mikrobu qırır deyirdilər. Amma gərək tez yuyunasan.

Kazarmaya gələndə artıq gecə saat ikinin yarısıydı. Uşaqlar hey xosunlaşır, danışıb-gülür, sonuncu üç əfəl uğursuzu lağa qoyub məzələ-nirdilər. Yazıq bizim əsgərlər.

Çağrılan, göz qırpmadan elə tez gəlirdi!

Bir saat da beləcə lağlağı elədik...

Ağ şalvarlı ağ Lidanın da xeyri bu oldu!

Elə düz də deyirlər ki, hər ziyanın içində bir mənfəət də gizlənir.

Söz tez yayılar.

Bütün günün yorğunluğunu çiyinlərində da-şıyan ikinci rotanın əsgərləri mışhamışla, xorul-tuyla, fıshafısla və müxtəlif sayaqlamalarla yatıb yorğunluğu canlarından soyunmaqdaykən, vur-çatlasında hərənin qulağı bir söz çalıb key kimi oyanmışdı. Kazarma qeyri-adi gecə yaşayırdı...

Hərə öz tutduğu şad xəbərli əməlin qəh-rəmanlığında xumarlanıb üzür, eləmədikləri işi də müjdəylə özünə sərf edən qaydada yozub, içdən ruhlu halda bir şey gəvəzəyirdi:

-Kol-kos içində sürtündükcə böcək, atlı qa-rışqalar, donquzanqurdu ayağıma çıxmışdı...

-Arvad yerdə elə eşələnir, elə yanıqlı səs-lər çıxarırdı, elə bil bakirəliyini mərtəbə-mərtəbə sağa-sola xərcləyirdi.

-Göydodaq Ədalətə, titandiş Feruza və ya-ralanmış ürəyi səksəkəli misgin Vahidə yüyürün mərsiyəxan gətirin əə!

-Bəydəliyə məyməy xul gətiyin!

Fərəhindən cilov gəmirən kuybışevli Hüse-yin ortalığa bir səlbə tolazladı:

-Mərmər xul balığı tapmasam, mərovça, ya qazayağı, ya da ki qazlı su gətirimmi?

Bir səlbə də özüm tolazladım:

-Yox sən öl əə, qülləli qazholder qazı gətir!

-Sən öləsən Mürşüd arvad qaraqızdırmalı idi. Qaraqançır canın cürüyəcək. Qaralıb ömür-lük sönəcəksən. Laçındakı yanıbalalı boz eşşə-yin də xiffətdən çatlayıb gəbərəcək...

Məxləs, bax bu sayaq zarafatlarla uşaqlar hingirləşir, bir əsgər gecəsini də beləcə şuxluqla dirigözlü əridirdilər...

Ertəsi gün səhər sübhdən: Qalxın! -əmri veriləndə, praporşik Kirulyuk nə qədər elədisə nə məni, nə Mürşüdü nə də ki Hüseyni durğuza bildi və hikkələnib söyə-söyə, arxaya belə bax-madan komandir rotaya xəbərə qaçdı.

Günəş şəfəqlərini şarmalayanda komandir həyatında ilk cinsi əlaqə yaşamış təpərsiz Mür-şüdlə kuybışevli Hüseynin hərəsinə sıra mey-danında 5 sutka hauptvaxt elan elədi.

Sanki, gecə çiynində şəllənib apardığı qa-dın, qafqazlı əsgərlərin növbəylə mindiyi bəxtə-vər bunun doğmaca arvadıydı!

İndi saat 10:23-dür.

Onlar hauptvaxta getməyə hazırlaşır, görə-sən apara biləcəklərmi?

Yitkagil qaldığı evin qonşuluğunda yaşa-yan xoşzahirli cavan gəlin məni yuyunan görən-də ayağını sürüyüb dayandı və gözlənilmədən:

-Yitka sənə məktub yazdımı? -soruşdu.

Səksəkə içində:

-Hələ yox, amma gözləyirəm, -dedim.

İltifat mübadiləsindən yayınaraq, nə səbə-bəsə aşkar sarkazmla:

-Görürsən səni aldadıb, -üzlü-üzlü dedi.

Mən də acı kinayəylə:

-Sən nə danışırsan? O hökmən yazacaq. Gördüyünüz kimi, mən də heç onu unutmamı-şam axı - dedim.

Yaxşı təbi olan gəlin ironiyaqarışıq gülüm-sünüb, işvəli meyilsalmayla:

- Əgər məktubu gəlsə, laybalaylansa mənə də xəbər eləyərsən, -dedi.

Bu qız aşkar işvəkarlıqla məni tovlayırdı. Diksinib anlayan kimi də, ürəyiyumşaqlıqla:

-Yaxşı, məktubu alanda sənə də göstərə-rəm. O məni aldatmaz, rus adamaldadan nasə-za ağ Lida deyil ki!

Onun məhbut qalmasına rəğmən sıyılsam da, ifrat və zəhlətökən yarınması məni cırnatsa da, zira Yitka layəmut məbədim olduğundan dil-lənmədim. Məxəzi də deyildi. Həm də deyəsən lavsan donlu gəlin ovsunladı məni...

Gəlin işvəylə dilini çıxarıb getdi.

Ruhum incə duyğularla tərpənsə də dərhal füsunkar Yitka yadıma düşdü. O misilsiz qız idi. Qəfil gələn çobanaldadan duman kimi, qəfil də çəkilib getməyiylə, qarşıdan gələcək illərin verə biləcəyi xoşbəxtliklə yanaşı,

həm də iztirab çək-məyə layiq hisslə formalaşdırıb mənə yaşatdığı bir zövq də bəxş eləmişdi.

İlahi! O necə təbii idi!

Günahını sakitcə boynuna alar, hərdən də əliylə öpüş göndərər, yalnız israrla deyərdi:

ТАК ХОТЕЛА! ya ПОЧЕМУ НЕТ? Bəzən də ki, gözlərini çəpləyib üstümə ərklə, özünəməxsuz hökmlə qışqırardı: ТОФА!

Hər an da, Avropada 9-cu sinfi bitirmiş orta məktəb şagirdini xatırlayanda, gözləim qarşısın-da gözəl görünən, xoştale Yitkanın bu sözlərini heç ölsəm də yadımdan çıxarmazdım!

O da Komsomol kimi bir neçə gündü artıq 10-cu sinifdə oxuyurdu. Fikrimdə də tam qərar-lıydım: Ya Komsomol, ya da ki onunla ailə qura-cağam. Duvaq altına, könlümü fəth etmiş bu iki gözəldən biri girəcək.

Kaş o bizim vətənimizdə, ССРИ-də yaşa-yaydı, lap elə zimistan Azərbaycan torpağında.

Həddindən çox ümidliyəm.

Onu hökmən tapacağam. Zira, bu barədə ürəyim çox sakit və rahatdır. Özlüyümdə şəksiz inanıram ki, biz onunla hökmən görüşəcəyik.

Dünya yəni bu qədər fani ola bilər ki, biz əbədi görüşməyək?

Özünü daim zinətləndirən totuş Anya xala mənə demişdi ki, bu il oktyabr ayının 25-də Yit-kagilə, Praqaya gedəcək. O vaxta kimi mən də hərbi xidməti bitirməsəm, gərək ondan Yitkaya məktub və yadigar bir neçə hədiyyə göndərəm.

Belə alınsa çox yaxşı olar və onsuz necə darıxdığımı, iztirab çəkdiyimi kövrək olduğumu, Vətənim olsa belə Odessada laməkan, özümü artıq qürbətdə sandığımı ona çatdırar!

Hərbi xidməti bitirəndən sonra isə çalışıb onu ailəliklə Bakıya dəvət eləyəcəm.

Kaş o gün gələ!

Bakının Binə aeroportunda...

Xuramanın kədərli “yadigarları” olan, orta məktəb dostlarım: Buratino Tariyel Muradovla, mesxeti türkü Süleyman Zahidovla, Qasırğa Ta-hir Ağayevlə, əsgər dostlarım, çiyin-çiyinə, səra-sər düz iki il zillət çəkdiyim: Ağcabədili Nazıyla, vaynösə Sahib Əkbərovla, kuybışevli Hüseynlə, minkəndli təpərsiz Mürşüdlə, döngə uşaqlarımlz olan, dünyanı birlikdə ilk dərk elədiyimiz: İştüx, bicəngə Xosu və erkən anaşa çəkdiyindən da-nışanda xırıldayan Arazla əllərimizdə gül-çiçək həsrətlə, intizarla divardakı əqrəbi qara rəngli, yumru böyük saatın saniyələrinə intizarla baxa-baxa vaxtı sayaq: ”Bax indicə Yitkanı göylərdən gətirən Praqa reyon havadan enəcək,” -deyək.

Görəsən belə yuxular çin olar?

Dünyanın quyruğu uzundur deyirlər...

Nahardan sonra bir yerə yığışıb, gecə baş verən iyrənc və özü qədər də lağlağa materialı olan hadisədən danışıb o ki, var gülüşdük.

Göydodaq Ədalətə növbə çatmadığından, ПРИМА siqaretini yanğıyla sümürərək:

-Sizin aranızda ala qarğa da balalamaz, Allah o komandir rotanının başına göydən daş yağdırsın görüm haa! -deyirdi.

Sıra meydanında yeməyin sinci vurulana kimi Mürşüdlə Hüseyni hauptvaxta aparmamış-dılar. Onları da o ki, var lağa qoyub zarafatlaşır-dıq: ”İlk cinsi akt qurban tələb edir!”

Yemək fasiləsindən sonra uşaqların işini bölüşdürüb kazarmada yerimə uzanmışdım.

Yuxu məni aparar.

Oyananda, saat 16:07 idi.

İş yerinə qalxıb, uşaqlarla bir qədər zara-fatlaşandan sonra beşinci mərtəbədəki yan ЛО-ЖАda,yanları açıq eyvandaca oturub, gecə ya-şananları xatırlayıb mürgü vururdum.

Hüseyinlə Mürşüd də gedib altıncı mərtə-bədə yatarlar. Mişa Hüseyni yatdığı yerdə tutub, səs salmadan, gizlincə gəlib məni oyatdı.

Və birlikdə əlimdən tutub altıncı mərtəbəyə qaldırdı. Hüseyn pilotkasının dalını qaldırıb yat-mışdı. Xorhaxorla xoruldayırdı...

Bəli, bizim uşaqlar da lap ağını çıxartmış-dı. Adama üz verəndə astar da istəməz axı.

Mürşüd və Hüseyni durğuzub onlarla bərk mübahisə elədim. Hətta dalaşmaq da istəyir-dim ki, hər ikisi davadan qaçdı və sonda səhv-lərini açıq etiraf eləyib, üzr də istədilər. Və çox acı bir kinayəylə, yumorqarışıq:

-Başa düşdük, Mişa müəllim, -dedilər.

ЧП çözüldü.

Mişanı yola salan kimi də, yenidən ЛОЖА-da, taxtadan düzəltdiyim yerdə oturub ağ Lidanı görmək ümidiylə pəncərələrini xeyli marıtladım. Gecəni çox az yatdığımdan tez-tez də mürgü vururdum. Gözlərim yuxu həsrətində hey süzü-lür, başım ağırlaşıb şirin-şirin irəli-geri axır, gah batareyası zəifləmiş saatın əqrəbləritək yerində sayır, gah da ət parçası olub havada özbaşına yellənirdi. Amma diksinib ayıla-ayıla məccani müşahidəmi davam etdirirdim. Pərdə titrəyişini belə gözdən qaçırmamağa çalışır, məchul son-luğu olsa da ifrat ləzzətlə güdürdüm.

Nə vaxtsa yuxuya keçmişəm...

Axşam saat 16:02-də xəbər verdilər ki, ağ şalvarlı ağ maya dərsə gedir. Mürgüylə bir bu-ğum yatdığımdan gümrah idim. Elə çirkli hərbi xebelərdə də arxasınca götürüldüm.

Necə oldusa, qəflətən arxaya çevrildi və çapqın gəldiyimi gördü.

Nəzakətlə gülümsəyib dayandı.

Təngnəfəs özümü yetirib, ürəyi səksəkəli salamlaşdım:

-Dərsə gedirsən?

-Hə!

-Gecə qayıdanda səni gözləyəcəm.

-Məni qarşılayan olacaq.

-Hə?

-Bəli.

-Sənlə dünən gələn oğlan?

-Hə.

-Bəs o haqda əvvəldən niyə mənə bir söz deməmişdin?

-Bağışla... Mən tələsirəm.

-Demək gözləməyim?

-Yox! Zira sənlə qardaşım arvadı, bəstə-göz Natella görüşmək istəyir. Tövsiyyə edirəm ki razılaşasan. Səni titrəyişlə arzulayır...

-Siz nə danışırsınız?

-Hə, kökəni qafqazlı olan kirvənizin qızı...

Arzulamağa belə cürət eləmədiyim sözləri eşidəndə canıma tərləməklə müşahidə edilən bir qızdırmalı istilik də

yayıldı. Lütfkar xanım, ağ maya az qala təntənəylə danışırdı.

-Necə?

-Mən tələsirəm... Bağışla!

Etiraf edim ki, bəli, bu heyratamiz sonluğu gözləməzdim. Gəlinləri ağ Lidadan da cavan və həm də ərli, qadın idi...

Bu lap zəhmətsiz sürpriz oldu.

Amma ağca maya ağır təbiətli olduğundan onu daha çox xoşlayırdım. Heyf, əldən çıxdı!

Çox heyf...

Geri qayıtdım.

Deməli Lidayla arama girən, o pəhləvan cüssəli oğlanla yanaşı həm də 18 yaşlı erməni kökənli bəstəgöz gəlinləriymiş...

Bu xəbər məni vəcdə gətirdi. Artıq hər şey anlaşılandır. İndi bildim Nata niyə mənə faydalı olmağa cidd-cəhdlə çalışırdı.

Məxəzi buymuş.

Fəqət, gəlinləri ağ Lidanı dilə tutsa, lap diz çöküb qarşısında yalvarsa, kimə nə vəd versə belə, bu qərarı verməyə yalnız öz qüruru onu vadar edə bilərdi. Yoxsa saatlarla pəncərələrinə gözümü zilləyib baxanda bir him-cim edər, evdə gəlin var, ərə gedəcəyim oğlan var, elə baxma amandır, saqın anlayacaqlar deyərdi.

Bəs şərəfsiz gəlinə bərk bağlılığı, özü də gerçək sıx bağlarla bağlılığı nəylə bağlıydı?

Görəsən mənimlə vaxt keçirmək növünü seçərkən hansı sirri ortaq bölmüşdülər?

Həyatımda bundan daha betər, təbir caiz-sə, utanmaz bir təklif eşitməmişdim.

Amma dərindən fikirləşəndə, bundan asan anlaşılan elə bir iş də yox idi. Zira, ortalıqda saf məhəbbət əvəzinə vəhşi ehtiras, şəhvət və ən əsası da qafqazlı amili dayanırdı.

Burda cadukünlük, cadu-pitilik nə var ki?

Bir cam su içmək kimi bir şey, bir neçə aya cəhənnəm olub gedəcək, zira əsgərdi də, nə izi qalacaq, nə də ki tozu. Necə deyərlər, beşik ba-şında əbədiyyətəcən xatırlanıb, elegiyayla oxu-nacaq mahnı, layla, ninni!

Məxləs buydu məxəzi...

Kazarmadakı dolabça və çamadanımda yı-ğılıb qalan bütün fotoşəkilləri töküb saydım. Nə az, nə də çox, düz 196 ədəd oldu.

Gərək evə bağlama göndərəm...

Gecə rotaya yatmaq əmri, əsgərin ən çox sevdiyi hərbi əmr veriləndən sonra çapuq yeri-mizə girmək əvəzinə, bir az keçmiş iki-bir, üç-bir yeməkxanaya toplaşıb artıq can verməkdə olan hərbi mükəlləfiyyətli günlərimizə rəğmən, canı- mız bahasına, min-bir zillətlə qazandığımız

əsil starikliyin əlçatmaz fövqündə, azəri əsgərlərlə laqqırtı vurmağa başladıq.

Hərə ağlına gələni gəvəzəyirdi.

Uşaqlarımızın heyrət dolu marağına, naz-qozuna züy tuta-tuta, milli adət-ənənələrə sərt qadağalı Azərbaycan televiziyasında və yalnız bayramlarda cüzi yadasalmalarla xatırlanan ba-harın gəlişi, novruz bayramı, çatılmış tonqallar, fitillə yanan nöyütü azalanda tüstüləyən çıraqlı evlərin kəndarında dayanıb qapıpusma, torba sallama, niyyət eləmə, göylərdə gur qara tüstü-sündən sonra qəflətən alışan qulpu asan əyilən məftillə sarınmış əsgi şarlı, qovurğalı, ala-bulac müxtəlif rəngə boyanmış yumurtalı, paxlava, ya şəkərburalı, səmənili və bax beləcə də, çox-çox uzaq illərdən gəlmə, rus qardaşlarımız tərəfindən üstünə embarqo qoyulub didərgin salınmış adət-ənənələrimizdən xeyli söhbət açdıq.

Və necə oldusa qəfil yadıma düşən, yalanı yoxdur uşaqlıq dostum, sallana-salana gəzən, açıq qəhvəyi saçlı, xurmayıgöz Xosrovun 15-16 yaşı olanda, təkbaşına həyata keçirdiyi maraqlı, məftunedici və tarixi tros əməliyyatını, hərçənd məktub yazmasa da, həvəslə danışası oldum:

“Qonşu ailələrdə yaşayan əksəriyyətin hə-yat tərzi bizim imkanlarımıza mütənasıb olmasa belə, fəqət günlərimizi kifayət qədər xoş keçirər-dik... İstirahət günləri həyətlərdən eşidilən gülüş səsləri, hər bazar günorta vaxtı, saat 14:00-da başlayıb, radiolardan gur səslənən muğam sə-daları altında tüstülənən manqalların ləzzətli qo-xuları, səs-küylə keçirilən sünnət toyları...

Xosrov bizim ən yaxın qonşumuz idi.

İkinci mərtəbəmizin şüşəli aynabəndindən həyət-bacaları ovuc içi kimi aydınca görünürdü.

Xosunun dörd qayğısız böyüyən bacısı və özündən kiçik, iran kökənli atası Yusifin hikkə və tərsliyi ucbatından qurban-sadağa getmiş, kəkiltiylə danışan kiçik bir qardaşı vardı: Xanlar.

Validə adında bizimlə həmyaş bir göyçək bacısı da vardı. Heç beş yaşı tamam olmamış, qaynar samovar üstünə aşıb yandırmışdı.

Xəstəxanaya çatdırılana kimi yoldaca ke-çindi. O vaxt biz ilk dərk edə bilmədiyimiz itkini məhzun baxışlarla yola salanda, qonşu arvadla-rın çığırışıb bayılana kimi, get göylərin qurbanı, şəksiz yerın cənnətdədir, fəryadla dedikləri bu kimi sözlərin mahiyyətini anlamazdıq. Hərçənd gözüyaşlı kişilərə baxıb dəcəllik eləmir, kədərli Xosrovu isti sözlərlə ovundururduq...

Xanlar küçə uşaqlarından həm yaşda bala-ca, həm də cılız olduğundan, təbir caizsə, kim-səsiz anası onun bu vəziyyəti və vaxtsız köçən Validənin ucbatından iztirab çəkdiyinə rəğmən, eltisi Sehran xalaya nisbətdə mum kimi əriyib özü də çöpə dönmüşdü.

Manya xala onu küçəyə çıxmağa belə qoy-mazdı. Sanki, nədənsə qorxurdu.

Demək olar, Xosrov tək idi!

Küçədə, döngədə, evdə hamı onu sadəcə Xosu deyib çağırardı.

Xosrov tək və boydan balaca olduğundan, suyu Stalinəbənzər, amma özü həlimxasiyyətli Zeynəb xalanın götürüb saxladığı Araz Xıdırov, ərsiz olsa belə namusunu şərəflə qoruyan dul Süzəndə xalanın mağmun madar oğlu Əsgər və dilsiz-ağızsız, ləyaqətinə söz ola bilməyən, abır-həyalı Səmaya xalanın böyük oğlu Qərib kimi, o da döngəmizdəki həmyaşıdlarının başıqapazlı əl buyruqçusu olmuşdu.

Heç kəsə gücü çatmayan Şərqli, son sö-zünü bu dörd nəfərə deyib, çiy kərpicli, ilan kimi əyri qıvrılan döngəmizdə şeşə-şeşə kişilənərdi.

Bir gün, lap düzü hicri qəməri, ərəb təqvimi ilə şəvval ayının əvvəllərində, nar dərilən vaxt-larda qardaşım Rafiq qonşu döngədə, fürerin oğlu qurbağagöz Ələsgərlə hasarbir qonşuda yaşayan, yoldaş Stalinin imzaladığı bir fərmanla deportasiya edilib didərgin salınmış nə vaxt, ne-cə, harada, həddi-buluğa çatmamış və hansısa mal-qara daşınan vaqondakı zülmətdəcə, kimin altında qalıb bakirəliyini itirdiyini unutduqları, üç-beş il əvvəl də Özbəkistandan bizim küçəyə köç eləmiş Nigar adlı koppuş, ağbəniz bir azyaşlı qı-zın arxasınca gedər.

Toran düşübmüş...

Xosrovu da küçədə yolüstündə qoyub və hökm dolu səslə tapşırar ki, qızın qardaşı Hüse-yin, ya böyük qardaşı Rəsul görünsə, dərhal fit versin. Əlhəzər! Əlhəzər!

Zira, qızın böyük qardaşı 10 il qazamatda yatıb, yenicə qayıdıbmış.

Hüseyin bu uğursuz təsadüfü görüb, Rəsu-la xəbərləsə sözsüz ki, ərəsati-məhşər yarana-caqdı. Məbada bu təsadüfdən!

Rafiqin də canında az yoxdu haa...

Məsələdən ilk agah olan Qazamat Bəylərin oğlu Siyasət çəp gözünün üstündəki qara qa-şını dik qaldırıb qazamat Rəsula yalmanmaq üçün fıs-fıs fısıldayar.

Bizim tin uşaqları da duyuq düşüb bir yerə topalaşar. Küçənin ilk ƘAЗБEK çəkənləri, anaşa xiridarı olan qara zurna, -Manya xalanın sözü olmasın ZIRNA, -çalan Məhəmmədin oğlu dəllək-klarnetçalan Savalanla süzgünbaxışlı Araz Xıdı-rov, dul Süzəndə xalanın oğlu, karbidlə dayaz Tərtərdə balıq tutan Əsgər, Köçəri dayının oğlu miyanə Qərib, əvvəllər adi yerişlə yeriyən, kişisi qazmata düşəndən sonra isə gecəsi gündüzünə üstün gələndə, halallığa haram qatan həşəmətli Bahar xalanın qorxmaz oğlu, çəpgöz Siyasət yı-ğışıb qurğu qurarlar ki, Xosrovu təkləyib, xurd-xəşil eləsinlər və baştutanlıq elədiyinə görə özü-nü batıranacan, o ki var döysünlər.

Xosrov hələ nə baş verdiyini heç düzəməlli anlamağa macal tapmamış, onlar yığışıb Xosu-nun üstünə gələndə və hərəsi bir tərəfdən ona söz atıb, artıq-əskik danışanda, qəflətən və hər kəsin təəccübünə rəğmən, vəziyyətin ekstremal hal aldığını hiss edən Xosu, qəlbini sərbəstcə, səssiz-səmirsiz üzən bu xoşagəlməz dərddən əndişələnib, dərhal vacib xəbəri tez çatdırmaq üçün əlhasil fit fıştırıqlayar və cani-dildən əlfə-cin, əlfəcın deyə-deyə, guya iz azdırar...

Elə bu dəm qardaşım Rafiq verilən fit sə-sinə əl-ayağa düşər və ələyi hansısa vaqonda ələnib, xəlbiri sulanmış Nigargilin nar bağından sıçrayıb yola tullanar.

Zinhara gəlmiş Xosrov lap kövrəlibmiş.

Məsələ Rafiqin çölə atlanmasıyla da bağ-lanar. Və çəpik qərar qəbul edib, müvəffəqiyyət qazanan Xosu əllərini belinə qoyub fors ataraq, əxlaqa müğayir hərəkətlərlə gərdiş edər.

Fövrən yanıq verirmiş!

Kürkünə birə düşmüş Xosu həm də işini bilər. Evlərindəcə bikef oturub, incə hıçqırıqlarla aerodrom "kefqasını" qabağına qoyar.

Canına vic-vicə düşsə də çox fikirləşib gö-tür-qoy edəndən sonra, sarsılmış və hiddətlən-miş Xosrov, öz gücünə inamla, qurd ürəyi yemiş kimi son qərarını şərəflə verər:

"Nər yükünü nər də çəkər. Kol-kos artdala-maqdansa, ərəsati-məhşər əvəjdadları gəlsə də komuna bir papış tikəjəm. Sərvəqt olun sərgər-dan gədələr. Başqa həyatın zəruriliyini də yaşa-malısınız. Özlərini qoç hesab edən sərsəmlər!"

Gözlərindən çarəsizlik yaşı axıdıb, föhşiy-yatla ürəyi bərk-bərk döyünürmüş...

Və fövrən atasının sürdüyü ВОЛГА markalı taksinin bir metr uzunluğu olan qırıq trosunu tapıb əlinə alaraq, bərayiehtiyyat havada çevrə-vari fırladaraq yelləyər.

Dar və isti otaqda trosun vıyıltısı Xosrovun özünü də ürəkləndirib yelləndirər.

Gözünə döndüyüm qulağını saza verib:

“Ölmək ölməkdi, xırıldamaq nə deməkdi ki, əə?”-öz özünə çılğıncasına çığırıb fövtlə götü-rülər uşaqların fövclə yığışdığı döngədə çömələb oturduqları tarixi tozlu tinə.

Və döngəmizdən güllə kimi çıxıb əlüstü də özünü yetirər bu vaxtacan paparasi üzü görmə-yən, qıvrıla-qıvrıla sürünən gürzəyəbənzər Şərq küçəsinə. Hardasınız qazdan ayıq müxbirlər?

Bu məhşər gününü işıqlandırmaq fürsətini bada verib, gərək heç əldən buraxmayaydınız.

Ürəyində də tez-tez deyirmiş:“Yaz yağışın-dan bəlli, qız qardaşından,” -özümü bircə dəfə göstərməsəm, elə bu tozlu döngədə ömrübillah başıqapazlı da qalacağam.

Stalinin bir УКАЗıyla əvəjdadı Gürcüstan-dan Özbəkistana deportasiya edilmiş mexseti türkü Rəsul, qardaşı Hüseyin Özbəkistandan da Azərbaycana qovulub indi də Bərdədə, lap elə bizim döngədə, burnumun ucundaca, qulağımın dibindəcə lotuluq eləsin, hamı da ondan it kimi qorxsun və doğmaca bacısı Nigar isə onu saya salmadan baxçalarının ayağında sıx nar ağac-larının arasında Rafiqlə minbir oyundan çıxsın qorxmasın, mən də ki bu küçədə doğulum, qor-xumdan da evdən çölə çıxmayım?

Nə olsun atam İrandan sovetlərdə süd gö-ləndə üzəcəyi ümidiylə tamahsılanıb gəlib?

Axı Stalin biryolluq sərhədləri bağladığına görə bütün aldanıb gələnlər sonra geriyə dönə bilmədi. Küllü məxluqat aldanmışdı.

Mən ki burada doğulmuşam?

Ona qalsa elə Rafiqin nənəsi, anası, dayısı da İrandan elə o ümidlə gəlməmişdilərmi? Hələ Fatma xalanın atası Sahib kişi Yevlaxda ev alıb arvad-uşağını yerləşdirəndən sonra qayıdıb ki, var-dövlətini də yığıb biryolluq gətirsin, УКАЗа düşməmişdimi? Ya ataları Əli dayı, 1949-cu ildə rusların apardığı növbəti siyasət və hərbi kö-məyi ilə baş tutan erməni genosidi nəticəsində, zorla yurd-yuvalarından çıxarılıb gəlməmişdilər-mi? Ata-analarının məzarında qəbirüstü sinə və baş daşlarını bu yaxınlarda, üstündən düz otuz il keçəndən sonra gedib düzəltdirməmişdilərmi?

Ya elə o biri qonşular, Zeynəb xala, Məh-bubə xalagil hamısı da əzəli azəri torpaqları olan İrəvan xanlıqlarından gəlməmişdilərmi?

Niyə hamı məni gözümçıxdıya salır?

Təkəm? Kiçik qardaşım kəkovdu, cılıızdı, arxam yoxdu, qəribəm? Küfran, ya küfr eləmi-şəm? Mən ki, bu küçə həyatı keçirən nəşəxor-lara, o küçə sənin bu küçə mənim sülənənlərə küçə mirzəliyi eləmişəm.

İndi mən küçə barrikadası qurmalıyam?

Kəsəbə olduğumuza görə?

Bu nə kəsəkəsdi belə? Ana-bacılarına kəc baxmışam? Ya kəf gəlmişəm, ya kəf getmişəm? Kəffarə verməliyəm, ay xanəxərablar?

Zəlzələdən sonra tamamən dağılan Bərdə-də yerli əhali barmaqla sananan sayda babılar deyildimi? Elə hamı gəlmədi dəə...

Canına od düşmüş Xosrov trosun bir ucu-nu əlinə dolayıb havada yelləyə-yelləyə, kəhil-tiylə nəfəs ala-ala vıy-vıy vıyıldada-vıyıldada, ya Kəbir Allah çağırıb düşər qohum-qardaşlı təpər-sizlərin canına. Qiyamət günüymüş sanki...

O gecə, qulaqlara qurğuşun qonşuda bərk səs-küy qalxdı. Yüyürüb pəncərədən baxdım.

Qonşu arvad-kişilər çırmanıb gəlmişdi.

Səs-küy...

Yerin də qulağı var.

Eşitdim, təcili nüsrət üçün Savalanı xəstə-xanaya aparıblar. Sonra qulağım çaldı ki, Arazı nəsə qan aparıb, Zeynəb xala üz-gözünü cırıb...

Kəlbəcərli Xıdırov Sabir, qonşuluqda fərdi mal-heyvanına çobanlıq eləyən, əjdaha cüssəli Hümbətin oğlu dingiş Qurbanın böyük bacısı, farmasevt Rəna və milsəner İsanın qızı, həmi-şəgülümsər ağ sifətinə xinalı xallar səpələnmiş həlim Ofeliya ola-ola, niyə mərkəzə nüsxəbənd ardınca qaçıb?

Bir sözlə, canım sizə desin qurd nağılı...

Yüyürüb özümü ürəyiyanmış, cana sinmiş yetirdim və: “Nə işdi?” -vəhməli soruşdum.

“Xosu uşaqları trosla qırıb-çatıb,” -dedilər.

İran kökənli Yusif kişi oğluna qulaqburması vermək əvəzində, ağarmış, susqun, qürurlu və dimbədik dayanmışdı. Forma məzmunun ifadə-sidir. O düzünü deməsə belə, ürəyində oğlunun igidliyinə açıqca sevinirdi.

İştüx ata!

Mütəhəyyir qalmış Manya xala səksəkəli, qulağı səsdə zərərçəkənlərə yaltaqlanır, hərəni bir cür yatımıyla, pişim-pişimlə sakitləşdirirdi.

Apparıq ana canı boğazına yığılmış halda olsa, canına vəlvələ düşsə də, nədənsə yaman da ürəkliydi. Biçiz arvadın bihudə yerə gözləri canlanmamışdı. O oğlunun timsalinda arxa, xoş gələcək tapdığına əmin idi...

Əsmərbəniz və gözü lupa eynəkli, haqladı-ğı 100 ilin ərməğanı olan “qurdlamış qulağı” kirli nənəsi,- yığılıb yumağa dönmüş Fatma arvad, heç kim ona əhəmiyyət verməsə də, əcəliylə əl-ləşən bu gün-sabahlıq qoca xəstə meymun kimi belibükük və yoğun zoğal çəliyinə ikiəlli söykək dayanıb, göyərmiş armud burnu dizində, eləcə üyüdüb tökür, hey ortalığa öyüd-nəsihət verirdi.

Danışsa da hərdən səsi çıxmır, ağzından güclə çıxan havayla nəsə basmaqəlib deyinirdi. Tez-tez də ki, uzun illərin ərməğanı olan bığı və tük basmış qırış sifətindəki iri burnunun altında işlək arı kimi vız-vız vızıldayır, hərdən də

əndə-rabi kal səslər çıxarırdı. Buydumu görəsən küllü məxluqatın can atdığı çox yaşamağın ləzzəti?

Pul-paraya sıxılmış vəziyyətdə olan əmisi Əyyub kişi arxasını qarğı çəpərə dirəyib Xosunu öldürəcəyiylə yalandan hədələyir və tez-tez də canın çıxsın deyib yüngülcə qulağından dartırdı.

Sonra da Xosunu aradan çıxartdılar.

Günəş ziyasına həsrət və aseton qoxuyan doğmaca rəngsaz dayısı Sabir, yanıq sifətində kəsif bir kölgə, xəsarət alanların qapısında pul-suz işləyəcəyini, onlara ən vacib zəruri şeyləri, məsələn: Qış üçün odun şələləri vəd edir, zira, qısaboylu cılız biçarə dayı özü soyuqdan zillət çəkərdi. Yel xəstəliyindən ümidsiz əziyyət çəkə-rək qış uzunu əsim-əsim əsən... və təbir caizsə əllərini hovurmaqla qızdıran talesiz dayı, indi də bacıoğlunun uğuruna qızınırdı.

Xosrovun özündən kiçik dörd ağ, quruluşu tənasüblü, ismətli, abır-həyalı, utancaq, səliqəli geyinmiş və amansız həyatın hələ sındırmağa macal tapmadığı, məsum baxışlı, bəxtəvər, şux, biçimi təndürüst bacıları vardı.

Canlarına qorxudan lərzə düşmüş bacılar, ürəklərindəki gizli sevincə rəğmən, məsələnin əsla böyüməməsi və gələcək sakitliyin bərqərarı naminə, xoruzlanıb bərk danışanın qabağına dərhal da, nəzakətlə gülümsünərək, hörmət və incə yarınmaqla pürrəng çay süzüb qoyurdular.

Qədimdən gələn mötəbər kübar ailələrinə əsla söykənməyən, arvad xəttiylə yalnız təsadüf nəticəsində

ötəri qazanılan kübar qohumlu və qunduş kimi zəhərli dili olan qonşu, ağsifət çil-çil Sərxan dayı, qaytan kimi nəmnazik dodaqlarını hərdən yalaya-yalaya cibindəki girdə və kövrək qurabiyələrdən ağzına ata-ata başından yekə danışırdı. Adi yeməkxanada işləsə də prokuror qaynının ədasıyla fısıldayır, özünü filosof kimi müdrik, siyasətçi kimi iddialı, uzaqgörən sayır, bəyzadələr qismində tez-tez alicənab zati-aliləri, möhtərəm və bu təki sözlərdən anaclanmaqla süni istifadə eləyirdi...

Ərgən qızlar iki oğlunu görüb çaşmasın!

Sonradan görənlərdən idilər. Ərənlik çat-mırdı zavallılarda...

Heyhat!

Həm də uşaqlıq yaşamayanlardan idilər...

Arxalı ağılsızlar!

Bütün ailə yükünü namusla, əl qabarıyla, cılız çiyinlərində zəhmətlə, alın təriylə daşıyan bəstəboy Süzəndə xala zərərçəkənlərin ən bərk gedənləri idi, utanmadan açıq qarğıyırdı:

“Anası mələr qalmışlar, atasız görüblər tək Əsgərimi? Manyasan kimsən, nəsən bil, bu iş müşkülat olacaq sizə. Anası vayına oturacaq...”

Sonra da yalan-gerçək bayılıb...

Avara-sərgərdan oğlu Qərib üçün, biryerdə otlayan qurdla-quzu kimi həlim Köçəri dayı, bir-iki dəfə bərkdən

höykürüb danışdı və məxləs keçmədiyini görəndə isə, elmli adamlar sayağı müdrikanə görkəmdə dayanıb, pafosla:

“Uşaqdılar,” -dedi,

Və arxasıyla da oğlunu əzişdirən oğlanın atası Yusif dayıdan papiros istədi.

Ara sakitləşəndə vəsaiti, pulu, kübarlığı və mülkədar kökəni olmasa da elit çevrəyə girmək ehtirası böyük olan, qazlı bağırsaqlarından heç vaxt qurquru əskik olmayan, dazbaş, uzundraz və xilqətində qorxaqlıq olan mədəniyyət Soltan anaxtarı əlində oynada-oynada şəpşəpidə gəldi.

Qoyun cildinə girmiş bu anac qurd, ədayla siqaret çəkə-çəkə, Zərdüşt peyğəmbərə isnad edərək müqəddəs Avesta kitabından nəsə bir dolaşıq misal işlədərək, ətlənmiş başına yüngül sığal çəkib fısıltıyla burnunun ucunda dedi:

“Cavandılar də, qansalar dalaşmazdılar...”

Xosunu görən oldum deyən olmadı.

Əmniyyəti qoruyan qonşu cüt milisionerlər, tutqun əhval-ruhiyyəli fağır İsayla mürtəd, iştük, özündənmüştəbeh Əkbərin milis düymələri qızıl kimi parlayır, baxanlarda həsəd oyadırdı.

Furaşkasını əlinə alıb tərli daz başını çirkli sarı cib dəsmalıyla siləndə, köhnə qurd Əkbər gözlərimdə fokslaşıb, bir az adiləşdi.

Qonşuda qadın öləndə qarıyıb dul qalmış qızların sevindikləri kimi, dava, qan olan yerdə ictimai asayişi

qoruyan qonşularımız, milisioner İsayla Əkbərin də çiçəyi çırtlayır, özlərinin necə böyük olduğunu mırt vura-vura gözə soxurdular.

Hamı sakitləşəndən sonra da, bir evdə iki arvad saxlayan, seyrək saçlı malxulyaçı, canı hələ sulu, avırtmacla bir sürü qız böyüdən əmək təlimi müəllimi, xarrat, daim mütəəllim və ələmli Əfqan müəllim, özünü barışıq xahişiylə xəbərə yetirdi: “Eşitdim ki, balacalar dalaşıb, balam axı Xosrov sakit uşaq idi, ondan çıxmaz iş...”

Çil-çil Sərxanın böyük qızbibicə oğlu, mızı Vaqif əynində moxer gödəkçə, milçəklənməklə dayanıb, tibb bacısı qonşu Ofeliyadan analginin xeyri, böyrək çatışmamazlığı və funksiyasından, qan təzyiqi yaradan səbəblərdən soruşurdu.

Mısmırıqlı zərərdidə, əyriqılça Bahar xala, şəhər hamamında kisəçəkən qıllı qara İbrahim kişi ilə şaqqalı ağ Əyyub dayını qısma-boğmaya salmaqla bahəm, iki iran kökənli arasında mır-mır mırıldamaqla, quyruq atır:

“Özünüzü arsızlığa qoymayın, ovsanadan çıxarmayın, arı yuvasına çöp soxmuyun, Bəylər bilsə ətinizi qıyma-qıyma doğrayacaq,” -deyirdi,

Elə bil arşın udmuşdu, nəsə şax dayansa da tez-tez vurnuxurdu.

Buratino Tariyel isə darmacalda mafar da vermədən mənimlə mübahisə eləyir, vurhəşir:

“Rəsulgil Özbəkistandan yox, sürgün edilib yaşadıqları Qırğızıstandan gəliblər. Özü də kiçik qardaşı miçurinçi Hüseyin o yerlərdən hələ özü ilə göyçək, gözəşirin, bəmbəyaz bir rus qızı da gətirib, adam baxanda məhbut olur...”

Nağıllardakı küpəgirən qarılar sayağı, yaşı 100-ü çoxdan adlayan, qurdla qiyamətə qalmış, həddən qalın lupa eynəkli Hüsnü nənə bütün ağırlığını üstünə saldığı və sanki çəliyinə dırma-şacaqmış halda, nəfəsi daralmış gəlib çıxdı.

Onu eşitmirlər kimi, titrəyişlə içindən zorla çıxan nəfəsi və əyri beliylə hey çığırsa da səsi çıxmayan qarının, qıyılmış və mövcudluğu artıq bilinməyən gözləriylə dediyi: “Kim ölüb a bala?” -sözlərini çox asan başa düşdük.

Yeddi yaş özündən kiçik, qulağının dibinə kimi saralmış ikiqat Fatma arvad balağı əlində stul gətirdi ki, hissiyatsız Hüsnü arvad otursun.

İkisi də yanaşı oturub donquldanırdılar:

“Hamımızın palçığı ki, bir yerdə yoğrulub, nütfəsi bir yerdən götürülüb. Səhd balı yemək əvəzinə bunlar niyə dalaşıblar görəsən? Nələri şərik düşüb? Kim kimi baltalayıb? Ölən kimdi?”

Birlikdə üst-üstə 10-12 tuman geyinərdilər.

Mədəniyyət Soltan əlamanda iki əlini iffətli, hərəkətdən düşmüş Fatma arvadın tük basmış kirri qulağına tutub həvəslə çığırırdı:

“Nəvən Xosrov hərçi bada bad döngənin hərcayı, latayır uşaqlarını bəs deyincə, özü də təkbaşına basıb döyüb! Gözün aydın, deyirəm xəbərin olsun, ay arvad!”

Fatma arvadın kirri qurdlamış qulağından Hüsnü nənənin tozlu qulağı daha tez çaldı:

“Zarafat eləməyin a gədə. Kim ölüb? Kimdi ifna edən? Qız üstədi? Kimin qızıdır?”

Fatma arvad da güclə başını qaldırıb, zorla fısıldayaraq havayla yüngülcə deyə bildi:

“Qoy təpitmə qoysunlar a bala...”

Baməzə, zorba, nataraz Nadir kişi incə bir yumorla, üzünü döyülən uşaqlara qahmar çıxıb gələnlərə sarı tutub, yerindəcə təpişdirdi:

“Ölənlərin hamısı çoxdan ölüb gedib, qara qarğayla ala bayquş kimi təkcə elə siz ikinizcə qalmısınız ay Hüsnü arvad...”

Hərə ehtimal yürüdərək bir zurna çalır, hər ağızdan bir avaz səslənirdi. Sanki ifrit Xosrovun əlaməti-fariqəsi yaddan çıxmışdı.

Vecsiz milisioner Əkbər tez-tez kişilənib:

“Ayy Hüsnü nənə, sən Allahın düzünü de, 1862-də doğulmusan? 1917-də ruslardan kimə qoşulmuşdun, çar qoşunlarına, bolşeviklərə, ya menşevik Denikinə?” - soruşurdu.

“Nə bilim a gədə, Çar yıxılmamışdı onda... Haayy? Stalin igid adam idi. Bakıda qazamatda yatanda eşidib getmişdim, buraxmadılar yanına. Canımda su da qalmayıb indi...”

Əyyub dayı, kisəçəkən qıllı İbrahim kişinin üzərində yenicə çaldığı zəfərdən aldığı ilhamla Bahar xalaya gözucu baxış atıb, gözbəgöz gizli bir göz də basıb, zarafata saldı:

“Nəyə getmişdin ay arvad, xeyir idimi?”

“Qəzəlləmə ha a bala, deyəsən qursağının altını babat bərkitmisən, nəyə gedəsiydim ədə, corab toxumuşdum ona, bığlarından da xoşum gəlirdi hələ. Quşqun bağlama haa a köpəyoğlu! Başına at təpib sənin, sən öləsən dərinə saman təpəllər haa! Xingal var? Bədənim ləmləşdi...”

Və sonra da, ədəbsizliklə müqayisədə bir neçə rabitəsiz sözlər işlədib arvadı huş apardı.

Bir əsrincə arxasını yerə mıxlayıb Fatma arvaddan düz 7 yaş böyük ola-ola Hüsnü nənə çox gümrah qalmışdı. Hələ də ibarə satırdı.

Düzü, 100 ili nə vaxt adladığını hərgiz özü dəqiq bilmirdi. Hərçənd cavan olmasa da, fəqət bu Nikolaydanqalma hərəm, qocalıb qoca qıza oxşayırdı. Yaman da ölmüş şirin idi.

Heç birinin ağzında diş deyilən şeydən də əsər-əlamət belə yox idi. Cadarlamış dilləri qan-sız damaqda daha rahat fırlanırdı. Cavanlıqda koppuş olan dodaqları da

göyərib büzüşmüşdü. Amma kənardan baxana hər ikisi ləzzət verirdi.

Hərdəm, hərə öz atını minib istədiyi səmtə çapır, tamaşada yekdillik, həmrəylik çatışmırdı.

Lal axan su kimi sakit Manya xala, sürüb qapılarına gəlmiş zərərçəkənlərin anaları:

1. Mənimlə arası kök və incə bağlılığı olan, baxyanı heç vaxt üzə vurmayan Zeynəb xalaya.

2. “Baxış verən” Bahar canıyanmışa.

3. Araba ilə dovşan tutan Səmaya xalaya.

4. Hər şeyə laqeyid Süzəndə xalaya.

5. Güdaza getmiş motilinin, uzun saçlarını boynunun arxasında hörükləyən anası Qərənfil müəlliməyə... Bəyimbacı, burdan oturma ordan otur, qəfədanda çay souyub, onu içmə bunu iç deməkdən, yazıq arvad heç yorulmaq bilmirdi.

Beləcə, o gecə iranlı xudbin Yusif qurumuş tısbağa çanağından götürüb dürmələdiyi lavaş loxmalarını ağzına basa-basa kişi-kişi dik gəzdi.

Ya rəbb! Hər naqolay pauzadan sonra da xoruz kimi özünü necə dartırdı!

Qonşu zərərçəkən və haraya gələnlər iki-bir, üç-bir dağılışan kimi, quru, ac bəy tamamilə yanlış təsəvvür və qəribə həyasızlıqla, öz səthi mülahizələrini çox uyğun, kifayət qədər dəyərli sayaraq, hərçənd ki, özünün işlətdiyi

günahları lehmədə zığ, lığ, batdaq kimi palçıq olub, dizinə və bəzən də lap xirtdəyinə, ağzınacan çıxırdı:

“Uşağın heysiyyatına dəyənin İranda dilini dartıb boğazından çıxarırlar. Gərək ki, elə hərçi hərcayı vardı, hamısının da hülqumlarını tutub, gərək dibindən sərçə boğazı kimi üzəydi!”-dedi.

Üfürsən yıxılacaq dayısı da əlüstü diləndi: ”Kəfənləri üçün hümayun ağları məndə...”

Gecə yarıdan keçmiş, ətrafa qəhrəmananə baxan cəsur Xosu ortaya çıxdı və o gündən də çönüb oldu Xosrov Yusifoviç Mamedov.

Mənim üçün təbir caizsə, sadəcə XOSYA!

Gözüqıpıqlığa, gözümçıxdılığa, qapazaltılı-lığa, qorxudan göz çıppıldatmağa o gecə əlvida elədi igid, qəhrəman Xosrov.

Hərki-hərkiliyə son qoydu!

Baciları o mücəssəm gecədən: Sərdarım!- deyib, gözmuncuğu asdılar yamaqlı köynəyinə.

Qapılarındakı ala küçük dal ayaqlarını növ-bəylə qaldırıb, ona-buna hürməsə də cır zingilti səsiylə hərdən küyə gedərək qıcanırdı.

Xoruzları da başını arxaya dartıb, sinəsini nümayişkaranə qabağa verərək göz deşir, zira, hərdən bərk banlayır, baş aparır... bir qənədini hikkəylə, qılıncına çətir kimi çəkib yerlə sürüyür, yad gəlmələrə meydan

oxuyur, döyüş üçün sino getdiyini, sahibi kimi qorxmaz olduğunu və bir himə bənd fərə arzusuyla yer eşirdi.

Qapazaltılıqdan o gecə çıxdı Xosrov.

Əmisi Əyyub qürurla:

“İnşaallah bir gün obabaşı da olar.”-dedi.

Gur-gur guruldayan, indi isə artıq əndişəli, ürəkləri guphagupla döyünən, başlarını qınına çəkərək, iflasa uğramışlar:

“Sonsuz” və azman valideyinləri tərəfindən hələ bələkdəykən götürülüb saxlanan, cin atına minəndə çır-çır çığırıb ögey ata-anasına küçə söyüşləri yağdıran, ağ yanağında əllinci illərdə doğulan bərdəlilərin “emblemi” olan iri yumru “il yarası” damğası gəzdirən, öz kefinin qulu olan, bərdəli Bebişin rəhbərliyi altında hoqqalanan və zira, bunun təsirindən xır-xır xırıldayan Xıdırov Araz Xıdır oğlu... Kübarlığa söykənməyən ciddi, mədəni, qırmızıyanaq dərzi Həmidin, çox oxusa da “dana” başına heç nə batmayan oğlu motili Zakir... Alkoqol əri sarıdan çox cəfalar çəkmiş, təpədən dırnağacan qayğılı, gözütox Süzəndə xalanın oğlu kəcpapaq gözüac Əsgər...

Və gur saçı Səməd Vurğun sayağı dalğalı, özünü papiros çəkməkdə ona oxşadıb, iri, qara, koppuş əlində xeyli tüstülədən Köçəri dayının oğlu, mürdəşir niyyətli Qərib pis gündəydilər.

Hələ düt deyincə nəşələnib vaxtsız, cavan, faciəli və subay ölənlərin dəfn mərasimlərində kütlənin və qara, yaşıl, bəzən də al qırmızı ipək atlaza bürünmüş tabutun

önündə qəbristanlığa kimi arıq və uzun canıyla klarnetdə yanıqlı hava üfürən dəllək Savalan... Bu vaxt sanki, insanın ruhu dincəlir, muğam üstündə köklənib, sonsuz kainatda ölənin ruhuyla təmasda olursan. Adam bu anlarda nisbi təskinlik də tapır, bəzən də lap mübağiləsiz onlarla ölmək istəyir.

Anasıölmüşlərin baş gözü bintlə sarınmış yaralarından çıxan qan ağ cunanı qızartmışdı...

Məxləs, bu bəzzadların əlindən asılılıq və mərhumiyyətlər yaşayan, boz sərçəli, muymullu tozlu küçəmizdə məhzun baxışlı Xosya, o gecə şərəflə özünə müstəqillik tarixi yaza bildı...

Davanın ertəsi gün isə həmişə olduğu kimi yerli sovetlərə deputat seçilən Şirxan dayı gəlib çay içən kimi, dəftər çıxarar və işin xeyrinə akt bağlamaq təşəbbüsündə bulunar.

Və hərbə-zorba gəlməyin sovet dövründə qəti mümkünsüzlüyünü misal da çəkər.

Hərçi, qurunun oduna hərdən höyüş yansa da hərbələməyə də indi СТАТЬЯ var.

Sonda birtəhər minnət-sünnət, qılıq, pişim-pişimlə Xosyayla, çağrılanda təpəsi üstə gələn cılız, qasırğa Tahirin bacısı Zöhrə müəllimənin “üstündə” ələ keçən Zöhrab kimi, köhnə üçtəkər motorelsürən qara ənizə dayısı vaxtıyla dəcəlliyi ucbatından taxtapuşdan РЕСКИ düşüb, yenicə qalanmış çırthaçırtla yanan təndirə tullananda təpədən-dırnağa qədər cızhacızla yanan, indisə şüa xəstəliyi tapmış rəngsaz, şulum, ufu Sabir, birləşib incə

fənd quraraq, güclə şuris salmaq istəyən Şirxanı tovlayıb başını əkə bilərlər.

Və oxucuya burda əyan edim ki, Xosrovu da o gecə xəlvətdə... tacdar olub, taxt-tac, taxt-rəvan görməsək də, təmtəraqlı yaşamaq vərdiş-li, müqəddaratımı qonşu qıza, sinif yoldaşım, tə- kəbbürlü Xuramana bağlayıb talib olsam belə, başı taqqanaqlı talaqsız növcavan olan elə mən özüm gizlətmişdim. Fürsətdən faydalanır, haqqlı dostumu müdafiə edirdim.

Çevrəmizdə yaşayanların arasında valide-yinlərim kifayət qədər zəngin idi. Belə ki, atam uzun müddət Dağlıq və aran Qarabağ, bir ucu Kirovabad, Əli Bayramlı, Nuxa və düz Şamaxı-yadək uzanan rayonlararası taxta-şalban zavo-dunun direktoru vəzifəsində işləyirdi.

Qəflətən ağlıma gəldi və fövrən qışqırdım:

-Xosrova ad qoyuram: Qorxmaz Kaşşey!

Əlüstü diksinib hamı birdən açıldı:

-Ooo!!!

Bax beləcə!

Bu da sizə bicəngə Xosunun mübağiləsiz, möhtəşəm tros əməliyyatı.

Huş-cuşla qulaq asan əsgərlərimiz qalxıb dağılışanda hamısı qorxmaz Kaşşeyin igidliyinə rəğmən hərbi xidmətdən sonra Bərdəyə gələrək şəxsən onunla tanış olacaqlarına və hətta onu Samxora, Kəlbəcərə,

Kirovabada, Ağcabədiyə Laçına qonaq aparacaqlarına söz verdilər.

Dağılışıb kazarmaya getdik.

Obaşdan durmaq da var axı...

Yeni doğan günəşin qızılı şəfəqləri altında çimərlikdə basdırdığım qantellərlə səhər idmanı edərək, xeyli də üzüb, dənizdə martı quşu kimi qayğısız yuyunandan sonra, çox gümrah kazar-maya dönəndə, yeni əsgər günü doğulurdu.

Batalis rəssam yeriydi...

Politzaniyatiyadan sonra əlüstü ağcabədili pəltək Nazim zampolit Boykonu yanlayıb taktik keyfiyyət və incə maraqla soruşdu:

-Babayevlə məni sabah obaşdan, düz saat 06:00-dan şəhəyə buyax, ТОЛКУЧКАdan zəyuyi bəzi şeyləy almaq istəyiyik dəə, tezliklə demblə gediyik axı, nə deyiysiz ay ТОВАЙИШ komandiy? Sizinki də çatacaq, biyinci dəfə deyil ki? Stayikə nəzakətlə höymət qoymaq olaymı? Molodoyluq Peyvomayskidə qalıb, bizə oydan papaq eləyiy.

Boyko göz basıb, baş barmağını uzun orta barmağına havada sürtüb irişə-irişə:

- Məsələ belədirsə, ora çox basabas olur, lütfən gözləyin cibinizdə mənə də bir şey qalsın. Yoxsa orada qayğınıza qalan daha çox olacaq. Xüsusi ilə də hava isti olsa. Hər cümləmi ayrıca düşünün. Kələkbaz, ədəbsiz, başabəla, fırıldaq, anasının əmcəyini kəsənlərlə ora doludur.

Şirniklərdirmək, tamahlandırmaq niyyətiylə söhbətə birbaşa müdaxilə elədim:

-Nəzakətsizlik olsa da, qorxmağa lüzum da yoxdur, biz özümüz də heçaz aşın duzu deyilik. Sizin payınız da ki, САМА СОБОЙ, artıqlaması ilə olacaq. Kim itirəcək yoldaş komandir?

Razılaşdıq.

Qəhrəman Odessanın lap qurtaracağında, yanları kubiklə hörülmüş hektarla boş sahədə, təşkil olunmuş ərazidəki talkuçka deyilən geniş meydanda nə desən tapılardı.

Bütün SSRİ ərazisinə xas olan sıx basırıq, növbə, Bakıdakı aeroport, hər üç vağzal və av-tobus, qatar, gəmilərdə, və ya metro, troleybus, tramvay, ya da ki, mal və kolxoz bazarlarında, demək olar bütün dayanacaqlarda, kino-teatrın kassaları qarşısındakı kimi, əsla orada da ayaq basmağa yer olmazdı.

Mərkəzi və Bakı univermaqlarında, Neftçi, Dinamo Kirovabad futbol oynayanda stadion və ətraflarında da belə vurçatlasın yaşanardı.

Millət bir-birinin belindəydi.

Basabas, həddən artıq tünlük olardı. Açıq havada göz işlədikcə uzanan insanların əlindən tərpənmək olmazdı. Sıxlıq o qədər çox olardı ki, cibgirlərin çiçəyi çırtlayar, tutduqları əmələn üstü dərhal açılmasa, sonra demək olar mümkünsüz olardı.Onlarla çantası talanmış,

cibi lezvayla kə-silmiş mağmunların fəryad qopararaq ağlaşma qurub ulaşmasına hər addımbaşı rast gəlinərdi.

Çi fayda?

Hərçənd demblə də hazırlaşmaq lazım idi.

Əlhəmdullah, nə qalıb ki?

ВОРОТНИЧОК üçün yaxşı ağ parça tapmaq lazım idi. General sapoqu, əsgər kokardları, əla şinel, paqon, qış papağı da tapsaq pis olmazdı.

Yazı üslubunun xüsusiyyətlərinə və yuxulu ətri hopmuş məktəbli dəftərinin qoxusuna, dəst-xəttinə, zərif zərf seçiminə yaxşı bələd olduğum Komsomoldan, şıltaq Yitkadan və Svetadan da bu gün məktub gözləyirəm, görək...

Nazıyla institutda yemək yeməyə getdik.

Yeməkxana bağlı oldu.

Xeyli gözləməliydik. Odur ki, oturub əl-üz yuyulan yerə uvanik deyən Nazının dilindən Ta-hir Ağayevə məktub yazdım. Nazim özü üzünü köçürüb yola salacaq.

Kazarmaya qayıdanda, boz təsbeh çevirə-çevirə, daim çaxmaqla alışdırıb yandırdığı süz-gəcsiz КАЗБЕК papirosunu qocalar kimi sümürən ağdamlı Balaca Mamedov əlüstü, üstümüzə şax şığıyaraq üzünü turşutmuş və bir acımtraqlıqla, dimdik-dimdiyə dayandı:

-Babayev sənin briqadanı Pervomayskiyə qaytarırlar. Baş leytenant İvan Kuzmiçenko sizi aparmağa gəlib! Uşaqlar artıq yığışır...

Elə bil ki, açılan snayper gülləsi ürəyimdən keçdi. Bircə bu qalmışdı! Qəlbimə fövrən də, o naxçıvanlı müəllimin tez-tez işlətdiyi söz düşdü: Süngü üzərində qurulan dövlət!

Nazı onun zarafat elədiyini zənn edib:

-Hop elə hoppan əəə, -dedi.

Amma düşmən onun sözlərinə əhəmiyyət vermədən, gözlərini zilləyib düz üzümə baxırdı.

Övkən çatlasın gədə!

Keçi qəzeliylə yandırdıqları, nazik, yumru, əyri dirsəkli soba yaxşı çəkmədiyindən bələkdə bir balaca havasızlıq çəkmiş Balaca Mamedov məni gözü götürməyənlərdən idi.

Şəlləkdə, biçənək içində böyüyən, kənddə məhlə kinosuna baxmaqla cavanlıq keçirib, indi də stroybatda eşşək kimi beton daşıyıb, təsbeh çevirən, mərc əvəzinə "uspora" deyən oğlan!

Kəndçi balası olduğundan, Çingiz xan kimi qəlbində şəhərlilərə nifrət edən bir köçəri ruhu yaşayırdı.

Sanki sarkazmla məni sındırmağa hümmət eləyirdi. Hərçənd özümü sındırmadan:

-Nə yaxşı?- kəskin gülüşlə cavab verdim.

Təəccüb dolu çox acı kinayəylə, qu quşu oxyanda çıxartdığı səs kimi, xırıldayıb:

-Sevinirsən? -ikiqat heyrətlə soruşdu.

Ona cavab vermədən, misri qılınc kimi sərt sıyrılıb, düz dəftərxanaya sarı götürüldüm.

Məni gözləyirmiş, fəhmsiz zəkasızlar.

Siyahıda 18 əsgərin adı var idi.

Artıq inad eləyib qalmaq, işıqla vuruşmaq kimi, mücərrəd bir şey idi.

Bu axşam Pervomayskiyə çıxırıq.

Deputataoxşar İvan Kuzmiçenko komandir otdeleniya kimi siyahını mənə təqdim elədi.

Nədənsə, siyahıya dördgöz baxdım.

Öz briqadamın starik azərbaycanlı və rus əsgərlərinə, hələ molodoy, şulux sibir uşaqlarını da əlavə eləmişdilər: Maarif, Ramiz, Rufullayev, qara Zakir, Şeydayev Zakir və Hacıyev.

Bəli, mənfi 50 dərəcədə də marojna yeyən əclaflar, məhz müsbət 50 dərəcədə qaynar cay içən dəcəlləri seçmişdilər!

Sözləri, qeyrətləri, cəsarətləri olanlar geri, zəlalət çəkdiyimiz Pervomayskiyə qayıdırdı!

Əlhəzər ordan!

Nədənsə bu an, fəhmlə mənə elə gəldi ki, Bərdənin Mirzəalıbəyli kəndində nemes qovur, biz qaçırıq. Qıvrımsaç kürən zemelya Şükür də toz-duman qaldırıb cövlan edir və kənd yoluyla motosklet sürə-sürə həqarətlə bizə baxıb gülür.

Tez-tez də it kimi hırıldayır, gah da ağlayır.

Xatırlama yüngül olsa da yükü ağır idi.

Deməli bu axşam gedirik?

Odessaya əlvida? Qara dənizlə qurtardıq?

Yitka gedəndən... Dənizdə cəmi bircə dəfə çimə bilmişdim. Onda da dəniz məni bərk sıxdı. Dəniz elə bil köçmüşdü, qərib idi çimərlik.

Soyuq idi hava da o gün.

Tənhaydım özüm də.

Biz insanlar zəfəryab olanda başa düşmür, ya da ki qədrini bilmirik. İki qütbə ayrılanda isə vay həşir qoparır, içimizdə zəqqum çeynəyirik.

Nəsə...

İlahi bənövşəgözlü, al qırmızı itburnu giləsi kimi dodaqları olan, isti Katerina bu xəbəri bilsə necə dözəcək? Dəhşət deyildimi?

Katya ölümə bərabər bu müdhiş xəbərə, bir partada oturduğumuz o yosma qız, şüuraltı hafizəmdə şala bürünüklü halda qalmış Adilə kimi titrək səslə, son söz, görəsən nə deyəcək?

Yoxsa zəlzələmi qoparacaq?

Heyhat...

Hələ bu erməni kökənli də, 18 yaşlı işvəkar gəlinin ayağı heç mənə düşmədi.

Zira, o sifətitökülmüş ləçərlə təsəlliverəcək dovşantoyu, necə deyərlər zifaf gecəsi keçirib, tərrəməylə sonunclanan siftə də eləyə bilmədik.

Çaşıb qalmışdım.

Qəlbimdə çulğaşan qara bulud bərk tufan qopacağından xəbər verirdi.

Amma, başqa variant da yoxuydu.

Bulaq başına suzuz aparıb, susuz da geri qaytara biləcəyim baş leytenanta nə deyəydim?

Sovet hərbi qanuna qarşı hansı əsgər asi çıxa bilərdi? Hərbi hissə komandirinin əmriydi.

Nazı mənə baxıb, qəfil pendir motalı kimi yırğalandı və qəflətən hönkürdü.

Göz bulağı necə qaynadı...

Hələ şokda idim...

Buxarapapaq zilxan Yaqub Məmmədovun həmyerlisi ağcabədili Nazı və sazda zil pərdədə zilə çəkən kəlbəcərli vaynösə Sahibdən başqa, elə də ciddi narahat olan yoxuydu.

Bəli, Sahib mənim kimi getməyin fərqində idi. Görünür onun da öz Katyası var...

Vecsiz, cılız mayıf Mamed sakitcə mənə iki ədəd Bərdə möhürlü zərf gətirdi.

Keysu Zeynəbdən və qasırğa Tahirdən idi.

Cəld türrə Zeynəbin məktubunu açdım:

Böyük tənəffüsdə, məktəbin ikinci qatının dəhlizində Komsomolla görüşüblər.

Komsomol da gülə-gülə ona deyib:

“Ona de ki, atdığı güllə patronunu hədiyyə göndərsin, taa bel sapı, mala yox...”

Mat qaldım. Yəni doğrudanmı onun dili be- lə açılıb? Sevincimdən bilmədim nə edəm.

Artıq, bu sözlər məni şokdan çıxartmışdı.

Komsomol, necə deyərlər, mənim gələcək qocalıq dövrümün imtiyazıdır. Hicri qəməri ərəb təqviminin zilqədə, ən uzağı isə zilhiccə ayının əvvəllərinə kimi, şübhəsiz hərbi xidməti şərəflə bitirəcək, alnıaçıq-üzüağ, öz doğma Bərdəmizə qayıdıb, onu duvaq altında oturdacağam.

Allah kərimdir!

Qasırğanın zərfini açmadım.

Nazimi qucaqlayaraq xeyli ovundurdum və birlikdə camadar Dusyagilə getdik. Bütün mülki paltarlarımı səliqəylə çamadanlara qavqardım.

Bir dəst də Nazı üçün saxladım.

Hər iki çamadanın kəmərlərini çəkib ağzını açarla bağlayandan sonra, Dusyayla bərk-bərk qucaqlaşıb, əminliklə tapşırdım:

-İkicə aylığa bu çamadanları sənə əmanət verirəm. Bunları qoru. Hörmətindən çıxaram.

O məni nəm sinəsində təkrar qucaqladı:

-Rahat get! Nə qalıb? Hərbi xidməti iki aya bitirirsən. Heç kəsə vermərəm, arxayın ol...

Düzü, Nazıyla hər ikimiz lap doluxsunduq. Ayrılıq hər kəsdə inam, sədaqət, ədalət yaradır. Qarımış dul Dusya hamıdan etibarlı çıxmışdı!

Bəs Yitkadan məktub gəlsə necə olacaq?

Dərhal bu məsələ məni üşəndirdi.

“Bəlkə, çex Yitkanın canlı xatirəsi olan əziz Anya xalagilə qoyaydım çamadanları? O da çox etibarlı qadın idi,” -beynimdən keçdi.

Hərçənd artıq gec idi...

Ayıb olardı!

Nənəmin sözü olmasın, boxçamı qavqarıb yamanca rahatlaşmışdım.

Taxtanı rəndə hamarlar, bəndəni bəndə.

Kazarmadakı taxçamda olanları səliqəylə üçüncü, dördüncü çamadanlara yığdım.

Gündəliklər, fotoşəkillər, məktublar, əsgər formalarım, qış şineli, iki iri çamadan da bunlar elədi. Ən zəruri kitabları da özümlə götürdüm.

Tarçalan tarın simini qoruduğu kimi, mən də hərdəm gündəlik və fotoşəkilləri göz bəbəyi kimi qoruyurdum. Onlar mənim duyğularım idi...

Bu gün sən demə son günüymüş!

Əclaf Boyko bizdən gizlədirmiş.

Talkuçka, general sapoqu bizə düşmədi.

Ağcabədili Nazim Əsədov, zəhəndə Sahib Əkbərov və laçınlı, təpərsiz Mürşüdlə son dəfə şəhər hamamxanasında çimdik...

Çarpayıları, ortası bərk-bərk çəkilib, nazik kəndirlə sarınmış matrasları və çamadanları da şəllənib yük maşınına yüklədik.

Yenə yefreytor İlyas Mamedovu gəldiyimiz vaxtda olduğu kimi, yükün üstündə göndərirdik. Yenə maşının arxasıyla alminium camlarda su atıldı. Doluxsunmuş gözlərdə ilişib qalan iri yaş gilələri... Yenə qüssəli köç...

Özümüz parad formasında qaldıq.

Sıravi əsgər, kəlbəcərli vaynösə Əkbərovla hər ikimiz vurğuladığım kimi ən çox peşmançılıq çəkənlər idik. Çırtma vursan ağlayardıq.

Sahibin çox qapalı, bərk qorxaq, bədəncə zəif və kinli təbiəti olduğundan, bir dam altında yaşasaq da heç cürə davranışının səmimiliyinə inanmaq olmurdu. Qəlbindəki gizlinləri heç kəsə açmazdı. Aşıq havasına köklüydü.

Bəlkə də kor-koranə davranırdı...

Amma məni səmimi olmamağa heç kəs və heç nə meyilləndirə bilməzdi. Məhz bizim dost ola biləçəyimizin qarşısı da, səmimi, gözəl ifadə eləsək elə buradan əngəllənirdi.

Həm də o, savadsız olmasına baxmayaraq öz üzərində çalışmırdı. Rusların yanında, böyük vəzifə sahibi olanımız var deyirmiş.

Ad da çəkib: Əliş Ləmbəranski!

Tağım komandiri Kaşşeyev də bu xəbəri mənə nədənsə gizli demişdi. Görünür bərk-bərk tapşırıbmış ki, azərbaycanlı əsgərlər bilməsin.

Düşünürdüm, ola bilər o Pervomayskidəki işlərin ağır olacağını irəlicədən dərk etdiyindən dərd də çəkə bilərdi. O xaraktercə zəif adam idi.

Hərçi ortada çılpaq bir həqiqət fırlanır, zira, hər ikimiz Odessada qalmağımıza qərarlı olmaq istəyindəydik, gərçi nə fayda?

Həm də neyləyək axı, bizim taleyimizi həll etmək imkanı əfsus ki, başqasına verilib. Sevinc qaynaqlarına sahib olmaq üçün, gərək vaxtında sözünün siqləti olan gümüşüpapaqlı bir generalı öz torumuza cəzb edə biləydik.

İndi daha nə hacət?

İlahi, bütün bunlar dəhşətdir!

Hələ yaxşı ki, Yitka yox idi, getmişdi...

Sonda, yenə əlacsız ümidlə düşünürdüm: “Nifrətimlə damğalanmış donuzməməli Toma və qəhbə Valyayla, gəlinlərinin və bəlkə mənim də acığıma, pəhləvan cüssəli oğlanla yanları açıq eyvanda nümayişkaranə öpüşən ağ şalvarlı ağ Lida kimilərlə,kirovabadlı Natiq Mamışevin sözü olmasın əyan, cında ilə nə yaxşı, faciəvi sonluq yaşamamış, vaxtında qurtarmışam.”

Amma onları qaralaya, ya ifşa etməyə, bir sözlə, əclaf hərəkətə yol verməyə də məni heç kim sövq edə bilməzdi.

Valyanın qonşusundakı o qızı Yitka mənə tamam unutdurmuşdu. İndicə onu xatırladım.

O, qəlbimin ağrılarından, ülvi arzularımdan olan qız da, bir mələk idi!

Görünür, öz seçimim olmayan cavan gəlin, qucağı körpəli, erməni kökənli, gerçək sevgiyə əsaslanmasa da xoş düşüncələr oyadan şipşirin Natella kimi, ixtyar qocalar olan Dmitri dayı ilə Olesya xalanın yetişmiş, gülməxmər donlu qızı, gerçəkləşməyəcək arzum, o mələk qızcığaz da fəqət mənə qismət deyilmiş.

Neyləmək olar?

Bircə qalırdı zavallı Katya məsələsi!

Katerina məndən uşaq gözləyirdi! O hesab edirdi ki, ilin sonuna kimi hələ mən buradayam.

Heyhat, yaxşı deyiblər: “Sən saydığını say, gör hələ bir fələk nə sayır.”

Komsomolumun sərraflıqla işlətdiyi o sözü, yumorqarışıq zarafatı hər yadıma düşdükcə bir az səbrim genələrdi: “De mənə əsgərlikdən güllə patronu hədiyyə göndərsin, taa bel sapı, mala yox...” Gözəl ifadə eləyə bilib.

Halal, gerçək sevgiyə əsaslanıb, diqqəti bir adamın üstündə cəmləyəndə xoşhal düşüncələr oyanar və hər söz, bax beləcə sərrast alınar.

Artıq ifadəedilməz utancla bənövşəgözlüm Katyanı xatırlamağa başlamışdım.

Katerinayla təcili görüşməliyəm.

Zira, yazıq dəli olardı!

Yavaş-yavaş bu cür xatırlamalar içərisində sıxılmağa başladım...

Hətta gözlərimin önündə canlandı ki, ötəri xırda romantik hisslərlə yaşanan ərgən qız-gəlin cəfəngiyyatından məcburi qopmağıma rəğmən Komsomol sidq ürəkdən, açıq-aşkar təntənəylə sevinir və hətta bədirlənmiş ay altında dayanıb, bütün məktəbli görkəmiylə qarşımda, özü sussa da, eşq alovunda yanan gözləriylə bunu mənə çatdırır... Mübhəm də gülümsəyir...

Hətta çaşıb... hərbi qənimətdir əzizim, heç də fikir vermə, sənlə çox munisəm, -deyirəm.

Qara Maarif, əndirabadi hampa dayısı olan Mürşüd və uşaqkən Kəlbəcərdə Qantemir adına baxçaya getmiş hay-küyçü Sahib Əkbərovla elə parad formada hərbi hissənin taxta hasarından asfalt yola çıxdıq. Nazı da xebedə bizə qoşuldu.

Zampolit, yaşıl gözlü pulgir Boykoyla, artıq indidən bizə qeyri-münasib adam sayılan baş leytenant İvan Kuzmiçenko bizi görsə də, daha bir söz demədilər. Nə desinlər axı?

Bir azdan Odessanı tərk edəcəyik...

Qızıl qapaq dişli şamxorlu, daima ibliz kimi öz qabınaca yığışmış olan üzüpirişikli Vahid isə, indi nədənsə yaman açılmışdı.

Yola kolbasa, balıq konservi, silotka balıq, çörək, duz və pivə aldıq. Elə ayaqüstü də pivə-xanada son dəfə pivələdik.

Az qalırdı ağlayam...

Pivə məni yaman duyğulandırmışdı.

Son dəfə Lenin parkına getdik.

Bu parkın bütün ağacları, kol-kosu və gül-çiçəkləri, taxta oturacaqlarına kimi hər şey, hər şey... mənə çex Yitka ilə yaşadığım, elegiyayla dolu poemamın şahidləriydi.

Ayrılıq çox çətindir!

Amma həyat da həyatdır. Öz qanunlarıyla bəzən insanları güldürür, bəzən düşündürür və bəzən də hönkür-hönkür ağladır.

Pervomayskidə günümüz qara olacaq!

Yitkanın məktubu və Katerina yaralı yerim idi. Nazimə tapşırdım ki, Katyayla danışacam, məktub gəlsə sənə etibar edib versin. Sən də mənə göndərərsən.

-Biydən heç məktub yazmadı?

-Yox! - hövllə qışqırdım.

Onun səksəkəli halda, isti yataqda başına əndərilən buzlu soyuq su kimi, qəfil heyrətlənib diksindiyini görəndə isə bir az yumşalıb:

-Allah eləməsin ay səfeh, inşallah hər şey yaxşı olar deyib, özümü ürəkləndirdim.

Tora düşən səbr eləməsə, özünü fəlakətə salar. İndi iki əsas məsələ qalırdı: Axar su kimi bulanmaz Katerina və Anya xalayla vidalaşmaq!

Erməni kökənli Natayla da çox təəssüflə xüdahafizləşmək olardı, ancaq o daha elə də bir əhəmiyyət kəsb eləmirdi.

Pervomayskinin qurd ulartısı yaşanan sərt qışına düşəcək, Qəhrəman Odessanın mülayim havasından və Katerinanın isti ağuşundan çıxıb şamxor ermənisi Oqanesyanla zəhər dağarcığı olan əyalət qadınları axtaracaqdıq, hə?

Qadınlarla yatmaq artıq tiryək kimi bir şey olub mənə. Xəyanət xəyanət ardınca eləyirəm. Bircə ümidim var: Bütün bunlar hərbi xidmətlə başlayıb və hərbi xidmətlə də sona yetəcək...

Qasırğa Tahirə, axıska Süleymana, Cekə, buratino Tariyelə və Zeynəbə sonuncu olaraq, Odessadan tələmtələsik kövrək məktublar yazıb yeni Pervomayski ünvanımı bildirdim...

Necə oldusa, indi də gözlərim önünə əvvəl birbaşa Odessa-Bakı və sonra da Bakı-Moskva-Praqa reyslərinin yazıldığı monitor gəldi.

Hətta, qulaqlarımda qalxıb-enən yaraşıqlı, nəhəng təyyarələrin uğultusu da səsləndi.

Səki sabah talkuçkaya gedəcəkdik...

Şəhərdə sonuncu dəfə fırlanıb kazarmaya döndük. Katerinayla görüşməyə hələ də cəsarət eləyə bilmirdim. Axı onu hansı dilətutmalarla, ya necə ovundurmaq olardı?

Qarnındakı körpə mənim idi!

Görüşməsəm də olmazdı. Əlimlə cibimdəki son yüzlüyü xışıldadıb düşünürdüm:

“Bu pulu demblə xərcləməkdən vaz keçim. Və sonuncu əskinazı hökmən Katerinaya verim, o uşaq doğanda lazımı olacaq...”

Qismət beləymiş, neyləmək olar?

Çox arzulardım getməyəm.

Zira, Katerinanı indidən tənha buraxmaq, o doğulacaq körpə üçün təsirsiz ötüşməyəcəkdi.

Anya xalagilə gəldim. Zəngi basan kimi ev xalatında qapını özü açdı.

Məsələni öyrənəndə, çox təmkinlə və tükü belə tərpənmədən məni yumşaq sinəsinə sıxıb:

-Məktub yazarsan, -dedi.

Kədərlə odunluq taxta-tuxtaların yerini ona bildirib, təfsilatı ilə də başa saldım ki, Əsədovla əlaqə saxlasın. Nə vaxt, nə qədər lazım olsa o təşkil edəcək. Korluq çəkməzsiniz...

Yenidən məni qucaqladı. Bu dəfə daha isti, daha mehriban. Nədənsə bu an mənə elə gəldi ki, ondan doğmalıq ətri gəldi.

Və ailə dostları olan çex qızlarla mənə heç bir ögey-doğmalıq qoymadan ünvanı müfəssəl xatırlatdı, hətta dönə-dönə ucadan təkrar etdi:

-Tenistaya 13, kv. 4, Siderova Anya.

-Hərbi xidməti də başa vuran kimi, Yitkagili ailəliklə Bakıya qonaq çağıracam, onda sizə də zəng vursam gələ bilərsiniz? -soruşdum.

O, gülə-gülə razılığını bildirdi.

Çox mehriban da görüşüb ayrıldıq.

Heyf ki, heyf ki, Anya xala oktyabrın 25-də Praqaya gedəndə Odessada olmayacağam.

Zira ondan çex Yitkaya hədiyyə və məktub göndərə bilərdim, əlbəəl çatdırardı.

Əlqərəz, vaxt artıq daralırdı.

Katerinayla dram yaşamalıydıq.

Odur ki, cəld özümü toparlayıb, sonuncu dəfə Arkadiya mehmanxanasına yollandım.

Birinci mərtəbəyə girib sol tərəfdə yerləşən ПОЧТ şöbəsinə burulanda... həyəcandan ürəyim yarpaq kimi titrəyirdi.

İlahi!

O öz qayğılarıyla adi iş gününü yaşayır və baş vermiş faciədən bixəbər idi...

Məni görəndə gözlərinə işıq gəldi, çöhrəsi allandı və sanki canından yorğunluğu çıxdı.

Dərhal əlini sürüyüb saxladı.

Rəngi qaçmış, tüklərim biz-biz olmuş halda tələmtələsik salam verdim.

Ürəyim gurp-gurp eləyirdi.

Bəlkə də təşviş keçirdiyimi hiss elədi, çünki o qeyri-adi dərəcədə həssas idi.

Gözünü üzümə zilləmişdi...

Nə düşündüsə sakitcə qalxıb yanıma gəldi.

Kənara çəkildik.

O heyranedici dərəcədə gözəl, iradəli, çox diqqətcil və həm də son dərəcə güclü gənc bir qadın idi. Bu qısa talesiz ömründə əri və nankor rəfiqəsi tərəfindən yaşadığı xəyanət ucbatından çəkdiyi iztirablara rəğmən, zavallıda demək olar lütfkar xanımlıq və gülərüzlülük çatmırdı.

Səssiz-səmirsiz öz qayğılarıyla baş-başa qalar, vaxtını daim ürəyi istədiyi kimi keçirərdi.

Həyatda yeganə təsəllisi doğma anasıyla qarnında gəzdirdiyi körpəsiydi.

-Nəsə olub? - şübhəli soruşdu.

Dillənmədim. Nədən, necə başlayacağımın çəmini axtarırdım. Düzü heç cəsarətim çatmırdı.

Pərtlikdən qızardım...

Üzünün ifadəsi tədricən dəyişdi və çöhrəsi ağardı. Sanki qəflətən ürəyimi oxudu və xüsusi mərhəmət dolu qorxuyla:

-Üzmə məni, -sakitcə pıçıldadı.

-Bilirsən, Katya... Qara xəbərlə gəlmişəm. Heç ağlımıza belə gəlməyən hadisə baş verib. Gərək sarsılmayasan əzizim, -kəkildədim.

O həyəcanlandı. Rəngi qaçmış halda əlini qarnının üstünə qoyub:

-Mənə qorxmaq, həyəcanlanmaq olmaz... Ürəyim kağız kimi uçundu, amma tez de, -dedi.

Özümü toparlayıb:

-Katya...Katyacan... İki saata qədər vaxtım qalıb, bizim briqadanı Pervomayskiyə aparırlar,- ümidsiz halda, əzabla inlədim.

İlahi o necə dondu!

Bəs bizi yaradıb, sonra da niyə belə anlar yaşadırsan pərvərdigarə!

O hələ doğulmamış körpəsiylə tənha qalıb, niyə acı göz yaşı axıtmalı, iztirab çəkməliydi?

Üzündən hiddətli nifrət oxunmasa da şüur-suz vəziyyətdə onu qorxumdan qucaqladım. Və pıçıltıyla məlhəm sözlər işlədərək təsəlli vermək ümidylə onu, hərarətlə dilə tutmağa başladım.

Müştərilər artıq nəsə, ailədə baş verdiyini zənn edib bizə sakitcə tamaşa eləyir və demək olar zəhlətökən müdaxilələr etmirdilər.

O halsız halda, oturmaq istədiyini bildirdi.

Onu müştərilər üçün olan kresloda ehmal otuzdurub, saçlarını yüngülcə sığalladım...

Danışmağa söz də qalmamışdı.

Nə deyəydim axı?

Zavallı qız sussa da, gözləriylə ağlasığmaz dürüstlüklə tanrıya yalvarırdı.

Bu an ona arxa durmaq, təskinlik vermək əvəzinə isə, fəqət yaman tənha və gücsüz idim.

Vidalaşırmış kimi də coşğuyla üzünə baxır, əfsus ki, key kimi nə edəcəyimi bilmirdim.

Özümü birtəhər ələ alıb bəhrəsiz olsa da, təsəlli naminə qayğıkeşliklə pıçıldadım:

-Az qalıb Katya, ikicə aya hərbi xidmətdən qurtarıram. Pervomayskidən çıxan kimi, birbaşa Odessaya gələcəyəm. İki dolu çamadanımı da camadar Dusyagildə qoyub gedirəm.

Mənə güvənə bilərsən... Qanqaraldıcı olsa belə, anana məndən salam söylə, çoxlu-çoxlu da dil-ağız elə...

Bir qədər sustalıb dayandım. Dilim-ağzım qurumuşdu.

Onun gözləri sanki yol çəkirdi...

Darıxdırıcı soyuq, lal susqunluğu yenə də özüm pozdum:

-Bir də ki... əzizim, xaricdən mənə məktub gələcək... довостребования... O zərfi alan kimi bizim azərbaycanlı serjant Asadova verərsən...

Bir qədər nəzakətsiz alındı.

O nə düşünürdüsə, rəngi alça çiçəyi kimi ağappaq ağarmışdı...

Birdən bənövşə gözləri qaynadı.

Bir neçə parlaq, iri damlalar uzun kirpiklə-rində yumrulanıb yanaqları boyu dığırlanmağa başladı. Və ardınca da... Sonrakı damlalar sürət götürüb

amansızcasına bir-birini qovmağa baş-ladı. Bu da həqiqətin sərt üzü, gerçəkliyin boz, çılpaq payız sifəti!

Tarixi bir an yaşanır, bənövşəgözlü özünü tamam itirmiş, dodaqları titim-titim titrəyirdi...

Görünüşünə görə mühakimə yürüdülsə: O, gerçək hisslərlə ümid dolu duyğularını pünhan saxlamağa çalışsa belə, məni dəlicəsinə sevdiyi çöhrəsindən şəksiz sezilirdi.

Müstəsna diqqətlə onun yumşaq, buz kimi soyuq əllərini əlimə aldım:

-Katya, Pervomayskiyə məktub yazarsan... Mən qayıdacağam! Pervomayski buradan cəmi 300 km. aralıdır... Lap istəsən, elə özün də gələ bilərsən... Mənim 100 rubl. pulum var, onu sənə verirəm, doğum evində lazımın olacaq. Daha nə edək? Doğacağın körpəmizin dopdoğmaca süd anasısan... Bil ki sizə olan sevgimin südünü heç vaxt çürütmərəm. Amma...

Danışa-danışa diri yüzlüyü ehmalca onun cibinə qoydum.

O heysiz-heysiz, tövrü dəyişmədən əlini ci-binə salıb bükülü əskinazı çıxardı və pulu görüb nəfəsi daralmış, taqətsiz halda mənə uzatdı:

-Sən məni dirigözlü öldürmək istəyirsən?

Qulağına pıçıldadım:

-Körpə üçün...

-Səni gözləyəcəm. Məndən narahat olma. Anam nə lazımdırsa edəcək... Pulu komandirinə verərsən, bəlkə rəyini dəyişə bilər... Bəlkə səni saxladar, ya nə vaxtsa sonra göndərərlər?

Müştərilər çoxalırdı...

Necə oldusa, indicə qəlbinə vurulmuş ağır zərbəyə rəğmən, zavallı qəfil ürəkləndi və nəmli iri gözləri parladı... Müəyyən məchul rəğbətlə:

-Get! Neyləmək olar? Qismətimiz elə bura qədərmiş! Məktub yazarsan. Bir gün olmalıydı...

Katyanın verəcəyi hökmü necə həyəcanla gözlədiyimi özünüz təsəvvür edin...

O ayağa qalxdı, üz-gözünü alabəzək ipək cib yaylığıyla quruladı... Ağ əllərilə başımdan ehmalca tutub kədərlə sığalladı... Yüngülcə arıq yanaqlarımdan öpdü... Və məyusluqla:

- Eh, hər damcı qürbətdir bir daşqın selə... Yaxşı yol, get daha!

Elə mənim də gözlərim doldu.

Onun bənövşə gözlərindən, saçlarından və yanaqlarından həsrətlə öpüb sinəmə sıxdım.

Və sonra da səssizcə çıxdım.

Bu da Katerina nağılının sonu...

Odessa, 9 sentyabr 1972-ci il, saat 20:00.

Odessada qalan azərbaycanlı əsgərlər bizi yola salırdı. Ruslardan akkardion almışdılar...

Məhəmməd, Elman, Maarif, ağcabədili Na-zim və zemelya Şükür ağlayır, kirovabadlı Faiq akkardionu qarmon kimi əməlli başlı çalır, çığır-bağırla, fitlə, çalıb-oynamaqla bizi öz müsəlman əsgərlərimiz yola salırdı...

Heyf səndən Odessa, heyf!

Bulud kimi tutulmuşdum. Son iki ayı sanki türmədə keçirəcəkdim...

Daim qayğısız görünən erməni kökənli ağlı ağlıma tən gəlməyən qonşu, qucağında körpəsi eyvandan mənə əl eləyirdi. Bəlkə də bilmirdi bu son gedişimdi. Amma hər vəhclə, deyəsən o da küyə düşmüşdü... Eyvanlara çıxıb əl eləyənlərə, heyrətlə baxanlara qoşulub özü də sevincək əl eləyir, hətta arsız-arsız, hərarətlə və inanılmaz ümidlə hey gülümsəyirdi...

Düzdür, artıq yeni sevgi təəssüratları axta-rışına getmirdim. Katya mənə çox uyumlu idi.

Əlvida, bənövşəgözlü!

Körpəsi daraşa qalmış qarnında qayğşsız uyuyan, qayğısı daim başından aşan katerinalı Arkadiya poçt şöbəsi, əlvida!

Əlvida, eyy... isti mənzərəsini çex Yitkanın tamam dəyişdirib getdiyi Qəhrəman Odessa!

Əlvida quzanlı Balaca Mamedov, tamamilə yararsız adam olan ağdamlı əsgər!

Əlvida, tomalı, dusyalı turbaza!

Əlvida, ağcabədili Nazı və Tenistaya 13...

Əlvida, bir ucu istanbullu, bir ucu da sovet ittifaqının ukrayna sərhədli Qara dənizi!

Əlvida... hərbi xidmətimizin taxtü taclı şah dövrü, əsgər həyatımızın təpər üzəngisi! Üzünü mürdəşir yumuş üzüboz əlhəzər Pervomayskiy-lə müqayisədə, təzə gəlinin utancaq uzəçıxdısı görüşünəbənzər, sakit məcralı məkan olan deri-basovskayalı, günəşli Odessa!

Əlvida, eyy uzunbaldır, uzunboğaz, sarışın saçlı rus və ukraynalı təəşşsüqsüz qızların tüğ-yan etdiyi oylaq!

Əlvida, böyük liman vağzallı şəhər!

Əlvida!

Xoş gördük
Pervomayski!
Praqaya ünvanlanan
üçüncü məktub
Və həkim qadının
isti ovucu...

Odessa - Pervomayski,

10, 11 və 12 sentyabr 1972-ci il.

Bazar günü, 1 və 11 günlər.

Odessanın mərkəzində yerləşən dəmiryol vağzalında ortası yoğun zəncirlə taram çəkilmiş yanları taxta bortlu, üzərinə xaki rəngli brezent çəkilmiş taxta oturacaqlı köhnə hərbi maşından səs-küy, itələşə-itələşə, tələm-tələsik, nizamsız bir halda tökülüşdük.

Çex Yitkanı sonsuz kədərlə Praqaya yola saldığım yerdən indi, yorğun sovet hərbi tikinti zabitləri hərbi intizamla bizi cərgəyə düzdürüb komandiri olduğum briqadamızı yola salırdılar.

Odessa yer kürəsindəki ikimizi birləşdirən yeganə şəhər sayılsa da bundan sonra Yitkayla birgə onun havasını bəlkə əbədiyyətə kimi heç vaxt udmayacağıq. Nostalji hisslərlə nəfəs alan vağzalın ağır havası qürbət qoxusuyla bu payız gecəsində bərk ürək sıxırdı...

Düz bir aydan sonra dembl əmirimiz çıxır.

Praqa - Pervomayski. Yol daha da uzandı.

Yenə içi təmli ümumi vaqon...

Yenə də sıxlıq, yenə hərənin ağzı bir hava çaldığı, havası ağır darısqal ОБШИ vaqon.

Ucuz konservlərlə yağlı kolbasalar yeyilən vaqon. Siqaret tüstüsünün sardığı iki yaruslu, matrassız, mələfəsiz yarımqaranlıq xəfif yer.

Burda...ya yatırlar, ya da ki, takkatuk salan qatarın çıxartdığı qorxunc qürbət havasında elə hey dayanmadan danışırlar.

Şirin cana qəsd edib şirin yuxu tamarzısı olan növbəti əsgər gecəsi.

Bələdçiyə elə də ehtiyac olmayan məkan...

Gecə saat 04:30-da qatar uzun bir fit verib sürəti kəskin azaltdı.

Bircə bu vaxt bələdçi ümumi vaqona lazım oldu. Vaqon bələdçisi yatanlara qıvrılmış yollar-dan keçib qatarın Pervomayski şəhər dəmiryol vağzalına girdiyini bildirməliydi.

Yuxulu kal səsiylə və var gücüylə şişman qadın birdən çığırdı:

-СТАНСИЯ РЕРВОМАЙСКАЯ...

Qatar yuxulu havanı da uzun fitiylə yarıb, ölgün işıqlı stansiyaya möhkəm şakkaşukla və təsirli ləngər vurmaqla girdi.

Yorğun və yuxusuz ac əsgərlər necə gəldi yüklərini yoxlayıb basabasla çıxışa tələsirdilər.

Yaşlılar cavan əsgər və sərnişinlərə kinli, narazı baxıb, bu vurçatlasında da diqqət tələb edirdilər. Amma ümumi vaqonda nə diqqət?

Əllərdəki qabaritli yüklər əndişələnmiş sərnişinlərdən çox idi və hamı da girişə tələsirdi.

Arxamızca gələn hərbi təyinatlı xaki rəngli taxta bortlu üstü çadırlı maşına doluşduq. Taxta oturacaqlarda yerimizi rahatlayıb, yenidən şirin yuxu ümidi və yatmaq həsrətiylə hamı bir-birinə söykənir, əzgin-əzgin əsnəşirdilər.

Bu da son aylar adıyla hədələndiyim, alçaq divarları miniatür uşaq rəsmləriylə bəzədilmiş... Pervomayski şəhərinin dəmiryol vağzalı!

Düz beş ay yarım bundan əvvəl, buradan nağıl saydığımız Odessaya getmişdik.

O vaxt vətənimiz olsa da, dini və dili ayrı olan bu şəhəri ilk dəfəydi görürdüm.

İndi Odessa xoş və əziz təəssüratlarla dolu əbədiyyətə kimi xatirəmdə yaşayacaq bir şəhər olmuşdu. Çex vətəndaşı Yitkayla tanış olduğum ilk möcüzəli şəhər...

Pervomayski isə yaddaşımda əziz və həm də əzablı xatirələrlə zəngin idi.

Şəhər mərkəzinə yollandıq.

Yolboyu mənə elə gəldi ki, işıqlı iliç lampa-larının gur işığında Pervomayski cavanlaşıb.

Kazarmamızı görəndə ürəyim necə riqqətə gəldi. Sizə zarafat gəlməsin, az qala yarım il idi getmişdik. Bu qarnizonda nələr yaşamamışdıq?

Odessa sanki kurort idi.

Burada isə Sovet hərbi qulluğunun sərt qa-nunları bizi gözləyirdi. Amma hər halda doğma evimiz kimi əziz idi. Zarafat deyil ki, düz il yarım pis-yaxşı burada yaşamışdıq.

Pervomayski zimistanlığında Sarıkirpikli bir röya idi. Rodkin olmasaydı nələr yaşayacaqdım, bir Allah bilirdi. Hələ, Qirmızı kostyumlu Krasik! Stadion davası...Oqanesyan, Mamışev, Telman Mamedov, axıska türkü Şükür gerçəkliyi...

Kazarmaya cumduq.

Bura nə Qastronom-kazarma, nə də ki yer altında qazılan qışla, ya qazarma yox, lap eləcə xalis əsgər kazarmasıydı.

Rota sübhün şipşirin yuxusunda uyuyurdu.

Növbətçi və dnevalnılardan başqa... bütün əsgərlər muşhamuşla yatırdı. Hər halda, ümumi vaqondansa, qatarın xoş taqqıltılı kobud dəmir səsi, gur siqaret tüstülü soyuq tamburlarından kazarma çarpayısı daha rahat idi.

İvan Kuzmiçenko sakitcə əmr verdi ki, heç kəs səs çıxarmasın və boş çarpayılarda, istərsə Lenin otağında, kaptyorkada, qısası harda oldu özünüzə yer düzəldib dincəlin.

Şıdırğı payız yağışı tökməyə başlamışdı...

Kazarmada vurnuxma vardı.

Tez-tez bayırda əyri xətlərlə gur işıqlanıb şimşək çaxır, göy vahiməylə gur-gur guruldayır, ildırım dəhşətlə şaqqıldayaraq sonsuz səmanın bağrını çatladırdı...

Bəxtimizdən Maariflə tək yaruslu boş bir çarpayı tapıb cəld baş-ayaq uzandıq.

Yerimi rahatlayandan sonra növbətçidən öyrəndim ki nə tüfəngə çaxmaq, nə də sünbəyə toxmaq olan ağdamlı Telman Mamedov kazar-mada yoxdur, gecə növbəsindədir...

Yata bilmirdim.

Sabah istirahət günü olduğundan ПОДЙОМ saat 07:00-da olmalıydı.

Səs-küyə şirin yuxudan kal ayılan yorğun müsəlman əsgərlərlə sevincək qucaqlaşıb-öpü-şür, hal-əhval tuturduq.

Dan yeri sökülənə yaxın yuxuya getmişik.

...Yeməkxanaya bu dəfə dəstə ilə gedəsi olduq. Çətin olsa da, gülməli gəlirdi. Odessada əsgər nizamını unutmuşduq.

Rotada əsgər heyətinin çox olması, əsgər çəkmələrinin ayaq tappıltıları: Raz, raz, raz, raz, dva, tri... ritimləri yenə qəlbimizi oxşayır, içimizi coşdurur... sanki bizə əsgər, vətən vicdanı oldu-ğumuzu çox-çox uzaqlardan xatırladırdı...

Razvod başladı. Hər şey qaydasında idi.

Mayorun hərbi tapşırığı isə lap gözlənilməz oldu: Saat 14:00-a kimi işləmək!

Vaxsey, dəli olduq! İstirahət günü işləmək?

Bizim uşaqlar heyrətlə uğuldadı: Bazar gü-nü nə işş? Həm də axı yol gəlmişik...

Etiraz bildirdim. Və əsgərlərim də mayoru dayanmadan fitə basdı.

Mayor yedi...

Rotanın komandiri Bryusov yaşıl gözlərini sevinclə üzümə zilləyib hərdən göz vurur, tanrı bəndəsi yamanca da sevinirdi.

Demək gəlhagəliydi!

Görünür məndən, kəlbəcərli Sahibdən və yeni molodoy azərbaycanlılardan karlı KAPBA yı-ğacağını güman edirdi.

Fit məsələsində mayorun tərəfində olsa da hirslənə bilmirdi. Barıt kimi açılmaq əvəzinə bir qədər deyinib dəftərxanaya keçdi və yalandan nəsə yazıb pozmağa başladı.

Bizə iki yaruslu carpayılar daşıtdırıb kazar-mada boş yer ayırdılar. Üzü günəş doğana qo-yulmuş bir çarpayının alt yarusundan cəld özü-mə yer elədim.

Əsgər formalarımızı dəyişib, çamadanları yan-yön elədik.

Dolabçama zəruri olan: diş fırçası, diş pas-tası, sabun, üz təraşı ləvazimatı, boş zərflər, fo-tosəkillər, dəftər və qələm doldurub lenkomna-taya tərpəndim.

Müxtəlif qohum, dost-tanışlara məktub ya-zıb yeni ünvanımı bildirəndən sonra Osipovun hərbi hissəsinə getdim.

Havada toplanmış atmosfer elektrikinin ge-cəyarı əyri-üyrü zolaq şəklində çaxdığı parıltılı qorxunc şimşəklərdən indi əsər-əlamət belə qal-mamış, yolu sel-su bassa da yağlş kəsmiş, göz-qamaşdırıcı qızılı günəş şəfəqləri səmada bərq vurur, əlçatmaz ümidlər doğururdu.

Akif və Elmanla qucaqlaşıb görüşdük...

Kazarmaya qayıdan kimi də irsal-mərsulla məşğul olmaq üçün Lenin otağında oturub, yeni ünvanımla bağlı omsklu Allaya və sverdlovsklu Nataşaya, zəngi belə olmayan məktəb qurtarsa da, ağacların quru budağından hansı ildə qışın, ya yayın necə keçdiyini baxıb anlayan, axıska Nəriman kişinin oğlu,- mesxeti türkü Süleyman Zahidova, kəsmə çay dəlisi olan cılız Buratino Tariyel Muradova, qardaşım pulgir Vidadiyə və Bakıya əziz qardaşım fədakar Rafiqə məktublar yazıb, zərflərə yığdım.

Kazarmada hərənin ağzı bir hava çalırdı.

Telman Mamedov qapını açıb, əyri çənəsi qaçmış halda, Asiyadan Avropaya köç eləmiş hunlar kimi hövüllü üstümə cumdu.

Doğrusu, gözüqırpıq, tərneftli çənə Telman dombalangöz Ələsgər kimi pis və etibarsız olsa belə, yeri olan, yada düşən oğlanlardan idi.

Öpüşüb görüşdük. İlan-çayan vurmuş mə-ni o qədər səmimi qucaqlayıb köksünə sıxdı ki!

Sanki rəzalətlərini yuyurdu...

Dili ilanı yuvadan çıxaran ədabaz qara Vəli ona deyibmiş ki, hospitalda Babayevin bərdəli bir yerlisi yatır. Hardansa ezam olunub...

Bədbin haləti-ruhiyyə məni çulğasa da on-larla birlikdə hospitala getdik.

Onu görən kimi tanıdım.

O da məni Bərdədən tanıyırmış. Öz sözüy-lə desək: ЧИНГОУЗDA olurdu...

Vaxt az idi. Bir qədər əhval tutandan sonra çox ləngiməyib kazarmaya qayıtdım.

Ağdamlı çənə Telman birhovur dayanma-dan yolboyu dil-ağıza qoymayıb elə hey danışır, danışdıqca gülür, güləndə isə xırda gözləri ta-mam görünməz olurdu.

Ziyanverici hörümçək gənəsi xislətlinin de-diyinə inansaq, artıq bir neçə qız uşağıyla cinsi əlaqədə olub, hətta ikisi ondan hamilə qalıb.

Birini əzizləyib lap adını çəkdi: Klara!

Tərxis olunanda Ukraynadan özüylə Ağda-ma aparacağında israrlı olduğunu da bildirdi.

O isə mənim bənövşəgözlü Katerinamdan, çex qızı Yitka Zahalkovadan hələ xəbərsiz idi.

Ürəyim doluydu.

Tələsirdim ona bu haqda danışıb yüngüllə-şəm. Amma əclaf aman vermirdi.

Yitka qəlbimi elə yerindən oynadıb ki!

Saat 16:00-da, klubda "Ana məhəbbəti" fil-mi göstərəcəkdilər.

Yenə hind kinosu.

Qəflətən erməni əsilli şamxorlu, qarınladığı xebesindən hiss olunan Alik Oqanesyan pilotka-sı əlində, yanlarını basa-basa kazarmaya girib, tələm-tələsik məni soruşdu.

Qucaqlaşdıq!

Doğma qardaşı kimi, məni bağrına basıb, and içdi ki, məktub yazmaqla arası yoxdu, heç ata-anasına da yazmır, üzürlü hesab edim...

Bir qədər hal-əhvaldan sonra, sanki iki-üç gün əvvəl ayrılmışdıq, birlikdə kinoya getdik.

Biri 70 qəpikdən samxorlu Oqanesyan düz 7 bilet götürüb, gülə-gülə:

-Siz hələ qonaq sayılırsınız, -dedi.

Qıpqırmızı sifəti elə hey gülürdü. Arada, bir neçə dəfə də, kürkünə birə düşmüş halda boy-numu qucaqlayıb:

-Mən ölüm, məktub məsələsinə görə mən-dən incimə, xoşlamıram, düzü səbrim heç cürə çatmır, bütün bunlar lazımsız, boş, əhəmiyyət-siz, indiferent şeylərdi, - dedi.

Kinoda yuxu bizi öldürürdü.

Nə qədər eləyirdim, bacarmırdım. Kipriklə-rim qurğuşun kimi asılıb gözümü tuturdu. Axırı Mürşüdün sözü olmasın "yarımçıx" çıxası olduq.

Soyunub bir qədər yatdım.

Ayılan kimi saata baxdım: 16:09 idi.

Gündəliyi yazmağa yaman köklənmişdim. Həm də elə kövrəlmişdim, elə ağlamaq istəyir-dim ki! Yamanca sentimental olmuşam...

Həvəslə o yan-bu yana qaçan molodoylara baxıb hey düşünürdüm: "Yəni doğrudanmı heç bu əsgərlərin bir dərd-səri yoxuydu?"

Pervomayskiyə gəlməyimiz çox pis oldu...

Arkadiya mehmanxanasının poçt şöbəsin-də aldığı bu bəd xəbərdən sarsılmış bənövşə-gözlü Katerinanın solğun yanaqları boyu mun-cuq-muncuq dığırlanan parıltılı iri yaş gilələrini xatırladıqca, gözlərim yamanca dolur... o duzlu nəm damlalar odsuz-alovsuzca içəridən qəlbimi yandırıb-yaxır, hətta indinin özündə də, bax bu sətirləri yazdıqca nəfəsim belə aşkarca təngiyir, ürəyim sıxılırdı...

Axşam yeməyindən az sonra qarnizonun klubunda pulsuz film göstərirdilər.

Getmədim...

Filmdən sonra kazarmada bizim briqadaya daimi yer ayırdılar. Səs-küylə otdeleniyam tam, kompakt yerləşib, dikbaş stariklər kimi elə çar-payılarındaca yanpörtü dirsəklənərək, korkobud barmaqları arasında ədayla tutduqları прима si-qaretindən ciyərdolusu sümürə-sümürə tüstülə-dib molodoylara rişxəndlə tamaşa eləyirdilər...

Düz 29 gündən sonra da... dembl əmrimiz çıxacaq. Artıq 2-ci rotanın "Səhra komandirləri" kimi azadıq...

Sübh tezdən, lap dəqiq desək: Saat 05:30-da, daim qədim slavyan hərfləriylə yazıb gündə-lik tutan, biz Odessaya gedəndən sonra isə ikin-ci rotaya yeni təyin olunmuş eynəkli, ukraynalı xaxol praporşik tuği-lənət olub boğazıma keçdi ki: Dur razvoda, КАК КОМАНДИР!

Nə qədər elədi, boğaza yığılmış residivist kimi diräşib, durmadım.

Podyomda qalxdım.

УТРЕННИЙ ОСМОТР, УБОРКА ТЕРРИТОРИЯ...

Lap zəhləm getdi, amma nə edəsən?

РАЗВОД çox maraqlı keçdi.

Üçüncü vzvodun "poxodnıy kolonuyla" bir-likdə gedəsi olduq. Ötən 22 ayda bu ilk dəfəydi. Çox yaxşı getdim. Xüsusi ilə də otdeleniyamla birlikdə təpik döyəndə ayaq tappıltılarımız çox yaxşı alınırdı.

Amma, başım çox tüklü olduğundan qızılı ulduzlu xaki pilotkam hey sürüşürdü...

Hərbi hissə komandirimiz gəhgir Dyakiv bi-zim otdeleniyanı öz kabinetinə yığdı.

Nə desə yaxşıdır?

“Siz burda iki-üç həftəlik komandirovkada-sınız, yenə Odessaya qayıdacaqsınız!”

Qulaqlarım necə tutuldu! İlahi bu doğrumu danışır, ya bizi ələ salırdı?

Çölə çıxanda hamımız sevinirdik.

Amma nəsə şübhəli idim, lap düzü də heç ümid eləmirdim...

ВОДОЗАБОР!

Düz beş ay yarım idi briqadam, altı aydan da çox idi ki özüm də buraya ayaq basmırdım.

Sanki ikinci rotanın “qırılmış, məğlub olun- muş” başıpozuq dəstəsi yenidən... nizamla, cüt-cüt düzülüb uzun cərgəylə sıralanaraq, yorğun gözlərindən şipşirin sübh yuxusu tökülən əsgər-lərinin ayaq tappıltılarıyla vodozabora gedirdik.

Kəndarası uzun torpaq yol, piyada ağır əs-gər çəkmələrində bizi o ki var yordu.

Ayaqlarımız lap xamlamışdı. Hələ şükür, sazaq, palçıq, zığ-batdaq yoxuydu...

Vodozabor demək olar tikilmiş, buralar ne-cə dəyişilmişdi!

Şamxor ermənisi Alik Oqanesyan məni iş icraçısıyla tanış elədi.

18 nəfərlik briqadamın hər bir hərəkətinə, işinə cavabdeh idim.

Ucaboy master briqadama iş verdi: Səkkiz metr hündürlüyü və altı metr eni olan bir divar-dan başlamalıydıq. Suvaq vurmaq üçün bu hün-dür divara nahara kimi ancaq dəmir borulardan ПОДМОСТ, rasstvoru qəbul edib yığmağa taxta yeşiklər düzəltdik.

Podpolkovnik Dyakiv neçə dəfə iş yerimizə gəldisə, məni briqadamla birlikdə işləyən gördü. Bu lap əla oldu. Hərbi hissənin komandiri idi və dembl əmrindən sonra o... istədiyi gün, istədiyi əsgəri sovet ordu sıralarından tərxis edə bilər-di. Bu onun geniş səlahiyətlərində görünməyən çapqınçılıq yolu idi...

Nahardan sonraya rastvor sifarişi elədim.

Naharı vodozaborun müvəqqəti yeməkxa-nasında elədik.

Külfəsiz çiy damda dogulmuş, kövşənlikdə, biçilmiş tarlaların küləşliyində, mazut və neft qo-xulu Tərnefdə böyümüş çənə Telman itaətimdə duraraq özünü yerli adam, külli-ixtiyar sahibi ki-mi göstərib, briqadamın müsəlman əsgərlərinə becid yardım göstərirdi.

Hətta yeməkdən sonra məni götürüb çayın kənarına da apardı.

Soyunub əməlli-başlı üzdük də...

Çayın suyu nəsə ağır idi. Qara dənizin dal-ğalı suyu, çimərliyi ayrı şeydi... Amma, ЮЖНЫЙ-БУГ çayının enli, dərin suyu ağır olsa da, bir çay gerçəkliyi, çay əzəməti yaşanırdı onda...

Dəniz ayrı, çay ayrı!

Nahardan sonra verilən istirahət vaxtını da çayda çimməklə keçirdik.

Geri qayıdanda birəbitdən quşu rəngində olan Telmana Yitka barəsində ilkin məlumatları verdim... Özümü toxtadırdım...

İşi qaydaya salandan sonra, yenidən kön-töy Telmanla taxta kətildə oturub dərdləşdik.

Burada köpü alınmış əsgərlərimiz həvəslə, canı-dildən işləyir, yeməkxananın yeməyi ucuz və çox dadsız-təmsiz olduğundan, onlar Odes-sanı arzulayır, geri qayıtmaq ümidiylə dəridən-qabıqdan çıxırdılar...

Maarif çox fərasətli idi və lazım olan: mala, tyorka, reyka, vanna, vedrə kimi zəruri alətləri... lotubaşı özü molodoy əsgərlərdən və necə gəldi çapıb-talayaraq kəsrətli gətirmişdi. Nə çatmasa, Azərbaycanın xalq mahnısı olan kəsməşikəstə dəlisi dərhal da tapıb qaydasına qoyurdu.

Əsgərlər arasında belə “oğurluqlar” elə də nöqsan sayılmazdı, ev yarmaq, ya cibə girmək deyildi ki?

İş rəvan gedirdi.

Saat 16:07-dən oturub kibrlə danışan çənə Telmana xeyli qulaq asdım.

Fasilələrdə əsgərlərimiz siqaretə daraşırdı.

Könülsüz tikə, kəlbəcərli vaynösə Sahiblə təpərsiz Mürşüd yaman kədərli görünürdü...

Aradabir özüm də dəmir podmostlarla sək-kiz metr hündürlüyə qalxıb, divarda xeyli suvaq vurdum. İt dəftərində də adı olmayan mayıf Ma-med mənə əhəng-sementli palçıq daşımaqdan qan-tərə batmışdı.

Bəxtimdən hərbi hissə komandiri, yaşılgöz Dyakiv gələndə məni yenə ürəklə işləyən gördü.

Maraqlı cəhət o idi ki, Odessadan əvvəlki dövrdə Dyakiv məni heç vaxt işləyən yerdə gör-məmişdi. Divarı suvayıb, 70 m^2 hissəni artıq ha-zır eləmişdik. Divarda əhəngli suvaq güzgü kimi hamar alınmışdı...

Oqanesyan gəlib çıxdı. Pilotkasını yelləyib məni aşağı çağırdı.

Bir yerdə, saçları kəstanə rəng olan çənə Telmanın yanına getdik.

Oturub xeyli danışdıq. Oqanesyan da xeyli qız-qadından söhbət elədi. Əclaf əməlli başlı kef çəkirmiş ki! Sonda:

-Səni də tanış eləyəcəm, -dedi.

O nədənsə, Odessa haqqında heç maraq-lanmırdı. Mən də ona bənövşəgözlü Katya, çex Yitka haqqında heç nə danışmadım. Amma hər ikisi Komsomol barədə soruşdu.

-Məktublaşırıq, -dedim.

Əslində isə ondan... Odessaya gedəndən bir məktub belə almamışdım...

Rastvor qaldığından УЖИНə getmədik.

Hərbi hissədən mənim 18 suvaqçım üçün yemək gətirdilər. Düz 21:03-dək işləyib birtəhər palçığı qurtardıq...

Fındıqburun Bryusov mənə tapşırdı ki, evi-nə boya lazımdı, ona köməklik göstərək. Elə bu boya məsələsini də bəhanə eləyib, dəstə cər-gəylə gedəndə bozaçalar itarısına bənzər Ma-ariflə biz geri qaldıq.

Maarif vodozabordan iki qutu bəyaz boya oğurladı. İkilikdə cərgəsiz-zadsız biz kazarmaya çatanda artıq 22:17 idi...

Yuyunub rahatlaşandan sonra Lenkomna-tada oturub Praqaya üçüncü məktubumu yaz-maga başladım.

İtaətsiz çex Yitka məni heç sakit buraxmır-dı. Sanki onunla nəfəs alırdım. Bir xeyli cızma-qara eləyəndən sonra axır ki, rus dilində bir mü-kəmməl məktub hazırladım:

“ЗДРАВСТВУЙ ИТКА!

ЭТО ТРЕТЬЕ ПИСЬМО, КОТОРОЕ ТЕБЕ ПИШУ. НО ОТВЕТА НА МОИ ПИСЬМА ВСЁ ЕЩЁ НЕТ.

ЭТО И ЕСТЬ ТВОЁ ОБЕЩЕННОЕ СЛОВО?

МЕНЯ ОТПРАВИЛИ ИЗ ГОРОДА ОДЕССЫ ЧТО-БЫ ПРОДОЛЖИТЬ СЛУЖБУ В ДРУГОЕ МЕСТО...

ВСЕМУ ЭТОМУ ВИНОВАТА ТЫ.

ОБ ЭТОМ ПОГОВОРИМ, КОГДА МЫ ВСТРТИМ-СЯ В БАКУ ИЛИ В ПРАГЕ.

ДОРОГАЯ, ТАМ ГДЕ Я СЕЙЧАС СЛУЖУ ОЧЕНЬ ПЛОХО, НЕ ИДУТ МОИ ДЕЛА.

НО ЧТО ПОДЕЛАЕШ?

НАДО ЭТО ПЕРЕТЕРПЕТЬ!

ПОСЛЕДНИЕ ДВЕ МЕСЯЦЫ МНЕ ПРИДЁТСЯ СЛУЖИТЬ ЗДЕСЬ, ПОТОМ МЫ МОЖЕМ ВСТРЕТИТ-СЯ ТАМ, ГДЕ МЫ ХОТИМ.

НАПИШИ... КАК ИДУТ ТВОИ ДЕЛА? КАК ДЕЛА ТВОЕЙ СЕСТРЫ ДАНИ?

ПЕРЕДАЙ ЕЙ ОТ МЕНЯ ПЛАМЕННО-СОЛДАТ-СКИЙ ПРИВЕТ!

ПИШИ ОТВЕТ ПО ЭТОМУ АДРЕСУ:

СССР, УКРАИНСКАЯ ССР, 329810, НИКОЛАЕВ-СКАЯ ОБЛАСТЬ, ГОРОД ПЕРВОМАЙСК - 2 п/о.

ДОВОСТРЕБОВАНИЯ.

НА ЭТОМ Я ЗАКАНЧИВАЮ СВОЁ МАЛЕНЬКОЕ ПИСЬМО. ПИШИ... ЖДУ ОТВЕТА... ЦЕЛУЮ ТЕБЯ!

ТВОЙ ТОФА!”

11.IX.1972 г.

ГОР. ПЕРВОМАЙСК.

Gecəynən Yitkanın üçüncü məktubunu ya-şıl üzlü RUSKO-ÇESKY tərcümə kitabından istifa-də edərək birtəhər hazırlayıb qurtardım.

Məktubu əlimlə yungül sığallaya-sığallaya zərfə qoyub, filosofluq edə-edə it-bata düşmə-məsi üçün Allaha dua edərək, xeyli də xırdaboy baharotu kimi ürəyimdə sevib əzizlədim.

Qaldı sabah poçtdan yola salmağım...

Yorğun olsam da yerimə uzanıb yata bil-mirdim... Haradansa qonşumuz və uşaqlıq dos-tum nitqpərdaz Vaqifin bir baxımdan can əridən anası Bahar xalanın dopdolu ağ sinəsi gözlərim qarşısında canlandı: Yaz aylarında hərdən əsən xəfif mehdən əyninə geyindiyi arxalıqlı, qısaqol baharı donunun yüngül ətəyi qalxar, anatomik quruluşu ürəkaçan olmasa belə gün görməyən bəyaz budları açılıb göz deşərdi...

Elə bil canımda ferment reaksiyası getdi.

Fədailik olsa da... necə oldusa ona bir şeir yazmaq könlümə düşdü və cəld qalxıb yenidən dəftər-qələmlə lenkomnataya cumdum.

Nostalji hisslərə qapılaraq xeyli düşünüb-daşınandan, cızmaqara yazıb-pozandan sonra kiçik bir sentimental parça alındı:

Eyvanınız qarşısında bir alça ağacı vardı.

Sallanıb nazik budaqlarından

Səni görmək üçün gecəni gündüzə qatıb

Hey yellənərdim...

Nə qayğım vardı bu dünyada

Nə də sənə sevgim.

Di gəl...

Gözüm qapınızda qalmışdı

Nə vaxt açılacaq?

Səndən nə umur, nə istəyirdim?

Düzünə qalsa

Heç özüm də bilmirdim

Atalı-analı yetimə bənzəyirdim...

***

Kirpiklərim ağırlaşıb gözlərimdən sallanır-dı. Yazdıqlarımın üzünü güclə köçürüb, birtəhər özümü yerimə saldım...

Səhər yeməkxanadan qayıdan kimi, Yitka-nın adına Çexoslovakiyaya ünvanladığım üçün-cü məktubu hərbi qarnizonun ərazisində yerlə-şən göy rəngli və üzərinə iri СССР sözü yazılmış ПОЧТ qutusuna atdım.

Çiyinlərimdən sanki ağır bir yük götürüldü. Nəfəsim genəlsə də, birdən ruhumu inamsız bir kədər çulğadı: Görəsən gedib çıxacaqmı?

Bu da qürbətdə alt-üst olmuş köç niskilinə bənzəyirdi. Amanı kəsilmiş kimiydim.

Qəflətən Katerinanı xatırladım...

ПОЛИТИНФОРМАЦИЯdan dərhal sonra РАЗ-ВОД oldu. Razvod qurtaran kimi də sıra meyda-nında düzlənib vodozabora getdik.

Lenkomnatada əməlli-başlıca otura bilmir, yalan olmasın kazarma üzü görmürük.

Yenə nahara kimi dəmir ayaqaltıları söküb suvanmayan yerdə yenidən yığdıq. Çox hündür və çəmsiz yer idi...

Beş dəqiqədən bir də sivriburun, itibaxışlı Qreşnoy uşaqları yoxlamağa gəlirdi. Hər gələn-də də mənə bic-bic göz vurur, ironiyayla:

-Odessa deyil eyy bura!- deyirdi.

Axır ki, çənə Telmanın yanından geri qayı-danda yolda məni tək gələn gördü və özbaşına hərbi ərazini tərk etmə sayılsa da, aman evim olmadığından mərhəmət göstərib, kişi kimi heç bir söz soruşmadı. Bu da başıbatmış Qreşnoy!

Bu yerdə elə yaxşı deyiblər: “Bülbül viranə-dən ötməz, bayquş da viranədən getməz...”

Naharı vodozaborun taxta yeməkxanasın-da eləyəndən sonra çənə Telmanla çayın kəna-rına getdik. Bir zamanlar Ağdam rayonunun doğma Göytəpə kənd sovetliyindən, yaşadıqları Tərneft kəndindəki yurddan söhbət salar, uşaq-lıq illərindən və necə çətinliklə yaşadıqlarından kövrək hisslərlə danışardı. İndi isə vəziyyətləri-nin düzəldiyindən və atasının yaxşı qazandığın-dan ürəklə, ağız dolusu, başgicəlləndirici bir eh-tirasla o ki var gopladı.

Və beləcə saat 16:35-ə kimi dayanmadan hey xırdaladı...

Arada onun bir balaca susmağından istifa-də eləyib mən başladım: Çex Yitka haqqında o qədər səmimi, dağa-daşa sığmayan yanıqlı eh-tirasla danışdım ki, axırda o hırıldayıb:

-Kaş onu bir dəfə görəydim, -sısqadı.

-Fotoşəkillərini sənə göstərərəm. Çamada-nım doludu,- dedim.

Yitka haqqında o qədər danışdım ki, artıq özüm də onu görmək arzusuyla alışıb yanırdım.

Podpolkovnik Dyakiv gələndə yenə məni iş yerində işləyən gördü. İşimizə baxıb bəyəndi və məni bir qədər tərifl ədi. Dyakiv gedən kimi rota komandirimiz Bryusov özünü yetirdi. Xeyli söh-bət elədik. Amma əclaf tez-tez mənə atmacalı, tikanlı sözlər atırdı.

Necə məni əsəbiləşdirdisə, qəflətən acığa düşüb, hirs-hikkəylə qışqırdım:

-Elə belə elədiyiniz üçün yaxşı oldu, sizin Odessadakı, doğulduqları kənddə patava geyi-nən zabitlərinizi “basmarrıyıb” yun kimi çırpdıq. Gizlənməyə koğuş axtarırdılar.

Elə bil Bryusova od qoydum. Sinəsindən güllə girmiş sonuncu hava alan və al qana bo-yanmış zabit kimi:

-Niyə?- xırıldadı.

Sən demə yazığın, komandiri olduğu ikinci rotanın hadisələrindən, ruslar demiş ЧП-sindən xəbərsizmiş...

Bryusov Boykoya, Qreşnoya və İvan Kuz-miçenkoyla müqayisədə qürurlu idi.Siyasətə ke-çib nə baş verdiyini öyrənmək istədi. Və mən də fərqinə varmadan:

- İkicə ayım qalıb,- dedim.

Bir az da davadan danışdım...

O... şərəfinin alçaldığını hiss edib, ürəyinə dağdağa düşmüş adamlar kimi anidən:

-Sizi СУД eləmək lazımdır! -qışqırdı.

Onu tamam özündən çıxarıb cırnatmışdım. Qəflətən bağırdı:

-Bircə söz də ağzından çıxartsan, səni 10 sutka hauptvaxta basacağam!

Düdəməyi indi gəlsə də, hərbi əmr idi.

Sapsarı sifətinə rişxəndlə gülümsünüb on-dan sakitcə aralandım.

Qəfil arxadan çağırdı.

Səsinin tonundan peşmançılığı açıq-aydın sezilirdi. Dərhal anladım: Gülsatan qız...

Deməli pul istəyəcək!

-Vurduğunuz suvağın naryadını da bu gün bağlayarsan!

-Oldu yoldaş komandir!

Özünə düşmən öz dostunu itirəndir.

Suvağı heç ölçməmiş də bilirdim: 180-190 kvadratmetr arası işləmişdik...

Əlində öküz dəkkəsi oynadan taytax Nadir Allahverdiyevlə görüşüb tərneftli çənə Telmanın yanına getdik. Telman da təmiz xebe formasını geyindi və üçümüz birlikdə yolkənarı bitən çətir-çiçəkli dağboyanasından yığa-yığa kəndin taxta qapılı mağazasına yollandıq.

Divardan asılmış tozlu saatın dəqiqəşümar iri əqrəbi rum rəqəmiylə yazılmış altı rəqəminin üstünə çatanda mağazada ruh oxşayan bir me-lodiya çalındı...

Beş qutu üstüdeşikli, yupyumru ucuz taxta peçenye aldıq və adama bir butulka da БАЙКАЛ pivəsi içdik...

Qayıdanda yaşlı bir kişi, mağazadan aldığı iki ədəd qarpızı bizə sarı uzatdı və uzatmağıyla da qarpızları kişinin əlindən almağım bir oldu.

Gülməkdən uğunduq. Pivə bizi güldürürdü. Kefimiz yamanca açmışdı...

Həftə səkkiz-mən doqquz deyib, yalandan xəstəyəm bəhanəsiylə həkimxanadan çıxmayan taytax Nadir ağzının sağ kənarından su süzülə-süzülə kişiyə kişiyana:

-СПОСИБО, ДЕД... -dedi.

Mən də zarafata salıb ciddi şəkildə:

-ДЕДУШКА! Qarpız üçün feodalın dəhyekini ödəmisənmi? -soruşdum

Kişi heç gözləmirdi. Amma özünə sığışdır-mayıb qarpızları geri istəmədi də... Və çul-çuxa-sından cin ürkən üzütüklü kəndli ilıq irişib:

-Aylıq ödəmişik... Mülkədara natural şəkil-də... Məhsulun onda biri miqdarında... Çuğulçu deyilsiniz? Çar əsgərlərisiz?

Qocanın hazırcavablığına hamımız birdən gülüşdük...

Kəndin qurtaracağında bir qapıda oturduq. Çənə Telman qapını döyüb, bıçaq istədi. Cavan bir qız bıçağı gətirəndə üçümüz də heyrətlə ona baxırdıq. O baxışlarımızdan əriyib, daha nə la-zım olacağını sevinclə soruşdu.

Qarpızı kəsib yedik.

Bıqdıracaq dərəcədə şit zarafatlar edə-edə və kefikök vodozabora çatmağa az qalmışdı ki, kobud səhvə yol vermədiyindən devrilmək vaxtı hələ çatmamış gənc Qreşnoy qarşımıza çıxdı.

Və bizi qabaqladı.

Kənddəki mağazaya getməyimizi boynu-muza götürmədik. Nadir Allaverdiyev çevir tatı, vur tatı, həyasızlıqla ağ yalan dedi:

-İstəyirdik çimək... həndəvərinə də girə bil-mədik, su soyuq oldu.

Əclaf sırtıqlığımıza rəğmən, -sən demə hə-lə mağazaya gedəndə bizi kənardan görübmüş- hərbi qaydada ayaqlarını cütləyib rota komandi-ri Bryusova ДОЛОЖИТ elədi.

Cəld aradan çıxdım.

Şeşələnərək, özünü böyük göstərmək ölü-sü olan tülkü Bryusov özlərini başqasına nərdi-van eləyən çənə Telmanla ağsaq Nadiri itin gö-tünə soxub çıxartdı...

Rota axşam kazarmaya qayıdanda 4 nəfər işçimi bəhanəylə gecə növbəsində saxladım ki, sübh-tezdən işə gələndə yeni hörülmüş divarla-ra ayaqaltı hazırlayıb briqadamın yaxşı işləmə-yinə ФРОНТ açsınlar.

Özümlə bərabər əlavə 3 əsgər götürmüş-düm. Guya işləyəcəkdik!

Telmanla Nadir başa salmışdı ki, ЮЖНЫЙ БУГ çayının o biri sahili, dağətəyiboyu alma bağ-larıdır və çaybasar qarışıq hamısı da V.İ.Lenin adına kolxoza məxsusdur. Gecə düşən kimi al-ma bağlarına oğurluğa getməliydik...

Bir tərəfin yüngülcə çəkə-çəkə taytax Nadir dağ qoçuna bənzəyən iki kənd cavanı ilə birlik-də çayyanıyla taxta qayıq gətirdi, lovğalıqla:

-Çaxır puluna razılaşmışıq,-deyib, tozlu əli-ni üstümə açdı.

Nadirin döyənəkli kobud kirli qara ovucuna iki sarı əskinas basanda kənd əyyaşlarının göz-ləri, caynağına xam ahu düşmüş ac canavarlar kimi işım-işım işıldayırdı...

Çalpaşıqa salıb axsaq, qıvlasız Nadir sarı rublun birini çırpışdırmaq istəyəndə ruslar xoruz kimi qəflətən onun üstünə atıldı...

Hava qaralanda, ağdamlı, özüylə,- Odessa qatarıyla Pervomayskiyə gələndə kupedən tap-dığı, qınına yığılan qısa yoğun tiyəli, düyməli fin bıçağı gəzdirən uzun kirpikli göygöz Eldar, özü-nə umac ova bilməyib, özgəsinə əriştə kəsən qıl basmış Zülfüqar və fideist axsaq Nadirlə birlikdə kiçik avarlı taxta qayığa əyləşdik.

Yerdə qalan əsgərlər isə fışqırığa basmaq-la sahildə dayanıb, bizi gözləməyə qərar verdi...

ЛОДКА-nı özüm sürürdüm.

Gecənin lal zülmət qaranlığında çayyuxarı avar çəksəm də, çay bizi öz cənginə alıb möh-təşəm axarına salırdı. Ətrafda isə, qulaq xışılda-dan qəribə sakitlik hökm sürürdü. Suyun şırıltısı bu ritmi pozduqca sanki ecazkar bir musiqi səs-lənir, bizə nağılvari sonsuz ləzzət bəxş eləyirdi.

ЮЖНЫЙ БУГ çayının çox dərin, çox da enli yatağı olduğundan bizim dəli Kür çayı kimi çox da əzəmətliydi...

Lal sakitlikdə suyun şırıltısı nə qəribəymiş, özü də gecə zülmət qaranlıqda...

Necə feyz olurduq!

Qayığı çayın kənarında lap çamıra qədər çəkib elə lehmədəcə tökülüşdük.

Taytax Nadir filosofluq edə-edə bizi arxası-na salıb qaranlıqda bir kilometrə qədər yamaca, çayın əks axarına doğru apardı.

Alma bağları zülmət qaranlıqda lal xışıltıyla uyuyurdu...

Fədəkarlıqla düz iki kisə alma yığdıq. Alma ətri ətrafı və meşoxları bürümüşdü. Yuyulmamış almaları dərdikcə, ara-sıra köynək və şalvarları-mıza sürtüb yeyirdik də...

“Əməliyyatımız” düz iki saat çəkdi.

Almaları lotkaya doldurub, avar çəkə-çəkə üzüb, sağ-salamat o biri sahilə apardıq. Uşaqlar sahildə tökülüşüb iki meşox almanı dağıtdılar.

Kefdə idik.

Sonra da qızışıb, bir-birimizi almayla döy-məyə başladıq. Söyən söyənin idi.

Göydə almalar salva kimi yağırdı...

Saat 23:09-da qayıdıb kazarmaya gəldik.

Pervomayskinin işgəncəylə dolu ağır əsgər həyatına yavaş-yavaş alışırdıq.

Göygöz, kirpikli Eldar... taytax, ağzı selikli Nadir... qırmızıyanaq, erməni Oqanesyan... çə-nə, çuğul, tərnefitli

Telman Mamedov... və Laçı-nın minkəndli sovetliyindən olan, xırxır, üzüpiri-şikli, Səbuhi Qadımalıyevlə yenə də qaynayıb qarışmışıq.

Maraqlı alınır...

Rotaya: ОТБОЙ! -əmri verilsə də, bizim uşaqlar qır-vır salıb, hələ yatmaq bilmirdi.

Yerimdəcə balışa dirsəklənib... kazarmanı nəzərdən keçirirdim. Molodoy rus əsgərləri elə dərin yuxudaydılar, elə şirin yatırdılar...

Biz də ilk günlərdə, ilk aylarda bax beləcə yorğun olardıq. O vaxt mənə elə gəlirdi ki, bu iki il heç vaxt qurtarmayacaq. Onda stariklərə necə həsədlə baxırdım, ilahi!

İndi biz özümüz də beləcə starikik və bu iki ilin bitməsinə cəmi-cümlətanı ikicə ayımız qalıb.

Gözlərimə indi yuxu getmirdi... İyirmi iki ay əvvəl isə yuxu ölüsü idik. Bir-iki dəqiqə də artıq yatmağı acgözlüklə, necə qənimət bilərdik!

Eh...

Slovyan Yitkanın şıltaqlığını, bənövşəgözlü Katerinanın daraşa qarnını xatırladım. Sonra da Komsomola xeyli giley-güzar elədim:

“Niyə məktub yazmırsan?”

Birdən ağ sırğalı Məhbubə xalanın iri bud-ları, enli yançaqları, nazik beli, incə çiyinləri, ətli dodaqları, niskilli gözləri...

Sonra da gəncliyin çağlayan Bakı həyatını, tələbəsi olduğum Politexnik institutunu...

Necə oldusa Aslan Quliyev yadıma düşdü. Avtomatika kafedrasının müdiri, professor. Kök, qarınlı, hündür, şişman kişi...Atamın dostuydu...

Bir dəfə...

Metalların texnologiyasından yay imtahanı-na yaxşı hazırlaşa bilməmişdim. Kömək etməsi məqsədi ilə yanına getdim. Dinləyib, bir qədər də fikirləşəndən sonra məni başa saldı:

“Gedərsən institutun köməkçi korpusunun 1-ci mərtəbəsində yerləşən poliklinikasına. Mən tapşıraram... Mehparə həkim var, mənim adım-dan ona deyərsən sənə bir həftəlik bülletein aç-sın... Otur yaxşıca hazırlaş...”

Fədakaranə tərpəndim.

Poliklininikanın yerini öyrənib soruşa-soru-şa axır ki, Mehparə xanımı tapdım.

Elə o da, saçı qoşa hörüklü Məhbubə xala-ya oxşayırdı. Ətli baldırları, zərif çiyni, iri əndamı vardı. Bircə hörükləri çatmırdı... Ağ xalatı ütülü, tərtəmiz, nişastalı idi. Qarşısındakı xəstəni yola salan kimi, icazə istəyib içəri keçdim.

“Açıq qoy,” -desə də, qapını örtdüm ki, bizi eşidən olmasın, xəlvətxanada danışaq.

Astadan, arxayın ovqatla:

“Məni Aslan müəllim göndərib,” -dedim.

O dərhal, heyranlıqla mənə baxdı...

Boynunun arxasından saçlarını kəsdirmiş-di. Şabalıdı saçları qısa idi. Parfümü otağı bürü-müşdü. Baxışları qəlbimi riqqətə gətirirdi...

Aslan müəllim zəng vurub tapşırıbmış.

Qrup nömrəmi və ad-familiyamı fərəh dolu pıçıltıyla soruşub, ilk dəfə gəldiyimi öyrənəndə... səliqəylə ağ anket, sonra da xüsusi xəstəlik bül-leteini çıxarıb açdı və əlinin yanıyla blankın üzə-rinə bir neçə dəfə sığal çəkib, təmkinlə:

”Bax, ağzını yumulu saxla ha!” -deməyi də unutmadı...

Ala gözləri alışıb yanır, hər sözü dönə-dö-nə, həm də pıçıltıyla soruşurdu.

Koppuş dodaqlarına qırmızı pomada çək-miş, ağ toppuş barmaqlarının uzunsov dırnaqla-rını da qırmızı laklamışdı.

Barmağına bahalı, brilyant qaşlı üzük tax-mış... boynundan medalyonlu qızıl sep asmışdı. Qulaqlarındakı brilyant sırğalar üzüklə dəst idi.

Saf, ağappaq dişlərini elə bil indicə fırçayla yumuş, gözlərinə, yanaqlarına da yüngül əl gəz-dirmişdi. Ənlik-

kirşanı ustalıqla vurduğundan bu ona çox yaraşırdı. Səsi zərif idi. Gözləri az qala adamı yandıracaqdı.

Xəyalpərvər olduğumdan öz daxili aləmim-dəydim. Amma, alovlu baxışları sonda məni sadəcə oyatdı...

Dərhal da Aslan müəllimin tanışı olduğunu xatırlayıb, xəcalət hissi keçirdim. Şərq küçəsinin əxlaq tabularını bayraq edib susurdum. Zira, axı qadın əməlindən şeytan da baş açа bilməzdi, həm də ki, bu şişman professor aradaydı...

O eləcə hər bir şeyi təkrar-təkrar soruşur, gözlərini gözümün içinə zilləyib baxır, könlündə tutduğu arzusunun iflasa uğraya biləcəyinin isə sanki fərqindəydi. Varlı dul qadınlarda belə hal-lara çox rast gəlmək olardı.

Aslan Quliyevin yaşı altmışa yaxın olsa da, tanışı olan bu dul, şöhrətpərəst qadının isə yaşı qırxa çatmazdı...

Həkim qadın nazik sepli qızıl saatına tez-tez baxır, bir neçə dəfə xəstə tələbə qız-oğlan-lar qapını açıb-örtsələr də... hərdən lap abırsız, ya rişxəndlə baxsalar da əhəmiyyət vermir, heç qıcıqlanmırdı da. Bəxtəvər görünürdü...

O günü südəmər körpə də deyildim, 17 ya-şım vardı. Bığımın tükləri narın idi və üzümə hə-lə tük yeni-yeni çıxmaq istəyirdi.

Arıq bir tələbəydim.

Yaşımın ilahi vaxtıymış!

O vaxtlar bunu anlamaz, bu yaşın fəlsəfə-sini dərk edə bilməzdim.

Mehparə həkim xam olduğumu... saflığımı təəccüb hissiylə anlayıb, nədənsə öz ailəsindən söhbət açdı: Ərinin iradəsinə sözsüz tabe olsa da, onun naxçıvanlı... əyyaş və rəzil olduğunu... sonda isə ayrıldıqlarını şən gülüşlə xatırlatdı.

Yenə heç nə anlamadım...

Düzü elə də küt deyildim, amma ki, anlaşıl-maz dərinliyə malik duyğuları anlamağa o qədər də baş qoşmurdum.

Üzünə matdım-matdım baxırdım...

Zira, modern gənc deyildim. Rayonluydum, əyri-üyrü Şərq küçəsinin, boyu əlli metr olan dar və qaca-quca döngəsindən...

Təlxək, ya aktyor oyunu oynamaqla da heç aram olmazdı.

O, nazla ayağa qalxıb məni yola salanda, əl uzatdı. Soyuq, arıq qolumu ona uzadanda isə əlimi tutub ovucunda saxladı.

Mən utanırdım... amma əlimi çəkməyə də cəsarət eləmirdim. Mərhəmətoyadıcı azad itaət-lə başımı qaldırıb, gözlərimi düz üzünə dikdim.

Gözləri yanırdı. Sanki baxışları ilə məni öl-çürdü. Ərəb nağıllarıtək qəflətən və gözlənilməz dərin bir ah çəkib:

“Sabah da gələrsən,” -dedi.

Ovucu yaman istiydi...

ЧССР yoxsa CCCP?

Hərbi hissə komandirinin təşəkkürü

Pervomayski, 13, 14, 15, 16 və 17 sentyabr 1972-ci il.

III, IV, V və şənbə, bazar günləri.

Qreşnoyun kazarmaya şəxsən gəlməsinə baxmayaraq, starşina nə qədər elədisə də, mə-ni səhər razvoduna durğuza bilmədi.

Səhər gimnastikasına da getmədim.

Baş leytenant, komandir müavini Qreşnoy, bizim starikləri olduğumuz ikinci rotanın əsgər-lərinə ştabın qarşısında uborka elətdirdiyi vaxt gəlib onlara qoşuldum.

Yazıq abrına bürünüb bir söz demədi.

Bir qədər keçmiş hərbi hissə komandirimiz, podpolkovnik Dyakiv özü də ştabın yerləşdiyi bi-nadan həyətə çıxdı və məni görən kimi yanına çağırıb, qeyri səmimi, saxta və süni şəkildə:

-Podmost düzəldiblər? -soruşdu.

-Bəli! -dedim.

- Özün necəsən? Briqadada hərbi intizam nə yerdədir? Neçə kub rastvor sifariş eləmisən? -iri diliylə qalın dodaqlarını yalayıb irişdi.

-Hələlik iki kub metr...

Donbalangöz, razılıqla yekə qarpız başını zorla tərpətdi. Ala-qaranlıqlı vurmuşdu deyəsən. Rəngi qızmış xoruz pipiyi kimi qıpqırmızı qızar-mışdı. İri əllərini yelləyib,

dilinin altında nəsə mı-zıldanıb, havada çırtma vuraraq getdi.

Ştabın ərazisindəki palçıqlı asfalt örtüyünü sulamadan süpürüb tərtəmiz eləmişdik... Yerdə nə qədər toz-torpaq vardı hamısı sir-sifətimizdə, əyin-başımızda idi.

Maddələr itmir axı!

Yerdən qalxan toz dumanı canımızı bürü-sə də, molodoylu-starikli əsgərlərimiz birləşərək canıdildən silib-süpürmüşdülər. Hava toz duma-nına bələnsə də, quru asfalt təmizliyindən göz çıxarırdı. Kaş üstündən heç maşın keçməyə...

Kef idi!

Nəsə, bu gün uşaqların kefi açılmışdı. Ya-rım ilə yaxın idi ki, belə can-başla işləmirdilər.

Razvodda podpolkovnik Dyakivin özü də gəlib çıxdı. Göygöz Bryusov kiçik, ensiz sinəsini şişirdərək, həmişəki ədasıyla qazlı raport verdi. Gənc zabitlər: Kuzmiçenko ilə Qreşnoy və yaşlı praporşik fərəqət dayanmışdı.

Dyakiv, ciddi hərbi addımlarla ikinci rotanın əsgər heyətinin düz qarşısına gəlib, xüsusi ton-da qışqıraraq hərbi salam verdi və... əsgərlərin verəcəyi cavab salamını gözləmədən belə zabit heyətini fərəğət əmrindən azad etdi.

Bir qədər də rotanın qarşısıyla aşağı-yuxa-rı var-gəl edib dümələnəndən sonra qəflətən, at kimi kişnədi:

-БРИГАДА БАБАЕВА ВЫЙТИ ИЗ СТРОЯ!

Cəld 18 nəfər əsgərimlə birlikdə rəsmi fə-rəqət forması alıb bir addım sıradan irəli çıxaraq heykəl kimi dübbədüz dayandıq.

-Odessadan gələn bizim əsgərlərdir... Kef-ləri dursa, əla işləyərlər. Bu günkü təmizlik işlə-rini ideal yerinə yetirdiklərinə görə:

ОБЪЯВЛЯЮ БЛОГАДАРНОСТЬ!

Taytax Nadir sevinclə mənə dümsük atdı.

Elə fərəqət formasındaca... başı dik saxla-maqla hamımız birdən ЧЕСТЬ verib:

-СЛУЖУ СОВЕТСКОМУ СОЮЗУ! - xorla bağı-randa bir qədər ümumi ritmi pozduq.

Sanki qeyri-bərabər bir döyüşdə, ağır məğ-lubiyyətə uğramış yaralı əsgərlərdən ibarət... ni-zamsız dəstədən çıxan qarmaqarışıq səs idi.

Yaxşı deyə bilmədik. Düşvar oldu deyəsən. Lap çoxdan idi... çoxdan idi deyəndə ki, yarım il olardı, sərt hərbi təlimlərdən uzaq düşmüşdük...

Bir sözlə: Dyakiv əlimizə düdük verdi!

Briqadamın əsgərləri işə gedəndə Bryusov məni yanlayıb kənara çəkdi:

-Sentyabr ayında Odessadakı gördüyünüz işlərin naryadını bağlamaq lazımdır, -ciddi şəkil-də bildirdi.

Lap yaxşı oldu.

Nahara qədər işdən azad olundum.

Ştabda starşı narmirovşiklə birlikdə oturub sentyabr ayının biri-onu arası görülən işləri ya-zıb, yoxlayıb naryadını tuturduq.

Mən 700 m^2 suvaq işi yazdığım halda əclaf Tarasyuk pozub Odessada 200 m^2 eləyibmiş.

Elə yaxşı eləyib, orada sostavınızı al-qana boyadıq. Starşı narmirovşiki başa saldım ki, onu bizim əsgərlər döydükləri üçün 500 m^2 halal su-vaq işimizi qaralayıb.

Son qərarımız belə oldu ki: Onsuz da kiçik narmirovşik iki gündən sonra... yarım aylıq nar-yadları bağlamaq üçün Odessaya ezam edilə-cək, orda bu məsələni də yoluna qoyar.

Belə də razılaşıb işə getdim.

Laçının Şamkənd sovetliyinin Kirov sovxo-zundan olan iri gözlü yumru sifət cansız kuklaya bənzər Əhlimanla ağdamlı, Ağdam kənd sovet-liyindən olan lilipud Çingiz Həsənov АКҠОРД gö-türənlərə qoşulub yerə daş plitələr düzürdülər...

Gicbəsərlər ötən 6 ayda çəkdikləri Odessa kefinin dadını, son iki ayda dayanmadan, gecə-ni-gündüzə qataraq eşşək kimi işləməklə çıxar-maq istəyirdilər.

Nədi-nədi rotada, hamıdan səkkiz-doqquz gün əvvəl demblə getmək arzusunda... M.Ə.Sa-bir demiş: “Heysiyyəti-millət bulunurdu.”

Əhlimanla dübədü mağazadan südlü pe-çenye alıb yeyəndə, elə hey bu akkord məsələ-sini qəhrəmanlıq dərəcəsində görülən bir iş kimi dəyərləndirib qürurla qulağıma xırdalayırdı:

-Əvvəl qaçan, canını qurtarar qardaş...

Öləsən səni!

Əvvəl arxı tullan, sonra özünü öy.

Biz Pervomayskiyə gələn gündən salyanlı Adil hauptvaxtda yatır.

Azərbaycanlı əsgərlərdən yalan demirlərsə heç kimin pulu qalmamışdı.

Düz 94 manat pulum vardı!

Özümlə çamadanımdan 196 ədəd fotoşəkli götürmüşdüm ki, vodozaborda görməyən azər-baycanlılara göstərəm.

Starşina Muslimov da uşaqlara qoşulub, il-tifatlı və xoş baxışları ilə bir-bir fotoşəkillərə ba-xırdı. Bu starşina çox yaxşı oğlana oxşayır. Mə-ni başa saldı ki:

-Briqadanın əsgərləri yaxşı iş bacarandır... Əgər belə getsə, yaxşı da işləsələr noyabrın 8-10 arası sizi demblə buraxarlar. Tapşır НАРУШЕ-НИЕ eləməsinlər, hər şey yaxşı olar...

Starşina Müslimovla naharı da vodozabor-da birgə elədik.

Nahardan sonra alçaq və pis davranış sa-hibi olan çənə Telmanla... əzəmətli ЮЖНЫЙ-БУГ çayının kənarına endik. Quru bir yamacda sal-lağı oturub fotoşəkillərə baxmağa başladıq. Düz saat 16:14-ə kimi baxıb, güclə qurtara bildik.

Şəkillər çox maraqlıydı. Əsgərlik həyatının sultanlıq dövrünün əbədi təsvirləri... Bu təsvirlər rəssamın kətanda, rəngli boyalarla işlədiyi tab-lolar kimi əbədiyyətə qovuşmuşdu.

Bu insan bu şəkildə 100 il keçsə də, elə 16 yaşında qalacaqdı! Kiməsə sözlə danışıb, kimə-sə qiyabi təsvir eləməkdənsə, bu fotoşəkilləri o adama göstərmək daha aydın deyildimi?

O ruh kimi yüngül, uşaq kimi qayğısız və il-lah da dəcəl, 16 yaşlı qız kimi şıltaq, müqəddəs, ilahi bir xoşbəxt varlıqdı.

Bəli, Yitkanın şəkilləri sanki canlı idi!

Sanki indi hərəkət eləyib qulağımı buracaq, ya əsgər papağımı qapıb öz başına qoyacaq, ya da gözlərini bərəldib üstümə qışqıracaqdı!

Slovyan mənşəli Yitka bir an da olsun hə-rəkətsiz dayanmırdı.196 ədəd fotoşəkilin də hə-rəsi bir pozadaydı.

Müxtəlif məqamlarda: Gözlərini bərəldən... kədərli... gülən... əlləri belində... ayaqyalın... su-ya girmiş vəziyyətdə...

Şıltaq qız!

Kaş bir dəfə də onunla kəlmə kəsə, görüşə biləydim, ya ÇSSR-də, ya da SSSR-də!

Biz xristian məzhəbindən olan təmkinli Yit-kayla ailə qursaq, dua etmək üçün o Bərdədə nə kilsə, nə də uşağı xaç suyuna salmağa mo-nastr tapacaqdı!

Şəkillərə baxdıqca, o anları xatırlayır, onun hənirini yanımda hiss edir... nəfəsini belə duyur-dum. O ağ saqqız çeynəyəndə də... siqaret çə-kəndə də... şampan içəndə də... öpüşəndə də... xəyal kimi idi... Onu hamıya qısqanırdım...

Dünyaya xoşbəxt olmaq üçün gələnlər: İlk sevgim olan Adilə və Xuraman, formal olaraq nişanlım adlandırdığım Komsomol kimi, slovyan Yitka da ürəyimə əbədi möhürünü vurmuşdu.

Telman onun bütün şəkillərinə baxıb, tilova keçirməyin mümkünsüzlüyünü anlayıb ah çəkdi:

-Doğrudan gözəl imiş! Kaş mən də onu ya-xından görə biləydim...

Onun küt sifətinə diqqətlə nəzər salanda, mənə elə gəldi ki... onun sinəsindən dərin bir ah da qopdu və o nəyəsə gizli işarə vurdu.

Havalandı nədi?

Get tetra quşu ovla, elə sənin əyri çənənə yaraşır çex qızı.

Bu təəssüratlar mənə çox əzizdir.

Nostalji hisslərlə geri qayıtdıq...

Mala götürüb əsgərlərimlə bir qədər suvaq vurdum. Çəpik işlədiyiimdən tərlədim və taytax Nadirlə Səbuhi Qadmalıyevi də götürüb çayda çimməyə getdim.

Xeyli üzüb sərinləyəndən sonra Səbuhi iş yerinə, Nadirlə mən isə mağazaya yollandıq. Bir manatın da başına burada daş saldım.

Çörəklə kolbasa yedik...

Saat 19:00-da mənim briqadamı kazarma-ya yolladılar. İkinci vzvodla birlikdə bizim kartof soymaq növbəmiz imiş...

Uşaqlar yeməkxananın yanındakı anbarda kartof soyanda, əsgərlərimə coşqun və ani bir hisslə işarə vurdum ki:

-Gedirəm, ola bilər qayıtmayım...

Kazarmada peyda olub, tez də yerimə gir-dim. Neçə gün idi, düzəməlli yatmamışdım...

Yaman yorğun idim.

Tez də yuxuya keçərəm.

Uşaqlar gecə birə qalmış canlarını cəhən-nəm əzabından qurtarıblar.

Kazarmaya qayıdanda taytax Nadir zarafa-ta salaraq cəsarət edıb, özgə bir səslə nalə çək-sə də oyanmamışam.

Politinformasiya oldu. Sonra komandir rota bizi, serjant heyətini dəftərxanaya yığdı.

Koryagin dolojit elədi ki:

-Bu səhərki ПОДЙОМda ən pis qalxıb geyi-nən Babayevin briqadası oldu. Zorla qaldırmışıq.

Bryusov məzəmmətlə çox danışdı... Hədəfi vurmaq görünür sonra olacaqdı:

"Ən azı sarı 1 rubl!"

Komandir rota Bryusov starşina Muslimova tapşırdı ki, günü sabahdan Qeydiyyat dəftəri tu-tub səhər podyomunda gecikənləri, qalxmayan-ları qeydə alsın...

Mən yaramaz və nalayiq Koryaginlə müba-hisə elədiyim yerdə tərs kimi də qapı açıldı... və zampolit, ağ Boyko sakitcə qapıdan içəri girdi.

Odessadan gəlmişdi!

Qəhrəman Odessa, Qara dəniz artıq öm-rümün əbədi əziz xatirəsiydi...

İnamsızlıqla işə getdik.

Axşamdan təyin elədiyim 4 uşaq ayaqaltı-ları qurub hazırlamışdı. Özüm də qollarımı çır-mayıb həvəslə işə girişdim. Nahara qədər artıq 50 m^2 suvayıb hazır elədik.

Mürşüdlə mən suvaq vururduq. Rufullayev, yefreytor İlyas Mamedov, göydodaq Ədalət və kuybışevli Hüseyin Mehdiyev də... hazır elədiyi-miz çernovoy yerləri

zatırkalayırdılar. Yerdə qa-lan uşaqlar isə, bu hündürlüyə palçıq daşıyırdı.

Nahardan sonra, yerdə qalan rastvor quru-muşdu. Su qatıb qarışdırmaq istəyəndə sifarişçi olan yaşlı mayor özünü yetirib qışqırdı:

-Tərkibinin sementi yuyulur, bu rastvor qoy başqa bir yerə işlənsin, lap tökülsün çölə amma suvaq işinə yaramaz...

Mən də acıqla yeni palçıq sifariş eləmədim.

Taytax Nadirin briqadasıyla bir yerə yığışıb deyib-gülməyə, zarafatlaşmağa başladıq.

Zərdablı oğlan, onu mən tanımırdım, hara-dansa bura ezam eləmişdilər, qəflətən əlini qu-lağının dibinə dirəyib: “Şuşanın yolları” mahnısı-nı sonsuz bir yanğıyla ifa eləməyə başladı.

Hamımız riqqətə gəlib... heyrət, təəccüb və diqqətlə ona baxırdıq... Mahnı, düzü lap ürəyim-dən olmuşdu, axı Komsomol şuşalıydı!

Elə bu vaxt bərkdən əllərini bir-birinə çırpıb Ramiz Babayev də müğənniliyə iddiali olduğuna əminliklə oxumağa başlamışdı ki... elə bu vaxt... bəxtimizdən salyanlı Adil də qeybdən gəlib çıxdı.

O neçə gün idi “dustaq” yatırdı.

Qreşnoy onu hauptvaxtdan çıxarıb birbaşa bura gətiribmiş... Üzü tüklü olduğundan dəlisov, ata qatilinə bənzəyən salyanlı Adillə hamı bir-bir qucaqlaşıb öpüşdü və

o da qəflətən dayanaraq, qıyya çəkib oxunulan mahnıların davamı olaraq zildən bir segah getdi.

İş tamam yaddan çıxdımı?

Axşamtərəfi bərk soyuq düşmüşdü. Elə-bil birdən-birə qış girdi. Səhər-səhər hava mülayim olduğundan altdan mayka da geyinməmişdim.

Bir qədər keçmiş Boyko gəlib çıxdı. Palçıq məsələsini bəhanə elədik... Zampolit, ağ Boyko da sanki söhbət üçün bərk darıxmışdı.

Könlündən pul qoparmaq keçirdi, nəydisə:

-Sizi yenə Odessaya qaytaracaqlar, bu ar-tıq çox sınaqdan çıxıb, dəqiqdir! -əlində tutduğu bir neçə süpürüm otunu havaya qaldırıb başının üstündə oynada-oynada bildirdi.

Düzü, mən Allahın iradəsindən başqa belə şahidsiz, sübutsuz işlərə inanmırdım, əgər get-sək... bənövşəgözlü Katerinayla, erməni kökənli Natayla görüşsəm dərdim olmazdı!

Onsuz da günlər qırıla-qırıla azalır.

Həlim və ürəyəyatımlı Adiləni, ya sevgimin riqqətə gətirə bilmədiyi qız təkəbbürlü və zəhmli Xuramanı, həm də ki qürurlu və saf Komsomolu ürəkdən və yorulmadan sevdiyimdən, artıq güc-lü məhəbbət bəsləmək təcrübəm də vardı...

Allahı belə aldada biləcəyini düşünən... si-yasi işlər üzrə komandir müavini, baş leytenant Boyko qımışaraq:

-Amma... Odessaya qayıtmasanız, demblə buradan daha tez gedə bilərsiniz...

Bic-bic göz vurmağı da unutmadı.

Bu isə dolayısıyla o demək idi ki... Komso-mola, doğmaca yurd-yuvama, tələbəsi olduğum instituta daha tez qovuşa bilərdim!

Bu da artıq, illərlə üfüqdə arzuladığım və indi qarşımda açıla biləcək möhtəşəm həyat idi!

Əlqərəz, bu yeni təfərrüatları xırdalamaqla ağ Boyko bizi dingildətdi.

Və çıxıb getdi...

Mayor bizi görməsin deyə, yenidən boş bir otağa yığışıb söhbət eləməyə başladıq. Çöl so-yuq olduğundan oturmaq olmurdu.

Leytenant Qreşnoy bir neçə dəfə gəlib, bizi ucadan, qır-vırla danışan görsə də... heç bir söz demədi. Təsbeh kimi şaq-şaq şaqqıldamaqdan-sa, kilim kimi sakitcə abırına büküldü.

Sifarişçini alibi eləmişdik...

Komandir rota gəlib bizi iş yerində tapmaz, zabit Qreşnoyu çağırıb vəziyyəti öyrənər. Onun-la dilbir olan gənc müavini Qreşnoy, sifarişçinin çıxartdığı oyunu ona olduğu kimi çatdırar...

Məxləs, Qreşnoy gəlib bizə tapşırdı ki, elə söhbət elədiyiniz bu gen otaqda ayaqaltı qurun, sabah da burda suvaq vurarsınız.

Yiyəsinə baxıb mismarını çaldı!

Əsgərlərimiz ayaqaltı qurmağa başlayanda xırıltıyla güclə danışan, yeddi ayda bir dəfə kərə yağı bükülən qızılı və gümüşü kağızlarda iki-üç kəlməylə anasına əsgər məktubu yazan Səbuhi Qadmalıyev və Ariflə mağazaya birlikdə getdik.

Povilla və bir buxanka qara çörək aldım.

Hava soyuq olduğundan çox şirin yedik.

Taytax Nadir də gəlib çıxdı.

Xallı Arifə köhnədən 5 manat borcum vardı, onu qaytardım. Həsb-hal edə-edə yerdə qalan pulu dəstələyib, dönə-dönə saydım. 87 manat!

Arif əskinası götürən kimi qaçıb araq aldı.

Məxəzi idi!

Soğan çörəklə içib canımızı qızdırdıq.

Səbuhi Qadmalıyevlə cırdaxanlı taytax Na-dir mübahisə eləyib, bu soyuqda çayda çimdilər.

Kopolunun rus vodkası!

Taytax Nadir bar-bar bağırırdı:

-Yovşan olub, arxanda dovşan yatınca,

Palıd ol, kölğəndə sürü yatsın!

Axşamtərəfi soyuq azmış kimi, hələ üstəlik şimal küləyi də əsməyə başladı. Qorxunc təbiət hadisəsi olmasa da, kazarmaya girəndə yaman üşütmə tutdu məni.

Tələsik kaptyorkadan çamadanımı alıb yun idman formamı çıxartdım. Elə altdan geyinən ki-mi canıma xoş istilik yayıldı.

Nənəmin sözü olmasın, çamadanımı töküb yenidən qavqarmağa başlayanda... küllü-məxlu-qat, bizim əsgərlər başıma toplaşdı.

Yenə, 169 ədəd fotoşəkil əllərdə gəzdi.

Səs-küy qopdu.

Və sarı Bryusov qeybdən peyda oldu.

Əllərdə gəzən fotoşəkilləri görəndə, əlimdə tutduğum bir koma şəklə baxaraq göstərməyimi təkidlə xahiş elədi.

Qəflətən dərk elədim: Slovyan mənşəli çex Yitkayla çimərlikdə, təpərsiz Mürşüdlə dəmiryol vağzalında, mülki paltarda çəkdirdiyimiz fotoşə-killərimizi görəcək.

Ərəsati məhşər!

Bilmədim nə edəm.

Əvvəl çaşdım və dərhal da özümü ələ alıb, on-on beş, hərbi xebelərdə olan fotoşəkillərdən Bryusova göstərib, başını qatdım. Mürşüdə göz elədim ki, çamadanı aradan çıxartsın.

Gənc Qreşnoy da gəlib çıxdı. Sarı Bryusov şəkilləri əlində dəstələdi və üçümüz birlikdə dəf-tərxanaya getdik.

Hərbi hissə komandiri, podpolkovnik Dya-kivin sürücüsü, gürcü Qasviani də dəftərxana-daydı. Ayağını ayağının üstünə aşırmışdı.

Fotoşəkillərə bir-bir baxırdılar.

Dərin ehtiram hökm sürürdü...

Gənc Qreşnoy, cex Yitkayla Danonu səhv-siz tanıdığından, şəklə baxdıqca, ruhən qəlbinin anlaşılmaz məqamlarına qayıdıb ikrahla gülüm-səyirdi. O həmçinin, mənimlə xaricilər arasında yaşanan olayın belə vəziyyət almasına təəccüb etdiyindən matı-mutu qurumuşdu.

Şəhvət düşkünü!

Heç bir zabit və əsgər heyyətinin bacara bilmədiyi işi, məhz mən fəth eləmişdim!

Fotoşəkillərin arasında təkcə birində mülki paltardaydım. Onu da ki, çox ustalıqla masanın üstündən başqa bəhanəylə götürə bildim. Bircə Qasviani başa düşdü və dilxoşluqla göz vuraraq, dərin ehtiram və izzətlə şəkli əlimdən alıb baxdı.

Rota komandiri Bryusov... burnuna cinayət iyi gəlsə də, “bir şey” tuta bilmədiyindən şəkilləri əlində kart kimi dəstələyib, izaholunmaz narazı-lıqla geri qaytardı.

Tutsaydı...

Qarmaqarışıq ailədən çıxdığından... bütün bu olanlara rəğmən, hörmətsizlik edib podpol-kovnikə göstərə bilərdi.

Yaxşı qurtardım!

Yerdə qalan fotoşəkilləri də tələş içərisində təpərsiz Mürşüd aradan çıxara bilmışdı.

Mürşüddəki şəkilləri də geri alıb, çamada-nımı yenidən səliqəylə yığdım. Fotoşəkilləri vaxt eləyib banderol eləməliyəm. Saxlamağın heç bir mənası yoxdur daha, xainlik və ya düşmənçilik-lə oğurlaya bilərlər...

Bryusov hərbi hissə üzrə növbətçi idi.

Qolunda möhtəşəm qırmızı sarğı, zadəgan balası kimi iddialı hərlənirdi. Odur ki tənbəllik et- məyib səhər razvoduna özüm də dayandım.

Saat 05:30 idi!

Halbuki, bu vaxtlar Odessada şirin-şirin ya-tırdım. Qara dənizdə idmana getmədiyim gün-lərdə yeddi-səkkizdən tez durmazdım.

Gecəni bərk yağış yağmışdı... Əsgərlər ka-zarmada danışırdılar ki, sel gedirmiş. Səhərağzı kəsən yağış yenidən çiskinləyib yağmağa baş-ladı. Hava dünən axşamdan soyumuşdu. Odur ki, rotaya buşlat payladılar.

Azərbaycanda yay fəslinin çıxmasına hələ bir həftə qalsa da, burada artıq payız idi və artıq isti buşlatlar paylanırdı.

Yağışa görə razvodu saxladılar...

Başımızdan sel-su tökülə-töküləcə bizi cər-gəyə düzüb işə apardılar.

Kənd yolunda palçıqlı yol-irzə yapışa-yapı-şa, başımızdan leysan kimi su süzülə-süzülə bir it zülmüylə gəlib vodozabora çıxdıq. Yelbeyinlər Odessanın qədrini indi bilərlər...

Rastvor maşınları palçıqdan keçə bilmirdi, batır, dığ-dığ dığıldayırdılar.

Rastvor olmadığından əllə qum və sement daşıyıb yağış tutmayan yerlərdə rastvor düzəlt-dik, dünən ayaqaltı hazırladığımız otaqda naha-ra qədər rahatca işləyə bildik.

Leytenant Qreşnoy suyu süzələnə-süzələ-nə bizim otağa girib, bu qiyamatda 60 m^2 -ə qə-dər suvaq vurduğumuzu görəndə mat qaldı. O, gözlərinə inana bilmirdi. 60 m^2 suvaq və ürəklə işləyən əsgərlərim onu mərhəmətlə düşündürdü.

O biri briqadaların əsgərlərindən hələ heç biri işə başlamamışdı.

Yağış yaxşıca bəhanəydi.

Nahardan dərhal sonra, tərneftli çənə Tel-manla axtarıb quru otaq tapdıq. Taxta-tuxta top-layıb içərisində qıvraq bir tonqal da qaladıq. Ki-çik taxta qırıntılarıyla uzunboğaz çəkmələrimizin saqqız kimi palçığını təmizləyib... iri taxtalardan özümüzə yataq düzəltdik.Tonqalın kor tüstüsün-də, gözü yaşara-yaşara payız əsgər formasında rahatca yerimizə uzandıq.

İstirahət eləyirdik...

Yenə çənə Telmana o qədər slovyan mən-şəli, xristian məzhəbli cex Yitkadan danışdım ki, axırda ağdamlı Telman uzandığı taxta yataqdan dirsəklənib, gözlərini düz üzümə zilləyərək hey-rət dolu təəccüblə dedi:

-Gedib Çexoslovakiyada yaşayaqmı?

Çex Yitka o qədər qəlbimə yatıb ki... bəlkə də Komsomolda hər hansı kiçicik bir nöqsan ta-pa bilsəm, Yitkayla ailə qura bilərəm...

Komsomolun yüngül bir xatası bütün həya-tımı alt-üst edə bilər, dağıdar, hətta məni tərki-vətən edə bilərdi. Sovet ittifaqı kimi nəhəng bir dövləti... doğma yurd-yuvanı... isti ocağı və mü-qəddəs, tozlu Şərq döngəsini adi bir nöqsana görə tərk eləmək? Bu doğrudanmı mümkün idi?

Yitkaya görə nədənsə, belə məşum addım atmağa qəlbimin dərinliyində razıtəhərdim.

ЧССР deyiləndə... artıq СССР-dən də mənə şirin gəlirdi, Yitkaqarışıq lap şipşirin...

Səbəbi isə söz yox, praqalı Yitkadır!

Fəqət... Komsomol ürəyimi sındırardımı?

Əsgərlərimlə birgə bu palçıqlı, yağışlı gün-də, vaynösə Sahib Əkbərovun sözü olmasın, bu soxasoxda, nə az, nə də çox, düz 120 m^2 suvaq vurmuşduq. Bu əsl şücaət idi! Əvəzində, axşam da "mükafat" olaraq klub yuyası olduq. Uşaqlar deyinə-deyinə klubu yuyanda dözməyib getdim.

Həqiqətən bu artıq istismar idi!

ПОЛИТЗАНИЯТИЯnı serjant heyətinə ШТАБ-da hərbi hissə komandiri podpolkovnik Dyakiv şəxsən özü, kazarmadakı lenkomnatada isə sı-ravi əsgərlərlə, adəti üzrə hərdən də lağlağılıq eləyə-eləyə ağ Boyko aparırdı.

Siyasi məşğələlərdə dil bilmədiklərinə rəğ- mən, nədən söhbət getdiyini hələ də müsəlman əsgərlərimiz anlamır, əvəzində isə şıpşirin mür-gü vururdular... Əsgərin yuxu qəniməti...

Hərbi hissə komandiri podpolkovnik Dyakiv göydən süzən yağışa, kənd yollarındakı saqqız kimi zığ-batdağa və bu gün şənbə günü olma-sına baxmayaraq bu günü, xəcalət çəkmədən iş günü elan elədi...

Sən saydığını say, gör hələ fələk nə sayır.

Starşina Muslimov məni rota üzrə növbətçi təyin elədi və bunu bəhanə eləyib vodozabora getmədim. Hətta rota komandiri Bryusovdan da növbətçi olduğumu gizlətdim ki, pul qopartmaq üçün bəhanə eləyib əngəl törətməsin.

Komsomola və yaxın adamlarıma məktub yazıb yeni ünvanımı bildirməliydim...

Rota işə gedəndən sonra, növbətçiliyi qə-bul eləmək üçün hazırlaşmağa başladım.

Əvvəl pullu dəlləkxanaya gedib saçımı vur-durdum. Çox uzanmışdı, həm də saçlarım həd-dən artıq sıx, cod və qıvrım olduğundan pilotka başımdan sürüşürdü. Zil, şəvə kimi qara saçla-rım vardı. Saçımı dəllək seyrəltdi, onsuz da

qar-şıda iki aya yaxın vaxt var, demblə gedənə kimi hələ xeyli uzanacaq.

Voentorqun yanına bir maşın qarpız töküb satırdılar. 3 kq. çəkisi olan birini alıb elə qarpız tığının yanında təkbaşına yedim.

Qarnım cırılırdı.

O qədər yemişdim ki, insan qəlbinin bilicisi olan, bənövşəgözlü Katerinamın qarnı kimi, qar-nım dapdaraşa qalmış, sanki mən də onun kimi körpə gözləyirdim...

Kazarmaya qayıdıb özümü tam səliqə-səh-mana saldım. Köynəyimin təmiz boynuna ağap-paq varatniçok tikdim. Puqovitsaları da qaydaya saldım. Bu dəfə üzümü əl-üz yuyulan uzun, en-siz, otaqda özüm təraş elədim. Adətən vaynösə Sahib, ya da ki, təpərsiz Mürşüd bu işi görərdi.

Bığımı bir az uzatmışdım.

Sonda uzunboğaz əsgər çəkmələrimi maz-layıb o qədər sürtdüm ki, sapoqlarım artıq işığı əks elətdirirdi.

Bir az da yıxılıb yatdım...

Yuxudan ayılandan sonra isə, lenkomnata-da oturub Komsomola giley dolu bir məktub ha-zırladım və yeni ünvanı göstərdim: Nikolayevski oblast, qorod Pervomayski, в/ч 11741 “ö”.

Əsgər məktubumda Komsomolu xeyli mə-zəmmət elədim ki: Niyə bu qədər susur? Bəlkə məni ətəyinin uzunu 12-13 sm. olan, Odessanın göbəyi açıq qızlarına qısqanır?

Artıq hərbi xidməti başa vurmaq üzrə... əs-gərliyin lap astanasında, eləcə papağı başımıza basıb vətənə dönmək ərəfəsindəyik... Səbrimiz lap tükənib, ancaq bir qədər də tab gətirməliyik...

16 sentyabr 1972-ci il.

Gecə vaxtım çox olacaqdı, yerdə qalanları da onda yazaram...

Kazarmadan şütüyüb çıxdım və heç nəyin fərqinə varmadan voyentorqa getdim.

Yatandan sonra qarnımın köpü çəkilmişdi. Mağazadan quru, duzlu balıq alıb iştahla yedim. Quru balıqdan sonra da elə hey mağazaya girir, su, peçenye, povidlo, şokolad alıb yeyirdim.

Pulumu ehtiyat üçün bir də çıxarıb saydım. 85 manatım qalmışdı, soldat üçün çox böyük bir əlçatmaz sərvət idi bu...

Sonra hamama getdim. Baş-gözüm tük idi. Yaxşıca çimdim...

Kino-klubun taxta lövhəsindən çex kino-ko-mediya afişası asılmışdı. Dərhal yaxınlaşlb oxu-mağa başladım.

Filmin adı: КОНЕЦ АГЕНТА idi.

Razvoda da getməliydim, amma filmlə eyni vaxta düşürdü.

Üç dnevalnım vardı. Maraqla çox fikirləşib, axırı ki, çıxış yolu tapdım: Sıravi əsgərlərdən iki-sini dnevalnı... birini isə öz yerimə növbətçi kimi razvoda göndərdim.

Starşina Muslimov başa düşsə də, üstünü vurmayıb, çox sağ olsun.

Amma heyf ki, filmə baxmağa gecikdim.

Çex filmi mənim üçün çox əziz idi. Ora mə-nim Yitkamın vətəniydi və oranı mən də özümə ikinci vətən hesab eləyirdim. Mən tələsik kinoya çatanda 18:00 idi. Film isə 17:30-da başlayırmış.

Tüklərim necə qabardı!

Film mənə nə qədər əziz olsa da... təəssüf ki, baxa bilmədim.

Rus əsgərlər xəbər gətirdilər ki, mənim bri-qadama da АККОРД vermək istəyirlər.

Hətta zampolit Boyko məni görən kimi:

-Nadir Allahverdiyevin də briqadasını sənin briqadana verəcəklər. Molodoyları isə, hər ikini-zin briqadasından çıxaracaqlar. Akkord götürün, gecə-gündüz işləyib vətən tapşırığını yerinə ye-tirin, üzü ağ, alnı açıq çıxın gedin yurd-yuvanıza, isti ocağınıza... -özünü ağıllı hesab edənlər kimi, yaşıl gözlərini qıyıb dedi.

Düzü çox sevindim, çünki akkord götürsəm noyabrın yeddisinə kimi tərxis oluna bilərəm. Bir gün tez buraxılmağımın özü də əvəzsiz idi! Belə olsa Komsomoluma qovuşmağa nə qalır ki?

Kaş akkord məsələsi çin çıxa!

Gecə rota işdən qayıdanda, yenə hərənin ağzı bir hava çalırdı.

O da məlum oldu ki... bizim iki starik əsgər: Kəlbəcərli vaynösə Sahib Əkbərov və kuybışevli Hüseyn Mehtiyev hətta akkord götürmək istəmir.

Görək axırı necə olacaq?

Rota üzrə növbətçi olsam da əynimə parad forması geyinməmişdim. Eləcə xebeləri əynimə çərtdədib kazarmada gəzişirdim.

Odboydan sonra da bütün işləri dnevalnı-lara tapşıraraq, özüm yıxılıb yatdım.

Oyananda gecə yarı olsa da, Bryusov hələ evinə getməmişdi. Dəftərxanada oturub, onunla xeyli söhbət elədik. Tez-tez xatırladırdı:

-Akkord götürməyinizin sizə çox, sənə isə, ali təhsil məsələsinə görə lap çox xeyri olacaq...

Odessadakı əsgərlərimizdən demək olar ki, düz bircə ay əvvəl hərbi xidməti başa vura bilər, qıpqırmızı hərbi biletləri əlimizə ala bilərdik.

Kaş son gecə olaydı!

Artıq isti ocağımız üçün köklənirdim...

Məni bir sual çox düşündürürdü. Bu böyük sual oydu ki, Komsomolu görəndən sonra pra- qalı, slovyan mənşəli,

xristian məzhəbli çex Yit-kanı, görəsən ailə qurmaq məsələsində, tamam başımdan çıxara biləcəyəmmi?

Dərindən bir qədər düşünəndə, çox ümidli oldum: Komsomol mənə könül verib, məni sevir və düz iki il də ki, sərasər yolumu gözləyib. Ona xəyanət eləmək düzü günahdır... Həm də ki, axı mən özüm də onu ürəkdən sevirəm.

Yitkayla qurulacaq ailənin sonluğu isə, nə-dənsə mənə qaranlıq görünürdü...

Gecə lenkomnatada oturub, bütün məktub-laşdığım adamların hamısına yeni ünvanımı ya-zıb göndərdim.

Siqləti xarab həkim-tamada, amalsız, məs-ləksiz, əqidəsiz və atasını basmarlayaraq ayaq-ları altına salıb o ki var çığnayan, Bahar arvadın böyük oğlu Vaqif Hüseynova da... etibarsız, dar majalda kişiliyə arxa çevirən, şərəfsiz Ələsgərə, donbalangöz Qanboyun oğluna da yazdım...

Səhər dnevalnı məni oyadanda baxdım ki, üç dnevalnı döşəməni yuyub-təmizləyiblər. Hər yan tər-təmiz idi. Öyrəndim ki, gecəni yatdığıma da heç kəs fikir verməyib.

Saata baxıb... qəfil qışqıraraq, rotaya: QAL-XIN! - əmrini verdim və ümumi işıqları yandırdım.

Dərhal, kazarmada canlanma başladı.

Bu gün istirahət günüydü.

Yağış kəsmişdi, amma hava soyuq idi.

Səhər yeməyindən sonra... dərhal lenkom-natada oturub əvvəl gündəliyi yazdım. Qəzet və jurnalları oxudum. Sonra qardaşım Vidadiyə və Tahir Ağayevə məktub yazdım.

Saat 10:00-da zampolit Boyko mənim bri-qadamı dəftərxanaya yığdı.

Hamı əyləşəndən sonra, ağ əllərini bir-biri-nə çarpazlayıb:

-Sabah sizin briqadaya akkord verəcəklər...

O bir qədər danışandan, marçıltıyla bir stə-kan çay içəndən sonra, əsl mətləbə keçdi:

-Bu gün bazar günü olsa da, səhvən vodo-zabora rastvor gətiriblər... Gərək briqadanız ge-dib onu işlədə. Özünüzə xeyirdi, nə qədər vur-sanız akkorda girəcək. Saat 14:00-a kimi işləyin, rastvor artıq qalsa, bir yer tapıb gizlədərsiniz.

Mənim növbətçi olduğumu eşidəndə isə ki-şi-kişi kişilənib, özünü dartaraq:

-СНИМАЮ! -qışqırdı.

Xülasə xebe formamı, yeni buşlatı geyinib, briqadamı vodozabora apardım.

Saqqız kimi palçığı ayaqlaya-ayaqlaya zor- bəlayla getdiyimiz yerdə, qabağımıza üç erməni əsgərimiz çıxdı: Alik Oqanesyan, Markaryan və Əmiryan. Hamısı birdən xorla və sevincək, hay-la bizi muştuluqladılar ki, bəs

gözünüz aydın ol-sun, sifarişçi mayor rastvoru geri qaytartdı!

Bizim gələcəyimizdən onun xəbəri yoxmuş.

Nə yaxşı oldu!

Alik gülə-gülə dedi:

-Eşitdim akkord götürürsünüz. Elə olsa ha-mıdan əvvəl gedə bilərsiniz. Mütləq götürün!

Deyəsən Oqanesyan bizim eşşək kimi ge-cəni günüzə qatıb işləməyimizin tərəfdarıydı.

Yanındakı ermənilər də onun sözünə qüv-vət verdi. Yandığımdan kükrəyib, kinayə ilə:

-Sizin ermənilər necə ara, vaxtı yetişəndə onlar da akkord götürəcəkmi? -soruşdum.

Alikin əvəzinə cəld erməni Əmiryanla Mar-karyan hırıldayıb özləri cavab verdi:

-Yox ara, sən nə danışırsan?

Birdən Maarif kənardan qışqırdı:

-Onda hırrr elə əəə! Bizə belə yol göstərir-sən, ayy erməni dığası?

Markaryan dedi:

-Hırrr elə, həmənədi ara?

-Hoppan əə....Əysi! -bunu da yenidən Ma-arif deyəndə Alik tez aranı sakitləşdirdi:

-Panika yaratmaq lazım deyil. Tez getmək istəyən əsgərlərin biz yolunu göstərdik ki, axirət dünyasındakı gələcək həyatımız qır qazanında əzabla keçməsin, əgər yalan deyiriksə, qoy əc-dadlarımızın qəbrinin üstünü pıtraq bassın!

Əmiryan cırnadığımızı görüb, tez gülə-gülə, mərhəmətoyadıcı, canıyananlıq və ustalıqla:

-Ara, rastvor maşını geri qayıtdı, heç kimə hələ bildirməyin, tərpənin alma bağlarına!

Bax, bu başqa məsələ, bu oldu əsil kirvəlik.

Vodozabora götürüldük.

Ermənilərin məsləhətinə cırnasaq da, düzü ən tez getməyin yolu akkorddan keçirdi. Akkord götürsək 25, ya uzağı 30 günə buralarla qurtara bilərik. İyirmi beş, otuz gün nədi ki? Ürəyim qəfil sevincdən həyəcanlanıb atlandı. Zarafat-zarafat finişə yaxınlaşmışıq. Üç-dörd həftəyə Bərdədə olmaq? Bu artıq ərəb nağılı, ya da ki, misirli yu-xusu kimi bir şey idi...

Vodozaborda oturub akkord məsələsini də müzakirə elədik. Ramiz Babayev və Maarif mo-lodoy idi, bir də dəli Şahmar özü tək akkord gö-türmək istədiyini bildirdi... Qalan əsgərlər siyahı tutub, hamısı da qol çəkdi ki, akkord götürməyə razıdırlar, təki bir aya bizi hərbi xidmətdən tərxis eləsinlər... Yurd-yuva həsrəti bitsin...

Uşaqlarla razılaşıb çayın kənarına endik.

Alma yığmaq marağı, bizi yamanca qıcıq-landırıb həvəsə gətirmişdi.

Mürşüdü göndərib çənə Telmanı çağırtdır-dım. Taxta qayıqlar məsələsinə o “baxırdı.”

Vaxtıyla bu qayıqdan ilk dəfə orta məktəbi qurtaran gün Göy göldə sürmüşdük. O vaxtdan düz beş il keçirdi. Onda necə xoşbəxt, bəxtəvər, qayğısız uşaqlar idik, ey yaradan!

İndi isə, iki ilin ağır qul əməyi və qürbət elin yad sifəti bizi bozartmışdı. Həyatın bax elə belə-cə, orta məktəbdəki kimi olmadığını anlamışdıq. Bizim 18-20 yaşlı əsgərlərin döyənəkli barmaq-ları bunun bariz sübutuydu. İsti ocağından yurd-yuvasından perik salınmışların günündəydik...

Telmanla Mürşüd taxta qayıqlar gətirdi.

Elə yenicə çırmanıb minmək istəyəndə kəl-bəcərli vaynösə Sahib gəldi ki, bəs səni koman-dir ОТРЯД telefona çağırır.

Hövlnak yüyürüb getdim.

Tövşüyə-tövşüyə danışmağa başladım.

-Nə iş görürsünüz orada?-sadəlövh rus za-biti, cadugərcəsinə soruşdu.

-Heç, ayaqaltı düzəldirik sabaha. Düzü, bu gün rastvor olmadı... Ona görə...

Akkord götürməkdən söz saldı:

-Sabah naryadı yazıb verəcəyik. Prikaz çı-xan günə kimi də qurtara bilsənız, çıxıb evinizə gedəcəksiniz. Hamınızı buraxacağam!

İlahi bu nə danışırdı?

Prikazın çıxmasına cəmisi bir aydan da az vaxt qalıb. Deməli belə tez gedə bilərik?

Dəstəyi asıb, güllə kimi götürüldüm.

Söhbəti olduğu kimicə uşaqlara xırdalayıb, sevincək taxta qayıqlara doluşduq.

Dəli Şahmar, yefreytor İlyas, Qubad Hacı-yev və çənə Telmanla birlikdə, iki boş meşox və bir setka götürüb, ЮЖНЫЙ БУГ çayını yara-yara irəliləyirdik. Baxışlarımız alışıb yanırdı.

Avarları özüm çəkirdim.

Mənim Göygöl təcrübəm vardı.

Çənə Telman kefimizə qəfil soğan doğradı:

-Enli çayla mühərrikli qayıqda patrullar gə-zişir, bizi görsələr tutacaqlar!

İçlərində də komandir olduğumdan nə olsa, mənə olacaqdı!

Amma iş-işdən keçmişdi. Qorxan gözə çöp düşər. Qonşu Xeyrulla əminin yazıb, üçünc ka-ğıza bükdüyü duanın cəddini çağırdım.

Düzü mən duaya, caduya, fala, tək səbirə, pişiyə, göz-nəzərə, 13 nəsdi deyənlərin heç biri-nə inanmırdım. Seyid, ya molla məsələsinin ha-mısı karva tələsiydi və fırıldaqçıların məkrlə do-lu pis əməliydi. Bircə bu nurani sifətli qonşumuz Xeyrulla kişinin özünə simpatiyam vardı. Yazdı-ğı dualara yox, elə-belə, çətinə düşəndə zarafat və ümidlə cəddinə and içərdim.

Düzələn və düzəlməyən vaxtları da olardı...

İlk dəfə olaraq günün günorta çağı ЮЖНЫЙ БУГ çayını, yedəyindəki boş taxta qayıqla birlik-də üzüb keçdik... Bəxtimizdən patrullarla qarşı-laşmadıq. İki ədəd taxta qayıqları o biri sahildə, elə qamışlı lehmədəcə gizlədib, alma bağlarına sarı, qoparağı götürülən oğrular kimi götürüldük.

Yaşıllığı soluxmuş yamaca doğru qaçdıqca, ürəyim sevindiyindən az qalırdı, köksümdən at-lanıb çölə çıxsın.

Alma bağlarının birinci cərgəsinə çatanda, uzunsov yemiş, yumru колхозник və futbol topu boydaca, uzununa ala-bulalı qarpız bostanı gör-dük. Xırda tumlu qarpız və колхозниклər balaca olsa belə uzunsov yemişlərə baxanda, nisbətən şirin, sulu və özbəklərinki kimi çox da dadlı idi.

Boş meşoxun birini qarpız, yemiş və кол-хозниклərlə doldurduq.

Sonra alma bağlarına hücum çəkdik.

Səs-küy, söyüş və çığır-bağırla bir-birimizə almadan tolazlaya-tolazlaya, torlu-tozlu dişləyib yeyə-yeyə, ikinci

meşoxla boş setkanı da doldu-raraq, köməkli daşıyıb qayıqlara yığdıq.

Cərgəylə əkilmiş alma bağı hədsiz dərəcə-də böyük olduğundan, biz almaları yığanda, hər ağacdan bir-iki alma qoparıb, elə hey irəlidəkinə doğru can atırdıq.

Yenicə qayıqlara doluşmuşduq ki, bir yaşlı rus МУЖИКi, kepkasını yelləyə-yelləyə uzaqdan üstümüzə qışqırmağa başladı.

Və МУЖИК ağır patavalarında qəflətən bizə sarı cumdu.

Amma o gecikmişdi!

Qayıqda hərə öz hünərindən danışıb, МУ-ЖИКə sarı əl-qol ata-ata, çığırışıb gülüşürdülər.

Çox maraqlı oldu. Əsl cənnət almalarıydı. Divlərin apara bilmədikləri almaları indi biz yığıb dərin, lal axan nəhəng hövzəli çayla aparırdıq.

Necə ehtirasla, çılğınlıqla danışırdıq!

Birdən kimsə qışqırdı: “Gəlin çiməyin!”

Elə bil hamı bu sözə bənd imiş. Tələsik so-yunaraq, pırrr eləyib uçan quşlar kimi, çənə Tel-man və Qubad Hacıyevlə birlikdə çayın ortasın-da, qayıqdan sıçrayıb çox dərin yerə hoppandıq.

Hava soyuq, su buz baltası kimi arıq canı-mızı kəssə də çimə bildik. Su adamı elə rahatca ağuşuna alıb, div addımlarıyla aparırdı ki...

Soyuğa adaptasiya olunan kimi çay adama sonsuz ləzzət eləyir, adrealin verirdi. Çay yatağı həddindən artıq nəhəng olduğundan, gur su lal axır, qorxunc görüntü verirdi...

Qayığa minə bilməyəndə ləntəran danışan əsgərlərimizi o biri sahildəki ПОРТ-da gözləyirdik. Porta mülki adamlar da yığışmışdı.

Gözəl dəqiqələr idi.

Odessa ayrı cür cənnət idisə, Pervomayski də belə cənnətiydi. Odessada Qara dəniz bura-da isə nəhəng ЮЖНЫЙ-БУГ çayı vardı.

Hərəsi bir cür gözəldi!

Hər dəfə suya tullanıb çayda üzəndən son-ra, dayanmadan hey ləngər vuran taxta qayığın sürüşkən yanlarından bərk-bərk yapışıb qayığa dırmaşanda, necə də nəşələnirdik!

Boş qayıqları və oğurladığımız bağ, bostan meyvələrini götürüb porta tərpəndik.

Əsgər olmağın da belə xarüqələri varmış.

Vodozaborun çaya baxan hissəsində yığı-şıb, porta baxan lənətüllah əsgərlərimiz bizə pa-paq yelləyirdi... Haraylayıb, onları da çağırdıq.

Düz saat 14:00-a kimi beləcə kef çəkdik.

Portda bizim əsgərlərin yanında, dişləri tö-külmüş, neybət bir qarımış qız da vardı.

Hırıldaya-hırıldaya, lal bir sevinclə məndən колхозник istədi.

Ətirli колхозникdən birini ona ərmağan et-dim. Qurumuş canıyla yan basa-basa uzaqlaşdı.

Geyinib oğurluq meyvə və bostan bitkilərini, ata malı kimi beşimizin arasında böldük.

Hərə öz payına düşəndən oğurluğa getmə-yənlərə də səxavətlə payladı.

Adıvayqanlı əsgərlərimi cərgəyə düzüb əs-gəri nizamla kazarmaya gətirəndə saat 15:25 idi. Nahara artıq gecikmişdik.

Yeməkxanada soyumuş yeməklərlə yanaşı oğurluq колхозник, yemiş, qarpız göy və qırmı-zı almalardan da yedik...

Nahardan sonrakı istirahət vaxtında isə çə-nə Telmanla somovolkaya getməyi qərara aldıq.

Düz vodozabora kimi qarşımıza patrul çıx-madı. Ürəkli olanda, nəsə uğurlu alınır.

Kəndin palçıqlı küçəsiylə gedəndə hətta bir şişman qadın bizi saxlayıb həyətinə dəvət elədi. Başı kasinkalı, ləngəryerişli yaşlı kənd qadınıydı.

Gözləyin deyib, ayağındakı patavalarla hə-yətdəki dama girdi.

Bir qədər ötmüş armud, üzüm və almalarla qayıtdı. Meyvə üçün ləlo getsək belə, götürmək istəmirdik. Çevik

hərəkətə malik olmayan qadin, meyvələri bizə zorla verdi. Hələ patavalarını ye-rə döydü və ərklə üstümüzə qışqırdı da. Patava yerə dəyən kimi bir qancıq it özünü cıra-cıra bi-zə yetirdi. Əsgər sapoqlarımıza cumur, dişlərini xırçıltıyla qıcıyırdı.

Arvad itə təpindi.

Amma nə qədər ki hələ ürəkdən təpinmirdi, qancıq yiyəsini duyub yaman həyasızlıq eləyirdi. Elə ki, ölgün, şişman arvad rəsmi duruş alıb üs-tünə qışqırdı, it dalı-dalı zingildəyib götürüldü.

Arvadın sovqatını zor-xoş götürdük.

Allahımızın mərhəmətindən məhrum, lələ-yün Telman çənəsinin əyri yerinə salıb, patavalı arvada pul vermək üçün əlini cibinə saldı.

Yazıq arvad məlulluqla hirsləndi və bezgin halda dalbadal:

-Mürtəd! Mürtəd! -deyə-deyə qışqırdı və bi-zi həyətdən qovub çıxartdı.

Колхозник yeyə-yeyə veyil-veyil gəzib tər-neftli Telman məni bir tanışının evinə gətirdi.

Sən demə Rizvan da oradaymış.

Qucaqlaşıb görüşdük...

Ağdamlı, sifəti pirişiklə dopdolu Rizvan düz üç dəst mülki paltar gətirdi.

Rizvan özünü nədənsə, evin halalca sahibi kimi aparırdı. Bəs Telmanın tanışının eviydi?

Hər üçümüz mülki geyinib evdən çıxdıq.

Əla oldu!

Pervomayskidə ilk dəfəydi mülki paltar ge-yinib somovolkaya çıxırdım.

Astanada telefon aparatı qoyulmuşdu.

Birdən... Qırmızı kostyumlu Krasiki xatırla-dım və cəld dəstəyi qaldırıb, onun ev nömrəsini tələş dolu həyəcanla yığdım.

Çağırdı!

Ürəyim atlanırdı. Kaş dəstəyi qaldıra. Am-ma üç dəfə ardıcıl yığsam da... dəstəyi qaldıran olmadı... Görünür Pervomayskidə deyilmiş...

Çənə Telman vodozaborun yaxınlığındaca gizlətdiyi iki velosipedi şəstlə çıxarıb, iki il əvvəl, 1970-ci ildə Sovet İttifaqı tərəfindən raketlə aya endirilən Lunomobil kimi təqdim edərək, iftixarla birini mənə verdi. Rizvanı isə öz tərkinə mindirdi. Və yalançı özü olsun, onun hamilə sevgilisigilə tərəf səmt alıb, velosipedlərlə şütüdük...

Görünür ki, qaynanasına xəbərdarlıq edib-miş.Bizi çox yaxşı qarşıladılar. Mülki paltarın da yaxşısını mənə vermişdilər.

Sarışın, gözəşirin qız idi. Gözləri qəhvəyi, boyu 1m.50 sm. güclə olardı.

Fəqət... qarnında heç nə hiss edlimirdi. Qı-zın dişləri seyrək, dodaqları qaytan idi.

Birlikdə kinoya getməyi qərara aldıq.

Sarışın qız tərneftli çənə Telmanın, üzüpi-rişik ağdamlı Rizvan isə mənim tərkimə mindi.

Zabitlər evinin qarşısında münasib yer ta-pıb velosipedləri saxladıq. Çənə Telman çapa-raq yaşlı qarovulçunu yaxalayıb cibinə bir neçə ağ və mis qəpik basaraq:

-Qurşağının altını yaxşıca pərgarlayarsan, - deyib, lunomobilləri bərk-bərk ona tapşırdı.

Zabitlər evində iki seriyallı hind filminə bax-dıq. ДОРОГА К СЧАСТЬЮ filmi idi.

Düz, altı manat pul verdim biletlərə.

Üç biz, bir də bu gözəşirin qız...

Azərbaycanlı kapitan rütbəli, pianizim mə-harəti olan Altay həkim də kinoda idi.

Filmə baxdıqca gözlərim dolurdu... Çox kə-dərli və maraqlı film idi.

Sızanaqlı Rizvan və çənə Telman kinodan sonra qaytandodaq rus qızıyla harasa getdilər.

Mən mülki paltarımı dəyişən kimi kazarma-ya sarı tərpəndim. Yeyin getdiyimdən bərk tərlə-mişdim. Ürəyim nəsə darıxırdı...

Bəxtimdən yolda patrullarla qarşılaşmadım. Kazarmaya girəndə isə, rota artıq son proverka-ya düzlənirdi. Cərgədə yerimi tutanda, dərindən nəfəs aldım. Filmin təsirindən heç cürə çıxa bil-mirdim. Hələ də filmin sehrindəydim...

Növbəti bir əsgər həyatını da uğurla yaşa-yıb, qayğıyla yerimizə girdik.

İkinci rotanın komandiri dakqa Bryusov ye-nə qızıb molodoylara naryaddan döşəyir, döşə-mə, klub yudurdur, kartof soydurur, yuxusuz əs-gərlərin canlarını alır, onları sarsıdıb sındırırdı...

Gözlərimə yuxu getmirdi.

Axırki, naəlac qalxıb lenkomnataya keçdım. Bu günkü mətbuatı xeyli araşdırıb, fotoşəkillərə nəzər salıb, idman yeniliklərini saf-çürük elədim.

ПРАВДА qəzetindən yeni bir xəbər oxudum:

“Çexoslovakiyada betonu asanlıqla deşən “ФЕРРОСИЛ” adlı yeni aqreqat hazırlanıb. Bu aq-reqat 10 saniyə ərzindəcə beton divarda səssiz deşik açа bilir.”

Yerimdə qurcalanırdım.

Məxləs, praqalı pəriçöhrə Yitkanın vətənin-də baş verən hər bir yenilik mənə sitayişkaranə ləzzət eləyirdi...

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Akkord götürdük,
naryad ala bilmirdik.
Qır qazanı ətrafında
sovet hərbi həqiqəti...

Pervomayski, 18, 19, 20, 21, 22 və 23 sentyabr 1972-ci il... I, II, III, IV, V və şənbə günləri.

Gecədən yağmışdı.

Kəndin yolları yapışqanlı zığ-palçıq idi.

Bəzi çuxurlar suyla dolduğundan rota yeri-dikcə ətrafa sıçrayır, əsgər formamızı çirkə batı-rırdı. Hava nəm və soyuq olsa belə... sübh hələ açılmasa da yeyin yeridiyimizdən tərləmişdik. İş yerinə, vodozabora çatanda hava işıqlandı.

Dünəndən qurduğumuz hazır ayaqaltılarda əsgərlərimə iş tapşırıb rotamızın komandiri, baş leytenant Bryusovla birlikdə Kiselyovun arxasıy-ca getdik. Və akkord məsələsini həll elədik.

Nadir Allahverdiyevin briqadasındakı azər-baycanlı əsgərləri də mənə vermək istəyirdilər. Amma, razı olmadım... Gəlin hərəmizə on starik əsgər verin və ayrı-ayrılıqda da akkord götürək. Küllü məxluqatı bir yerə yığmayın.

Elə belə də razılaşdıq.

Bryusov yolboyu mızıldanaraq, kiminsə ru-huna dodağının ucunda dualar oxuyurdu...

Taytax Nadirlə birlikdə himayəçilik edərək, briqadamıza, adama düz on nəfər azərbaycanlı starik əsgər seçib götürdük.

Artıq bu gün naryadlar bağlanacaq.

Həvəslə qollarımızı çırmayıb işə yenicə gi-rişmişdik ki, qəflətən yağmağa başladı.

Dərhal Laçın və Kəlbəcər uşaqları bir ağız-dan qışqırdı: -De hıı!

Beton daşıyan maşınlar da gəlib çıxmadı.

İt zülmüylə, sementlə qumu əllə qarışdırıb rastvor hazırladıq və iri, ağır taxta nasılkada da-şıyaraq işə başladıq.

Akkordun ilk günü bax beləcə nəhs gətirdi!

Gün ərzində cəmisi 40 kvadrat metr suvaq vura bildik. Necə deyərlər, yıxıl dünya bas məni, gözüm görməsin səni.

Nahar vaxtı da, Mürşüdlə Kuruskanov bərk mübahisə elədi. Təpərsiz bu azmış kimi qızışıb, iki iti bir daşla vuraraq Karyaginə də söydü.

“Yırtıcı quşun ömrü ki, az olar,” -deyə-deyə güclə aranı sakitləşdirə bildim.

Xəbər dərhal Bryusova çatdı.

Axşam işdən ac qayıdanda, rota sel-suyun içərisində yorğun-arğın, qırıq qoşun kimi ümid-siz irəliləyirdi. Sanki hamısı vərəmli xəstə idi.

Möhtəşəm ana ağısı çatmırdı!

Çılxa suyun içindəydim...

Axşam proverkasına düzüləndə, vəziyyətin gərgin olacağını hiss edib, işə müdaxilə edərək, xaç atası qismində çooxx təkid edəndən sonra, Mürşüd Kuruskanovdan üzr istədi.

Yoxsa cəncəl Bryusov sağ əlim olan təpər-siz Mürşüdü bu savaşa görə, bəhanə eləyib ak-korddan çıxartmaq istəyirdi. Amma, necə deyər-lər: Bir yara vur, karlı vur.

Bu dəfə də təhlükə sovuşdu...

“Akkordun naryadı bağlandı,” -dedilər, an-caq nədənsə mənə göstərmədilər. “Bu gün mü-hasibatlıqda qiymətləndiriləcək, sonra da YHPdə təsdiq ediləcək,”-deyib, nəsə, bəhanə gətirdilər.

Bu günkü əziyyətimiz də havaya uçdu.

Akkordun işi sabahdan başlayacaq.

Tülküdurmazdan oyanıb, akkord işinə baş-lamaq ümidiylə işə tələsəndə, həyətlərindəki al-ça ağacının nazik budaqlarından yellənçək kimi sallanıb yırğalanan vaxt... gözləri gözümə toxu-nan incə məqamlı anlarda, içimi titrədən qəhbə Bahar xalanın sözü olmasın: “Yenə poxu çıxdı!”

Akkordun naryadı hələ tam hazır olmayıb, qiymətləndirmə işi başa çatmayıb, -dedilər.

Bu gün də, bu xəbərlə qara gəldi...

Nahara kimi həvəssiz dümələndik.

Nahardan sonra ayaqaltı düzəltdik. Fikrim bu idi ki, naryad hazır olan kimi, elə bu gecədən də vodozaborda qalıb işləyək.

Vaxt itkisi olmasın.

Axşamtərəfi naryadı gətirdilər.

Səbrimiz yamanca tükənmişdi. Odur ki, tə- ləsik, həyəcanla açıb baxdım: Vodozaborun bü-tün malyar işləri, kanapatka və otkoslar bizə ve-rilib. Taytax Nadirin əsgərlərinə isə bütün beton hissələrin iç və çöl, suvaq və malyar işləri...

Naryadları geri aldılar.

Bəhanəsi də: “Təsdiq edilməsi qalıb.”-oldu.

Bircə bu zəhrimar təsdiq işi də qurtarsaydı, işimizi bilər, canımızı şərəflə ana vətən yolunda qoyub, doğmaca yurd-yuvamıza, isti ocağımıza qayıdardıq. Bu yerdə də, Bahar xala deyərdi:

“Bir yanda ağlaşma, bir yanda çalğı...”

Nahardan sonra malyar işinə start vermək qərarına gəldim. Və qəflətən Komsomol yadıma düşdü, tezcə də F.M.Dostoyevskinin işlətdiyi bir cümlə haradansa ağlıma gəldi: “Qəlbim seçib ki sizə qovuşum və qocalıqda ömrümüzü bir yerdə başa vuraq...” Sonsuz bir ilhamla işə başladım.

Çoxlu vedrə, kist lazım idi. Heybətli Mürşü-dü kazarmaya yolladım ki, kaptyorkamızdan ta-pıb gətirsin, vodozaborun da ora-burasından ta- pib, tapıb deyəndə ki, düzü oğurlayıb götürdük. Kuporos da aldım.

-Ya Allah! -çağırıb başladıq.

Saat 17:00 idi.

Xeyrulla kişinin üçbucaq şəkilli, çay kağızı-na bələdiyi gümüşü duanın da adını çəkdim.

Akkord işinə necə həvəslə başladıqsa, bir zaman xəbər tutduq ki, gecə saat ikini keçib.

Tüklü əndirabadi Mürşüdün sözü olmasın, ujin-mujin meydanı deyildi daha. Üç həftə vətən yolunda can qoyub, yurd-yuvaya üç həftə də tez gedəcəkdik. Qədəmi yüngül olsun!

Əlqərəz, 300 m^2 yeri kuporosladıq, 100 m^2 suvadığımız yeri də, iki dəfədən ağartdıq.

Uşaqlar artıq dəlicəsinə işləyəndə, arxayın düşüb yan otağa çəkildim.

Saat 02:41 idi.

Taxtadan özümə yer hazırlayıb uzandım.

Gözlərimin hovunu almaq istəyirdim. Otaq zülmət qaranlıq və həddən artıq soyuq idi.

Dizlərimi hələ qarnıma yığmışdım, yenə iki buşlatda titrəyirdim... Görünür aclıq da öz sözü-nü deyirdi. Hardansa bizim bir atalar sözü yadı-ma düşdü: “Aca doqquz yorğan örtmüşlər, yenə yuxulaya bilməmiş.”

Dözə bilməyib naəlac qalxdım və sonda:

“Ac adam, tox adamın üzünə heyy baxsın, doymaz ki?” -deyə-deyə, yığışıb kazarmaya qa-yıtdıq. Hərbi hissə üzrə növbətçi gənc leytenant Qreşnoy... rota komandiri Bryusovun kabinetin-də ensiz, köhnə dəri divanda balışsız

yatmışdı. Yorğan əvəzi də üstünə sıravi əsgər buşlatı salmışdı. Körpə uşaq kimi səssiz və rahatca nəfəs alırdı. Elə bil ki, heç bir günah işlətməmişdi.

Sakitcə yerlərimizə doluşduq...

Nə qədər elədimsə gözümə yuxu keçmədi. Kazarmada yeməyə də heç nə yox idi... Axırı ki, gecə saat 03:42-də qalxıb həyətə çıxdım. КПП-də telefon aparatı olan yerdə, qırmızı kərpicdən naşılıqla hörülüb suvanmış butkanın içərisindəki növbətçi əsgərlərdə də yeməyə bir şey tapılma-dı. Mədəm sıyrılırdı.

КПП-nin palçıqlı taxta döşəməsində yıxılıb eləcə yerdən uzandım ki... bəlkə narahatçılıqda birtəhər yata bildim. Getdikcə soyuq iliyimə işlə-yir, yuxu məni öldürürdü... Yenə yata bilmədim. Ac qurd sürünün ortasına girər deyiblər.

Nə vaxtsa kazarmaya dönmüşəm... Sonra yenidən КПП-yə qayıdıb gəlmişəm...

Qarnizona QALXIN! -əmri veriləndə, bu sə-si o biri dünyadan, sanki axirətdən eşitdim.

Heç qalxa bilmirdim...

Sübh tezdən, bu müdhiş hərbi əmrə zoorla qalxanda baxdım ki, eləcə budkada taxta döşə-mənin üstündəcə uzanıb yatmışam. Döşəmənin palçığı qurusa da, əksər hissəsi ovalanıb toz ol-muşdu. Amma elə yatmışdım, heç şahlar, rahat pərqu yunundakı yataqlarında, belə şipşirin yata bilməzdilər. Bəlkə də inanmazsınız...

Qalxdım və uşaqların yanına tələsdim.

İşləyib yorulmuş, gözlərinin hovunu azcaca almış əsgərlərim siqaret çəkə-çəkə məni gözlə-yirmişlər. Gəldiyimi görən kimi Mürşüd tapança kimi açıldı. Qara xəbər məni dilxor eləsə də, iş-işdən keçmişdi. Sən demə...

Rota yuxuya keçəndən sonra Bryusov çə-nə Telmanla telefonda danışar və tapşırar ki:

“Babayevə çatdır, təcili briqadanı kazarma-ya qaytarsın. Əmr generalındır!”

Telman portdakı telefon budkasından çıxıb mənim arxamca götürülər. Port adlandırdığımız bu yer, çay kənarında bu taydan o taya keçmək üçün taxta sallardan düzəlmiş yer idi və tərneftli çənə Telman burada odinoçkada işləyirdi.

Sosilalizm quruluşunun humanist hərbi qa-nunlarına rəğmən... sovet zabit və komandir he-yətinin gecə-gündüz əsgər işlətməsi qanunlaca yasaq imiş. Və eşidən kimi də, qorxusundan bu göstərişi məhz, hərbi hissə komandirimiz, ateist Dyakiv veribmiş.

Fəqət, Telman və briqadamın digər müsəl-man əsgərləri axtarıb gecə məni tapmazlar...

Dünən də bu səhər də heç kimdən məktub almamışdım. Məktub üçün çox darıxıram...

Həqiqəti şax üzə deyən Yitkadan, qəlbimin bütöv idealı olan Komsomoldan... və indi xüsusi ehtiram bəslədiyim, təbiətinə görə namuslu olan bənövşəgözlü Katerinadan da məktub gözləyir, onların hər birinə böyük inam bəsləyirəm.

İnam möcüzələrdən doğmur ki?

Onların hər biri, bu inamı özləri qazanıb...

Səhər yeməyindən sonra, bir neçə saat da yuxularını almaq üçün azərbaycanlı əsgərlərimi, mələk kimi starikləri kazarmaya gətirdim.

Sosializmin çox qızğın tərəfdarlarından biri olan gənc Qreşnoy... siyasi işlər üzrə komandir müavini Boyko... rotanın bayraqdarı Bryusov və starşinaya, proporşikə qədər və ən nəhayət ate-ist, podpolkovnik Dyakivin özü... hansı gördüsə, yarımçıq güzəştlə məni o ki var danladı.

Günahım vardı, amma lap zəhləmi aparır-dılar. Hövsələm lap daralmşrdı. Bryusov qara it kimi hürməkdən heç yorulmurdu.

İşləyirsən vay, işləmirsən vay...

Nə qədər axı dır-dır eləmək olar?

Səhər razvodundan sonra, starşina Musli-mov mənə bir qalaq məktub gətirdi. İnanın, üstü rəngbərəng şəkilli, qara yumru möhürlü müxtəlif xətlə yazılmış zərfləri görəndə... düzü gözlərimə parlaq bir işıq gəldi. Sevinc işığı!

Ürəyim guppultularla döyünməyə başladı... Guppultular hökmlə qulağımda da səslənirdi.

Ağcabədili Nazim nə qədər adıma məktub olubsa, yığıb Odessadan hamısını yollamışdı.

Düz 22 konvert idi.

Allaha mədh... və yalvarışlardan sonra, bir-bir, həyəcanla ünvanlarına baxdım.

Heyhat!

Qaynar gənclik illərində, çox həsrət və inti-zarla gözlədiyim 3 məktubdan heç birisi yox idi. Həm Komsomol, həm praqalı Yitka, həm də bə-növşəgözlü Katerina hələ də susurdu...

Məlumatfüruş Vaqif Hüseyinovun bibisi, ağ mirvari sırğalı, yarıpıçıltıyla danışmağı məhrəm-anə sevən, əbədiyyətin və tək Allahın varlığına, Məhəmməd peyğəmbərin meracına inanan mə-sum Məhbubə xaladan da, gizli məktub gəlmə-sini çox arzulayırdım. Amma o yaza bilmir, oğlu tirboyun Arif də ona kömək edə bilmirdi, zira o da həbsdə yatırdı...

Əlövsətin yazdığı sapsarı məktub məni ya-manca sevindirdi: Komsomolumun böyük bacısı Nüşabə, Azərbaycan Dövlət Universitetinin Bio-logiya fakültəsinə qəbul olunub.

Nə yaxşı oldu!

Qardaşım Vaqif də bu il qəbul olunmuşdu, yoxsa kəsilsə biabırçılıq olardı...

Və birdən necə oldusa, düşündüm:

“Komsomolumun böyük bacısını, evdə onu Nuşu,- deyib çağırırdılar,universitetə atasımı dü-zəldib, ya o özü, öz savadıylamı qəbul olunub?

Görəsən onu istəyən Tahirin necə, bu işdə barmağı olmaz? Yox inanmıram! O palaz alver-çisi Vidadi Muradovla, kilim bilicisi sazçalan qa-raçı Hətəmlə qapı-qapı gəbə satır, yumurtadan yun qırxanın birisidir. M.Ə.Sabir demiş:

Görürsənmi bizim Hacı Pirini,

Paylamayır ətin onda birini,

Qonşu sorur barmağının kirini,

Hacı yeyir Xəlilullah eşqinə,

Yatır, şişir, köpür Allah eşqinə."

Bir az da başımı işlətdim: "Özü giribsə, ya atası düzəldibsə mənim üçün baş ucalığıdır...

Və birdən ağlıma gəldi ki, axı Komsomolun doğmaca dayısı Zakir müəllim Təhsil nazirliyin-də işləyir və Hökumət evində oturur.

Zakir Bilalov!

Görünür onun da bu işdə əli var...

Nəyisə, fakt odur ki, artıq qəbul olunub.

Görəsən Bakıda o harada qalır? Novruzun oğlu Tahir onu yenə də sevirmi?"

Kaş bircə bu hərbi xidməti qurtarıb əyri-üy-rü, toz-torpaqlı doğmaca Şərq döngəmizə qayı-daydım...Cəmiyyətimizin o qədər gözü götürmə-yən pərsəngləri var ki...

Bizim ucu bucağı görünməyən vətənimizin Allahı danan ideologiyası olsa belə... qaçan da, qovan da, dara düşən kimi hövlnak Allahı çağı-rır. Bir vətəndə həm xristian, həm də müsəlman məzhəbli sosialist ateizmli insanlar Allahı danıb birgə yaşasalar da, dinc yaşaya bilirdi. Eyni mil-lətdən və bir peygəmbər ümməti olan iki müsəl-man qonşu isə bir-biri ilə yola getmir.

Gələn məktublarda bir neçə başqa yenilik-lər də vardı: Özünü fədakarcasına, yalnız mənə sərf edən Komsomoluma, çəhrayı rəngi olan bir kiçik zərfdəki, zərif məzmunlu məktubum çatıb!

Bibim qızı, məlahətli Gülxar verib.

Tahir Ağayevə, Tblisiyə göndərdiyim digər çəhrayı zərfi də məzlum Tahir bacısına çatdırıb, o da, imkan yaranan kimi əlbəəl çatdırılacaq.

Bərdədə bizə gedəndə atam Tahir Ağayevi çox yaxşı qarşılayıb, hətta qucaqlayıb üzündən öpüb, hətta yola salanda, cibinə pul da qoyub...

Yazıq Tahir! Kaş bu üçtəkər motorelsürən, mənliksiz Zöhrab məsələsi yalan olaydı...

Dayım qara Sabirgilə göndərdiyim, praqalı Yitkayla qoşa fotoşəklimizi də çox bəyəniblər.

Tahir dostum, Yitkayla çəkdirdiyim şəkillər-dən düz 11 ədədini alıb və qızı çox bəyənib...

Tahir bizə, evə gedəndə Musiqi məktəbinə qəbul olunması münasibətilə, bacım Yeganəyə hədiyyə də alıb aparıbmış.

Dostum Tahirə, dayım qara Sabirə, nankor siqləti pis Ələsgərə, atama, Ələvsətə, bibim qızı Gülxara, oynaqgözlü, sirri əlimdə olan əmim nə-vəsi Zeynəbə və ağcabədili Nazıya cavab mək-tubları yazdım.

Sverdlovsklu Nataşaya, Tariyel Muradova, nənəmə və bənövşəgözlü Katerinaya isə qaldı.

Onlara da sabah yazaram, yorğun idim.

Yıxılıb yatdım...

Saat üçdə nahar eləyib, əsgərlərimi cərgə-yə düzərək vodozabora işə apardım...

Qara xəbər ovqatımızı pozdu. Vodozabora çatmağımızla, Kiselyov özünü ölü yetirdi ki, bəs dünən işlədiyiniz ağartma işlərinin hamısı qaşı-nıb tökülməlidir! Sən demə, biz rənglədiyimiz ağ yerlərin hamısı silikatnı boyayla vurulmalıymış...

General gəlib yoxlamalıdır panikasıyla qur-duğumuz bütün ayaqaltıları varvarcasına söküb uçurtmuşdular. Bu da əlçatmaz hərbi cəmiyyə-tin yüksək təbəqəsindəki generaldan sənə veri-lən, yalançı akkord işi ərməğanı!

Əlimə düşsə, o generalın hər iki gözünü nə iynəylə deşərdim!

Əlqərəz, işləməyə ölçüb-biçib, biz bəxtəvər akkordçulara otkos yerləri verdilər.

İşləmək istəmədik.

Biz ağ rənglə ağardanda niyə bir adam or-taya çıxıb bizi başa salmadı?

Ac-susuz, gecə yarıya qədər necə həvəslə akkord işinə başlamışdıq!

İlki bəd gətirdi!

Yığışıb podpolkovnik Dyakivin yanına şika-yətə getdik. Məsələni aydınlaşdırırdıq.

Özləri çirkab içində olanların hamısı, üstü-müzə hücum çəkib bizi aldadırlar, -dedik.

Sonda bir sözlə: Naryad tələb elədik.

Yalan-doğru, o bizim vətən yolundakı fəda-karlığımızı qiymətləndirib УНР-ə zəng vurdu.

Dəstəyi divardakı yerinə asanda qətiyyətlə:

-Sabah akkordun naryadı əlinizdə olacaq! - hərbi hünər və qətiyyətlə dedi.

Bu gün də sadəlövhlüklə qayıdıb adi suvaq işi gördük. Saat 22:00-a qədər akkord işi olma-sa da akkord iştahasıyla işlədik.

Amma söz verdik ki, sabah da naryadı ver-məsələr daha işləməyəcəyik!

Lap dekabr ayının sonuncu günü buraxsa-lar da... Göylərdən ümidimüz qırılsa da...

Saat 05:30-da növbətçi məni oyatdı.

Serjant heyətinin sübhdən qalxmaq məsə-ləsi lap zəhləmi aparırdı. Gecə Odessadakı Val-yanın qonşusundakı “o dəymiş” qız yuxuma gir-mişdi. İlahi! O necə qaynayırdı!..

Politinformasiyadan sonra işə getdik.

Naryadı yenə vermədilər!

Lap ruhdan düşdük...

Sovet zabiti, podpolkovnik rütbəli hərbi his-sə komandiri də ağ yalan danışır, siravi əsgərlər də, sütül cavan zabitlər də... Kimə inanasan?

Belə Müdafiə nazirliyi olar?

Budu Stalinin yaratdığı möhtəşəm, hege-mon Sovet Ordusu?

Qırmızılar!

Ümid, güman yenə sabaha qaldı.

Müsəlmançılığımıza salıb dünənki vədi tez də pozduq. Biz cox unutqan xalqıq...

Ayaqaltı düzəltdirdim... Dörd əsgər rastvor daşıyıb kəndirlə üzüyuxarı çəkir... beş əsgər də künc düzəltməklə gün keçirirdi.

Özüm isə işləməsəm də yaman darıxırdım. Sərgərdan veyillənir, molodoylara baxdıqca, on-lara yazığım gəlirdi.

Nəhəng çayın kənarıyla, kəndin ayağından uzun vida fiti verib, şütüyən sərnişin qatarı taq-qıltıyla uzaq nöqtədə yox olunca, həsrətlə arxa-sıyla baxdım. Yaman duyğulanmışdım.

Dünyada hərbi xidməti bitirməkdən də üzü-cü nə ola bilərdi, düşünürdüm.

Kaş o qatara bilet alaydım!

Həm də pərişan idim.

Hərbi tikintidə akkord naryadı bağlamaq nə müşkül məsələdir ki? Xarici şirkətlə işləyirik?

Yenə satirik Sabirin iki misrasını ürəyimdə zümzümə etməyə başladım:

Şirkətlə məgər boyləcə müşkül olur asan?

Şirkətdədir icrayi-əməl, nəfi-firavan!

Portda, çay kənarındaca yerdən oturub çə-nə Telmanla çənə vururduq və hətta, xülyalarda dolaşa-dolaşa, xəyallara köklənə-köklənə, qəri-bə bir yol da düşünüb tapdıq:

“Rüşvət pul verək və yalandan xəstə adıy-la hospitala girək. Düz ilk buraxılan əsgər günü-nəcən də hospitalda veyillənib, özümüzə qulluq elətdirək və hospitaldan çıxanda da, adımıza bir ağır xəstəliklə bağlı saxta bülleteinlə: “İşdən 15 günlük ОСВОБОЖДЕНИЯ” aldıraq. Və onda məc-bur qalıb bizi tərxis edəcəklər. Sovet ordusunda hər şey pulla həll olunmur məgər?

Günü elə bu gecə pianizm məharətli zabit, azərbaycanlı kapitan Altay həkimlə danışaq, gö-rək necə olacaq? Qoy Bryusov da Dyakiv də öz dəmində olsun, baxaq kim güclüdür?

Sovet hərbi qanunları, ya rus əskinasları?"

Odessadan məktub aldım. Yenə ağcabədi-li Nazıdan idi və ortası hiss olunacaq dərəcədə qalın olduğundan ürəyim titrədi: Zərfin içərisin-dəki məktub bəlkə Praqadan gəlib? Ya Komso-moldan, bəlkə bənövşə gözlüdən?

Cəld konverti elə ortadanca cırdım.

Bərdədən idi, Əlövsətdən.

Düzü bir qədər təəssüf elədim.

Yitka, Komsomol, bənövşəgözlü Katerina, ağ mirvari sırğalı Məhbubə xala, Veriçka, Sveta, Niniçka, hamısı susur...

Dembl prikazımın çıxmasına 19 gün qalır.

Çənə Telmanla onun "hamilə qızıgilə" get-dik.Saat 12:00-dan düz 14:00-a kimi də onlarda oturduq. Arada da kartof, soğan çörəklə yevlaxlı patrul Hüsənin məzuniyyətdən gətirdiyi konyak-dan içdik. Evlərində şokolad yox idi...

Amma içən kimi burnufırtıqlı, sısqa Telman mənə nəsihət verir... həyata nalayiq bir ehtirasla baxırdı. Rəzil gədə!

Konyak içimi qızdıran kimi, kefim duruldu...

Saat 17:00-a kimi də çənə Telmanla yaxın-lıqdakı yamacda uzanıb yatdıq.Bu gün hava əla idi. Aldığım məktublardan sonra... nədənsə göz-lərimdə hansısa aramsız bir intizar sezilirdi...

Axşam əsgərlərimi yenə də ночной сменə saxladım. Kazarmaya getsəydik, kartof soymaq məsələsi olacaqdı. Odur ki, bu addımı atdım.

300 m^2 yerə, ruslar demiş ЛЕСА düzəltdik...

Bu gün 22 sentyabr 1972-ci il idi.

Azərbaycan fəsillərinə görə hesablayanda yayda yatıb, payızda ayılmışdıq...

Biz bu gün, gecə smeni işləyəndə Qreşnoy da bizimlə vodozaborda qalmışdı. Onunla birlik-də köməkləşib iş yerinə işıq çəkdirmiş kazarma-mızdakı kaptyorkadan zəruri instrumentləri gə-tizdirmişdik. Necə deyərlər: Öz örüşündə Mura-dalı da bir bəydir!

УЖИНi də vodozabora göndərmişdilər.

Burada da yaxşı deyiblər: Öz çörəyini özgə süfrəsində yemə!

İş qaydaya düşəndə Qreşnoyun gözündən yayınaraq, heç saat 23:00 olmamış iki buşlatla gizlincə, zülmət qaranlıqda saxlanmış traktorun kabinasına girdim.

Yuxum tökülürdü.

Hava gündüz isti olsa da, indi çoox soyuq idi. Yer darısqal və çəmsiz olduğundan ayaqla-rımı qarnıma yığıb birtəhər özümə yer elədim.

Gecə 01:05-də üzüsızanaqlı, şiştəpəli Va-hid Həsənov məni oyatdı ki, Qreşnoy səni axta-rır. Yaman üşümüşdüm. Qalxıb əsnəyə-əsnəyə, deyinə-deyinə getdim.

Alik Oqanesyan yatan budkada idi.

Məni görəndə, mülayimliklə, tələsmədən:

-Yoldaş serjant, iki dəfə gəlmişəm, iş yerin-də yox idin, -zarafatla, gözlərini bərəldərək dedi.

Filosofanə bir görkəm alıb:

-Məntiqə zidd olsa belə, həyatın nizamına inanmasan da, mənə inan yoldaş komandir!

Öz mövqeyində möhkəmcə dayanan qətiy-yətli gənc leytenant Qreşnoyun, yuxusuzluqdan gözləri balacalanmış və qızarmışdı. Yazıq, ayaq üstündə lap zorla dayanırdı. Səksəkəli qalsa da, gecə qara cücə qara, işləri mənə tapşırıb getdi.

Şamxor ermənisi Alik Oqanesyanın budka-da ОКЕАН-203 markalı, özünün radiosu vardı.

Təptəzəydi.

Hindistanı tutmuşdu. Hind musiqisi oxunan kimi ev üçün bərk darıxırdım. Nəsə bu hind film-ləri və musiqisi Azərbaycan kimi, Ukraynada da göylə gedirdi. Bunun

nədən qaynaqlandığını isə özüm üçün ayırd edə bilmirdim. Axı ukraynalıla-rın geniş qollu, çoxsimli bandurada çaldıqları öz mahnıları da məlahətli səslənirdi. Və bir də, mə-nim üçün çox maraqlıydı: Yarım milyarddan çox əhalisi olan yaxın 30-35 ilə milyardı ötəcək, bar-gahlarla dolu Hindistan kimi bööyük bir dövlətin konstitusiyasında ana dili,hind diliylə yanaşı qa-nunla həm də ingilis dilidir. Görəsən niyə bu qə-dər əhalisi olan nəhəng dövlət, müstəmləkəçili-yə qarşı belə acizanə susur?

Hind musiqisi məni lap kövrəltdi...

Bizlərdə əl ermənisi kimi adlanan, Oqanes-yan əclaf əsgərliyə gələn gündən kef çəkir. Pul-pənə sarıdan heç korluq çəkməzdi.

Odessadan gələndən məni özüylə heç ya-na aparmayıb və heç üstünə də gəlmir.

Getdikcə də sifəti qıpqırmızı qızarırdı. Do-daqları ətli və qadın dodaqlarından da qırmızıy-dı, qıpqırmızı!

Budkada yatmaq sıravi əsgərlər üçün türk-lər demiş yasaq idi və tez-tez zabitlər gəlib bu-rada qızınırdı. Odur ki, qalxıb yenə qaranlıqdakı traktorun kabinasına getdim. Bərk soyuq və dar olduğundan bu dəfə kabinada nə qədər elədim yata bilmədim. Ayaqlarım sızlayır, az qala ayaq barmaqlarım dillənirdi!

Gecə saat 04:07-də dözə bilməyib qalxdım və qayıdıb öz əsgərlərimin yanına getdim.

Bütün ночной сменdə işləyən briqadaların hamısının əsgərləri, ГЫР qaynadılan qazanların ətrafında kürək-

kürəyə verib, çul kimi yatmışdı-lar. Oyaq vaxtı bu əsgərlər zahirən sərt görün-sələr də, qəlbləri coşqun mərhəmətlə doluydu.

Kaş bir rəssam, onları bu vəziyyətdə görüb kətan tabloya çəkəydi!

Bu əsər dünyanın ən bahalı muzeyləri olan Luvrun, ya Ermitajın bəzəyi olardı!

Onlar, qır tiyanının yanında bir-birinə söy-kənib torpağın üstündəcə yatmışdılar.

Ocağın istisində bu məsum uşaqlar yumur-ta sarısı rəngində boyanıb, necə baş-başa ver-mişdilər. Ey ulu yaradan! Bu tifillər...

O qədər yorğun, o qədər yuxusuz idilər ki, sifətlərindən bütün əzab və iztirabları oxunurdu.

Dəhşətə gəldim!

Vətən! Vətən! -deyirik, bəs vətən bu zavallı balalarını axı niyə bu gündə qoyur, niyə miskin kökə salır? Nədi günahları?

Görəsən, düşmən kapitalist ölkələri də be-lədir? Axı, Vətən müdafiəsi 18-20 yaşlı yeniyet-mə işi deyil, əgər, Allah göstərməsin bir mühari-bə-filan başlasa, döyüşmək peşəkarların işidir.

Dzeqan stansiyasından, Tərneftdən, Laçı-nın, Kəlbəcərin sərt ucqar qayalıqlarından gələn burnufırtıqlı uşaqlar NATO-ya nə eləyəsidi ki?

Cırdaxanlı taytax Nadir Allahverdiyevin, er-mənistanlı molodoy Nersesyanın, rus Butsyakın briqadaları da ölü kimi qır tiyanının istisi, işığı və tüstüsündə, həm də üzü isinsə dəə, təki məzar kimi soyuq olan torpağın üstündəcə, necə şirin-şirin yatırdılar! Atalı-analı yetimlər...

Kənardan diqqətlə baxan hansısa bir bəs-təkar, rəssam, ya fotoqraf, ya da ki bu uşaqların ata-anaları gözləriylə bu mənzərəni görsə... gö-rəsən nə edərdilər? Erkək keçi kimi təkələnərdi-lər? Yoxsa, sinələrini cırıb, baş-gözlərinə döyə-döyə vay-şivən qoparardılar? Yoxx, nələt şeyta-na valideyinləri qəbahətləndirmək də əbəsdir.

30 nəfərdən çox əsgər, ayaqlarını qarnına yığaraq... torpağın üstündə büzüşüb, necə şirin-şirin baş-başa yatışırdılar!

Bu qədər əsgərin bir ocağın kənarında bu vəziyyətdə uyuduğunu görən analar nə edərdi?

Bax belə! Ani, ilahi məqamlar yaradır, ilahi əsərləri! Qərbin Motsartına bənzətdiyim Cahan-gir Cahangirov, Rafaeldən, Leonardo Do Vinçi-dən geri qalmayan Tahir Salahov, hardasınız?

Hardasan, ey Xanımzər-Mətləb? Hardasan eyyy Zaporojyedə məskunlaşan Ədalət-Nemət! Hardadı o baş rəssam, 72 minlik müəllim-tələbə kontingentli... Konya Səlcuq universitetinin Özəl sənətlər kafedrasının professoru olan xalanızın oğlu, Orxan Cəbrayıloğlu!

Həyəcandan bərk sarsılmışdım...

Dan yeri söküləndə, tiyan yuxugətirici səs-lə paqqıldayır və deyəsən artıq qaynayırdı.

Mən də, erkək ilxının içinə girib, özümə yer eləmək istədim.

Ocağın istisinə yaxın bir yer axtarır, amma qorxurdum ki, pıqqapıqla qaynayan tiyandan qır sıçrayıb üz-gözümü yandırar.

Təpərsiz Mürşüdün şelləndiyi yekə cüssəsi arxasında özümə mövqe tutub, uşaqların arası-na zorla pərçimləndim. Yer əsgərlərin altında ol-duğundan nəm qalsa da... nə vecimə, iki buşla-tım vardı... Sovet hərbi həqiqətinin bir əsgər ge-cəsini də belə yaşayırdıq...

Ağlaşma qurmaq da əbəsdir, tarixin təkərin biz döndərəsi deyildik ki?

Hava ağaranda xəbərimiz olmayıb...

Şamxor ermənisi Oqanesyan sübh açılan-da bizi elə bu vəziyyətdə görər. Yazıq silkələyib hamını bircə-bircə oyatdı. Oyansaq da, qırışığı-mız heç açılmırdı. Ayağa zorla qalxanda da be-limiz quruduğundan ikiqat qalmışdıq. Üç cüt bir tək, hamını qaldırdıq.

Dəstəyə düzülüb titrəyə-titrəyə, əsnəşə-əs-nəşə, zabit heyətinə təkfir yağdıra-yağdıra qırıq qoşun kimi kazarmaya getdik...

Uşaqlar yemək yeməkdən çox yatmağı ar-zulayırdılar. Vodozabordan gələn kimi də dərhal hamı özünü kazarmaya verib, çul kimi yatmışdı.

Yüz birə qoşulmaz, bir yüzə qoşular.

Titrəyirdim, mən də yeməkxana əvəzinə öz yerimə girdim. Necə deyərlər: Yeməkdən yuxu-da bir gözəl görmək daha yaxşıdır, kaş ki, bircə oyanmaq olmayaydı...

Oyananda, Lenkomnatada oturub bənövşə gözlüyə nostalji bir məktub hazırladım.

Nahardan sonra işə getdik.

Növbəti əsgər günumüz ağır keçdi...

Dan yeri söküləndə, günəşin qızartdaq şə-fəqləri saçaraq, günün isti keçəcəyini xəbər ve-rirdi. Rotaya hələ: QALXIN! -əmri verilməmişdi.

Azərbaycan hesabıyla yayda yatıb payızda durmuşduq. Allah qoysa elə bu payız da, hərbi xidmətlə əbədi vidalaşacağıq.

Kəndin içərisindən çıxıb, çaykənarı meşə-liyin yanından keçəndə, uşaqlar xahiş elədilər ki bir qədər meşədə dincələk.

Saat 08:23-ə kimi, seyrək ormanda uzanıb söhbət elədik.

Siqaret çəkənlər bir-birinə astaf ötürürdü.

Vodozabora gəldik. Ayaqaltısını hazırladı-ğımız 300 m^2 yerində, qırmızı kərpiclə hörülmüş hissəsindəki görünən deşikləri sementli palçıqla tutmalıydıq. Rahat işləmək üçün əlcəkləri çıxa-rıb, özüm də canı-dildən işləməyə başladım.

Yalın əllə sementli palçığı, o qədər qırmızı kərpiclə hörülmüş hörgünün arasındakı deşiklə-rə sürtdüm ki, axşamtərəfi barmaqlarımın dərisi getmişdi. Hətta iki barmağımın dərisi soyulmuş, qanla dolmuşdu. Sonra da bir neçə qan damcısı köynəyimin üstümə, dizlərimə töküldü.

Görəsən, barmaqlarımı anam, nənəm gör-sə neyləyər? Və ya Komsomol, ya çex Yitka, ya ağ mirvari sırğalı Məhbubə xala, ya da ki, həs-sas bənövşəgözlü Katerina görsə bəs nə edər-di? Epilepsiyalı adamlar kimi, ürəkləri keçməz-di? Nəsə müşkül iş olardı...

Məni qayğı götürmüşdü.

Budkaya gəlib əsəbi bir gülüş və ərklə Alik Oqanesyandan ОКЕАН-203 radiosunu istədim:

-Radionu ver aparım kazarmaya, bu gecə Monte Karlodan musiqi dinləyim, sabah da hök-mən qaytararam, -ucadan söylədim.

O, əllərini sinəsində çarpazlayaraq, balaça bir uşaq kimi barmağını dişləyib:

-Bu axşam futbol var, özüm qulaq asacam. Sabah apararsan, sərf edir? -şıltaq uşaqlar kimi bir az da əsəbi tərzdə dedi.

Və sifətinə yarımənasız istehza yayıldı.

Düzü heç gözləməzdim. Çox pis tutuldum. Sanki məni qara basırdı. Bu ki, lap quduz oğlan imiş, iki ildə necə bilməmişəm?

Mən olsaydım...

Yuvacanlı azərbaycanlı əsgərlərim canıya-nanlıq və akkord ehtirasıyla, yorulmadan işləyir-dilər. Ancaq heç düşünmürdülər ki, ordudan bir-iki həftə qabaq tərxis olunmaqla nə qazanırlar?

Televizorda Kasius Kleyin boksuna baxır-dım. Doğrudan da çox maraqlıydı. O rinqdə da-yanmadan rəqs edirdi. Cəmi altı raund göstərdi-lər. Əclaflar, ardını nədənsə vermədilər.

Əvəzində isə, xokkey oyunu göstərdilər:

CCCP-KANADA.

Əsl müharibə gedirdi.

Peşəkar və kapitalist kanadalıları məhv et-mək lazımıydı. Yarış Moskvada keçirilirdi.

Oyun başlayan kimi, bizim döngədəkilərin sözü olmasın: Mandraja düşdük və dalbadal 3 şayba buraxdıq: 0:3.

Sonra hərəyə birini vurduq: 1:4.

Vətənimiz CCCP artıq dönüş yaratmışdı və qırğın da bundan sonra başladı.

Bizimkilər də dalbadal 3 şayba vurdular və hesab bərabərləşdi: 4:4. Sonra birini də vurduq və ilk dəfə olaraq hesabda irəli çıxdıq: 5:4.

Axır ki, şanlı qələbəni çaldıq!

Qoy kapitalistlər görsünlər ki, sosializm də elə sosializmdi! Hələ kommunizmə çatsaq nələr baş verəcək!

Kommunist ateisti olsaq da, lazım gələndə köməyimizə, uçduqlarını görməsək də, səma qüvvələrini yerə endirə bilərdik. Necə ki... endirib hesabı: 0:3-dən 5:4-ə çatdırdıq.

V.İ.Leninlə Stalinin yaratdığı nəhəng Sovet dövləti yenilməzdir! Bu da sizə xokkey dərsi!

Peşəkarlarıma bax!

Gördünüzmü, sizi sarımsaq əzən kimi, hə-vəngdəstədə necə əzdik?

Di gedin, indi də amerikalıları göndərin...

Sveta ilə bağladığımız əhdi-peymana görə, bu gün ona məktub yazmalıydım. Amma... o, öz əhdinə vəfasız çıxmışdı. Çünki, sentyabr ayının ilk günündə o yazmalıydı... ay çıxır, hələ də on-dan bir xəbər-ətər yoxdu. O üzr istəməli, özünü günahlandırmalı: Yaa vəziyyətinin ağır, hətta is-teriyalı olduğunu bildirməli, ya daa buna bənzər hansısa köklü, sanballı bir alibi...

Düzdü, bütün bu şahidsiz-filansız bəhanə-lərin də əleyhinəyəm, zira, qadınların puçur-pu-çur axıtdığı göz yaşlarına və özündəngetmələ-rinə onsuz da inanmırdım...

Bu elmi mühakimə, nə də qiyam deyildi.

Qeyzlənib mən də yazmadım!

Amma hiss edirəm ki... ürəyi çox yuxayam, yalanı yoxdu, tez sıyılıram. Bəlkə də günün so-nunda, oturub ona nəsə yazdım.

Bu gün Azərbaycanda payız girdi. Bu fəsil mənim həyatımda əsaslı dönüş yaradacaq.

Vətənə olan borcumu, Allah qoysa bu fəsil-də verib qurtaracaq, axır ki, Şərq küçəmizə alnı açıq, üzü ağ və şərəflə dönəcəyəm.

Ürəyim şirin ümidlər içərisində üzürdü.

Şənbə günü olsa da, rota komandirinin özü podyom vaxtı kazarmaya gəldiyindən, düz saat 05:30-da növbətçi məni ehtiramla oyatdı.

Təkamül nəzəriyyəsinin qızğın bir tərəfdarı olan, pul üçün ömrü boyu xiffət çəkən və puldan incik rota komandiri... baş leytenant Bryusovun şanına-şövkətinə əlahiddə hörmət əlaməti ola-raq... Araz aşığından, Kür topuğundan, sıçrayıb cəld geyinməyə başladım.

Suşulkadan isti sapoqlarımı və partyanka-larımı götürüb geyindim. Dərhal, ayaqlarım isin-di... Sapoqlar isti boruların üstündə qaldığından, quruyub qartımışdı. Qupquru uzunboğaz əsgər çəkmələrim sanki indicə dil açıb, maz tələb edə-cək, qulluq istəyəcəkdi...

Siyasi məşğələdən sonra istirahət günü ol-sa da bizi cərgəyə düzüb, yenə işə apardılar.

Plan vermək lazımdı vətənə.

Vətəndaş hələ sonrakı söhbətdi.

Nə qanun, nə haqq, nə demokratiya!

Bütün bunlar toppuztikanı kolluğu kimi, da-ha zibilliklərdə çiçək açacaq.

Sübh tezdən kəndin zığ-palçığını tapdaya-tapdaya Vodozabora ki getmədin, nə ləzzəti?

Kazarmadakı çamadanlarımı çənə Telman yalançı özü olsun, "bakirəliyini tapdaladığı" Kla-ranın evinə aparmışdı, sözsüz ki, bu evi, o özü-nünkü hesab edirdi.

Qarımış qızın qırx bir yaşı vardı.

Sarışın saçlarına dərddən dən düşmüşdü. Çənə Telmana görə bu kəndin heç bir cavanını bəyənmədiyindən Klara evdə qız qalmışdı.

Düzü qıza uzaqdan baxanda bir gözəşirin-lik hiss edilirdi, di gəl, yaxından diqqətlə izləyən-də bədbəxt qupquru qurumuş əsgər sapoqlarım kimi qartıyıb, dartaşa qalmışdı.

Voyentorqdan yarım metr ağ almışdım, o da bu qartımış qız gildəki çamadanımdaydı.

Briqadanın işlərini səhmana salıb, sağsa-ğanaoxşar Telmanla Klaragilə getdik.

Bərdədəki evimizə sonuncu əsgər bağla-ması göndərmək fikrindəydim. Qorxurdum foto-şəkilləri, gündəliyi oğurlayarlar. Evə göndərsəm daha etibarlı olardı.

Qırmızı ağacdan düzəldilmiş, işlənməkdən sürtülüb bir neçə yerdən dərisi yırtılmış, ayaqla-rı tərpənəndə laxlayan iri və yöndəmsiz divanda tərəşşüdlə oturmuşdum.

Nahara kimi bağlamaya nə yığacaqdımsa, onları yerbəyer elədim.

Vodozaborda balıq şorbası yeyəndən son-ra qayıdıb, bağlamanı hazırlamağa başladım.

Bütün fotolentləri, slovyan mənşəli praqalı çex Yitkanın mənə bağışladığı hədiyyələri: Göy üzlü tərcümə kitabını, fotoşəkilləri, alışqanı, pul qoymaq üçün кошелоку səliqəylə bükdüm.

Ağcəbədili Nazı və Tahir Ağayevlə çəkdir-diyim 4 ədəd böyük şəkil, 7 ədəd çərçivəyə sa-lınmış fotoşəkil, 78 ədəd Yitkanın şəkli, 97 ədəd öz fotoşəklim, 3 ədəd ümumi dəftər, 75 ədəd al-dığım məktublar, 1 ədəd bəzəkli boş fotoalbom, 1 ədəd dolmuş gündəlik və bir də ki Komsomola ithaf elədiyim möhür-ştamp...

Əşyaları, əvvəlcə qəzetlərə büküb, qarımış Klara və ağlı topuğunda çənə Telmanla yaxşıca sıxaraq, üzərinə ağ parça tikdik. Bağlamanı tam hazır eləyəndən sonra üzərinə Bərdə ünvanımı-zı səliqəylə yazdım. Hazır pasılkanı, birinci gün portdakı poçt məntəqəsindən göndərəcəyəm.

Axşamtərəfi hərlənib iş yerinə gəldim.

Hər şey öz qaydasında idi... Birinci gün ak-kordun naryadını da almalıydıq. Amma ki, düzü bir qədər həvəsdən düşmüşdük.

İşlər qaydasında getsə də, bu gün uşaqlar çox az işləmişdi. Amma, kimə nə deyəydim?

Bircə naryadlarımızı versəydilər, birdəfəlik qollarımızı çırmalayıb işə başlayardıq...

Şam yeməyini yeyən kimi kazarmaya gəlib yerimə girdim.Yorğunluqdan çox, səhmansızlıq-dan, nigarançılıqdan, zabitlərin saymamazlığın-dan türklər demiş: Lap bıkmışdım!

Çarpayımda uzanıb, yenə də qurğuşun ki-mi xəyallar aləmimin dibinə düşmüşdüm...

Ötən ayın bu günkü gecəsinin həsrətiyləcə hey daşınıb-düşünürdüm.

Necə oldusa, hövlnak qalxıb dolabçamdan gündəliyi götürərək lenkomnataya qaçdım.

Gündəliyi açıb, o gecə baş verənləri incə-liklə tərənnüm eləmək istəyirdim.

Peromun ucundan isə bu sözlər qopub tö-küldü: “Kövrəlir... Allahın mərhəmətindən kənar-da qalmış... gözlərim dolurdu...”

On ikinci kitabın sonu

Mündəricat

1. Sərhəddən qayıdan ilk əsgər məktubu və Corc Bestə bənzəyən bərdəli Kazımla yaşanan əcəl küləyi..... 003

2. Sürətlə gedən yük maşınının kuzasından tərsinəhoppananoğlan.....061

3.Ağır seyid nəslindən olan Seyid Abdullanın qızılfırlatma əməliyyatı və qardaşı Fəttahın əxlaqsızlıq yuvası necə səcdəgah, -"pir"oldu...076

4. Ələsgər Həsənov ömrü...kişiliyi,dar ayaqda etibarı və hündür təpədən vurduğu lastoşka...095

5.Katerinanın yanaqlarından dığırlanan göz yaşları...Əlvida,Odessa!Xosunun tros əməliyyatı 135

6.Xoş gördük Pervomayski! Praqaya ünvanlanan üçüncü məktub və Həkim qadının isti ovucu.....165

7.ЧССР yoxsa СССР? Hərbi hissə komandirin təşəkkürü.....185

8. Akkord götürdük naryad ala bilmirdik. Qır qazanı ətrafında sovet hərbi həqiqəti..211

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Tofiq Xəzər

"Bərdədən gürğnən dünya..."

(Azərbaycan dilində)

On altı cilddə. İkinci hissə. XII cild

Redaktor: Nərminə Balaxanlı

Korrektor: Ətrabə Babayeva

Dizayner: Məsləhət Bərdəli

Kompyüter yığımı: Xəyalə Cəfərli

Yığılmağa verilib: 14.06.2011

Çapa imzalanıb: 22.09.2011

Kağız formatı: 84x108 1/32

Həcmi: 351 səh. 21,9 ç.v.

Tiraj: 300, Sifariş 76

Qiyməti 10 manat